

Zülmətdən
İŞIĞA...

Yanar qəlb...

R.Bahar Sonam



*Tibb işçilərinin vəzifə borcunu yerinə yetirməsi, təkcə xəstəliyin müalicəsi və profilaktikasından ibarət deyil, eyni zamanda peşə fəaliyyəti ilə əlaqədardır. Zərifə xanım Əliyeva, tibb işçilərinin ətrafındakıların tərbiyəsində mühüm rol oynadığını, şəxsiyyət, əxlaq etalonu olduğunu xüsusi vurğulamışdı. Haqlı olaraq belə hesab etmişdi ki, həkimin həyati mövqeyi onun xəstəyə münasibətini müəyyənləşdirəcək başlıca amildir. Yalnız o şəxs həkimdir ki, xəstənin ağrılarını məhz özünün ağrıları hesab edir.*

## R.Bahar Sonam

# Yanar qəlb...





***Gənc həkim Zərifə Əziz qızı Əliyeva***
***və professor Sona xanım***
***Axundova-Bağırbəyova***
***xəstələri əməliyyata hazırlayarkən***







## Zülmətdən İŞIĞA...

**Milli Oftalmologiya**

**Zərifə  Əziz qızı Əliyevanın unudulmaz xatirəsinə**

ARBS

R.BAHAR SONAM

# YANAR QƏLB...

"Elm və təhsil"
Bakı – 2016



Azərbaycan Respublikasının Prezidenti yanında
Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurası
TARİXİ ARAŞDIRMALAR

**Redaktor:** **Nadir Məmmədli**
*filologiya üzrə fəlsəfə doktoru, professor*

R.Bahar Sonamın Azərbaycan Milli Oftalmologiyasının görkəmli alimi, akademik Zərifə xanım Əziz qızı Əliyevanın əziz xatirəsinə həsr etdiyi **"Yanar qəlb"** kitabı sənədli materiallar əsasında yazılmış aftobioqrafik əsərdir. R.Bahar Sonam bu kitabı bir alim Ananın – tibb sahəsində böyük xidmətləri olmuş Zərifə xanım Əliyevanın müqəddəs ruhuna həsr etmiş və sonsuz övlad məhəbbəti ilə qələmə almışdır.

Hərbi yazıçı-jurnalistin 2007-ci ildən üzərində çalışdığı **"Yanar qəlb"** akademik Zərifə Əziz qızı Əliyeva haqqında ilk bədii-sənədli kitabdır.

**"Yanar qəlb"**in poetik lirikasında bəşəri, sonsuz bir etiraf, həsrət vardır. Və bu ağır, göynək hisslər hər bir insanın məhrəm duyğularına toxunacaqdır.

# İşıq-zülmət...

## Dünyanın Xeyir və Şər addımı...

Ananın canından qopub dünyaya göz açan insan, ömür boyu həyat mübarizəsi ilə yol gedir. Zülmətdən İşığa doğru. İctimai-siyasi və fiziki... Hər iki mənada arzularının işıqına doğru can atır. Və hər iki mənada da **Bir Ana vardı...** həm ictimai-siyasi, həm də fiziki məqsədli mübarizələri ilə, saysız insanların gözlərində əbədi çıraq yandıran.

**BƏLKƏ...**

*...Güllərin dərdi,*
*kədəri,*
*astaca deyəcəkləri*
*var sənə*
*Ana?!*
*Arxanda,*
*solunda,*
*şam ağacları susub*
*lal olub ki...*
*onların fiqanların*
*dinləyəsən sən.*
*Heç...*
*rüzgarlar da*
*səsin çıxarmır.*
*Hə, Anacan,*
*dərdi ilə*
*ayaqlarına döşənmiş,*
*o Qızılgülləri*
*bir dinlərmisən?..*
*Dərdlərinə məlhəmi*
*arayıb,*
*sən taparmısan?*
*Sən də susub durmusan,*
*o fiqanların*
*sənə pənah gözlərinin*
*önündə.*
*Nə istərlər səndən*
*Anacan?*
*Heykəlin qarşına,*
*məzarın daşına*
*baş əyən bütün güllər,*
*Qızılgüllər*
*səndən*
*İşıq istərlər,*
*Anacan.*
***Bircə damlan yetər!***



**Bir Ana vardı...**
*Cavidin elində...*
*Gözlərini açmışdı dünyaya*
*Naxçıvanın bir yaz günündə.*
*Buğda dənəsi qədər,*
*hər boy atdıqca o,*
*yavaş-yavaş*
*bir qəlb böyüdürdü*
*köksündə.*
*Yanqısı –*
*sirli-sehirli.*
*Arzular*
*tək onundu...*
*elə bil.*
*Azərbaycan adlı,*
*elə o boyda*
*bənzərsiz bir ataş çalxalanırdı*
*o arzuların mayasında,*
*ruhunda,*
*həyat eşqində,*
*bu nəfəsdə.*
*Onun yanar qəlbində,*
*o qədər güclü işıq vardı ki...*
*Azərbaycandan daşaraq,*
*dünyanın*
*zülmətini də*
*əritmək üçün*
*böyüyürdü.*
*Əziz atanın*
*qoynunda bəslənirdi,*
*o Yanar Qəlb.*
*Və zaman keçdi,*
*böyüdü,*
*o yanar qəlb –*
zərif bir çiçək...
*ismi, Zərifə.*
*...Dünyanın*
*ikinci savaşı idi.*





*Hərb...*
*Hamı cəbhəyə səfərbər oldu.*
*Hər şey*
*cəbhə üçün,*
*qələbə uğruna.*
*Qanlı döyüşlər...*
*Və...*
*İnsan həyatı cəbhəyə -*
*odlu səngərlərə,*
*meydanlara*
*hey sovrulduqca,*
*tarix elə ağır yazılırdı ki...*
*Aclıq,*
*səfalət,*
*ölüm*
*kabus kimi*
*ağzına almışdı,*
*düzü-dünyanı.*
*Hər an ölüm-itim...*
*qara xəbərlər.*
*Hospitallar,*
*yaralı döyüşçülərin*
*tək ümidgahı.*
*Və...*
*Çox gənc Zərifə,*
*yandırıb qəlbini*
*adlamış cəbhənin dərdi içinə.*
*Xeyirxah dostları,*
*insanları ilə,*
*ağır,*
*yüngül yaralı döyüşçülərə*
*yardım etməyə çalışmış.*
*Qəlbini o qədər*
*dərin yandırmış ki, o,*
*sanki, bütün Azərbaycana*
*ümid – şəfqət paylamış:*
***... "Salam!***
***Mən salamatam.***
***Yüngülcə yara almışam.***

***Tez sağalacam.***
***Cəbhəyə dönərək,***
***sonra evə qayıdacam mən***
***sağ-salim.***
***Əgər...***
***mümkün olarsa?!***
***Yox, qayıdacağam!***
***Qayıdacağam."***
*...Bu kəlmələr...*
*ümid,*
*işıqlar dolu məktublar...*
*gənc Zərifənin yazdıqları idi.*
*Yaralı,*
*həm də,*
*kor döyüşçülərin ürəyindən*
*dilindən.*
*Hətta,*
*həyatda olmayanın da.*
*Ümid verirdi*
*əzizlərinə,*
*gözləri yolda qalanlarının*
*yaşamağı üçün.*
*Və...*
*Zaman,*
*onun taleyinə,*
*daha sərt səhifələrini yazırdı.*
*Bir zaman*
*kiçik qız ikən*
*rəsmini çəkdiyi,*
*bir gənc insan*
*yenidən çıxmış qarşına.*
*Bu alın yazısı,*
*onun hər tərəfində,*
*qara tikanlar yaratmış.*
*Sevgisinin başını*
*kölgələr almış.*
*Amma,*
*Tanrı, onu sevdiyindən*
*heç ayırmamış.*





*Çünki, qəlbinin sevgisi*
*Heydər adlı,*
*bir memar olmuş.*
*O memar ki,*
*zamanı olunca,*
*Azərbaycanını*
*"zəncirlər..."dən qoparıb,*
*çağdaşı üstündə,*
*yenidən yaradacaqmış.*
*Millətini,*
*məmləkətini,*
*sovet imperiyasının*
*qara zindanlarında*
*həbsə alınıb qapanmış,*
*3 rəngli*
*Milli Dövlət Bayrağını*
*yüksəklərə qaldıracaqmış.*
*Və*
*Milli Dövlətini,*
*yenidən yaradacaqmış.*
*...Əlbəttə, gənc Zərifənin taleyi,*
*gənc insan Heydər,*
*Soy adı*
*Əliyev olmuş.*
*...Sovet quruluşu...*
*Azərbaycan DTKsı,*
*yasaq qoymuş,*
*sevgisinə sevdiyinin.*
*Siyasi dartışmalar,*
*dumanlı tarixin*
*qara niyyətləri...*
çeşidli məkrli
*yol-izlər cizmiş.*
*Əziz atanın kölgəsini*
*haqsız qılınclamış.*
*Bu tarix yazılarkən,*
*gənc Heydərə*
*zərbə olsa da,*
*ağlı,*

*gücü tükənməmiş,*
*dayanmış,*
*lazım olan zamana qədər.*
*Və sovetin baş cəlladı*
*Stalin*
*dünyadan getdiyi zaman,*
*Micəfər Bağırov*
*həbsə alındığı zamandan sonra,*
*gənc Zərifə,*
*sevdiyi insana –*
*Heydərinə qovuşmuş –*
*evlənmiş*
*Zərifə Heydər ilə.*
*Və sonra,*
*daha mübariz bir yol almış,*
*zamanla ana olan Zərifə.*

*Təbabətdə*
*yandırdığı qəlbini*
*daha yüksəklə alışan*
*atəşə atdı.*
*...OFTALMOLOQ SAVAŞLARI...*
*Yanan qəlbindən*
*hər nursuz gözlərə -*
*yüzlərlə,*
*minlərlə kor gözlərə*
*İŞIQ verdi.*
*O qədər nurlu idi ki,*
*Şəfqəti dünyaya yetirdi.*
*Bu,*
*elə bir zirvə idi ki*
*Araşdırmaları,*
*tədqiqatları ilə,*
*mükəmməl Oftalmoloq Elminin*
*Anası oldu,*
*Zərifə ANA!*
*O Yanar Qəlb.*





**Zərifə Əziz qızı Əliyevanın** xalqımıza və dövlətimizə bəxş etdiyi böyük xidməti sovet zamanında qapalı qalaraq, geniş şəkildə öyrənilməmiş, bu haqda danışılmamışdı. Lakin, Azərbaycanın ağır taleyinin gedişatını dəyişməyi bacaran böyük tarixi xilaskar Heydər Əliyevin yaratmağa başladığı işıqlı Azərbaycan həyatında “Zərifə xanım Əliyeva və Milli Oftalmologiyamız” adlı kitabla tarixin şəffaf gerçəkləri cəmiyyətimiz qarşısında səhifə-səhifə açılmağa başladı.

Azərbaycan Respublikasının əməkdar elm xadimi, tibb elmləri doktoru, Azərbaycan Elmlər Akademiyasının akademiki Zərifə Əziz qızı Əliyeva 28 aprel 1923-cü ildə Şərur rayonunun Şaxtaxtı kəndində anadan olmuşdur.

1942-ci ildə orta məktəbi bitirdikdən sonra o, Azərbaycan Dövlət Tibb İnstitutunun müalicə-profilaktika fakültəsinə daxil olmuş və 1947-ci ildə ali tibb təhsilini başa vurmuşdur.

Sonra o, Moskva şəhərində Mərkəzi həkimləri Təkmilləşdirmə İnstitutunda oftalmolgiya üzrə ixtisaslaşdırma kursu keçmişdir.

1950-ci ildə Zərifə xanım Əliyeva aspiranturaya daxil olmuş və 1953-cü ildə buranı bitirmişdir.

1957-ci ilə qədər Azərbaycan Elmi-Tədqiqat Oftalmologiya İnstitutunda elmi işçi, 1960-cı ildən 1967-ci ilə qədər böyük elmi işçi, 1967-ci ildən isə, Ə.Əliyev adına Azərbaycan Həkimləri Təkmilləşdirmə İnstitutunda göz xəstəlikləri kafedrasının dosenti, professor, görmə orqanının peşə patalogiyası labaratoriyasının müdiri, oftalmologiya kafedrasının müdiri (1982-1985) vəzifələrində çalışmışdır.

İllər boyu apardığı müşahidələrin, klinik tədqiqatların və təcrübələrin nəticələri, Zərifə xanımın dünyada ən məşhur oftalmologiya mərkəzlərinin birində H.Helmqolts adına Moskva Göz Xəstəlikləri Elmi Tədqiqat İnstitutunda müdafiə etdiyi “Azərbaycanın bir sıra kimya müəssisələri işçilərinin görmə orqanını vəziyyəti” adlı doktorluq dissertasiyasının əsasını təşkil etmişdir.1977-ci ildə Zərifə xanım Əliyevaya tibb elmləri doktoru dərəcəsi verilmişdir.

Zərifə xanım Əliyevanın Azərbaycanda oftalmologiya elminin inkişafında müstəsna xidmətləri var. O, vaxtilə Azərbaycanda geniş yayılmış traxomanın, dünya təcrübəsində birincilər sırasında peşə, xüsusilə kimya və elektron sənayelərində peşə fəaliyyəti ilə bağlı göz xəstəliklərinin öyrənilməsi, profilaktikası və müalicəsinə,

habelə oftalmologiyanın müasir problemlərinə dair bir çox sanballı tədqiqatların, o cümlədən "Terapevik oftalmologiya" , "İridodiaqnostikanın əsasları" kimi nadir elmi əsərlərin müəlliflərindən biri, 12 monoqrafiya, dərslik və dərs vəsaitinin, 150-yə yaxın elmi işin, 1 ixtira, 12 səmərələşdirici təklifin müəllifidir.

Zərifə xanım Əliyeva yüksək ixtisaslı səhiyyə kadrların hazırlanmasına böyük əmək sərf etmişdir.O, Ümumittifaq Oftolmoloqlar Cəmiyyəti Rəyasət Heyətinin, Sovet Silhü Müdafiə Komitəsinin, Azərbaycan Oftalmologiya Cəmiyyəti İdarə Heyətinin, "Vestnik oftalmologiyi" (Moskva) jurnalı redaksiya heyətinin üzvü idi.

1981-ci ildə oftalmologiyanın inkişafına verdiyi böyük töhfəyə - görmə orqanının peşə patologiyası sahəsində apardığı elmi tədqiqatlara görə professor Z.Ə.Əliyeva oftalmologiya aləmində ən yüksək mükafata – SSRİ Tibb Elmləri Akademiyasının akademiki M.İ Averbax adına mükafatına layiq görülmüşdür. Bu tarixi hadisəni xüsusilə qeyd etmək lazımdır ki, professor Z.Ə. Əliyeva həmin mükafata layiq görülən ilk qadın olmuşdur.

Elmi tədqiqatların yüksək səviyyəsi, onların sosial əhəmiyyəti, ictimai fəallığı, pedaqoji istedadı, çoxillik elmi tədqiqat işlərində böyük xidmətləri qiymətləndirilərək,1983-cü ildə Zərifə xanım Əliyeva Azərbaycan SSR EA-nın akademiki seçilmişdir.

Zərifə xanım Əliyeva göstərdiyi xidmətlərinə görə, orden və medallarla təltif olunmuşdu. Azərbaycanın əməkdar elm xadimi kimi yüksək ada layiq görülmüşdü.

1985-ci il aprel ayının 15-də Moskva şəhərində vəfat edən Zərifə xanım Əliyevanın cənazəsi, 1994-cü ildə Moskvanın Novo-Deviçye qəbiristanlığından Bakıya gətirilərək, Fəxri Xiyabanda, atasının yanında dəfn olunmuşdur.

*...Dünyanın*
*qara sədlərini*
*yarıb keçərək,*
*dəryasının içindən*
*dürr-incisini tapmısan,*
*zülmətləri əridib,*
*işıqqları yandırmısan...*
*milyonların gözlərinin.*





*Sən...*
*Sən*
*qəlbini yandırmısan,*
*Anacan.*
*Təbabətin elmi yolları,*
*səni zaman daşından,*
*divarından keçirib.*
*Soyuğu,*
*şaxtası,*
*yüyənsiz,*
*acı,*
*sərt küləkləri,*
*o Yanar Qəlbini*
*məkrin*
*süzgəcində əzdirib.*
*Amma,*
*qəlbinin*
*odu,*
*atəşi,*
*elmin savaşının*
*ön cəbhəsində*
*zəfərini qazanıb,*
*işıqın möhrünü*
*vuraraq da həm,*
*tibbin şah kürsülərində*
*əməyinin həqiqətin –*
*sözünü deyib.*
*...Arzular...*
*bəlkə də insanla,*
*bəlkə də*
*doğulandan sonra doğulur.*
*Və çox çətindir,*
*yollarını adlamaq...*
*taxtına çatmaq.*
*Yolları zülmətdi,*
*tufandı,*
*çox yamandı.*
*Arzularını*
*hər an çalandı,*
*satın alandı,*

*zəhərin sovurub,*
*canın alandı,*
*yada satandı.*
*Amma,*
*çox güclü*
*yandırılan qəlbin*
*odu-atəşi...*
*arzular...*
*Yanar Qəlbin*
*yalnız odu-atəşi ilə*
*zəfərin qazanıb,*
*taxt-tacın aldı.*
*Təbabətin zivəsində,*
*böyük əməyinin*
*həqiqətlərinin*
*güclü savaşları ilə,*
*öz dünyəvi və*
*milli elminin bayrağını*
*sancdı,*
*Yanar Qəlb –*
*Zərifə Ana..*
*Zərifə xanım*
*Əziz qızı Əliyeva.*

...Zərifə xanım Əliyeva dövlətin birinci insanının həyat yoldaşı olsa da, hər zaman öz tibb araşdırmalarından, tədqiqatlarından kənar qalmamışdı. Onun sadəliyini, zəhmətkeşliyini, işininin dəyərində, məsuliyyətində nə qədər tükənməz sevgi ilə olduğunu aydın görmək mümkündür. Gərgin iş çalışmaları, əlbəttə onun səhhətindən də yan keçməmişdir.

Zərifə xanım Əliyeva çox ağır sahələrdə tədqiqat işləri aparmışdı. Bakı şəhəri yod zavodunun işçilərində gözün ön şöbəsinin vəziyyətni araşdıraraq çox ciddi problemləri aşıkar etmiş və qarşısının alınmasında mükəmməl tövsiyələrini vermiş, müalicələrinə dəstək olmuşdu. Bu haqda yazdığı məqaləsi, 1972-ci ildə, Azərbaycan tibb jurnalının 4-cü nömrəsində çap olunmuşdur.





Zərifə xanım Əliyeva, Bakı şəhəri şin zavodunun müxtəlif sexləri şəraitində olan sınaq heyvanlarının göz toxumlarından bəzi histokimyəvi göstəricilərin xarakteristikasının geniş izahını da Azərbaycan tibb jurnalında dərc etdirmişdir. 1974-cü il,4-cü nömrəsində.

Zərifə xanım Əliyevanın – "Gözlərinizi qoruyun: Kəskin konyunktivitlər" adlı məqaləsi, ağır peşə shibləri üçün, ən mükəmməl tövsiyələrdən biri olmuşdur. Bu haqda məqaləsini 1981-ci ilin 18 yanvar ayının nömrəsində "Kommunist" qəzeti dərc etmişdir.

Zərifə xanım Əliyevanın, "Fəlakətin qarşısını almaq olar!" adlı məqaləsi isə, gözün bəzi irsi xəstəliklərini önə çəkərək, mümkün olan versiyalarını geniş və dəqiq izah edir. Məqalə 1982-ci ilin 13 iyun buraxılışında "Kommunist" qəzetində çap olunmuşdur.

Zərifə xanım Əliyeva ixtisasca, Azərbaycan dövlət Tibb İnsitutunun müalicə-profilaktika fakültəsini bitirmişdi. Lakin, sonralar Moskva Həkimləri Təkmilləşdirmə İnstitutunda oftalmalogiya üzrə ixtisaslaşma kursu keçmişdi. Elmi tədqiqatlara böyük marağı onu Azərbaycan Elmi Tədqiqat Oftalmoloğiya İnstitutuna gətirmiş və orada həkim ordinator kimi fəaliyyətini davam etdirməyə başlamışdı.

Zərifə xanım Əliyevanın aspiranturanı bitirib, elmi işçi kimi fəaliyyət göstərdiyi illərdə Azərbaycanda traxoma xəstəliyi geniş yayılmışdı.Nəticədə bu xəstəlik korluq hallarının ən geniş yayılmış səbəblərindən biri kimi dəhşətli ictimai bəlaya çevrilmişdi. Ümumdünya Səhiyyə Təşkilatının məlumatlarına əsasən,o dövrdə dünyada dördyüz milyon nəfər traxoma xəstəliyinə yoluxmuş, səksən milyon nəfər isə, bu səbəbdən dünya işığına həsrət qalmışdı. Oftalmoloqlar yaxşı bilir ki, tədqiqatın klinikadan, institutdan kənarda aparılması, hansı əziyyətlərin hesabına başa gəlir. Bu çətinliklərə baxmayaraq, Zərifə xanım Əliyeva dissertasiya üzərində işləyərkən öz araşdırmalarını bir neçə müəssisədə təcrübədən çıxarmağa nayil olmuşdu. Və yüzlərlə, minlərlə xəstəni müayinədən keçirmişdi. Mövzularını həyatın özü diktə etmiş Zərifə xanım Əliyevanın ilk elmi tədqiqatları gərgin əməyinin uğurları ilə nəticələnmişdi. Onun ağıl və düşüncəsində, xüsusi olaraq, bir maraqlı hədəf diqqəti daha çox cəlb etmişdi ki, o, tədqiqat üçün elmi mövzuları seçərkən, problemlərə milli və dövlətçilik maraqlarından yanaşmağa önəm vermişdi.

Həmin illərdə traxomaya qarşı təsirli müalicə üsulları kifayət qədər olmadığından onunla mübarizə təkcə oftalmologiya elmi üçün deyil, Azərbaycan təbabəti üçün mühüm əhəmiyyət kəsb etmişdi. Belə bir dövrdə Zərifə xanım Əliyeva traxoma xəstəliyinə qarşı aparılan müalicə-profilaktika tədbirlərin təşkilində, keçirilməsində fəal iştirak emişdi. O, traxoma xəstəliyinin daha çox yayıldığı rayonlara getmiş, əhali arasında maarifləndirmə işi aparmışdı. Elmi-tədqiqat işini traxomanın müalicəsində və onun ağırlaşdığı hallarda daha təsirli vasitələrin öyrənilməsinə o dövr üçün antibiotikdən-sintomisindən istifadə olunmasına həsr etmişdi. Çünki, sintomisin geniş anti-bakterial vasitə olmaqla yanaşı, antixlamidiya fəallığına malik olmuşdu. Zərifə xanım Əliyevanın bu istiqamətdə apardığı tədqiqatları, 1960-cı ildə uğurla müdafiə etdiyi "Traxomanın digər terapiya üsulları ilə birlikdə sintomisinlə müalicəsi" mövzusu namizədlik dissertasiyasının əsasını təşkil etmişdi.

Traxoma xəstəliyinin müayinəsi və müalicəsi ilə yanaşı Zərifə xanım Əliyeva oftalmalagiya elminin bir sıra aktual məsələlərinə də böyük əhəmiyyət vermişdi. Bu məsələlər sırasında diaqnostika, qlaukoma və görmə orqanının iltihabı xəstəliklərinin müalicəsinə də ciddi diqqət göstərmişdi.Oftalmologiyanın elmi cəhətdən az araşdırılması sahəsi - görmə orqanının peşə patalogiyası isə, onun əsas maraq dairəsində olmuşdu.Eyni zamanda qlaukoma xəstəliyi ilə bağlı problemlər də gənc alimi düşündürmüşdü. Zərifə xanım Əliyevanın qlaukoma xəstəliyi ilə bağlı apardığı ciddi elmi tədqiqatlarının uğurlu nəticələri, o dövr üçün klinik göz xəstəlikləri sahəsində çalışan həkimlərin biliklərinin gücləndirməsində böyük rol oynamışdı.Azərbaycan Dövlət Həkimləri Təkmilləşdirmə İnstitutunun Göz Xəstəlikləri kafedrasında işlədiyi müddətdə də Zərifə xanm Əliyeva bir çox cərrahiyyə əməliyyatlarında iştirak etməklə yanaşı, oftalmologiya ilə bağlı təşkilatları və İnstitut şöbələrini səfərbər edərək, göz xəstəlikləri üzrə təkmilləşdirmə kurslarının dinləyici həkimləri ilə böyük elmi-pedaqoji iş aparmışdı.

1968-ci ildə Zərifə xanım Əliyeva məqsədyönlü şəkildə görmə orqanının peşə patalogiyası üzrə işlərini davam etdirməyə başladı. Bu zaman o, yod sənayesi müəssisələrində, neft-kimya sənayesində çalışan şəxslərin görmə orqanına təsir edən amillərə xüsusi diqqət etmişdi.Qeyd olunan problem üzərində iş apararaq,





sənaye müəssisələrinə getmiş, zərərli peşə sahələrində çalışan insanları oftalmoloji müayinə etmişdi. Bakının və Sumqayıtın bir sıra sənaye müəssisələrində, şin zavodunun sexlərində, labaratoriya şəraitində araşdırmalar keçirmişdi. Zəngin klinik və təcrübi tədqiqatlar nəticəsində, zəhərli maddələrin görmə orqanına təsirinin əsas cəhətlərini üzə çıxarmışdı. Uzun illərin müşahidəsi, klinik tədqiqatların, eksperimentlərin yekumları Zərifə xanım Əliyevanın doktorluq disertasiyasının təməlini qoymuşdu. Bir neçə ildən sonra o, "Azərbaycanın bir sıra kimya müəssisələrinin işçilərinin görmə orqanının vəziyyəti" mövzusunda yazdığı dissertasiya işini yekunlaşdırmış və dünyanın ən tanınmış oftalmologiya mərkəzlərindən biri kimi tanınan Helmholts adına Moskva Elmi-Tədqiqat Göz Xəstəlikləri İnstitutunda doktirluq dissertasiyasını uğurla müdafiə etmişdi. Dissertasiya bu sahədə ilk əsərlərdən biri kimi, alim oftalmoloq alimləri tərəfindən yüksək qiymətləndirilmişdi. İstedadlı alim Zərifə xanım Əliyevaya 1977-ci ildə tibb elmləri doktoru alimlik dərəcəsi verilmişdi. Bundan sonra Zərifə xanım Əliyeva Azərbaycan Dövlət Həkimləri Təkmilləşdirmə İnstitutunun aftalmologiya kafedrasının professoru, bir neçə ildən sonra isə həmin kafedranın müdiri seçilmişdi.

Zərifə xanım Əliyeva öz ənənəsini davam etdirərək istedadlı gəncləri ətrafına toplayaraq elmi-tədqiqat işlərini, kadrların və elmi əməkdaşların hazırlanması prosesini uğurla davam etdirmişdi. Amma, kafedrada olan mövcud baza elmi-tədqiqatların keçirilməsi üçün yetərli deyildi. Zərifə xanım Əliyeva bu problemin həlli üçün bir sıra konkret təkliflər irəli sürür və 1977-ci ildə məhz onun təşəbbüsü ilə Bakı şəhərində ilk dəfə olaraq Ümumittifaq Aftalmoloqlar Cəmiyyəti İdarə Heyətinin Bakı plenumu keçirilmişdi. Bu plenumun uğurla keçirilməsi, həm ölkəmizdə, həm də keçmiş ittifaqın ən aparıcı müəssisələrində, oftalmologiya xidmətinin inkişafında, elmi-pedaqoji kadrların hazırlanması işinə böyük köməklik göstərmişdi.

Professor Zərifə xanım Əliyeva peşə ilə əlaqədar yaranan göz xəstəliklərinin ptologiyasını sənayedə çalışan işçilərin nümunəsində araşdırmaq məqsədilə Bakı Kondisonerlər zavodunda və eləcə də Azərbaycan Elmlər Akademiyasının Fizologiya İnstitutunda xüsusi elmi-tədqiqat labarotoriyaların yaradılmasına nayil olmuşdu. Əmək fəaliyyətinin bütün sahələrini əhatə etmək və hər sahədə görmə qabiliyyətinin mühafizəsi üçün, ilk növbədə, hansı tələblərin

olduğunu müəyyənləşdirmək çox çətin olmuşdu. Lakin professor Zərifə xanım Əliyeva buna da nayil olmuşdu.O, ilk olaraq, kimya sənayesində çalışan işçilərin göz xəstəliyini öyrənməyə başlamışdı.Hal bu ki, bu sahə çox mürəkkəb və az öyrənilmişdi. 1979-cu ildə Azərbaycan Elmlər Akademiyasının Fizologiya İnstitutunda Zərifə xanım Əliyevanın yaratdığı laboratoriyalarda az intensivli zəhərli istehsal sahələrində görmə orqanına fizoloji, klinik-funksional, histoloji mexanizmlərin təsirinin öyrənilməsi üzrə bir sıra dəyərli tədqiqatların araşdırılmasına nayil olmuşdu. Elmi-tədqiqatların yekunu olaraq, Zərifə xanım Əliyeva bir neçə monoqrafiya, "Şin istehsalında gözün peşə patalogiyası", "Xroniki yod intoksikasiyası ilə bağlı oftalmologiya", " Yod sənayesində gözün peşə xəstəliyinin profilaktikası" adlı monarafiyalarını çap etdirməyə nayil olmuşdu.Bu qiymətli əsərlər dünyanın elmi ictimaiyyətinin diqqətini cəlb edə bilmişdi. 1980-ci ildə Azərbaycan Elmi-Tədqiqat Göz Xəstəlikləri İnstitutnun nəzdində məhz Zərifə xanım Əliyevanın təşəbbüsü ilə Lazer Mərkəzi yaradılmışdır ki, bu da onun elmi fəaliyyətinin praktiki işlə necə sıx bağlılığına həqiqi nümunəsidir.

Zərifə xanım Əliyeva tibbə ehtiyacı olan ölkənin hər bir əsas yerinə diqqət göstərmişdi. Bakıda yod sənayesi sürətlə inkişaf edirdi. Həmin sahədə çalışanların görmə orqanına yod istehsalı şəraitinin aşkarlanması üçün aparılan tədqiqatlar böyük əhəmiyyət daşıyırdı.

Bakı yod zavodunun işçilərinin gözlərinin zədələnməsinin istehsal sahəsi ilə bağlı olduğunu təsdiq etmək və zədə mexanizminin müxtəlif cəhdlərini üzə çıxarmaq üçün Zərifə xanım Əliyeva müxtəlif iş yerlərində, təbii şəraitdə heyvanlar üzərində tədqiqatlar aparmışdı.Fədakar alimin iş günü kabinetdən yox,istehsal sahəsindən başlamışdı. Bakı Yod Zavodunda istehsal prosesinin sanitar-gigiyenik xüsusiyyətlərinin, fəhlələrin iş şəraitinin, müxtəlif iş təcrübəsinə malik peşə sahiblərinin sağlamlığının ümumi vəziyyətini ciddi şəkildə araşdırmaq lazım gəlmişdi.Təd-qiqatçının diqqətini ilk növbədə, yod istehsalı zamanı atmosferdə yod buxarının konsentrasiyasının istehsal əməliyyat mərhələsindən çox asılı olduğu cəlb etmişdi.Uzun müddət ərzində ən müasir tədqiqat üsullarının köməyi ilə, müxtəlif daxili istehsal bölmələrində çalışan işçilər üzərində müşahidələr aparmışdı. Bu isə,





işçilərin görmə orqanında yod istehsalının toksik xüsusiyyətlərini üzə çıxarmağa imkan yaratmışdı.Yəni kirpik cismi nahiyəsində şişlərin əmələ gəlməsinə, göz qişalarının zədələnməsinə, onun həssaslığının azalmasına, qan damarlarının, şəffaf qatların dəyişikliyinə, bəzən də gözün ön və arxa hissəsinin zədələnməsinə gətirib çıxarır. Eksperimental tədqiqatlar nəticəsində müəyyən edilmişdi ki,yod istehsalında kimyəvi maddələrin buxarının toksik təsirindən görmə orqanı daha çox zədələnir. Klinik-eksperimental tədqiqatların nəticələri görmə orqanına toksik maddələrin təsirini daha düzgün qiymətləndirməyə və rasional müalicə üsulları işləyib hazırlamağa imkan vermişdi. Və Zərifə xanım Əliyevanın "Xroniki yod intoksikasiyasında oftolmalogiya" mövzusunda yazdığı növbəti monaqrafiyası 1981-ci ildə işıq üzü gömüşdü. Bu monoqrafiya orijinal elmi-tədqiqat əsəri kimi mühüm əhəmiyyət daşıyır.1981-ci ildə oftalmologiyanın inkişafına verdiyi böyük töhvəyə-görmə orqanının peşə patalogiyası sahəsində apardığı tədqiqatlarına görə Zərifə xanım Əliyeva ən yüksək mükafata - SSRİ Tibb Elmləri Akademiyasının akademiki M.İ Averbax adına mükafata layiq görülmüşdü. Və bu mükafata layiq görülən ilk qadın olmuşdu.

Görkəmli alim Zərifə xanım Əliyevanın elmi işləri aktuallığı və yüksək səviyyəsi ilə seçilmişdi. Xüsusən, şin və yod istehsalı ilə məşğul olan işçilərin görmə orqanının vəziyyətinin öyrənilməsinə həsr olunan monoqrafiyaları bu cəhətdən diqqəti daha çox cəlb etmişdi. Bu kitablarda iki böyük zavodda aparılan konkret təqiqatlar harmonik şəkildə görmə orqanının peşə patologiyasının öyrənilməsinə ümumi metodik yanaşma prinsiplərinin inkişafı ilə üs-üstə düşür. Onun istifadə etdiyi ümumi iş prinsiplərinin qısa şərhi belə səciyyələndirilir:

*İstehsalatda zərərli amillərin təsiri bir qayda olaraq xroniki xarakter daşıyır və bir çox istehsalat sahələrində insan orqanizminə bir neçə zərərli amillər bir yox, kompleks halında təsir göstərir. Odur ki, həmin amillərin tam aşkara çıxarılması, hər birinin konsentrasiyası və intensivliyinin ətraflı öyrənilməsi, işçilərə bu amillərin mənfi təsirinin izah olunması çox böyük əhəmiyyət kəsb etmişdi. Sənaye müəssisələrində aparılan hər bir tədqiqat,ilkin mərhələdə heyvanlar üzərində aparılan təcrübələr real iş şəraitinə uyğunlaşdırılaraq eksperimentlərdə öz təsdiqini tapmışdı. Bu məqsədlə təcrübə aparılan heyvanlar xüsusi kameralarda hər gün iş yerlərinn yaxınlığında yerləşdirilir və*

*bu zaman onların görmə orqanının vəziyyətinin öyrənilməsi bütün orqanizminin tədqiq edilməsi ilə birlikdə aparılmışdı. Bu göz xəstəlikləri smtomlarının başqa orqanların və sistemlərin zədələnməsi ilə nə kimi əlaqəli olduğunu üzə çıxarmağa imkan yaratmış ki,bu da işçilər üzərində aparılan tədqiqat üsullarına uyqun olmuşdu.*

Zərifə xanım Əliyevanın apardığı tədqiqatların nəticələri göstərmişdi ki, şin istehsalı sahəsində çalışan işçilərin müəyyən qrupunda toksik amillərin təsiri nətcəsində gözün qapaq hissəsinin zədələnməsinin xüsusi simtom kompleksi inkişaf edir.Patoloji sindromun tezliyi isə iş sahəsində zərərli amillərin konsentrasiyasından asılı idi. Eyni zamanda işçilərin bir hissəsində görmə orqanının funksional pozğunluğu, görmə sahəsinin daralması olunmuşdu.

Zərifə xanım Əliyeva ilk dəfə, yodla uzun müddət əlaqədə olan işçilərin görmə orqanının zədələnməsinin əlamətlərini aşkar edərkən, bu əlamətlərin kiprik kənarı dairəyə, konyuktivlərə, gözün buynuz qişasına yodun necə təsir etdiyini müəyyənləşdirə bilmişdi. Bu zaman göz qapağına, görmə orqanının şəffaf qatına, habelə göz dibində yodun nə kimi fəsadlar törətməsi aşkarlanmışdı.Elmi tədqiqatlar göstərirdi ki,bu zaman görmə itiliyi zəifləyir, görmə sahəsi daralır, gözün işığa həssaslığı azalır, göz təzyiqinin artmasına meyillilik güclənir. Digər tərəfdən eksperimental tədqiqatlar sübut etmişdi ki, görmə orqanındakı dəyişikliklər qan damarların və daxili orqanların, xüsusən də ciyərin və böyrəyin zədələnməsi ilə bağlıdır. Alim, histoloji və histokimyəvi tədqiqatlar üzərində təcrübə apararkən, heyvanların gözünün dərisində ciddi dəyişiliklər olduğunu meydana çıxarmışdı.Zərifə xanım Əliyeva və onun rəhbərlik etdiyi kollektivin apardığı tədqiqatlar elmi cəhətdən əsaslandırılmış əməli tövsiyyələrin işlənib hazırlanmasına gətirib çıxarmışdı ki, həmin tövsiyələrin istehsalata tətbiqi şin və yod müəssisələrində çalışan işçilərin gözünün zədələnməsinin kəskin şəkildə azalması ilə nəticələnmişdi.Və bütün bunlar alim xanımın elmi fəaliyyətinin bir hissəsini təşkil edir.

Zərifə xanım Əliyeva peşə patologiyası sahəsində təkcə xəstəliyin ilkin əlamətlərini, klinik vəziyyətini müəyyənləşdirməklə kifayətlənməmiş, eyni zamanda mümkün olan intoksiyanın profilaktikasını əsaslandırıb həyata keçirmişdi. Görmə orqanının peşə





xəstəliyi sahəsində elmi tədqiqatların nəzəri və təcrübi baxımından nə qədər qiymətli olduğunu alimlərin çoxsaylı rəsmi rəyləri, oftalmologiya sahəsində çalışan elmi işçilərin Zərifə xanım Əliyevanın tədqiqatlarına istinad etməsi, bunu bir daha sübut etmişdi. Çünki, onun araşdırmaları həmişə özünəməxsusluğu və yeniliyi ilə böyük maraq doğurmuşdu.

Bu baxımdan Zərifə xanım Əliyevanın "İridodiaqnostika" və "İridodioqnostikanın əsasları" (1980-1981-ci illər) monaqrafiyaları nadir elmi tədqiqat əsəri kimi ictimaiyyətin diqqətini cəlb etmişdi. Həmin mövzunun araşdırılmasına marağ, diaqnostikanın bu üsulu bir çox somatik xəstəliklərin müəyyənləşdirilməsində istifadə olunmuşdu. Alimin, gözün virus xəstəliklərinin öyrənilməsi sahəsində tədqiqatları böyük əhəmiyyət kəsb etmişdi. Virus və peşə konyuktivitləri arasında differensial diaqnostikaya aid tövsiyələr işlənib hazırlanmış, gözün herpetik xəstəliyinin diaqnostikasına və müalicəsinə aid dərs vəsaiti nəşr edilmişdir.

Zərifə xanım Əliyevanın elmi maraqları, yalnız görmə orqanının peşə patalogiyasının problemləri ilə məhdudlaşmamışdı. Onun, görmə orqanının virusla zədələnməsinə həsr olunmuş silsilə işləri də elmi ictimaiyyət tərəfindən rəğbətlə qarşılanmışdı. Həmin elmi işlərin tətbiqi bir sıra xəstəliklərin differensial diaqnostikasını təkmilləşdirmiş, onların müalicəvi əhəmiyyətini gücləndirmişdi. Həkim-aftalmoloqlar üçün nəzərdə tutulmuş dərs vasitləri, "Herpetik göz xəstəliyi", "Ağır virus konyuktivitləri" və s.bu silsilədəndir. Zərifə xanım Əliyeva o illərdə qlaukomanın etimalogiyası, diaqnostika və müalicəsi məsələlərinə həsr olunmuş bir neçə maraqlı əsərləri ilə fəaliyyətini genişləndirməyə nayil olmuşdu.Gərgin araşdırmalar nəticəsində bir sıra elmi məqalələr və "Gözün hidrodinamik sisteminin anatomafizoloji xarakteristikası" və "Yaşla bağlı görmə siniri yollarının dəyişməsi" adlı əsərlərini ictimaiyyətə təqdim etmişdi.

Zərifə xanım Əliyeva həm də gözün zədələnməsi profilaktikası və müalicəsi imkanlarını araşdırmışdı. Bir sıra elmi əsərlərində o, görmə orqanı zədələndikdə mövcud olan cərrahiyyə əməliyyatları üsullarını müəyyənləşdirmiş və təkmilləşdirilməsi üçün bir sıra maraqlı təklifləri irəli sürmüşdü. Bu da cərrahiyyə əməliyyatlarına məruz qalan zədələnmiş görmə orqanının müalicəsini xeyli asanlaşdırmışdı. Alimin bir sıra elmi əsərləri də görmə orqanında bə-

dxassəli şişlərin diaqnostikasına və müalicəsinə həsr olunmuşdu. Zərifə xanım Əliyevanın dakriologiyadan bəhs edən "Göz yaşı yollarının fiziologiyası", "Göz yaşı axmalarının müasir cərrahiyyə üsulları ilə müalicəsi" monaqrafiyaları isə, təkcə oftalmoloqlar üçün deyil, həm də fizioloqlar üçün maraqlı tədqiqat əsərlərinə çevrilmişdi.

Zərifə xanım Əliyeva səhiyyədə təkcə görkəmli pedaqoq kimi şöhrətlənməmişdi. O, fundamental elmi araşdırmaların müəllifi kimi tibb elminə nəhəng töhvələr vermiş, görkəmli alim kimi səhiyyə tarixində özünü təsdiqləmişdi. "Yaşla əlaqədar olaraq gözün və görmə - sinir yollarının dəyişikliyi" adlı monaqrafiyası bunun əyani sübutudur. Burada konkret şəraitdə görmə orqanının vəziyyətini öyrənən klinik istiqamətli elmi müddəaların  bütöv bir silsiləsi öz əksini tapmışdır. Bu baxımdan Özbəkistanın "Medisina" nəşriyyatı tərəfindən çap edilmiş "Şəkərli diabet zamanı göz xəstəlikləri"  adlı monoqrafiyası da görülən xeyirxah işin davamıdır. Bu təkrarsız əsərində Zərifə xanım Əliyeva, sosial mənbə kimi Orta Asiya və Qafqaz regionunu götürərək, insanlar arasında tez-tez rast gəlinən və kifayət qədər geniş yayılmış şəkərli diabet zamanı yaranmış göz xəstəliklərinin pataloji, klinik, diaqnostik və müalicəvi xüsusiyyətlərini araşdırmışdı. Elmi istiqamətinə görə bu nəşr nadir əsər kimi bu günə qədər oftalmoloqların stolüstü kitabına çevrilmişdir.

Zərifə xanım Əliyevanın zəngin pedaqoji, elmi və əməli təcrübəsi "Oftamologiyanın aktual problemləri" adlı monoqrafiyasında (professor N.B.Şulpina və L.K.Maşetova ilə birlikdə) özünü biruzə vermişdi. Bu kitab həm oftalmoloqlar, həm də Həkimləri Təkmilləşdirmə İnstitutunun Oftalmologiya dinləyiciləri üçün böyük əhəmiyyət daşımışdı.

"Oftalmologiyanın aktual problemləri" monoqrafiyasında, həm də görmə orqanının müxtəlif patologiyası zəminində gözün müasir üsullarla  tədqiqi və müalicəsi öz əksini tapmışdı. O, eyni zamanda oftalmoloji  cərrahiyyə əməliyyatlarındakı, gözün virus xəstəliyinin və görmə orqanının damar  patalogiyasının müalicəsindəki elmi yeniliklərlə və eləcə həkim etikası tibbi deontalogiya məsələləri ilə də ciddi maraqlanmışdı.

Zərifə xanım Əliyeva gənc həkimlərin təcrübəsində,  onların peşə fəaliyyəti ilə  bağlı problemlərinin öyrənilməsi və həlli





yolunda da əvəzsiz xidmətləri olmuşdu. Onun bu məsələlərə həsr olunmuş çox saylı məqalələri, məruzələri, "Yüksək etimad" adlı kitabı da cəmiyyətdə həkimin şəxsiyyət kimi formalaşması prosesinə böyük təkan vermişdi. Zərifə xanım Əliyeva peşə patologiyası sahəsində görkəmli oftalmoloq, geniş profilli mütəxəssis həkim olmaqla yanaşı, həm də gözəl pedaqoq olmuşdu. Azərbaycan Dövlət Həkimləri Təkmilləşdirmə İnstitutunun göz xəstəlikləri kafedrasında oxuduğu mühazirələr bunu hər zaman sübut etmişdi. Zərifə xanım Əliyeva elmdə həm də bir məktəb yaratmışdı. Bu, onun əməkdaşlara göstərdiyi səmimi münasibətində və ümumiyyətlə insanlara olan sevgisində öz əksini tapmışdı.

İstər Oftalmoloqlar Cəmiyyətinin qurultaylarında, plenumlarında, Moskva Oftalmoloqlar Cəmiyyətinin plenar iclaslarında etdiyi məruzələr, istərdə publisistik çıxışlarında Zərifə xanım Əliyeva özünü mahir natiq kimi göstərmişdi. Zərifə xanım Əliyevanın daxili aləmi, vəzifə borcuna, xəstələrə və ətrafındakılara münasibəti 1983-cü ildə nəşr etdirdiyi "Həkimin əxlaqi təcrübəsi, deontalogiya, səhiyyə etikası və əxlaq məsələləri" əsərində özünün daha parlaq əksini tapmışdı. Bu mövzuya həsr olunan çıxışlarında Zərifə xanım Əliyeva bilik və təcrübəsini həkim həmkarlarına inam hissi ilə aşılamışdı. Ona görə də çap etdirdiyi elmi əsərlər mahiyyət etbarı ilə daha geniş əhəmiyyət kəsb edir, təkcə səhiyyə sahəsində deyil, məişət və ailə əlaqələri də daxil olmaqla, bütövlükdə insanların qarşılıqlı münasibətlərinin öyrənilməsində mühüm rol oynamışdı.

Tibb işçilərinin vəzifə borcunu yerinə yetirməsi, təkcə xəstəliyin müalicəsi və profilaktika-sından ibarət deyil, eyni zamanda peşə fəaliyyəti ilə əlaqədardır.Zərifə xanım Əliyeva, tibb işçilərinin ətrafındakıların tərbiyəsində mühüm rol oynadığını, şəxsiyyət, əxlaq etalonu olduğunu xüsusi vurğulamışdı. Haqlı olaraq belə hesab etmişdi ki, həkimin həyati mövqeyi onun xəstəyə münasibətini müəyyənləşdirəcək başlıca amildir. Yalnız o şəxs həkimdir ki, xəstənin ağrılarını məhz özünün ağrıları hesab edir. Belə bir həkim üçün hər dəfə xəstəni qəbul etmək, hər dəfə xəstəliyə düçür olmuş insanla söhbət həm insan qarşısında, həm cəmiyyət qarşısında, ən başlıcası öz vicdanı qarşısında əxlaqi məsuliyyət deməkdir.

Zərifə xanım Əziz qızı Əliyeva insanlara bütün varlığı ilə bağlı olmuşdu.Onların xeyirxahlığına, qayğıkeşliyinə, daxili aləminə yüksək qiymət verrmişdi. Həmkarlarının, iş yoldaşlarının ona

yaxınlaşması üçün həmişə şərait yaratmışdı. Xəstənin qəlbinə yol tapmaq, onun etimadını qazanmaq hər insana nəsib olmur. Zərifə xanım Əliyeva bunu məharətlə bacarmış, xəstələrin hansı biri ilə bu və ya digər bir xəstəliyin profilaktikasına, müalicəsinə dair söhbət açmışdısa, digər xəstələr də onun ətrafına toplaşmış, söhbətlərini maraqla dinləmişlər. Gözəl insan həkim xəstələrnin çəkdikləri iztirabları duymuş, narahatlıqlarını yox etməyə, sağalacaqlarına ümid işığı yaratmağı bacarmışdı.

Zərifə xanım Əziz qızı Əlyeva hər zaman tələsmişdi. İnsan ömrünün qısa olduğunu dərk edərək, ona verilən ömür payında daha çox iş görmək üçün yollar axtarır və həllini tapmağa çalışırdı. İstər elm sahəsində, istərdə təcrübi təbabətdə yetərincə zirvələr fəth etsə də, yenə yeniliklər axtarmışdı. Zərifə xanım Əliyeva gözəl pedaqoq-tərbiyəçi kimi öz bilik və təcrübəsini insanlara qəlbinin hərarəti ilə paylamışdı. İnsan həyatı uğruna Yanan Qəlbi ilə! kitab üz yazı.

Zərifə xanım Əliyeva bənzərsiz sadəliyi, ünsiyyəti, dərin səmimiyyəti ilə hər zaman hamını heyran qoymuşdu. İnsansevərlik, bəşərilik onun bütün ruhunda, varlığında olmuş. Ehtiyac səbəbi ilə insanlar onun yanına pənah gətirəndə, böyük qəlb sahibi Zərifə xanım Əliyeva hər birini səbrlə, təmkinlə dinləmiş, mümkün olan köməyini insanlardan əsirgəməmişdi. Bu qeyri-adi böyük qəlb yanqısı, alim xanımın həyat leytmotivi olmuşdu. Yüksək mədəniyyəti, ünsiyyətdə səmimiliyi, istiqanlığı, qayğıkeşliyi, ehtiyacı olan insanın köməyinə çatmaq bacarığı, görkəmli alim həkim ANAnın insanlığa xidmət edən dünyəvi humanistliyi olmuşdu.

Zərifə xanım Əliyeva alimlik istedadı ilə, qeyri-adi təşkilatçılıq qabiliyyətini hər zaman üzvi surətdə əlaqələndirmişdi. Onun hərəkətləri həmişə dəqiq və düşünülmüş olmuşdu.Buna görə də, cəmiyyətdə o, son dərəcə dəqiq və məsuliyyətli bir insan kimi tanınmışdı.Və bu xarakteri daima dəyişməz olaraq qalmışdı. Hər zaman heç bir yerdə şəxsiyyətini dilinə gətirməmiş, bir qayda olaraq hərtərəfli əsaslandırılmış mövqe tutmuşdu.Və o, hamıya eyni diqqət və qayğı göstərmişdi. Bir elmi rəhbər kimi əməkdaşların qarşısında konkret yerinə yetirilə bilən, təcrübi əhəmiyyət daşıyan və perspektivli vəzifələr qoymaq bacarığı ilə fərqlənmişdi.

Akademik Zərifə xanım Əziz qızı Əliyeva gərgin elmi işlərlə yanaşı, böyük ictimai işlər də aparmışdı. O, keçmiş SSRİ-nin






Sülhü Müdafiə Komitəsinin üzvü, Azərbaycan Sülhü Müdafiə Komitəsi sədrinin müavini, "Bilik" Cəmiyyəti İdarə Heyətinin üzvü və keçmiş ittifaqın Oftalmoloqların Elmi Cəmiyyəti İdarə Heyətinin üzvü olmuşdu. Eyni zamanda "Oftalmologiya xəbərləri" jurnalının redaksiya heyətinin üzvü seçilmişdi. Və ölkəmizin bir sıra orden və medalları ilə təltif edilmiş, Azərbaycanın elm xadumi fəxri adına layiq görülmüşdü.

Zərifə xanım Əliyeva on monoqrafiyanın, iki yüzdən artıq məqalənin, məruzə və metodik vəsaitin müəllifi olmuşdu. Və görkəmli alimin elmi irsi bu gün də öz aktuallığını itirməmiş, tibb elminin müasir tələblərinə cavab verməkdədir.

Milli Oftalmologiyanın inkişafı üçün böyük xidmətlər göstərən Zərifə xanım Əliyevanın ən böyük arzularından biri də Azərbaycanda oftalmologiya kompleksinin tikilməsi olmuşdu.O zaman bu arzusu ilə bağlı təşəbbüsündən sonra Heydər Əliyev həmin kompleksin tikilməsi üçün sərəncam imzalamış və inşasına başlanılmışdı. Oftalmologiya Kompleksin Lahiyəsi 1988-ci ildə Avstriyada keçirilən "Tibb idarələri lahiyələri" müsahibəsində birinci yeri tutmuşdu.

Yer üzünün bütün ANAları əsrarəngiz, əvəzedilməz, qeyri-adi bir yüksəklikdir. Ən uca zirvə! Ana ilə başlayır Vətən də. Və bu da heyrətamizdir ki, dünyanın qərb məkanında narın cizgilərlə tərtib olunub yaradılan və dünyəvi də müsabiqəyə təqdim olunan lahiyə, məhz Azərbaycanın görkəmli oftalmoloqu alim ANA Zərifə xanım Əliyevanın taleyinə yazılmış. Bakıda yaradılan oftalmologiya kompleksi o Yanar Qəlbin adını daşımaqla böyük arzusunu həyata keçirmiş möhtəşəm, müqəddəs bir İşıq Məbədidir. Elə bir məbəd ki, şəfqəti dünyanın özünə yetər. O məbəd ki, yaradıldığı zamandan, insanlar zülmətin məngənəsindən qurtulmaq üçün onun ümid işığına pənah gətirir. Və tarix yazıldığıca, o gözəl insanın əziz xatirəsi tək bir cümlədə, onun haqda yazılan bütün kitabların, bütün ali kəlmələrin ən yüksək nöqtəsində şəfəq saçacaq:

- Yanar Qəlbi ilə...

Öz Azərbaycan xalqının böyük sevgisini qazanmış Zərifə xanım Əziz qızı Əliyeva.

Bəli, onun ən böyük mükafatı Azərbaycan xalqının tükənməz sevgisi oldu. Xalqına yetərincə çatacaq dünyanın özü boyda işıq vardı Zərifə xanım Əziz qızı Əliyevanın Yanar Qəlbində.

# İŞIQ SƏHİFƏLƏR

**Akademik Zərifə Əziz qızı Əliyeva**
**Milli Oftolmologiya**





## ALİM ANA

Görkəmli alim xanımın cəmiyyət və dövləti üçün yetişməsində, dövlət xadimi Əziz Əliyevin böyük rolu olmuşdu. Əziz Əliyev, Azərbaycan xalqının tarixində yüksək əziyyətləri, yeri olmuş, mühüm dövlət postlarında çalışmış, daim milli dəyərlərə söykənmişdi. Yaradıcı illərinin 20 ildən çoxu, Azərbaycandan kənarda – Böyük Vətən müharibəsi zamanlarında, İranda, Dağıstanda və Moskvada keçmişdi. Azərbaycan xalq yazıçısı İmran Qasımov: - *“Doğma torpaqlarından uzaq Əziz Əliyev, müqəddəs idealların qəhrəmanı idi. Azərbaycanı, xalqı uğruna.”*

**Cəmiyyətin Həkimi...**

Əziz Əliyevin əsli, İrəvan mahalından olmuş. Azərbaycanın Şərqi – İrəvanı erməni güclərinin siyasi məkri, vəhşilikləri sayəsində, tədriclə zəpt edildikdə, məcburən ailəsi və türk əhalisi ilə bərabər Bakıya köçmüşdü.

...Əziz Əliyev, 1897-ci ilin yanvarında İrəvanda doğulmuşdu. Yetkin həddə çatanda, ictimai-siyasi fəaliyyət göstərməsinə, erməni şovinistləri ona imkan verməmişdi. Azərbaycan türklərinə qarşı törədilən soyqırım siyasətindən hər zaman əziyyətlər çəkmiş, məcbiriyyət qarşısında İrəvanı tərk etmişdi. Faciəli hadisələr, erməni hiyləgərliyi onu ruhdan salmamış, bilik və bacarığı sayəsində, səxsi nüfuzunu, əzəmətini qoruyub saxlamışdı.Azərbaycan tibb elminin aparıcı alimlərindən olan Əziz Əliyev, dövlətin hər postunda, xalqının rəğbətini qazanmışdı.

**Akademik Mustafa Topçubaşov:**

***- Cəmiyyətin həkimi Əziz Əliyev... Və əslində, cəmiyyətin özü də canlıdır. Onun da öz həkiminin olması, təbiidir. Əziz heç kəslə müqayisə edilə bilməz. Təbabətin babası Hippokrat, həkimlər haqda andı, Əziz Əliyev kimilərinə baxıb yazmışdı.”***

*Səndən sonra* Dərbəndimin gözləri,
*bulud kimi dolmalıydı,doldu da.*
*Heydər böyük olacaqdı,demişdin...*
*Heydər böyük olmalıydı, oldu da.*
*Ürəyinə sığınmışdı bu Vətən,*
*Araz Vətən, Dəniz Vətən, su Vətən.*

*Gözümüzə çıraq oldu Zərifən,*
*Yurdun üstə yanmalıydı, yandı da.*
*Nalə çəkdi İrəvanda, yurd yeri,*
*Yurd verilmir, bil, alınır yurd yeri,*
*Alnımızda möhür yeri, yurd yeri,*
*Allah kömək durmalıydı,durdu da.*
*Düşmən görsən kəs cığırın, əzizin,*
*Sən başısan hər doğmanın, əzizin,*
*Yurdumuzda əziz olan Əzizin,*
*Düşməni mat qalmalıydı, qaldı da.*

*Bir zaman Əziz Əliyev xanımı Leylaya söyləmişdi: -" Heydərin gələcəyi parlaqdır."*

Əziz Əliyev, Zərifə xanımın gələcəyini parlaq görür, Azərbaycanın sabahında əmin idi. Zərifə Əliyeva, yaşadığı dövrün, quruluşun siyasi mənzərəsini tam aydın görürdü. Çünki, atası – ictimai-siyasi xadim, tanınmış dövlət xadimi Əziz Əliyev, mövcud ictimai quruluşun siyasi burulğanından keçmiş və onun müxtəlif məqamlarını vaxtı-vaxtında layiqincə qiymətləndirən, təhlil və sintez edən bir insan olmuşdu. Onun ictimai-siyasi fəaliyyəti çox da rəvan olmamışdı. Rejimin "parçala, hokm sür!" siyasəti şübhəsiz ki, Əziz Əliyevdən yan keçməmiş. Ona görə ki, Əziz Əliyev öz xalqına bağlı olan, istedadlı, izgüzar, işini mükəmməl bilən, ləyaqətli bir insan olmuşdu. Bir tərəfdən, Azərbaycana rəhbərlik edən Micəfər Bağırovun münasibəti,digər tərəfdən də gizli xidmət orqanların əli Əziz Əliyevdən uzaqda deyildi, hər an onu izləyib məhv etməyə çalışırdı.Bu məkirli siyasətdən baş çıxarmağ üçün yüksək ağıl, dərin bilik və dözümlü iradə lazım idi.Əziz Əliyevin mütəşəkkil, aydın, sülhsevərliyi, xalqına böyük məhəbbət hissi,güclü siyasəti və bir də Böyük Tanrı onu fiziki mənada məhv olmaqdan qorumuşdu.

Əziz Əliyev zamanının böyük haqsızlıqlarına düçar olmuş və möcüzə nəticəsində 1938-ci il represiyalarından xilas ola bilmişdi. Böyük tarixi şəxsiyyət Heydər Əliyev o güclü insanın 110 illik yubiley kürsüsündə onun haqda söyləyərək, özünün də o represiyalardan ağır əziyyətlər çəkdiyini qeyd etmişdi. Hətta, Əziz Əliyevin qızı Zərifə xanımla ailə qurmaq məqsədinə qarşı yasaq qoyulmuşdu.





**Heydər Əliyev:**

***- 1953-cü ilin əvvəllərində hər şey ona doğru gedirdi ki, Əziz Əliyevi həbs etməli, ailəsini isə, Micəfər Bağırovun göstərişi ilə sürgünə göndərməli idilər. Lakin, 1953-cü ilin martında Stalin vəfat etdi. Həmin ilin yayında isə, Micəfər Bağırovu əvvəl işdən çıxardılar və sonra da həbs etdilər. Bundan sonra isə, 1954-cü ilin noyabrında zərifə xanımla ailə həyatı qurmağa nayil oldum.***

Əziz Əliyev Azərbaycanda və Dağıstanda işlədiyi illərdə elm xadimləri ilə sıx təmasda olmuşdu.Yüksək səviyyədə savalı, mədəni adam olduğuna görə, həmişə məhz ziyalı mühiti ilə təmasda olmağa çalışmışdı. Əziz Əliyevin getdiyi əzablı yollarında qızı Zərifə xanım Əliyeva da həyatın bütün acı-ağrılarını dadmış və yaşamışdı.

Zərifə xanım Əliyeva ailə qurduğdan sonra da ikinci çətin bir həyata başlamışdı.Çünki, onun ailə qurduğu insan, qeyri-adi istedada malik Heydər Əliyev idi.

Heydər Əliyev SSRİnin rəhbərlərindən biri kimi, çəkişmələrin, ziddiyyətlərin tam mərkəzində dayanmaqla, hadisələri xalqların milli azadlıq, elm, mədəniyyət və sürətli inkişaf aspektlərinə yönəltməyə çalışırdı.Heç şübhəsiz ki, bu mövqe, hakimiyyət hərisləri tərəfindən müsbət qarşılanmamışdı.Moskvada, həm bədxah qonşularımız onun sağlam mövqe yürütməsini heç vaxt qəbul etməmişlər.Lakin, Heydər Əliyev möhtəşəm idi.Onun mükəmməl siyasəti, ağıl və düşüncəsi, zəngin biliyi bütün maneələri dəf edir, bütün dünya xalqlarının azadlıq çırpıntılarına dəstək verir, naliyyətlərinin əldə olunmasına çalışırdı. Heydər Əliyev bəşəri düşüncəyə malik, tam fərqli, əsil rəhbər bir insandı. Və onun bu nadir bənzərsizliyi, ətrafında dolaşan qara kölgələri hər zaman narahat etmiş və onun işıqlı düşüncələrini, gərgin mübarizə gücünü sarsıtmağa çalışmışlar.

Heydər Əliyevə dəyən zərbələri ilk növbədə, onun ömür-gün yoldaşı-sirdaşı Zərifə xanım Əliyeva duyurdu. Onların taleyi, elmi-ictimai, siyasi fəaliyyətləri zaman-zaman bir-birinə təsir etmiş, inkişafa doğru yönəlmişdi. Hər zaman biri-birinə böyük dəstək olmuşlar.

Sovet İttifaqı Kommunist Partiyasının Mərkəzi Komitəsinin Siyasi Bürosunda Heydər Əliyeva qarşı baş qaldıran amansız çəkişmələri də ilk olaraq, Zərifə xanım Əliyeva hiss etmişdi. Zərifə xanım Əliyeva bu acı-ağrıları atası Əziz Əliyevin siyasi fəaliyyəti

dövründə dadsa da, onun tam mahiyyətini yalnız, Heydər Əliyev Moskvada işlədiyi zaman başa düşmüşdü. Bütün bu ziddiyyətlər Zərifə xanım Əliyevanın səhhətinə də öz təsirini göstərmişdi. Zərifə xanım Əliyeva onu başa düşmüş, yaşanan bütün çətin anlarda ona mənəvi dayaq olmuşdu.

Zərifə xanım Əliyeva sözün əsil mənasında, yüksək keyfiyyətlərə malik gözəl insan olmuşdu. O, hər bir insana qayğı ilə yanaşmış, doğma diqqət göstərmişdi.O, ömür boyu etika problemləri ilə ciddi məşğul olmuş, insanların şəxsiyyətini, uca tutmağı bacarmışdı.

Zərifə xanım Əliyeva heç bir zaman qadınların üstün imtiyazlara nayil olmaları uğrunda mübarizə aparmamışdı. Əksinə, özündə elə bir güc tapmışdı ki, "güclü məxluq" hesab olunanlara özünün nəinki bərabər olduğunu, hətta bəzən onlardan üstünlüyünü də sübut edə bilsin. Onun məhz bu mövqeyi, qadının müasir cəmiyyətdə yerinin, onun sosial və ictimai statusunun müəyyənləşdirməsinə misilsiz xidmət göstərmiş və mənəvi dünyamıza qadın ürəyinin mürəkkəb və psixoloji zənginliyini gətirmişdi.

Zərifə xanım Əliyevanın mükəmməl yetişməsində anası Leyla xanımın da böyük təsiri olmuşdu.

Zərifə xanım bir ana kimi də xalqının milli, mənəvi, əxlaqi dəyərlərini özündə cəmləşdirmişdi. İki övlad anası olmuşdu. Məsul vəzifələrdə işləməsinə baxmayaraq, evdarlığı, qayğıkeşliyi ilə də fərqlənmişdi.Əsas gözəlliyi, onun sadəliyi olmuşdu.

Zərifə xanım Əliyeva təkcə öyrənməmiş, tədqiqatlarla məşğul olmamışdı.O,eyni zamanda tələbələrlə, gənc həkimlərlə söhbət edər-kən, onlara həssaslıq və diqqətlə yanaşmışdı. O, həmişə məntiqlə danışmış, yüksək natiqlik qabiliyyəti ilə fərqlənmişdi. Qeyri-adi düşüncə tərzi ilə müsahibini heyran etmiş,ən adi həyat həqiqətlərində yenilik və bəşərilik işığı yandıra bilmişdi.

Zərifə xanım Əliyeva gəncliyə, yeni nəslə həmişə böyük ümidlərlə baxmışdı.Onun elmi-pedaqoji yaradıcılığının əsasında elmi biliklərə yiyələnmək üçün daima axtarışda olan, düşünən, çevik gənclik və yeni nəsil dayanmışdı.O, övladları Sevil və İlhamın da təlim-tərbiyəsində məhz bu amili əsas götürmüşdü.

Əliyevlər ailəsi, ədəbiyyat və incəsənətlə də sıx bağlı olmuşdu. Böyük musiqi və ədəbiyyat xadimləri ilə hər zaman əlaqə saxlamışlar.Azərbaycan xalqının mədəniyyətinin inkişafında





müstəsna xidmətləri olan şair və yazıçılara, bəstəkarlara, rəssam və heykəltəraşlara, müğənnilərə daim yüksək rəğbət bəsləmişlər və xidmətlərini yüksək qiymətləndirmişlər.

Heydər Əliyevin Azərbaycanın incəsənəti və ədəbiyyatının Üzeyir Hacıbəyov, Qara Qarayev, Müslüm Moqamayev, Bülbül, Niyazi, Səməd Vurqun, Süleyman Rüstəm və bir çox başqaları kimi görkəmli xadimləri ilə çox yaxın, ailəvi münasibətləri olmuşdu. Heydər Əliyev, qeyri-adi işıqlı şəxsiyyət insan yetişdiyi üçün, mükəmməl mədəniyyət, bilik və tükənməz təcrübə sahibi idi. Zərifə xanım Əliyeva, sanki onun erkən həyatına bəxş olunan Tanrının misilsiz hədiyyəsi oldu. Əlbəttə o, lap gənc yaşlarından ictimai-siyasi cizgiləri köklü dərk etməsəydi, Əziz Əliyevin həyat yoluna şüurlu şəkildə daxil ola bilməzdi. O, gələcəyini sağlam düşünərək, atdığı hər bir addımı qətiyyətli oldu. Və proqnozlaşdırdığı işıqlı, böyük gələcəyini qazandı. Hər iki həyat yoldaşı sevgi ilə bir-birini tamamlayanda, ailə və cəmiyyət uğruna qazandıqları mükəmməl olur. Heydər Əliyev və Zərifə xanım Əliyeva cütlüyü, sözün əsil mənasında Tanrının mübarək qələm yazısı idi.

Uşaqlığ və gəncliyini Zərifə xanım Əliyeva ilə bərabər keçirdiyini söyləyən tarixçi alim Püstə xanım Əzizbəyova o zamanın məhrəm fərdliyini tarixçi düşüncələrinin süzgəcindən belə etirafına yetərincə cəsarət etməmiş. O zaman, bəlkə də, təsəvvürünə gətirə bilməmiş ki, Zərifə Əziz qızı ilə bərabər keçirdiyi çağdaş və yeniyetmə həyatı gələcək dövlət kitabınlarında maraqlı və önəmli tarixə yazılacaq?! Və əslində Püstə xanım Əzizbəyova düşüncələrində yanılmış... çünki, gözəl olan hər bir gerçək haqqında yazmaq çox asandır. Şər qüvvələrin - əhrimənlərin yaratdıqları pis olanların hekayətlərini yazmağ çətindir. Hətta, düşünmək dəhşətlidir. Qaldı, dünya təbabətinin fərqli fədaisinin həyatı – Zərifə xanım Əziz qızı... O, həqiqi qeyri-adi bir İşıqdır! Ki, bu gün də ziyası, yeni tibbin oftalmoloq fədailərinin yetişməsində şəfəqlənməkdədir. Və ağlının gücünə, ürəyinin yanqısına alışaraq R.Bahar Sonam əbədi bir ANA MƏBƏDİ yaradır, ucaldır: Zərifə xanım Əliyevanın əziz xatirəsinə. Çünki, onun Anası Sona xanım, qapısına pənah gətirən insanların gözlərinə təmən-

nasız işıq verib. Zərifə xanım Əliyeva haqqında “Yanar Qəlb” adlı bir ocağı yaratmağ istəyinə 2000-ci ildən başlamışdı müəllif. Əlbəttə, ürəyində hər zaman göynəyən Anasının həsrətində.

*...Memar Əcəmiyə Möminə Xatun türbəsini inşa etməyə Naxçıvanın Sultanı təklif edəndə, o susmuş və üzgüncə etirazını bildirmiş. Lakin sonra, ANAnın şərəfinə baş əymiş.*

*Memar Əcəmi qəlbini amansız yanqınlara atan nakam həsrətinin şöləsində yana-yana Möminə Xatun məqbərəsini yaratmağa başlayıb. Çünki Memar Əcəmi, haksız zindana salınarkən, sonradan elinə vəba yayılmış. Nişanlısına gözü düşən obanın məkirli dargası, qızı atası ilə bərabər yaşadıqları komalarında od vurub yandırmış. Külün içindən tapılann nişan üzüyün sonsuz kədərində Möminə Xatun türbəsini yaratmış, Memar Əcəmi.*

*Möminə Xatun türbəsinin hər bir naxışı, Memar Əcəminin nakam göz yaşlarıdır.*

***...Bilmirəm...***
***dünyanın***
***hansı yerində,***
***hansı rəngində –***
***bəyazında,***
***ya qarasında arayıb***
***mən tapım səni?!***
***Axır ki,***
***bir tapım səni.***
***Bilmirəm...***
***bilmirəm...***
***İlahi,***
***bilmirəm!***
***Bir Ana şəfqəti önündə,***
***mən sənin acını***
***əzib də keçdim.***
***Amma,***
***sən əzdiylərimi***
***canımdan qoparıb***
***qanımla***
***daşlara köçürdüm –***
***tarixə yazdım.***





***Bu Möminə Məqbərənin***
***hər bir cizgisi dərtdi,***
***ələmdi...***
***hamı mənimdi,***
***zəhərdən lap acı***
***həsrəti sən...***
***Bir memarın***
***yarada bildiyi,***
***amma, acısını***
***çəkə bilmədiyi***
***Bu, mən Memar Əcəminin***
***nakam lal hekayəti.***
***Tarixdə***
***Möminə Xatun türbəsi***
***yaşadıqca,***
***o söyləyəcək,***
***kədərli,***
***lal.***

...Heydər və Zərifə hekayətini də pozmağa çox çalışmış Micəfər Bağırovun qanlı rejimi. Lakin, güclü ağıllı və möhkəm iradəli sevən insanın böyük sədaqəti sayəsində, aparılan mübarizə öz bəhrəsinə nayil olub.

Zərifə xanım Əliyevanın hər bir şəklinə diqqət edəndə, əlbəttə o, dünyəvi elm xadimi cazibəsindən daha çox, ürəyində, bəlkə də daha məhrəm nələri isə qoruyub saxlayan və heç bir zaman kimsəyə açmayan müqəddəs çırpıntıları var. Mən, bir yazıçı kimi yox, ürəyində acı həsrəti yaşadan həssas bir insan kimi hiss edirəm. Və bu həqiqəti yazıram.

Zərifə xanım Əliyevanın nurlu çöhrəsində qeyri-adi sirli, məhrəm bir hekayət var. Və bu hekayəti ANA hər zaman mənə danışır. O qədər doğma, əziz ki...

*Baş qoyum ayaqlarına,*
*hər bir izinə...*

*hər naxışa –*
*toxunum da əllərinə...*
*başqa nə edim, Anacan?!*
*Taley məni yuvamdan,*
*yurdumdan qoparıb*
*bir yarpaq kimi*
*dənizlərdən,*
*dağlardan,*
*ormanlardan*
*sərhədlərdən keçirib*
*atıbdı daş qəribliyə.*
*Bir zaman özündən –*
*canımı ovsulayan*
*o doğma Ana nəfəsindən*
*kənar qoymazdın məni.*
*Möhkəmcə tutardın*
*hər zaman sənə can atan*
*əllərimi sən.*
*İndi büsbütün yaşamım –*
*həyatımın hər bir naxışı*
*sənə həsrət.*
*Dünyada tək sərvətim*
*sənə həsrətim.*
*Çəkə bilməyərək çəkirəm!*
*Dünyanın acılarından böyükdü.*
*Amma, necə çəkirəm?!*
*Bu, möcüzədir!*
*Elə tənhayam ki, sənsiz.*
*Xəyalının,*
*xatirələrinin odundan,*
*alovundan keçirəm,*
*hər zaman...*
*başqa nə edim, Anacan?!*
*Sən elə bir sehirsən ki,*
*nə var,*
*nə hakimiyyət,*
*nə səndən qopanlar*
*əvəzini verməyir...*
*sənin Anacan.*





*Sən demə, can sən imişsən?!*
*Bu həqiqəti hər zaman*
*dərk etdim, Anacan!*
*Daha nə edim?..*

Əlbəttə, Zərifə xanım Əliyevanın yüksək, nurlu ehtiramına, elmin hər bir sahəsinin seçilmiş, mükəmməl sənət insanları etiraf etmək gücünə və haqqına layiqdirlər. Çünki, Zərifə xanım Əliyeva şəfqətin yaradıcısı və əsil müəllif sahibidir. Bu misralarda o qədər böyük və əvəzsiz həqiqət var ki:

– Heydər Əliyev Zərifə xanımla həyatın çox acı-ağrılarını dadmışdı. Amma, bütün çətinliklərə sinə gərərək, mənalı və şərəfli həyat yaşamışlar. Allah-Təalanın yaratdığı bütün fərqliliklər həmişə böyüklüyü ilə seçilib. Zərifə xanım Əliyevanın taleyinin nəsibi elə olub: Fərqlilik! Onun qismətinə ömür yoldaşı Heydər Əliyev yazılmışdı: Rəhbər xarakteri, rəhbər böyüklüyü, rəhbər əzəməti və möhtəşəmliyi. Əlbəttə Heydər Əliyev Tanrı tərəfindən seçilmiş rəhbər insandı.

Və bu gün hər ikisinin böyük zəhmətinin tam fərqli işığını, Azərbaycanın dövlət rəhbəri kimi, İlham Əliyev yaşadır və davam etdirir.

# BİR İŞIĞIN XATİRƏLƏRİ
# E T İ R A F L A R . . .





## ALİMLİK ZİRVƏSİ

Zaman keçdikcə olduqca vacib və əhəmiyyətli bir şeyi xatırlayanda, bəzən sondan başlamalı olursan. Üstəlik tanıdığın adamın ölümü həmişə vaxtsız, ağrılı və qeyri-təbii görünür. Zərifə Əziz qızı Əliyevanın məzarı önündə hər dəfə eyni sözü təkrar edirəm: "olabilməz", "mümkün deyil"... Bir Şərq mütəfəkkirinin dediyi kimi, "hətta bildiyimiz şeyə də inanmağımız gəlmir". İndi də belə idi: Zərifə xanım haqqında xatirələr o qədər canlıdır ki, ölümü belə yaxına buraxmır. Yəqin ki, bu hissləri başqaları da yaşayıb: Alimlər Evinə sonuncu dəfə vida sözünü deməyə insan dənizi axışıb gəlmişdi, onların duruşundan, baxışından, sözündən dərin və hüznlü bir kədər oxunurdu. Hətta indi, üstündən xeyli zaman keçdikdən sonra da adama elə gəlir ki, heç vaxt belə izdihamlı dəfn mərasimi görməyəcək.

Dəfn mərasimi həmişə ağır olur. Onu bir qədər təntənəli şəkildə də təşkil etmək mümkündür. Hətta bəzən təntənəli dəfn mərasiminə rəsmiyyətçilik də əlavə olunur. Amma Zərifə xanımla sonuncu vida mərasimi tamam başqa cür idi. Hər şeydən əvvəl hamıda bir ürək yanğısı, ürək ağrısı vardı. Qəbiristanlığın darvazası önündə narın yağış damcıları altında bir qarının dediyi sözlər sanki adamların fikirləri ilə həmahəng idi: "O müqəddəs imiş". Əlbəttə qarının dedikləri bir qədər təsadüfi idi. Çünki o məhz kimin torpağa tapşırıldığını bilmirdi və qarı sadəcə olaraq qədim bir dini inama tapınırdı: belə ki, pasxada ölənlər cənnətə düşür. Amma heç təsadüfi deyildi ki, dəfn mərasiminə toplaşanlar qarının dediyi "müqəddəs" sözünü Zərifə xanımın işıqlı siması ilə, onun insani saflığı, alicənablığı, ailəsinə və işinə vurğunluğu ilə əlaqələndirirdi. Belə bir ülvi insanla ünsiyyətdə olmaq hamının yaddaşında dərin iz buraxır.

Heç şübhəsiz ki, hər birimizin az qala hər həftə, hər gün üz-üzə gəldiyimiz dost-tanışı var, adət etdiyimiz bu görüşlərdə onlarla xatirələrimizi bölüşmək istəmirik. Zərifə xanımla mənim görüşlərim az olub, amma bu görüşlərin təəssüratlarını bölüşməyə dəyər.

Biz ilk dəfə görüşəndə onun məhz Zərifə xanım olduğunu bilmədim. Bu, təsadüfən Qara dəniz çimərliyində olmuşdu. Biztanış edildikdən sonra ayrıldıq, iki-üç gün sonra yaxınlıqda lövbər salan gəminin göyərtəsində görüşdük. Dənizçilər konsert təşkil etmişdilər. Elə təsadüfi tanışlığımızın ilk dəqiqələrindən Zərifə xanımın

bir istedadını - ətrafda baş verənlərə qaynayıb-qarışmaq bacarığını sezmişdim. O, heç bir çətinlik çəkmədən istənilən toplantıda, istənilən məclisdə öz yerini tapırdı. Əlbəttə, çoxları bu cür keyfiyyətə yiyələnmək istəyir, lakin bu hamıya müyəssər olmur. Görünür, bu da təbiətin bəxş etdiyi vergidir.

Bir neçə il sonra mən Zərifə xanımı vaxtaşırı həmkarları arasında görməyə başladım. Eyni peşə sahiblərinin yığışdığı məclisin də özünəməxsus "diplomatiyası", necə deyərlər, oyun qaydaları var. Burda da Zərifə xanımın ünsiyyətində bir incəlik, səmimilik nəzərə çarpırdı və tezliklə hamının qəlbini ələ ala bilirdi. Təbii ki, o hamıya eyni gözlə baxa bilməzdi; bu sadəcə olaraq mümkün deyil. Xeyirxahlıqla sadəlövhlüyü heç vaxt eyniləşdirmək olmaz. Lakin o bunu heç kəsə sezdirməzdi. Zərifə xanım elə güclü şəxsiyyət idi ki, mənliyində qalmaq şərti ilə bir kimsənin xətrinə dəyməzdi. Hamı bilirdi ki, Zərifə xanım ona üz tutanların hamısına imkan daxilində kömək etməyə hazırdır. Əlbəttə bundan sui-istifadə edənlər də az deyildi.

Zərifə xanım dəvət edildiyi bir çox tədbirlərə vaxt məhdudluğu ucbatından sadəcə olaraq gəlməyə bilərdi. Lakin o, hətta vaxt azlığına və səhhətinə təsir göstərməsinə baxmayaraq həmin tədbirlərdə iştirak etməyi özünə borc bilirdi. Zərifə xanımın laureat adı alması münasibəti ilə təşkil olunmuş kiçik bir ziyafət məclisini heç cür unuda bilmirəm. Zərifə xanımın məclisə gəlişi ... Biz bir-birimizə bir neçə söz dedik. Nə qədər istiqanlı bir münasibət! Üstəlik bu sözlərin nə o görüşə, nə də boğazdan yuxarı söylənən təbriklərə və sağlıqlara dəxli yox idi. Adi, ayaqüstü bir söhbət idi. İnsani keyfiyyətləri, hər şeyi incəliyi ilə qiymətləndirmək bacarığı, adamlarla dil tapmaq qabiliyyəti ictimai işdə də Zərifə xanımın (üstəlik o, böyük ictimai xadim idi) əlindən tuturdu. Zərifə xanım uzun müddət Sülhü Müdafiə Komitəsinin üzvü, Azərbaycan "Bilik" Cəmiyyətinin üzvü, Oftalmoloqların Elmi Cəmiyyətinin Rəyasət Heyətinin üzvü, "Oftalmologiya xəbərləri" jurnalının redaksiya heyətinin üzvü olmuşdur. Əlbəttə, bütün bunlar çoxlu enerji tələb edirdi, lakin Zərifə xanıma "ictimai yük" ifadəsini aid etmək düzgün olmazdı. Bu onun təbiəti üçün adi hal idi.

Mən həmişə belə hesab etmişəm ki, (bəlkə də çoxları mənimlə razı deyil) faydalı ictimai fəaliyyət üçün də istedad lazımdır. Necə ki, cərraha, riyaziyyatçıya, dövlət xadiminə istedad gərəkdir.





Zərifə Əziz qızında belə bir istedad var idi. Odur ki, ona üz tutan artistlərlə, incəsənət adamları ilə asanlıqla dil tapa bilirdi. Bir həkim kimi mən dəfələrlə müşahidə etmişəm ki, bu xüsusiyyət yalnız istedadı və güclü hissiyatı olan adamlara məxsusdur. Sonuncu vida anlarında onun tabutu önündə görkəmli müğənni elə yanğılı səslə oxudu ki, hamının ürəyinin başı göynədi. Bu cür yanğıyla yalnız dərdi ürəyinə salan adam oxuya bilər.

Təbii ki, mənə Zərifə Əziz qızının həyatının peşə tərəfi daha çox tanışdır. Belə ki, o mənə məsləhət üçün müraciət edir, elmi şuralarda, konfranslarda, redaksiya heyətinin iclaslarında görüşürdük. Burda da o, beş nəfərin əvəzinə işləyir, işə ürəkdən can yandırır, daim hərəkətdə, daim yenilik axtarışında olurdu. Akademik, professor, kafedra müdiri, elmi-tədqiqat problem laboratoriyasının müdiri kimi Zərifə xanımın həmişə işi başdan aşırdı.

O, tibb elminin elə bir sahəsində tədqiqatlar aparırdı ki, mənim fikrimcə, burda vəziyyət bir qədər təzadlı şəkil almışdı. Əmək heç də mücərrəd bir şey deyil, hər şeydən əvvəl fabriklərdə, zavodlarda, tarlalarda, laboratoriyalarda, dəzgah arxasında iş deməkdir. Əmək insanı yaratmaqla yanaşı istehsalçı üçün xüsusi həyat şəraiti də yaradıb. Odur ki, insanın sağlamlığı ilə hesablaşmamaq olmaz. Və ən nəhayət, insan öz iş yerində şüurlu həyatının üçdə birini keçirir. Bizim zəmanədə işçinin bütün gücüylə fəaliyyət göstərməsi üçün görmə qabiliyyətinin vəziyyətindən çox şey asılıdır və müasir cəmiyyətdə görmə qabiliyyətinin yaxşılaşdırılmasına tələbat günü-gündən artır. Bununla yanaşı həmin mövzuya həsr olunmuş fundamental elmi əsərlər yox idi, yalnız ayrı-ayrı elmi fraqmentlər mövcud idi.Üstəlik onlar da vahid elmi sistem halında toplanmamışdı. Zərifə xanım kimi sosial həssaslığa malik olmaq lazım idi ki, öz istedadını, bilik və bacarığını olduqca çətin, mürəkkəb və xeyirxah, eyni zamanda heç də həmişə layiqincə qiymətini almayan bir sahənin xidmətinə sərf edəsən.

Zərifə Əziz qızının səyləri nəticəsində ilk dəfə görmə orqanının peşə patologiyasını araşdıran elmi-tədqiqat laboratoriyası yaradıldı. O vaxta qədər belə bir laboratoriya mövcud olmamışdı. Necə deyərlər, "yox yerdən" elmi laboratoriya yaradanlar bunun nə qədər qüvvə və bacarıq tələb etdiyini yaxşı bilir. Əlbəttə, birdən-birə əmək fəaliyyətinin bütün sahələrini əhatə etmək və hər sahədə görmə qabiliyyətinin mühafizəsi üçün başlıca olaraq hansı

tələblərin olduğunu müəyyən etmək çətin idi. Belə məqamda heç şübhəsiz, istinad nöqtəsi tapmaqdan, nədən başlamaqdan çox şey asılıdır. Və Zərifə xanım istəyinə nail olur: kimya sənayesində göz xəstəliyi - bu sahə mürəkkəbdir, az öyrənilib, amma böyük kimya və elmi-texniki inqilablar dövründə bu mövzu olduqca aktualdır! Hətta gətirdiyim bu misaldan aydırı görünür ki, onun elmi fəaliyyətində həyat reallığı ilə əməli tələblər arasında necə də sıx əlaqə var. Onun bütün elmi son nəticədə birbaşa əməli təcrübəyə əsaslanır və üstəlik tetbiq olunur. Belə bir lətifə söylənilir ki, bizim günlərdə ciddi elmi kəşf etmək, ən adi səmərələşdirici təklifi istehsalata tətbiq etməkdən qat-qat asandır. Amma güclü, istedadlı və haqq işinə inamı olan şəxsiyyət kimi Zərifə xanıma bütün bunlar müyəssər olurdu. Şübhə etmirəm ki, əcəl Zərifə Əziz qızına bir neçə il də möhlət versəydi, o, elm aləmində yeni bir istiqamətin yaradıcısı və rəhbəri ola bilərdi. Onu “peşə oftalmologiyası”, yaxud “sosial oftalmologiya” adlandırmaq mümkün idi.

Xatirələrimdə heç də Zərifə Əziz qızının bütün elmi irsinin sistemli təhlilini vermək məqsədində deyiləm. Amma onun dünyagörüşünün genişliyini, tibb elminin, necə deyərlər, “xam sahələrinə” necə maraq göstərdiyini sübut etmək üçün iridodiaqnostikaya həsr olunmuş bir kitabını yada salmaq lazımdır (Belə ki, o bu mövzuda yazılan ilk kitab idi). Hələ iki min il əvvəl də göz quruluşunun xüsusiyyətlərinə görə (konkret olaraq gözün şəffaf təbəqəsinin dəyişikliyinə görə) xəstəliyə diaqnoz qoymaq cəhdləri olmuşdur.

Təbii ki, cəhd etməklə hər hansı bir ideyanı həyata keçirməyin arasında yerlə göy arasındakı qədər fərq var. Yalnız bizim günlərdə belə bir qanunauyğunluq elmi şəkildə öz təsdiqini tapıb. Məsələn, barmaqların üzərindəki xətlərlə bəzi irsi xəstəliklərin arasında uyğunluq olduğu artıq elm aləminə məlumdur. Yalnız bizim günlərdə 6000 ildən çox qədim təbabətdə tətbiq edilən iynəterapiyasının (iynə batırmq yolu ilə müalicə) nə demək olduğu azacıq da olsa aydınlaşır.

Hətta ən istedadlı fərziyyənin ətrafında (əgər o, elmi cəhətdən əsaslandırılmayıbsa) həmişə müxtəlif şişirtmələr, qəsdən və bilməyərəkdən müxtəlif uydurmalar, bir az da kəskin desək şarlatançılıq dolaşır. Suallar öz həllini tapanacan onları təbiətin qarşısında qoymaq lazımdır. Təsadüfi deyil ki, başqa birisi yox,





məhz Zərifə xanım “İridodiaqnostika” kimi nəhəng elmi monoqrafiyanı yazmağa və nəşr etməyə girişmişdi. Həmin monoqrafiya elə kitab mağazalarının rəflərində görünən kimi yoxa çıxmışdı. Zərifə xanımın elmi cəsarəti onun elmi təvazökarlığı ilə üst-üstə düşürdü. Hər iki insani keyfiyyət bir-biri ilə çox vaxt ziddiyyətdə olmasına baxmayaraq onlar Zərifə xanımın timsalında eynilik təşkil edirdi. Elmi nailiyyətlərinə görə o, Tibb Elmləri Akademiyasının mükafatına layiq görüləndə bütün səmimiyyəti ilə təəccübləndi: “Nə üçün məhz mənə?” Zərifə xanım təkcə elm aləmində yox, həyatda da məhz bu cür səmimi idi.

Bütün bunlarla yanaşı, o həm də məktəb yaratmışdı. Onun əməkdaşlarına göstərdiyi səmimi münasibətdə ümumiyyətlə, insanlara olan sevgisi öz əksini tapmışdı. Əslində onun heç iş otağı da yox idi. “O, mənim nəyimə lazımdır ki?” – deyərək şagirdlərinin yanına yollanırdı. Zərifə xanım işinin gərginliyinə baxmayaraq həmişə bir qadın olaraq qalırdı. Özünün cazibədarlığı ilə, mülayimliyi ilə, heyranlığı ilə... Zərifə xanımın ailəsinə necə də sevgiylə, qayğıyla yanaşdığını onu yaxından tanıyanlardan dəfələrlə eşitmişəm. Bu, heç şübhəsiz ki, hamını valeh edir, ona qarşı hörmət hissi aşılayır və eyni zamanda təəccübləndirirdi: “O, bütün bunlara necə nail olur?”

İstedadlı bir şair özü haqqında yazır ki, “mənim bəxtim doğrudan da gətirib, amma bu azdır”. Doğrudan da Zərifə xanım az yaşadı. Hətta qədim Romada belə 60 yaş ömrün kamillik dövrü sayılırdı. Zərifə xanım istedadı və həyat enerjisi ilə gələcəkdə çox işlər görə bilərdi! O, ölüm yatağında xəsləliyi ilə necə də mübarizə aparırdı! Müalicə ağır idi, ağrılı idi. İnsanı təkcə fiziki cəhətdən yox, həm də psixoloji cəhətdən yorub əldən salırdı. Fəqət nə mən, nə də mənim tanışlarım bir dəfə də olsun ondan kiçicik giley-güzar eşitmədik. Ömrünün sonuncu anına kimi o, həyatla, gələcək planlarla yaşayırdı. Görəsən, ölümün yaxınlaşdığını bilirdimi? Demək çətindir. Ağır xəstəliyə düçar olan, ölümünün yaxınlaşdığını hiss edən xəstələrin çoxu sanki vaxtından bir az da əvvəl həyatdan əlini üzür, ümidsizliyə qapılır; həyatla və insanlarla öz arasında gözə görünməyən qara bir pərdə çəkir. Burda isə vəziyyət bambaşqa idi. Bəlkə də Zərifə xanım çarəsiz xəstəliyə düçar olduğunu bilirdi, amma bunu ətrafdakılara hiss etdirməməyə çalışırdı.

1984-cü ildə tibb işçiləri günü qeyd olunurdu. Zərifə xanım həmin dövrdə dəhşətli xəstəliyi ilə mübarizə aparırdı və onun müalicəsi

mümkün olmayan xəstəliyə tutulduğunu az adam bilirdi. Mən Rəyasət Heyətində əyləşmişdim. Birdən onun zalda ən çox sevdiyi bir professor həmkarı ilə (o da istedadlı bir qadın idi) yanaşı oturduğunu gördüm. Hər ikisi deyib-gülür, bir-biri ilə ünsiyyətdən zövq alırdılar. Zərifə xanımda bu güc, həyat eşqi hardan idi?! Ölümünə iki həftə qalmış o uzaq bir ezamiyyətə hazırlaşırdı. “Aspirantlarıma kömək etmək lazımdır!"

Bəlkə də mən bu xatirələri başqa cür yazmalıydım. Bəlkə də bir həmkar kimi peşə, sənət çərçivəsindən kənara çıxmamalı, elm haqqında, işdən, uğurlardan, şagirdlərdən söz salmalıydım. Amma belə alındı. Zərifə xanım qeyri-adi insan idi, başqa istedadlı şəxsiyyətlər kimi o da hər cəhətdən istedadlı idi. Mənim anlamımda isə hər şeydən öndə həyat istedadı və insanilik dayanır. Biz Böyük İnsan itirdik. Sağlığında da onun yeri görünürdü, ölümündən sonra da!..

Sonda bir tarixi haşiyə çıxmaq istərdim. Ölkələrin birində dövlət başçısı seçmək lazım gəlir. Bir çox mübahisələrden və müzakirələrdən sonra üç namizəd qalır. Uzun müddət onlardan heç biri səslərin çoxunu toplaya bilmir. Bu zaman el ağsaqqalı üzünü toplaşanlara tutub deyir: “Bunlardan biri Ağıllıdı, biri Qüdrətlidi, biri də Xeyirxah! İndi özünüz seçin!” Hamı Xeyirxaha səs verir. Bu mənada Zərifə xanım Əliyeva haqqında xatirələrimi bir sözlə ifadə etməli olsaydım, deyərdim: O həm Xeyirxah idi, həm Ağıllı idi, həm də Qüdrətli idi!

**M.M.KRASNOV**
*Rusiya Tibb Elmləri Akademiyasının həqiqi üzvü,*
*Göz Xəstəlikləri Elmi-Tədqiqat İnstitutunun direktoru,*
*Dövlət mükafatı laureatı*





## ALİM, PEDAQOQ İNSAN

Zərifə Əziz qızı Əliyeva haqqında keçmiş zamanda danışmaq, yazmaq, hətta düşünmək belə olduqca ağırdır. Axı bu yaxınlara kimi biz onu tribunada natiq kimi görür, qeyri-rəsmi şəraitdə işgüzar, məişət söhbətləri edir, incəsənətdən danışırdı.

Zərifə xanım hər şeydən əvvəl görkəmli alim-oftalmoloqdur. Təkcə oftalmoloqmu?! O, eyni zamanda böyük filosof, gözəl pedaqoq və natiq idi. Onun elmdə məqsədyönlü fəaliyyəti indi də insanı valeh edir. Axı onun elmi fəaliyyətinin əsas istiqamətini görmə orqanının peşə patologiyası müəyyənləşdirirdi. Bu problemin həllinə çoxları girişə bilmirdi. Çünki elmin bu sahəsi olduqca ağırdır və onun araşdırılması təkcə dərin oftalmoloji savad yox, həm də fundamental təcrübi bilgilər tələb edir. Üstəlik yüksək təşkilatçılıq bacarığının olması da vacibdir. Məhz bütün bu keyfiyyətlər Zərifə xanım Əliyevaya xas idi.

Həyat yoldaşı, iki uşaq anası, sonradan nənə olan Zərifə xanım özünü elmi, pedaqoji, ictimai həyatdan kənarda təsəvvür etmirdi. Görmə orqanına müxtəlif zərərli amillərin təsirini araşdırmaq məqsədilə respublikanın istehsal sahələrində (yod vo şin zavodlarının sexlərində, digər sənaye müəssisələrində) elmi tədqiqatlar aparmaq üçün çox vaxt sərf etmək lazım gəlirdi.

Bu və ya digər problemi dərindən araşdırarkən Zərifə xanım ilk növbədə heyvanlar üzərində əsaslı təcrübi tədqiqatlar aparırdı. İstehsalın müəyyən sahələrində gözə zərərli təsir göstərən amillər histokimyəvi, morfoloji və əlbəttə, klinik üsullarla təsdiq olunduqdan sonra Zərifə Əziz qızı Əliycva tədqiqatları davam etdirirdi. Qeyd etmək lazımdır ki, Z.Ə.Əliyevanm apardığı tədqiqatlar geniş bir dairəni - gözün ön nahiyəsinin və çıxıntılarının, şəffaf örtüyünün, gözdaxili təzyiqin, görmə dairəsinin tədqiqatlarını əhatə edirdi.

Yod və şin istehsal sahələrində çalışan işçilər üçün bəzi dəyişikliklər daha xarakterik idi: göz qişasında həssaslığın azalması, şəffaf örtüyün zəifləməsi və s. Həmin tədqiqatlarda kimyəvi məhsulların konsentrasiyasının normadan artıq olmasının sexdə uzun müddət çalışan işçilərin görmə orqanma təsirinə xüsusi diqqət yetirilirdi.

Morfoloji və histokimyəvi araşdırmaların köməyi ilə heyvanlar üzərində apanlan təcrübələrdə də bir sıra ciddi dəyişikliklər üzə çıxmış, görmə orqanından savayı daxili orqanlarda da ciddi morfoloji dəyişikliklər olduğu aydın olmuşdur.

Bu cür tədqiqatlar həcminə, vacibliyinə görə seçilir və çox zəhmət tələb edir, amma sosial-iqtisadi baxımdan əvəzsizdir. Bu nadir tədqiqatlar nəticəsində zərərli istehsal sahələrində çalısanların iş şəraitini yaxşılaşdırmaq üçün metodiki tövsiyyələr işlənib hazırlanmış və istehsalata tətbiq edilmişdir. Zərifə Əziz qızı Əliyevanın apardığı tədqiqatların əsas mahiyyəti də məhz bundan ibarətdir.

1976-cı ildə Helmolts adına İnstitutun İxtisaslaşmış Elmi Şurasında onun tibb elmləri doktoru alimlik dərəcəsi adı almaq üçün etdiyi dissertasiya müdafiəsini indi də məmnuniyyətlə xatırlayıram!

Zərifə xanım peşə patologiyası sahəsində görkəmli oftalmoloq, geniş profilli mütəxəssis həkim olmaqla yanaşı, həm də gözəl pedaqoq idi. Azərbaycanın Həkimləri Təkmilləşdirmə İnstitutunun göz xəstəlikləri kafedrasında oxuduğu mühazirələr bunu bir daha sübut edir.

İstər Oftalmoloqlar Cəmiyyətinin qurultaylarında, plenumlarında, Moskva Oftalmoloqlar Cəmiyyətinin plenar iclaslarında etdiyi məruzələr, istərsə də publisistik çıxışlarında Zərifə Əziz qızı özünüı natiqlik istedadını göstərmişdir. Müxtəlif səviyyəli auditoriyalarda belə onun deontologiya məsələlərinə həsr olunmuş məruzələri necə də heyranlıqla dinlənilirdi, istər-istəməz məruzəçinin fəlsəfəyə, səhiyyəyə aid ədəbiyyatı dərindən bildiyi hiss olunurdu.

Məlumdur ki, 40-50 yaş arası alim üçün daha məhsuldar fəal dövr hesab olunur. Z.Ə.Əliyeva peşə patologiyasına və digər problemlərə həsr olunan əsas tədqiqatları ilə bunu bir daha sübut etdi. Məhz həmin yaş dövrünün peşə diaqnoslikasma dair monoqrafiyanı nəşr etdirdi. Onun elmi tədqiqatları arasında göz damarlarının anormallığı, gözün hidrodinamik sistemi məsələləri də əsas yer tutur.

Elmi tədqiqatlarm yüksək səviyyəsinə, sosial əhəmiyyətinə, ictimai fəallığına, pedaqoji istedadına görə haqlı olaraq Zərifə Əziz qızı Əliyeva Azərbaycan Elmlər Akademiyasının həqiqi üzvü kimi fəxri ada layiq görüldü.

Şəxsən mən Zərifə Əliyevanı ailəsindən ayrı düşünə bilmirəm. Zərifə xanım həm görkəmli alim, həm də gözəl qadın, qayğıkeş ana idi. Çoxillik işgüzar və səmimi ailəvi görüşlər mənim





qəlbimdə dərin iz buraxıb və həmin görüşlərdə bir daha əmin olmuşam ki, Zərifə xanım ailəsinə dayaq olan əsl İnsan idi; Həyat eşqi, xeyirxahlığı, qayğıkeşliyi ilə! İşinin çoxluğuna, cəmiyyətdə tutduğu yüksək mövqeyə baxmayaraq həmişə, birinci növbədə ailəsinin, habelə adamların qayğıları ilə yaşayırdı.

Mən xoşbəxtəm ki, uzun müddət Zərifə Əziz qızı ilə işgüzar, habelə ailəvi dostluq şəraitində görüşmək səadəti mənə nəsib olub. Mənim mərhum ərim İvan İvanoviç Şerbatov Əliyevlər ailəsi ilə məndən qabaq tanış olmuşdu. İlk dəfə ondan Zərifə xanımın, Heydər Əliyevin, övladları - İlham və Sevilin haqqında səmimi sözlər eşitmişəm.

Zərifə xanımla bu cür işgüzar, bir az da cəsarətlə deyə bilərəm ki, dostluq münasibətləri haqqında onun vaxtsız ölümündən sonra fikirləşmək doğurdan da ağırdır. Mənim qəlbimdə Zərifə xanım gözəl Alim və İnsan kimi həmişəlik qalacaq.

**K.V.TRUTNEVA**
*Helmqolts adına Moskva Elmi Tədqiqat*
*Göz Xəstəlikləri İnstitutunun direktoru*

## ALİM ÖMRÜ

Həyatdan vaxtsız köçən Zərifə xanımın başqa dostları və yaxınları kimi tale mənə də onunla dostluğun hərarətini, onunla ünsiyyətdə olmaq sevincini duymağı nəsib etmişdir: mən indi də birgə düşünüb işlədiyimiz monoqrafiyalar üzərində işi davam etdirirəm. Mən bu gün də əlyazmalarda onun fikirləri ilə rastaşır, sanki onun xeyirxah, ağıllı nüfüzedici gözlərini görürəm. Mənə elə gəlir ki, o, bu gün də hardasa yüz kilometrlərlə uzaqlarda- ya Bakıda, ya Moskvada- bütün varlığı ilə çalışır və yəqin ki indi də, indilərdə telefon zəng edəcək, onun ümid dolu gümrah səsini eşidəcəyəm: hər şey yaxşı olacaq, işi vaxtında yerinə yetirəcəyik.

Bizim ilk görüşümüzü daha dəqiq xatırlayıram. Oktyabr 1977-ci il. Akademik V.P.Filatov adına Odessa Göz Xəstəlikləri İnstitutunun nümayəndə heyəti Azərbaycan Oftalmoloqlarının elmi konfransında iştirak etmək üçün Bakıya gəlib. Odessadan gələn konfrans nümayəndələri aeroportda mehribanlıqla qarşılayıb, rahat mehmanxanada yerləşdirdilər. Daha sonra sabah öz işinə başlayacaq konfransın keçiriləcəyi yerə apardılar.

Binanın girəcəyində bizi konfransın təşkilatçıları qarşıladılar. Zərifə xanım Əliyeva da ilk qarşılayanlar arasında idi. O bizi hamıdan daha çox səmimiyyətlə salamladı. Onun gözlərindən nur boylanır, üzündə isə mehriban bir təbəssüm var idi. Bəstəboy, cazibədar və eyni zamanda təvazökar olan Zərifə Əziz qızı hamının diqqətini özünə cəlb edirdi. Nümayəndələrin hər birinə ayrılıqda xoş söz deməyə, xeyirxah arzularını bildirməyə imkan tapırdı. Professor Z.Ə.Əliyeva ilə mənim ilk görüşüm belə bir şəraitdə oldu.

Tədbirin iştirakçıları, o cümlədən Zərifə xanım, konfransın uğurla keçməsi üçün, habelə konfrans iştirakçılarının Azərbaycanın görməli yerləri, mədəniyyət və incəsənəti ilə yaxından tanış olması üçün səy və bacarıqlarını əsirgəmirdilər. Yüksək səviyyədə təşkil olunmuş qəbulda professorların bir qrupunu Heydər Əliyev salamladı, bizi respublikanın tarixi ilə, xalq təsərrüfatında, elmdə, mədəniyyət sahəsindəki nailiyyətlərlə və gələcək planlarla tanış etdi. Biz Azərbaycan xalqının həyatı haqqında yeni və vacib məlumatlar aldıq.

Konfrans başladı. Dinlədiyimiz məruzələrdən ən çox professor Z.Ə.Əliyevanın Azərbaycanın şin istehsalı sahəsində





gözün peşə xarakterindən asılı olaraq zədələnməsi barədə etdiyi çıxış yadda qaldı. Mən peşəkar həkim kimi onu maraqla dinlədim və öz-özümə fikirləşdim ki, bu cür işlərə heç də həmişə rast gəlmək olmur. Mənim üçün görmə orqanına peşə amillərinin təsirinin elmi tədqiqatı xüsusilə böyük əhəmiyyət kəsb edirdi. Belə ki, oftalmologiya elminin bu yeni sahəsi ilə mən özüm də uzun illər idi ki, məşğul olurdum. Bu böyük bir problemin - peşə oftalmotoksikozunun bir hissəsi idi.

Başqa üstünlükləri ilə yanaşı qeyd etmək lazımdır ki, Zərifə xanım həm də gözəl natiq idi, olduqca inamla və böyük maraqla özünün orijinal elmi tədqiqatlarının nəticələrini şərh edə bilirdi. Bir daha vurğulamaq istərdim ki, onun məruzəsinin məğzində dövlət əhəmiyyətli tədqiqat problemi – kimya sənayesində görmə orqanının peşə xəstəliyinin araşdırılması dayanırdı. Professor Z.Əliyeva qeyd edirdi ki, Azərbaycanda kimya sənayesi sürətlə inkişaf edir və peşə xəstəliklərinə qarşı mübarizə ən vacib tibbi bioloji problemlərdən biridir.

Məruzəçi haqlı olaraq qeyd edirdi ki, geniş miqyasda aparılan profilaktik və müalicə tədbirləri nəticəsində indi kimya sənayesində görmə orqanının peşə xəstəliyinə tutulması hallarına az-az rast gəlinir və özünü intoksikasiyanın yüngül, subklinik forması şəklində büruzə verir. Peşə patologiyasının inkişafının qarşısını almaq və vacib müalicə tədbirləri aparmaq üçün görmə orqanının tədqiqatı böyük əhəmiyyət kəsb edir. Belə olduqda ümumi intoksikasiyanın ilkin formalarını üzə çıxarmaq mümkündür.

Kimya sənayesində şin istehsal sahəsi xeyli genişlənib. Amma tibbi ədəbiyyatda bu sahədə çalışan şəxslərin görmə orqanına həmin istehsal şəraitinin təsiri haqqında məlumatlar demək olar ki, yox dərəcəsindədir. Professor Z.Ə.Əliyevanın apardığı tədqiqatların yeni olduğu hamı üçün aydın idi. Konfrans iştirakçıları aparılan fundamental tədqiqatların əsas bölməsindən birini dinləmək imkanı əldə etdilər. Sonradan həmin tədqiqatlar müəllifin 1980-ci ildə Bakıda nəşr olunan orijinal "Şin istehsalında görmə orqanının patologiyası" monoqrafiyasının əsasını təşkil etdi.

Professor Z.Ə.Əliyevanın görmə orqanının peşə xəstəliyi kimi yeni bir problemin araşdırılmasına nə qədər güc və enerji sərf etdiyini yaxşı bilirəm. Görmə orqanının zədələnməsinin klinik xarakteristikası funksional və daxili dəyişikliklərin dözümlüyünü artırmağa yönəldilən tədqiqatlarla tamamlanırdı.

Aparılan tədqiqatlarının miqyasının böyüklüyü də diqqəti cəlb edirdi. Belə ki, yaşından və iş stajından asılı olmayaraq şin istehsalında çalışan 1281 işçinin üzərində klinik müşahidə aparılmışdı. Üstəlik bu araşdırmalar uzun illər ərzində müəyyən istehsal şəraitində kimyəvi intoksikasiyaya məruz qalan heyvanlar üzərindəki eksperimentlərlə elmi şəkildə uzlaşdırılmışdı. Göz xəstəliyinin morfloji və histokimyəvi tədqiqatları bu xəstələrin patogenetik mahiyyətini aşkara çıxarmağa kömək etdi və göstərdi ki, gözün qabaq hissəsində əmələ gələn dəyişikliklər şin zavodunda istehsal amillərinin birbaşa təsiri ilə, gözün daxili hissəsinin zədələnməsi isə bütövlükdə həmin amillərinin ümumtoksik təsiri ilə əlaqədardır.

Professor Z.Ə.Əliyevanın elmi fəaliyyəti tibb elminin əməli işlə necə sıx şəkildə bağlılığına parlaq nümunədir. Zərifə Əziz qızı respublikanın tibbi ehtiyaclarını diqqətlə öyrənirdi. Məsələn, Bakıda yod sənayesi sürətlə inkişaf edirdi. Odur ki, həmin sahədə çalışanların görmə orqanına yod istehsalı şəraitinin toksik təsirinin aşkarlanması üçün aparılan tədqiqatlar daha çox əhəmiyyət daşıyırdı.

Yenə də Zərifə Əziz qızının iş günü kabinetdən yox, istehsalatdan başlanır. Bakı yod zavodunda istehsal prosesinin sanitar-gigiyenik xüsusiyyətlərinin, fəhlələrin iş şəraitinin, müxtəlif iş stajına malik peşə sahiblərinin sağlamlığının ümumi vəziyyətini ciddi şəkildə araşdırmaq lazım gəlir. Tədqiqatçının diqqətini ilk növbədə yod istehsalında sexlərin atmosferində yod buxarının konsentrasiyasının istehsal əməliyyat mərhələsindən çox asılı olduğu cəlb edir. Odur ki, uzun müddət beş il ərzində ən müasir tədqiqat üsullarının köməyi ilə müxtəlif daxili istehsal bölmələrində çalışan işçilər üzərzində dinamik müşahidələr aparıldı.

Bu isə işçilərin görmə orqanına yod istehsalının təsirinin toksik xüsusiyyətlərini üzə çıxarmağa imkan verdi. Mütəxəssislərin diliylə desək, kirpik nahiyəsində şişlərin əmələ gəlməsinə, göz buynuzcuğunun zədələnməsinə, onun hissiyatının azalmasına, qan damarlarının və şəffaf qatın dəyişikliyinə, bəzən də gözün ön və arxa hissəsinin zədələnməsinə gətirib çıxarır. Bakı Yod Zavodunun işçilərinin gözlərinin zədələnməsinin istehsal sahəsi ilə bağlı olduğunu təsdiq etmək və zədə mexanizminin müxtəlif





cəhətlərini üzə çıxarmaq üçün Z.Ə.Əliyeva müxtəlif iş yerlərində, təbii şəraitdə heyvanlar üzərində tədqiqatlar aparırdı.

Eksperimental tədqiqatlar nəticəsində müəyyən edildi ki, yod istehsalında kimyəvi maddələrin buxarının toksik təsirindən görmə orqanı daha çox zərər çəkir. Klinik-eksperimental tədqiqatların nəticələri görmə orqanına tosik maddələrin təsirini daha düzgün qiymətləndirməyə və rasional müalicə üsulları işləyib hazırlamağa imkan yaratdı. Odur ki, Z.Ə.Əliyevanın "Xroniki yod intoksiyasında oftalmopatologiya" mövzusnda yazdığı ikinci monoqrafiya 1981-ci ildə işıq üzü gördü. Həmin monoqrafiya orijinal elmi tədqiqat əsəridir və mühüm əməli əhəmiyyət kəsb edir.

Çox təəssüf ki, Zərifə xanım həmin tədqiqatların yalnız bir hissəsini həyata keçirə bildi. Bakıda keçirilən konfransda ilk görüşümüzdə qarşılıqlı şəkildə hər ikimizin peşə oftalmotoksikozun tədqiqatlarına maraq göstərdiyimiz üzə çıxdı. Məhz onda mən, Zərifə xanımın timsalında insanlara hər vəchlə kömək etmək istəyən, görmə orqanının peşə xəstəliyinin qarşısını alan bir həkim gördüm. Konfrans keçirildiyi dövrdə ciddi məşğul olduğumuza baxmayaraq fikir mübadiləsi apardıq, gələcəkdə görüşmək, birgə elmi iş aparmaq haqqında razılığa gəldik. Sonradan telefon və məktub vasitəsi ilə bizi maraqlandıran məsələləri dəqiqləşdirir, yeni tibbi ədəbiyyat haqqında bir-birimizə məlumat verirdik.

Bir müddət keçdikdən sonra Zərifə Əziz qızı məni Bakıya dəvət etdi. Xüsusi ilə onda mən Zərifə xanımın istiqanlı və səmimi olduğunu, geniş dünyagörüşü olduğunu hiss etdim. Biz apardığımız tədqiqatların nəticələri barədə fikir mübadiləsi etdik və yenilərini planlaşdırdıq. Azərbaycanın kənd təsərrüfatı zəhmətkeşlərinin görmə orqanına zəhərli kimyəvi maddələrin təsirini araşdırmaq üçün çoxsahəli geniş klinik-eksperimental tədqiqatlar aparmaq ideyası ortaya çıxdı.

Bizim söhbətlərin birində iştirak edən Hyedər Əliyev bu cür tədqiqatların aktuallığını və vacibliyini göstərdi, qiymətli əməli məsləhətlər verdi. Təbii ki, görmə orqanının peşə intosikasiyanın tibbi ədəbiyyatda, demək olar ki, araşdırılmaması faktından da yan keçə bilməzdik. Odur ki, istehsal oftalmotoksikoz məsələlərinə aid monoqrafiya yazmaq qərarına gəldik. Həmin elmi əsər həm oftalmoloqları, həm də kimyəvi zavodların tibbi-sanitar həkimlərini maraqlandırmalı idi.

Bakıdan yeni yaradıcılıq planları ilə ayrıldım. Bu isı məni həm sevindirir, həm də həyəcanlandırırdı. Elmi maraqları mənim fikirlərimlə üst-üstə düşən bir alimlə görüşmək çox xoş idi, üstəlik o, xeyirxah, ürəyiaçıq, cazibədar, eyni zamanda təvazökar bir insan idi. Bir mütəxəssis kimi mənə Zərifə Əziz qızının kitabxanasında müxtəlif səhiyyə məsələlərinə aid, hətta oftalmologiyanın hüdudlarını aşan ən yeni ədəbiiyat nümunələri görmək xoşdu.

İşinin çoxluğuna baxmayaraq Zərifə xanım həm də ailə qayğıları ilə yaşayırdı. O zaman Moskvada institutda oxuyan tələbə oğlu İlhamın evdən, ailədən uzaqda yaşaması onu çox narahat edirdi. Zərifə Əziz qızı tibb professoru olan atasının xatirəsini həmişə əziz tutur,onun ən yaxşı xüsusiyyətlərini övladlarına aşılamaq istəyirdi. O cümlədən atası haqqında yazılan kitabı oğluna hədiyyə edərkən yazdığı təsirli sözlər bunu bir daha sübut edir.

Ailə həkimi, sevimli qadın, qayğıkeş ana! Mən Zərifə xanımı belə görmüşəm.Həmkarlarımızın birinin evinə qonaq getmişdik. Elmi dərəcəsi və yaşı müxtəlif olan dostların, həmkarların arasında o, sadəliyi və həyata vurğunluğu ilə seçilirdi. O bütün səmimiyyəti ilə fortepianoda müxtəlif melodiyaları və rəqsləri ifa edir, məclisə toplaşanları əyləndirməyə çalışırdı. Evə qayıdanda, yolüstü Zərifə xanım gileyləndi ki, istehsal, ictimai və başqa işlərdən təəssüflər olsun ki, çox sevdiyi musiqi ilə məşğul olmağa az vaxtı qalır.

Professor Z.Ə.Əliyeva razılaşdığımız kimi bizim instituta özünün cavan əməkdaşlarını, üstəlik birgə işimizə aid materialları göndərmiş, mənim işlərimin necə getməsi ilə maraqlanmışdı. Zərifə xanım sevinclə xəbər verirdi ki, onun nəvəsi dünyaya gəlib! Qızı Sevil əriylə birlikdə körpənin adını nənəsinin şərərfinə Zərifə qoyublar. O, belə bir diqqətə, hörmətə, sevgiyə görə övladlarına olduqca minnətdar idi. Yeri gəlmişkən, nənəsinin adaşı olan Zərifəyə ürəkdən can sağlığı diləyir, əziz nənəsinin, bütün insani keyfiyyətlərini onun timsalında görmək istəyir, onun işlərinin davamçısı olmağı, nənəsinin böyük planlarını həyata keçirməyə arzulayıram.

Vaxt keçirdi. Bakıdan vurulan telefon zəngləri biraz səngidi, məktublar seyrəldi. Ailəmdə baş verən ağır üzüntüyə qapıldığıma, ən əziz və yaxın adamımı itirdiyimə görə elmi işlərə çox az vaxt ayırırdım. Ürəyimdən axan qara qanları büruzə verməmək üçün





məktub yazmaqdan çəkinirdim. Hardansa, mənə üz verən faciədən Zərifə xanım xəbər tutdu və 1983-cü ilin aprelində təsginliklə dolu, isti və səmimi bir məktub göndərdi. Həmin məktubda o, mənə təskinlik verir və sanki sözarası özünün də xəstə olduğunu bildirirdi. Amma xəstəliyinə baxmayaraq kitab üzərində işini davam etdirirdi və bu məsələ ilə bağlı görüşməyi təklif edirdi. Tezliklə o xəbər göndərdi ki, gözün peşə xəstəliyinin müxtəlif növləri araşdırılan həmin elmi kitabın nəşr olunması planlaşdırılır. Bununla əlaqədar məni Moskvaya dəvət etdi. 1983-cü ilin qışında görüşdük. Zərifə xanımın qayğıları başdan aşırdı, belə ki, yeni yaşayış yerinə köçmüşdülər. Ailə böyümüşdü, lakin əvvəlki kimi yenə də ailənin bütün qayğıları həm ana kimi, həm nənə kimi onun üzərinə düşürdü.

Zərifə xanımın elmi maraq dairəsi çox geniş idi. Bir ümumi dəftərə o, yeni kitab üçün nəzərdə tutduğumuz fikirləri qeyd etmişdi. Bunlar əsasən toksik kataraktalara və toksik qlaukomalara həsr olunmuş elmi işlərdən, tələbələr və oftalmoloq həkimlər üçün nəzərdə tutulan məruzələrdən ibarət idi.

Həmin dövrdə biz birlikdə ümumi işi, oftalmoloqların Ukraynada keçiriləcək VII qurultayına nəzərdə tutulan məruzəni də başa çatdırdıq. Zərifə xanım həmin qurultayda hökmən iştirak etmək, nəhayət, Odessa ilə tanış olmaq istəyirdi. Mənim və yəqin ki, həm də onu əhatə edənlərin, heç ağlına da belə gəlmirdi ki, Zərifə xanım ciddi xəstədir. İlk baxışdan o, əvvəlki kimi yenə də, gülərüz, işgüzar idi. Ağır xəstəlik onun görünüşünə uyuşmurdu.

Lakin Zərifə xanım Odessaya oftalmoloqların qurultayına gələ bilmədi. Yazdığı məktubdan öyrəndim ki, o, uzun müddət xəstə yatıb, ona görə də yaradıcılıq işləri yarımçıq qalıb. Amma o, ümid edirdi ki, tezliklə sağalacaq və nəhayət, Odessaya gələcək. Kitab üzərində apardığı elmi işlərdən təfsilatı ilə məlumat verirdi. Sonralar aramızda yenə telefon danışıqları, yazışmalar oldu.

1984-cü il yenə də qışda, Zərifə xanımla bağ evində görüşdük. Onun ağır xəstə olduğunu görəndə ürəyim düşdü. Amma onun əhval-ruhiyyəsi, davranışı dəhşətli bir təhlükənin yaxınlaşdığından xəbər vermirdi. O, yenə də özünəməxsus tərzdə maraqla Bakıda Məişət Kondisionerlər Zavodunda apardığı tədqiqatlardan-stirol və tetraxloretilen buxarının təsirinə məruz qalan fəhlələri necə müayinə

etməsindən danışırdı. Öz yurdunun əsl övladı kimi Zərifə xanım yenə Azərbaycanla yaşayır, xalq təsərrüfatının aparıcı sahələrində peşə oftalmologiyasına aid tədqiqatlar aparırdı.

Olduqca maraqlı olan bu işgüzar söhbət zamanı Zərifə xanım məni artıq bir qədər böyüyən ailəsinin yeni üzvləri ilə tanış edirdi. Onun sözlərində və üzünün cizgilərində qeyri-adi istiqanlılıq və sevgi var idi. Nənəsinin adaşı olan Zərifənin bir qardaşı olmuş, oğlu İlhamın da övladı dünyaya gəlmişdi. Körpəni qucağında tutan Sevil anasına baxır və həyəcanını gizlətməyə çalışırdı. Balaca Zərifə isə nənəsindən ayrılmaq bilmirdi. Moskvadan gələn İlham isə hər şeydən əvvəl anasını mehribanlıqla salamladı. Doğrudur, evdə həyəcan, gərginlik hiss olunurdu, lakin heç kəs vəziyyətin çıxılmaz olduğunu ağlına belə gətirmək istəmirdi. Bu dəfə Zərifə xanım ailəsindən - ərindən, uşaqlarından, bütün varlığı ilə sevdiyi nəvələrindən çox danışdı.

Axşam biz ayrılarkən Zərifə xanım qızının və nəvələrinin əhatəsində idi. Mən heç təsəvvür etmirdim ki, bu, bizim vida görüşümüzdür. Zərifə xanım bu gün - sabah Moskvaya getməli idi. Həmin arzuolunmaz "bu gün-sabah", nəhayət, gəlib çatdı, telefon zəng çaldı və mən öyrəndim ki, o, yenə xəstəxanaya düşüb. Gün ərzində biz bir neçə dəfə telefonla danışdıq. Belə razılaşdıq ki, həkimlər icazə verən kimi mən xəstəxanaya gəlim. Gecədən xeyli keçənə kimi telefonun yanında növbə çəkdim. Hətta gecə ona məktub yazdım. Səhəri gün xəstəxanada görüşməyin mümkün olmadığını görüb evə qayıtdım. Odessadan etdiyim telefon zənglərinə isə yalnız bir cavab verilirdi: hələ ki xəstəxanadadır...

1985-ci ilin fevralında Zərifə xanım son məktubunda artıq xəstəliyi haqqında açıq və ciddi şəkildə danışırdı: xəstələnmək asandır, sağalmaq çətin! Hər şeydən əvvəl o, düçar olduğu sağalmaz xəstəliyi ilə evdəkilərə əzab verdiyinə görə kədərlənsə də əvvəlki kimi elmə böyük maraq göstərir, həyata və insanlara sevgi ilə yanaşırdı. Sonuncu məktubda o bildirirdi ki, xəstəxanada uzun müddət qalandan sonra, nəhayət, həkimlər onu bir həftəliyə buraxıb. Zərifə xanım kitab üzərində sonrakı işi mənə tapşırır, materiallar hazır olan kimi Moskvada və ya Odessada görüşməyi müəyyənləşdirmək üçün qabaqcadan xəbər verməyi xahiş edirdi.





Əzizim Zərifə xanımın ölüm xəbərini gec eşitdim və inanmadım. Fəqət çap olunan nekroloq bunu sübut edirdi. Qəbiristanlıqda onun məzarı önündə fikrə getdim: ən böyük dərdə – dost itkisinə alışmağı tale mənə çox erkən vaxtlarda, hələ müharibə illərində, cəbhədə öyrədib. Lakin itkilərə alışmağı öyrənə bilmirsən, çünki illər keçdikcə hər yeni itkini daha çox ağrılarla hiss edirsən.

Hələ cəbhə illərindən özümü inandırmışam ki, əgər dostun həyatdan köçübsə, onun başladığı işi məhz sən sona çatdırmalısan. Beləcə, mənim üçün olduqca əziz və doğma olan Zərifə xanımın sonuncu xahişini - birgə başladığımız kitabı yazıb qurtarmağı vəzifə borcu hesab edirəm. Çünki onun zəhməti özündən sonra da işıq üzü görməli, onun fikirləri mütəxəssislərə gedib çatmalıdır. Görkəmli oftalmoloq, əməkdar elm xadimi, Azərbaycan Elmlər Akademiyasının akademiki, tibbi elmlər doktoru, professor Zərifə Əziz qızı Əliyevanın elm üçün gördüyü işlər bu gün daha aydın görünür və böyük məna daşıyır.

**Z.M.SKRİPNİÇENKO**
*tibb elmlər doktoru, professor*

## ANILAN DOST

Zərifə xanımla ilk tanışlığımız 21 dekabr 1976-cı ilə təsadüf edir. Həmin gün Zərifə xanım doktorluq dissertasiyasını müdafiə edirdi. Doktorluq dissertasiyasının müdafiəsi elmdə həmişə böyük hadisə hesab olunur. Üstəlik oftalmolgiya kimi dar ixtisas sahəsində "Azərbaycan kimya sənayesinin bir neçə müəssisəsində işçilərin görmə orqanının vəziyyəti" adlı dissertasiyasının avtoreferatı həmişə olduğu kimi müdafiəyə 3 həftə qalmış bizə gəlib çatdı. Görmə orqanının peşə patologiyası problemi bizi çoxdan maraqlandırırdı. Bizim hər birimiz bu problemlə bir neçə dəfə rastlaşmış və öz şəxsi təcrübəmizdə həmin problemin nə qədər aktual olduğunu, hələ elmi cəhətdən araşdırılmayan aspektlərinin mövcud olduğunu görmüşdük. Üstəlik həmin problemin həllini əməli işə tətbiq etməyin bir sıra çətinlikləri var.

Zərifə Əziz qızının dissertasiyası bizə güclü təsir etdi. Belə ki, bir tərəfdən Azərbaycan müəssisələrində öz həllini tapmış konkret iş, digər tərəfdən isə məqsədyönlü elmi-tədqiqat idi. Müəllifin çıxardığı nəticələr və tövsiyələr yerli ölçülərdən kənara çıxırdı, onları hər yerdə istehsalata tətbiq etmək olardı. Zərifə xanımın elmi işi görmə orqanının peşə patologiyasının öyrənilməsində yeni istiqaməti müəyyənləşdirirdi.

Biz adətən deyirik:"Xəstəni xəbərdar etmək, xəstəliyi müalicə etməkdən yaxşıdır". Üstəlik bu xəbərdarlıq, dövlət üçün də ucuz başa gəlir. Bu adi həyat həqiqəti peşə xəstəliklərinin profilaktikası və müalicəsində daha əyani şəkildə özünü büruzə verir. Ancaq həkimin diqqəti, vaxtı və əməyi, əsasən xəstənin müalicəsinə yönəlir. Bu aydındır. Lakin xəstəliyin, o cümlədən peşə xəstəliklərinin profilaktikası ilk baxışda nəzərə çarpdığından daha mürəkkəbdir.

Burda təkcə bir amilin yox,bütövlükdə sağlamlığa təsir göstərən zərərli amillərin məcmusunu aşkara çıxarmaq, onların orqanizmə təsir yollarını müəyyənləşdirmək, müdafiəmexanizmlərini, adaptasiya imkanlarını və adaptasiyaya əks-təsir göstərən səbəbləri üzə çıxarmaq lazımdır. Bu iş çox zəhmət tələb edir, hətta adamı əldən salır, uzun müddət heyvanlar üzərində təcrübələr keçirmək, çoxsaylı laboratoriya tədqiqatları ilə məşğul olmaq,





ardıcıl şəkildə illər boyu fəhlə və qulluqçuları üzərində dispanser müşahidəsi aparmaq lazım gəlir.Zərifə xanım Bakının müəssisələrində məhz belə bir gərgin iş görüb başa çatdırmışdı. Lakin faktları toplamaq hələ aparılan tədqiqatların birinci hissəsi idi. Sonra onları qiymətləndirmək, müxtəlif təcrübi, patoloji kimyəvi, laboratoriya və klinik məlumatların qarşılıqlı əlaqəsini izləmək, görmə orqanının peşə xəstəliyinin profilaktikası üzrə əməli tövsiyələri konkret müəssisələrdə işləyib həyata keçirmək, istehsalata tətbiq etmək lazım gəlirdi. Zərifə Əziz qızının tədqiqatlarının üstün cəhəti fundamental elmlə səhiyyə təcrübəsinin sıx əlaqəsində idi.

Bu zəngin elmi-tədqiqatların müəllifini görmək və eşitmək arzusunda idik. Həmişə olduğu kimi Helmqolts adına Moskva Elmi-Tədqiqat Göz Xəstəlikləri İnstitutu yanındaı İxtisaslaşdırılmış Şuranın iclası adət etdiyimiz rəsmi qaydada başladı. Kürsüyə bəstəboy, qara saçlı, suyuşirin, irigözlü, qaynar baxışlı, bir qadın qalxdı. Onun nitqi dəqiq və aydın tələffüzü ilə, ən çətin məsələləri belə sadə dildə ifadə etmək bacarığı ilə seçilirdi. O, məruzənin ayrı-ayrı məqamlarına rəngli olaylarla, qrafiklərlə, cədvəllərlə aydınlıq gətirirdi. Zərifə Əziz qızının məruzəsi Şurada diqqətlə dinlənildi. Rəsmi və qeyri rəsmi opponentlərin rəyləri yekdil idi. Gizli səsvermə yolu ilə Şura yekdilliklə Zərifə Əziz qızı Əliyevaya tibb elmləri doktoru alimlik dərəcəsi vermək barədə qərar çıxardı.

Müdafiədən sonra biz Zərifə xanımla bəzi istehsalat məsələlərini müzakirə etmək üçün görüşdük və beləcə, uzun müddətli ailə dostluğunun əsası qoyuldu. 21-22 oktyabr 1977-ci ildə Zərifə xanımın təşəbbüsü ilə Bakıda Ümumittifaq Oftalmoloqlar Elmi Cəmiyyəti İdarə Heyətinin VII pleniumunun keçirilməsi cəmiyyətin həyatında mühüm hadisəyə çevrildi. Həmin pleniumda 200 nəfər iştirak edirdi. Pleniumda ölkənin görkəmli alimləri uşaqların görmə qabiliyyətinin mühafizəsinə, qlaukomanın profilaktikasına və müalicəsinə, ağır göz zədələrinə həsr olunmuş məruzələrlə çıxış etdi. Plenium işini yekunlaşdırdıqdan sonra Cəmiyyətin İdarə Heyətini Heydər Əlirza oğlu Əliyev qəbul etdi.

Zərifə xanımın həmin pleniumda kimya sənayesi müəssisələrində görmə orqanının peşə xəstəliyinə həsr olunmuş məruzəsi hamının diqqətini cəlb etdi. Qeyd etmək lazımdır ki, ÜOEC-nin İdarə Heyətinin pleniumunda oftalmologiyada ayrıca əsas istiqamət sahəsi

kimi peşə patologiyasının problemləri ilk dəfə müzakirə olundu. Zərifə Əziz qızı rəhbərlik etdiyi kollektivin apardığı tədqiqatların əsas nəticələrini şərh edərərk kimya və neft kimya sənayesinin sürətli artımına diqqət çəkdi; "Kimya sənayesinin intensiv inkişafı görmə orqanının peşə patologiyasının müxtəlif növlərinin əmələ gəlməsi üçün real şərait yaradır. Bu problemin öyrənilməsi sənaye oftalmologiyasının aparıcı problemləridir". Z.Əliyeva, "Ümumittifaq Oftalmoloqlar Elmi Cəmiyyəti VII Plenium materialları" kitabından, Bakı 1977, səh 35. Z.Ə.Əliyevanın pleniumdakı məruzəsi və onun müzakirəsi görmə orqanının peşə patologiyası üzrə tədqiqatların gələcək inkişafına təkan verdi.

Heydər Əliyevlə söhbət iki saatdan çox çəkdi. O, inandırıcı və maraqlı şəkildə Azərbaycanın əsas uğurlarından və qarşıda duran problemlərdən danışdı. Onun iqtisadiyyat, ədəbiyyat və incəsənət, tibbi və səhiyyə sahəsində etdiyi təhlillər özünün aydınlığı və dəqiqliyi ilə hər bir problemin mahiyyətinə dərindən varmaq bacarığı ilə diqqəti cəlb edirdi. Heydər Əliyevin canlı və obrazlı nitqinə qulaq asdıqca biz aydın başa düşürdük ki, onun toxunduğu problemlər təkcə Azərbaycana yox, bzim hamımıza aiddir.

Zərifə xanım, Ümumittifaq Oftalmoloqları Elmi Cəmiyyəti İdarə Heyətinin 8-9 oktyabr 1981-ci ildə keçirilən VIII pleniumunda da iştirak etdi. Həmişə olduğu kimi plenium oftalmologiyanın aktual problemlərinə həsr edilmişdi. Z.Ə.Əliyevanın bizim ixtisas sahəsində həkim deomotologiyası barədə etdiyi məruzə hamının diqqətini cəlb etdi. Qeyd etmək lazımdır ki, həmin pleniumda bu problemin müzakirəsinin təşəbbüskarı məhz Zərifə xanım idi. Onu və bizim bir çoxumuzu səhiyyədə əxlaqı aspektlərin aşağı düşməsi, həkim-xəstə münasibətlərində soyuqluq meylləri narahat edirdi. Biz bu problemi Zərifə xanımla dəfələrlə müzakirə etmişik. Odur ki, bu məsələyə onun nöqteyi-nəzərini qısaca şərh etmək istərdik. Yeri gəlmişkən biz də onun fikirləri ilə şərikik.

Səhiyyənin elmi-texniki inişafı yeni tibbi və əxlaqi problemlər ortaya çıxarır. Yeni-yeni dar ixtisas sahələri yaranır, tibbi avadanlıq, xəstələrin müayinə və müalicə üsulları getdikcə mürəkkəbləşir. İndi xəstə təkcə bir həkimin yox, bir qrup mütəxəssisin, həkimin, texnikin, laborantın xidmətindən istifadə etməli olur.





Üstəlik, onun müayinəsi və müalicəsi mürəkkəb aparatların, cihazların və laboratoriya üsullarının köməyi ilə aparılır. Xəstə bir növ həkimin görmə dairəsindən kənarda qalır. Əsl klinik məktəb keçməyən həkim xəstə ilə birbaşa əlaqə yaratmağı xoşlamır və çox vaxt bu əlaqədən vaz keçir, laboratoriya tədqiqatlarının nəticələrinə aludəçilik həkimi bir növ xəstədən aralı salır. Digər tərəfdən alınan məlumatların sonuncu təhlili, diqanoz qoyulmaq və müalicənin müəyyənləşdirilməsi bəzən standart qaydada aparılır. Beləliklə, xəstənin müayinəsi və müalicəsi həddindən artıq mexaniki şəkildə olur. Hər bir ixtisas həkimi yalnız öhdəsinə düşən işi yerinə yetirməklə vəzifə borcunu bitmiş hesab edir. Belə çıxır ki, hətta gələcəkdə heyətini kompüter və robotlarla əvəz etmək olar. Zərifə xanım məsələyə bu cür yanaşmağı səhv hesab edirdi. Konveryer üsulu yalnız eyni detalların və maşınların istehsalatında özünü doğrulda bilir. Xəstələrin müalicəsində isə bu üsulun tətbiqi səhiyyə humanizmi ilə ziddiyət təşkil edir. Həkim təxəyyülünün tənəzzülünə, səhvlərin çoxalmasına gətirib çıxarır. Səhvlər ona görə meydana çıxır ki, hər bir xəstə fərddir, odur ki, xəstəni və xəstəliyi tibbi təcrübədə eyniləşdirmək məqsədəuyğun deyil. Çünki insan orqanizminə standart müdaxilə çox vaxt gözlənilən reaksiyanı vermir.

Necə deyərlər, mexaniki "sağlamlıq istehsalı" üsulu istər-istəməz spesifik xəstəliyə düçar olmuş insanı bir növ son ümid bağından xilas edə bilir. Təcübəli həkimlər yaxşı bilir ki, hətta təkmilləşdirilmiş işlər və laboratoriya üsulları ilə aparılan tədqiqatlarda belə bəzən səhvlərə yol verilir. Həmin səhvləri həkim yalnız xəstə ilə sıx ünsiyyətdə olduğu halda aşkara çıxara bilər. Əlbəttə, müəyyən tədqiqatların aparılmasında, simptomların, çoxşaxəli təhlilin müəyyənləşdirilməsində, sadə və təhlükəsiz tibbi manipulyasiyaların yerinə yetiliməsində texniki tədqiqin, avtomatlaşdırmasına və kompüterləşdirməsinə məkan danmaq olmaz. Bu, heç də xəstə ilə müalicə həkiminin, həkimlərin hamısının birbaşa və sıx əlaqəsinin vacibliyini azaltmır.

Zərifə Əziz qızı dəfələrlə demişdir ki, həkimlə xəstənin birbasa əlaqəsi müalicənin əhəmmiyyətini yüksəldir, xəstəyə ümid verir, onun orqanizminin xəstəliyə qarşı müqavimətini artırır, bəzən dava- dərmandan da güclü təsir göstərir. Əksinə, həkimin xəstə ilə səhv, düşünülməmiş davranışı, ünsiyyəti xəstəni həyəcanlandırır,

ruh düşkünlüyü yaradır, onu ümidsizliyə qapılmağa vadar edir. Xəstənin müalicəsində bir çox ixtisas həkimləri iştirak edə bilər, lakin əsas məsuliyyət müalicə həkiminin üzərinə düşür. Həkimlər qrupunun, əsasən də cərrahların, qrup halında məsuliyyət daşıması məsuliyyətsizliyə gətirib çıxarır.

Zərifə Əziz qızı öz məruzəsində həkim və xəstənin qarşılıqlı münasibətinin əsas qaydalarını tərtib etdi, müalicə həkiminin diaqnostika və müalicə prosesində aparıcı rolunu göstərdi, bütün tibb işçilərinin təkcə təhsilinin yox, həm də tərbiyəsinin vacibliyini ön plana çəkdi. Z.Ə.Əliyevanin məruzəsi sonradan Moskva Oftalmoloqlar Cəmiyyətində dinlənildi və çap olundu. Həmin məruzədən bəzi ali məktəblərdə, həm də həkimləri təkmilləşdirənə institutlarında geniş istifadə edilir.

Z.Ə.Əliyevanın elmi irsi 5 monoqrafiyadan, onlarla məqalədən, məruzədən,metodik vasitələrdən ibarətdir. Onun elmi işləri aktuallığı və yüksək səviyyəsi ilə seçilir. Xüsusən, şin və yod istehsalı ilə məşğul olan işçilərin görmə orqanının vəziyyətinin öyrənilməsinə həsr olunan iki monoqrafiyadaha çox diqqəti cəlb edir.

Bu kitablarda iki iri zavodda aparılan konkret tədqiqatlar harmonik şəkildə görmə orqanının peşə patologiyasının öyrənilməsinə ümumi metodik yanaşma prinsiplərinin inkişafı ilə səsləşir. Z.Ə. Əliyevanın istifadə etdiyi ümumi iş prinsiplərinin qısaca şərhini belə səciyyələndirmək olar:

*1.İstehsalatda zəruri amillərin təsiri bir qayda olaraq xroniki xarakter daşıyır və nəticə etibarı ilə onun insan orqanizminə və üzərində təcrübə aparılan heyvan orqanizminə təsirinin öyrənilməsi aylarla və illərlə davam etdirilməlidir.*

*2. Bir çox istehsalat sahələrində insan orqanizminə bir yox, kompleks halında bir neçə zərərli amillər təsir göstərir. Odur ki, həmin amillərin tam aşkara çıxarılmasına, hər birinin konservatasiyasını və intensivliyinin ətrafa öyrənilməsi, işçilərinin bu amillərlə əlaqəsinin xarakterinin müəyyənləşdirilməsi sənaye müəssisəsində aparılan hər bir tədqiqatın ilkin mərhələsini təşkil etməlidir.*

*3. Heyvanlar üzərində aparılan təcrübələr real iş şəraitinə uyğunlaşdırılmalıdır. Bu məqsədlə həmin heyvanlar xüsusi kameralarda hər gün iş yerlərinin yaxınlığında yerləşdirilir.*





*4.Görmə orqanının vəziyyətinin öyrənilməsi bütün orqanizmin tədqiq edilməsi ilə birlikdə aparılmalıdır. Bu, göz xəstəlikləri simptomlarının başqa orqanların və sistemlərin zədələnməsi ilə nə kimi əlaqəsi olduğunu üzə çıxarmağa imkan yaradır.*

*5. İşçilər üzərində aparılan tədqiqat üsulları kəmiyyət etibarı ilə məhdud olmalıdır. Nisbətən daha sadə tədqiqat üsullarına üstünlük verilməlidir. Tədqiqat üsullarının say çoxluğu və mürəkkəbləşdirilməsi özünü doğruldur, istər-istəməz tədqiqatın baha başa gəlməsinə, üzərində tədqiqat aparanların yorulub əldən düşməsinə və ən nəhayət, səhv nəticələr əldə etməyə gətirib çıxarır. Digər tərəfdən mürəkkəb və baha başa gələn üsulları dispanser təcrübəsində tətbiq etmək mümkün olmur.*

*6. Tədqiqatların nəticəsi həcmcə nə qədər böyük olsa da, düzgün nəzarət qrupu seçilmədən etibarlı sayıla bilməz.*

Z.Ə.Əliyevanın tədqiqatları göstərdi ki,şin istehsal sahəsində çalışan işçilərin müəyyən qrupunda toksik amillərin təsiri nəticəsində gözün qabaq hissəsinin zədələnməsinin xüsusi simptom kompleksi inkişaf edir. Patoloji sindromun tezliyi və intensivliyi iş sahəsində kimyəvi maddələrin konsentrasiyasından asılı idi. Eyni zamanda işçilərin bir hissəsində görmə orqanının funksional pozğunluğu, o cümlədən görmə dairəsinin daralması müşahidə olunurdu. Z.Ə.Əliyeva ilk dəfə yodla uzun müddət əlaqədə olan işçilərin görmə orqanlarının zədələnməsinin kompleks əlamətlərini tədqiq etmişdir. Həmin kompleks kirpik dairəsinə, konyuktivlərə, gözün buynuz qişasına yodun təsirini əhatə edir. Göz qapağına, görmə orqanının şəffaf qatına, habelə göz dibində yodun nə kimi fəsadlar törətməsi tədqiq olunur. Elmi tədqiqatlar göstərmişdir ki, bu zaman görmə zəifləyir, görmə dairəsi daralır, gözün işığa həssaslığı pisləşir, göz təzyiqinin artmağına meyl güclənir.

Digər tərəfdən eksperimental tədqiqatlar sübut etdi ki, görmə orqanındakı dəyişikliklər qan damarlarının və daxili orqanlarının, xüsusən də ciyərin və böyrəyin zədələnməsi ilə əlaqədardır. Histoloji və histokimyəvi tədqiqatlar üzərində təcrübə aparılan heyvanların gözünün dərisində ciddi dəyişikliklər olduğu üzə çıxdı. Z.Ə.Əliyevanın və onun rəhbərlik etdiyi kollektivin tədqiqatları elmi cəhətdən əsaslandırılmış əməli tövsiyələrin işlənib hazırlanmasına imkan

yaratdı və həmin tövsiyələrin istehsala tətbiqi şin və yod müəssisələrində çalışan işçilərin gözünün zədələnməsinin kəskin şəkildə azalmasına gətirib çıxardı.

Heç şübhəsiz ki, bütün bu sadaladıqlarımız Z.Ə.Əliyevanın elmi yaradıcılığının bir hissəsidir. O, virus konyuktivlərinin tədqiqinə həsr olunmuş monoqrafiyanın müəllifidir. O, M.Y.Sultanovla birlikdə göz qabığına stirolun təsirini öyrənmiş, görmə orqanının müalicəsində cərrahiyyə üsullarını araşdırmışdır. Xəstə olmasına baxmayaraq ömrünün son iki ilini Zərifə xanım görmə orqanının peşə patologiyası haqqında monoqrafiyaya həsr etdi.

Biz Zərifə Əziz qızı ilə tez-tez ailəlikcə görüşür, müxtəlif problemləri müzakirə edirdik. Qeyd etmək lazımdır ki, olduqca maraqlı həmsöhbət idi. Hissiyyatlı və hazırcavab, habelə öz mülahizələrində prinsipial idi, siyasətdən, ədəbiyyatdan və incəsənətdən yaxşı başı çıxırdı. Mübahisəli məsələlərdə həmsöhbətini dinləməyi bacarır, onun mövqeyini başa düşürdü. Əgər, fikrinin doğruluğuna qəti inanırdısa, öz nöqteyi-nəzərini arqumentlərlə və inamla müdafiə edirdi. Xüsusən tibb elmi və səhiyyə ilə bağlı problemlərin müzakirələri daha çox yadda qalıb.

Zərifə xanım dəfələrlə bizim elmdə son illlər baş qaldıran kəm-kəsirlərin onu çox narahat etdiyini ön plana çəkirdi. Onun fikrincə, görmə orqanında kiçik dəyişikliyin belə cərrahiyyə əməliyyatı ilə müalicə edilməsinə əbəs yerə ciddi əhəmiyyət verilir. Hazırda görmə orqanındakı bu cür dəyişikliyə heç xəstəlik də demək doğru deyil. Üstəlik bu cür "nailiyyətləri" ciddi cəhdlə reklam etdirməyə, təbliğ etməyə aludə olurlar, yerli-yersiz bu barədə kütləvi informasiya vasitələrində təmtəraqla yazılar, boğazdan yuxarı təriflər verilir. Digər tərəfdən korlaşmanı və zəifgörməni doğuran səbəbləri araşdıran iri oftalmologiya bölmələrinin gərgin işi kölgədə qalır. Kütləvi informasiya vasitələrinə isə bu barədə yazmaq cansıxıcı görünür və həmin həyat əhəmiyyətli problemlər diqqətdən kənarda qalır. Digər tərəfdən bu elmi tədqiqatların aparılmasına ayrılan vəsaitin bölgüsündə özünü büruzə verir və istedadlı, lakin təcrübəsiz gənclərə pis təsir göstərir. Gənc ixtisas həkimlərin zahirən əhəmiyyətli görünən, lakin mahiyyət etibarı ilə ucuz olan eksperimentlərə meyl salmasına gətirib çıxarır. Hələ tam sınaqdan çıxmayan yeni cərrahiyyə üsullarının xətələrə geniş tətbiq olunması





da Zərifə xanımı ciddi narahat edirdi. Yeni dərman preparatları ciddi və uzunmüddətli yoxlamadan keçdikdən sonra onların klinikada tətbiq olunmasına icazə verilir, amma yeni cərrahiyyə üsulları bəzən tez-tələsik xəstələrə tətbiq edilir. Üstəlik çox vaxt xəstənin özünün də bundan xəbəri olmur.

Zərifə xanım əhali arasında tibbi biliklərin təbliğ olunmasında kütləvi informasiya vasitələrinin gördüyü işi yüksək qiymətləndirirdi. Bununla yanaşı, jurnalistin tək başına mübahisəli və səhiyyənin mürəkkəb problemlərinin həllinə girişməyi öz üzərinə götürməsini düzgün hesab etmirdi. Jurnalist faktları şərh etməli və hər iki tərəfin fikirlərini əks etdirməli, eyni zamanda hakim kimi son qərar çıxartmağa tələsməməlidir.

Z.Ə.Əliyevanın fikrincə, təbabətin getdikcə dar ixtisaslara bölünməsi qaçılmazdır. Bu cür bölünmə hər şeydən əvvəl elmi biliklərin dərinləşməsi, habelə mürəkkəb diaqnostik və müalicə texnikasının inkişafı ilə əlaqədardır. Odur ki, xəstə ilə sıx ünsiyyət imkanına malik həkimin, başqa sözlə, ailə həkiminin rolu artır. Yalnız ailə həkimi yaxşı tanıya bilər, yalnız o, ixtisas həkiminin yanına göndərməkdə haqlı ola bilər, bütövlükdə diaqnostik və müalicə prosedurlarından baş çıxara bilər. Ailə həkimi xəstənin maraqlarını yalançı tibbi novatorlarından, hələ təcrübə tam şəkildə sınaqdan çıxmamış müalicə üsullarından qorumalıdır. Xəstə cərrahiyyə əməliyyatına razılıq verməzdən əvvəl birinci növbədə hökmən ailə həkimi ilə məsləhətləşməlidir. Ailə həkimi institutu getdikcə daha çox əhəmiyyət kəsb edir və onu hökmən möhkəmlətmək lazımdır.

Zərifə Əziz qızının ölümündən xeyli vaxt keçir. Onu bir daha görməyəcəyimizə, enerjili və doğma səsini bir daha eşitməyəcəyimizə inanmaq çətindir. On ilə yaxın bir vaxt ərzində bizi sıx dostluq telləri bağlayırdı. Biz ömrümüzün kamillik illərində qaynayıb-qarışmışdıq. Həmin illər ərzində Zərifə xanım qadın cazibədarlığı, zərifliyi, ətrafdakıların dərdinə şərik olmaq bacarığı, öz işi, ailəsinə, dostlarına sadiqliyi ilə hamımızı valeh edirdi. Bir yerdə qərar tutmayan, bəstəboy, iri qara gözlərindən, baxışlarından daim xeyirxahlıq yağan bu qadını heç vaxt unutmaq mümkün deyil.

O, ünsiyyətdə nəzakətli və mülayim idi, eyni zamanda öz prinsiplərini müdafiə edəndə inadkarlığı və mübarizliyi ilə də üzə çıxırdı.

O, insani münasibətlərdə kimin səmimi və ya qeyri-səmimi olduğunu hiss edir, yalançılığa və özünüreklama çox pis baxırdı. Ləyaqətli həyata kölgə salan neqativ halları görməyə gözü yox idi.

Zərifə Əziz qızı həkim ailəsində böyümüşdü, sənətinə vurğunluğu atası Əziz Əliyevdən öyrənmişdi. Ömrünün sonuncu günlərinədək o işdən ayrılmadı. Ağır xəstə olmasına baxmayaraq o, ölümünə bir neçə gün qalmış xəstəxanadan bizimlə telefonla danışdı, əsasən ailə və iş haqqında söhbət etdik. O hərtərəfli istedada malik idi. İstedadlı alim, həkim və pedaqoq kimi o, kafedra və laboratoriya rəhbəri olmaqla yanaşı, həm də qayğıkeş, zərif qadın, ana, nənə olaraq qalırdı.

Zərifə xanım elə nadir insanlardan idi ki, onları heç vaxt unutmaq mümkün deyil. Zərifə xanım onu yaxından tanıyanların qəlbində həmişə canlı və sevimli bir insan olaraq qalacaq.

**A.P.NESTEROV,**
*Rusiya Tibb Elmləri Akademiyasının həqiqi üzvü, Piroqov adına II Moskva Tibb İnstitutunun Göz Xəstəlikləri kafedrasının müdiri, əməkdar elm xadimi, Dövlət mükafatı laureatı*

**A.F.BROVKİNA,**
*professor, Oftalmologiya və Radiologiya Mərkəzinin rəhbəri, Dövlət mükafatı laureatı*





## ARAMIZDAN VAXTSIZ GETDİ

Hər dəfə əziz adamımız həyatdan köçəndə onun şəxsiyyəti ilə bağlı anlar yada düşür. Ola bilər ki, həmin anlar o qədər də çox olmasın, lakin müəyyən çalarlarda məhz həmin anlar insanın mahiyyətini açır və bizim yaddaşımızda ömürlük qalır. Zərifə xanımın vaxtsız ölümü haqqında eşidəndə mənə elə gəlir ki, o, çox dözümlü insandır və onun əlacsız xəstəliyi haqqında heç nə bilməmişik. O, təkcə dözümlü deyildi, həm də xeyirxah idi.

Mənə onunla bir yerdə işləmək nəsib olmayıb. Bir alim və ya həkim kimi onunla bir yerdə işləyən adamlar söz deyə bilər. Amma o, Azərbaycan Elmlər Akademiysına akademik seçiləndə mən onun kitablarına rəy yazmalı oldum və bir daha yəqinlik hasil etdim ki, Zərifə xanım elmi işlərində də möhkəm, qürurlu şəxsiyyətdir.

Mən əsasən, onun insani keyfiyyətlərindən söz açmaq istərdim, çünki bu, bizim hər birimiz üçün vacibdir. Zərifə Əziz qızı ən qiymətli insani keyfiyyətinə malik idi. Onlardan ən əsası insanlara xeyirxahlıqla bağlılığıdır. Zərifə xanımın fəal təşkilatçısı olduğu oftamoloqların qurultaylarının birində nümayəndələrdən birinin ayağı sındığını və onun müalicəsinə Zərifə xanımın necə can yandırdığını yaxşı xatırlayıram. O, hər gün xəstəxanaya gəlir, onun halına qəlbən yanır, hətta lazım olan şeyləri öz evindən gətitidi ki, müalicəyə xeyiri dəysin. Zərifə xanımın xəstəyə baş çəkməsinin bir iki gün deyil, bütün müalicə müddətində davam etdiyini düşünəndə indi də kövrəlirəm.

Bu cür xeyirxahlığı o, digər oftamoloqun ailə üzvünə də göstərmişdi. Belə ki yol qəza hadisəsi baş vermiş, maşınlar toqquşmuş və nəticədə sərnişinlərdən biri beyin nahiyəsindən zədə almışdı. Zərifə xanım o zaman da uzun müddət xəstəni nəzarətsiz qoymamışdı.

Onun insanlara xeyirxah münasibətini əks etdirən bir fakt da mənə məlumdur. Belə ki, Zərifə xanım təsadüfən kiçik şəhərdən gələn bir qızla tanış olur və aydınlaşır ki, o, instituta daxil olmayıb. Zərifə xanım onu inandırır ki, heç də hər şey itirilməyib və imtahanlara hazırlaşsa, bir il sonra qəbul ola bilər. Zərifə xanım həmin qızı yataqxanaya düzəldir, işlə təmin edir, imtahanlara hazırlaşmasına

nəzarət edir. Bir il sonra Zərifə xanımın göstərdiyi səylər uğurla nəticələnir. Həyatda ilk addımlarını atan insanlara vaxtında kömək əli uzatmaq olduqca qiymətli və unudulmazdır. Təmənnasız xeyirxahlıq Zərifə xanımın həyat tərzi idi.

Zərifə xanım məni bir neçə dəfə qonaq dəvət edib, lakin işimin çoxluğundan bu dəvətdən istifadə edə bilməmişəm. Taleyimə yazılan, fəqət istifadə edə bilmədiyim o gözəl görüşlərin bir daha baş tutmayacağını düşünür və çox təəssüflənirəm. Görünür "bu günün işini sabah qoyma deyənlər" haqlı imiş... "Bu gün" isə artıq dünəndir, hayıf, çox hayıf ki, yaşanmayan günlərin bir saniyəsində belə dünən yoxdur. Onunla Kiyevdə, Odessada, Bakıda, Daşkənddə olan ötəri görüşlərimi də xatırlayıram. Oftalmoloqların qurultayında Zərifə Əziz qızı həkim-xəstə münasibətləri barədə məruzə ilə çıxış etdi. Məruzə qurultay iştirakçılarının, xüsusilə gənc həkimlərin böyük marağına səbəb oldu. Təşkilati işlərlə məşğul olduğuna görə Odessa qurultayında Zərifə xanımla doyunca söhbətləşə bilmədim. Onunla qısa müddətli görüşlər də unudulmazdır.

Daşkənddə oftalmoloqların qurultayında Zərifə xanım bir neçə həmkarına, o cümlədən mənə Səmərqəndə getməyi təklif etdi. Bu doğurdan da tarixi abidələr şəhərinə gözəl bir səfər idi və hamımızı heyrətləndirmişdi. Üstəlik Zərifə xanımın həmin səfərdə dediyi sözlər bu səfəri ömürlük yaddaşımıza həkk eləmişdi.

Oftalmoloqların Bakıda keçirilən konfransını da heç cür unutmaq mümkün deyil. Çox ciddi şəkildə məşğul olmasına baxmayaraq Zərifə Əliyeva konfrans iştirakçılarının hər birinə diqqət yetirirdi. Məhz onun sayəsində gördüyüm Neft daşları, habelə Bakının digər görməli yerləri həmişəlik yaddaşıma həkk olunub. Üstəlik konfrans vaxtı Heydər Əliyevlə keçirdiyimiz görüş heç vaxt yaddan çıxmır.

**N.A.PUÇKOVSKAYA**
*Ukrayna Oftalmoloqlar Elmi Cəmiyyətinin sədri,*
*Tibb Elmləri Akademiyasının həqiq üzvü*





## AKADEMİK ZƏRİFƏ ƏLİYEVA
**Və yaxud İnsan və Qadın taleyi haqqında**

Mən, Zərifə xanımla elə yaş dövründə tanış olmuşam ki (yaşım əllini keçmişdi), insanlara bir qədər ehtiyatla yanaşmalı, münasibətləri ölçüb biçməli olursan. Bir sözlə, dostluq həmin yaş dövründə gənclikdə olduğu kimi birdən-birə çılğıncasına yaranmır. Amma, Zərifə Əziz qızı səmimiyyəti və təbii davranışı ilə məni elə ovsunladı ki, elə ilk görüşün ilk saatlarından mənə elə gəldi ki, onu lap çoxdan tanıyıram, onunla çoxdan dostluq əlaqələri saxlayıram. Odur ki, həmin andan etibarən aramızda mənəvi ünsiyyət yarandı. Bizim tanışlığımız yeddi il davam etdi və bu müddət ərzində iki dəfə görüşdük. Görüşlərarası müddətdə isə məktublaşdıq. Bizim münasibətləri daha çox hansı sözün – tanışlığın, dostluğun, yoxsa qarşılıqlı hörmətin dolğun ifadə etdiyini müəyyənləşdirməkdə çətinlik çəkirəm. Amma həmin münasibətlər mənim qəlbimdə dərin iz buraxıb və buna görə də taleyimə minnətdaram. Çox vaxt həyatda utancaqlıq ucbatından kimisə çox sevdiymizi, kiminsə bizim üçün əziz və yaxın olduğunu etiraf etməyə, ülvi hisslərimizi büruzə verməyə söz tapmırıq. Lakin sonradan görürsən ki, həmin sözləri demək istədiyin adam artıq həyatda yoxdur və onda xatirələr dil açır.

Yaddaşın nə zamansa ilk baxışdan kiçik, lüzumsuz görünən elə məqamları üzə çıxır ki, insan həyatdan köçəndən sonra məhz o məqamların daha önəmli, əhəmiyyət kəsb etdiyini anlayırsan. Bu isə "ölülərdən çox dirilərə" lazımdır. Nə qədər ki bizim yaddaşımız yaşayır, deməli, həmin yaddaşdakı adam da yaşayır. Necə ki, bizim beynimizdən qiymətli xatirələr silinib getməyib, istər-istəməz xatırlamaq, anlamaq, fikirləşmək, yazmaq istəyirsən.

Zərifə Əziz qızı təkcə görkəmli alim, istedadlı pedaqoq və tərbiyəçi, fəal ictimai xadim deyildi, həm də kövrək qəlbli insan, qayğıkeş və sevimli qadın, ana, nənə idi, qeyri-adi şəxsiyyət idi. Onun şəxsiyyəti ictimai və fərdliyin bir vəhdəti idi. Öz xatirələrimdə əsasən Zərifə Əliyevanı İnsan və Qadın kimi səciyyələndirmək istərdim.

### İLK GÖRÜŞ

Bakının ətrafındakı sanatoriyada bir axşam Zərifə xanım məni ərimlə birlikdə qonaq çağırdı. Ərimin söhbətlərindən bilirdim ki, Zərifə Əziz qızı oftalmologiya professorudur, görmə orqanının

peşə patologiyası üzrə məşhur mütəxəssisdir, gözəl nitq mədəniyyətinə malikdir və elmi müşavirələrdə onun çıxışları hamıda heyranlıq doğurur. Həmkarı ilə görüş ərimin ürəyincə idi, fikir mübadiləsi aparmalı, elmi məsələləri müakirə etməli idi. Mən isə bu görüşdə sadəcə olaraq ərimin həyat yoldaşı kimi iştirak etməli idim. Bununla belə, ixtisasca fizioloq olduğum üçün görmə orqanının fiziologiyası və patologiyası ilə bağlı məsələlərin müzakirəsinə müdaxilə də edə bilərdim. Bu dəvət bir qədər gözlənilməz olduğundan bizi sıxırdı, çünki Zərifə xanımın ərinin yüksək dövlət xadimi olduğunu bilirdik. Təbii olaraq belə güman edirdik ki, onun yaxından tanış olmadığı adamlarla görüşməyə də vaxtı məhdud olmalı idi. Üstəlik Zərifə xanım məzuniyyətdə olsa da, ailənin bütün ağırlığı onun üzərinə düşürdü: tələbə oğlu və aspirant qızı əriylə birlikdə tətilə buraxılmışdı. Təyin olunan vaxtda biz evə daxil olduq və mən ilk dəfə Zərifə xanımı gördüm. Bəstəboy, çox çevik olan bu qadın həmin an nəinki diqqətimi cəlb etdi, hətta məndə bir rəğbət oyatdı. Adi ev paltarında idi, ayağına yüngül ayaqqabı geyinmişdi. İri, qara gözlərindən xeyirxahlıq yağırdı. O, bizi mehribanlıqla qarşıladı, salamladı, hara gedəcəyimi göstərdi. Mənə elə gəldi ki, o, çox cavandır (sonradan Zərifə xanımın mənimlə yaşıd olduğunu öyrəndim). Digər tərətdən mənə elə gəldi ki, biz nə vaxtsa əvvəllər də tanış olmuşuq. Odur ki, ilk tanışlıq üçün lazım olan ifadələr seçməyə ehtiyac olmadı.

Zərifə xanımla ünsiyyət yartamaq çox asan idi. Söhbətimiz alındı. Biz işdən, elmdən, müsiqidən söz saldıq. Uşaqların tərbiyəsi ilə bağlı söhbət bizi lap doğmalaşdırdı. Həm Zərifə xanımın, həm mənim həyatımda elə dövr idi ki, uşaqlar doğma ocağı tərk edərək təzəcə ailə həyatı qurmuşdular. Belə ki, Zərifə xanımın qızı ərə getmişdi və ana ürəyi narahat idi. O, xoşbəxt olacaqmı? Sevdiyi adam ona arxa ola biləcəmi? Sevili bütün varlığı ilə sevən ana qızına məsləhət görürdü ki, var gücüylə ailəsinə bağlansın, onun qayğıları ilə yaşasın. Və çox istəyirdi ki, bu ləyaqət nişanları bütün ömrü boyu qızının yol yoldaşı olsun.

Mən onu gözəl başa düşürdüm, çünki mənim qızım da yaxınlarda ərə getmişdi. Üstəlik bu izdivaca ərimlə razı deyildik, lakin onun əleyhinə də gedə bilmirdik. Qızımız təkidlə aralarında böyük sevgi olduğunu söyləyirdi. Amma təəssüf





ki, qızımın nikahı uğursuz oldu. Keçirdiyim narahatlıq hisslərimi Zərifə xanımla bölüşdüm və onun məni başa düşdüyünü, dəstəklədiyini gördüm. Lakın sonradan qızımın qurduğu ailə dağıldı. Bunu eşidən Zərifə Əziz qızı yazırdı: "... Qızınıza görə acı təəssüf hissi keçirdiyinizi başa düşürəm. Zənnimcə o, düzgün hərəkət edib. O özünə hökmən yeni həyat qurmalı, həyat yoldaşı seçərkən tələsməməlidir. Hər şeyi götür-qoy etməli, bir daha səhvə yol verməmək üçün onu yaxşı tanımalıdır." Bir neçə il sonra qızım ikinci dəfə ərə gedərkən Zərifə xanım yazırdı:"... qızınıza görə çox şadam, ona səmimi qəlbdən xoşbəxtlik arzulayıram".

Zərifə xanım ərimdən pianoda çalmağı xahiş etdi. O, ərimin, yaxşı pianoçu olduğunu bilirdi. Müxtəlif iclaslarda və konfranslarda fasilələr arası o, tez-tez royalən arxasına keçirdi. Hiss olunurdu ki, Zərifə Əziz qızı musiqini sevir və başa düşür. Azərbaycan bəstəkarlarından, müğənnilərindən söz düşdü. Azərbaycanda bəstəkarlıq məktəbinin baniləri Üzeyir Hacıbəyov və Müslüm Maqomayevdir. Bakı konservatoriyası Üzeyir Hacıbəyovun, filarmoniya isə Müslüm Maqomayevin adını daşıyır. Üzeyir Hacıbəyovun musiqisi "Arşın mal alan" komediyasından, "Leyli və Məcnun" operasından bizə yaxşı tanışdır. Etiraf eləməliyəm ki, bəstəkar Müslüm Maqomayevin adını ilk dəfə eşidirdim. Təbii ki, mənə və bir çoxlarına Müğənni Müslüm Maqomayevin adı tanışdır. Məlum oldu ki, bəstəkar Müslüm Maqomayev Azərbaycanda musiqi teatrının əsasını qoyanlardan biridir. "Nərgiz" operasının müəllifidir.

Artıq gec idi və şam yeməyindən sonra getməyə hazırlaşırdıq. Bu zaman Zərifə xanımın əri işdən qayıtdı. Hündürboylu, şux qamətli bir kişi iti addımlarla otağa daxil oldu. Sifətindən yorğun olduğu sezilirdi. Biz çıxıb getməyə tələsdik. Zərifə xanım isə üzündə təbəssüm əri qarşılayırdı. Zərifə xanım ona yaxınlaşıb, barmaqlarının ucunda qalxaraq, belə ki, əri ondan xeyli hündür idi, əri öpdükdən sonra astadan nəsə pıçıldadı. Görünür, evdəki qonaqların kim olduğunu xəbər verirdi. Ev sahibi ədəb-ərkanla salamlaşdıqdan sonra təkidlə bir qədər ayaq saxlamağı və birlikdə çay içməyi təklif etdi. Ailənin bütün üzvləri masa ətrafına toplaşdı və ev sahibəsinin sanki bir drijor kimi ailədə necə böyük rol oynadığı üzə çıxdı. Zərifə xanım ailədə xüsusi mehribançılıq yaradır, sanki ailənin yeni üzvləri arasına səmimilik körpüsü salırdı.

Bu ailədə əsl səmimiyyətin hökm sürdüyünə ikinci gəlişimdə bir daha yəqinlik hasil etdim. Hələlik isə ev sahibi ilə birlikdə armudu stəkanda Azərbaycan çayı içirdik.

Onların övladları xüsusi ilə xoş təsir bağışladılar. Belə ki, Sevil xanım da, onun əri də, İlham da özünü sərbəst aparır, artıq boya-başa çatsalar da, dərin hörmətlə analarının sözünə baxırdılar. Bizim söhbətlərimiz onların maraq dairəsindən kənarda olsa da, onlar özlərini əsl tərbiyə almış övlad kimi aparır, söhbətə yerli-yersiz qarışmır, eyni zamanda diqqətlə qulaq asır, lazım gəldikdə isə verilən sualları cavablandırmaqla kifayətlənirdilər.

Biz səmimi şəkildə sağollaşdıq. Bir neçə gündən sonra Zərifə xanım ailəsi ilə birlikdə Bolqarıstana istirahətə gedirdi. Bizim Xəzər sahillərində keçən məzuniyyətimiz də sona yetirdi. Bu zaman doğurdan da Zərifə xanımın qeyri-adi qayğıkeşliyini nümayiş etdirən hadisə baş verdi. Belə ki, o zaman yay vaxtı təyyarəyə bilet almaq müşkül məsələ idi. Zərifə xanım Bolqarıstandan Bakıya zəng edib bilet almağı və bizi yola salmağı xahiş etmişdi. Doğrudur, biz biletləri qabaqcadan almışdıq, lakin Zərifə xanımın bu insani qayğıkeşliyi və diqqəti sözün əsl mənasında bizi təsirləndirmişdi.

**GÖRÜŞLƏR ARASI**

Bizim ilk görüşümüzdən sonra aramızda xoş ünsiyyət yarandı. Amma yenidən görüşməyə imkan yox idi. Buna Bakı və Leninqrad arasında yüzlərlə kilometr, işin çoxluğu, ailə qayğıları mane olurdu. Beləliklə, məktublaşmağa başladıq. Əgər telepatiyaya inansaydım, qəti şəkildə deyə bilərdim ki, Zərifə xanım mənim həyatımın ağır anlarını hiss edirdi, çünki həmişə ağır anlarda ondan məktub alırdım. O həmişəki kimi yenə xeyirxah, istiqanlı və qayğıkeş idi. Mən indi çox təəssüflənirəm ki, xeyirxah adamların məktublarının heç də hamısını saxlamamışam və buna o qədər də əhəmiyyət verməmişəm. Zərifə Əziz qızının da yazdığı bir çox məktublar məndə qalmayıb. O zaman mənə elə gəlirdi ki, bu məktublar olsa-olsa şəxsi xarakter daşıyır. Yalnız indi fərqinə varıram ki, o məktubları saxlamamaqla çox şey itirmişəm. A.Gertsenin yazdığı kimi “məktublardakı sadəlik və sərbəstlik, onlarda əks olunan qayğılar məktublaşanları istər-istəməz bir-birinə yaxınlaşdırır”. Odur ki, Zərifə Əziz qızının məktublarına istinad etməyi qərara aldım, çünki onlar





Zərifə xanımın gündəlik qayğılarından soraq verir, onun insani keyfiyyətləri haqqında, necə də qeyri-adi qadın olması barədə mühakimə yürütməyə imkan yaradır.

Zərifə Əziz qızı bütün həyatını işə və ailəsinə həsr etmişdir. Məktublardan görünür ki, onu elmi tədqiqatların taleyi, laboratoriya işi daim narahat edir. Pedaqoji iş də onun vaxtını aparırdı. Hər şeyi yerinə yetirmək lazımdır, həmişə problemlər, problemlər... Bu barədə o belə yazırdı: “... pedaqoji iş çox vaxt aparırı, amma ciddi hazırlaşmaq lazımdır, üstəlik laboratoriyada çoxlu həll olunmamış məsələlər var. Köməkçilər zəifdir, həm də çox azdır. İki elmi işçi ayırmağa da söz veriblər. Baxaq görək sonrası necə olur? Bütün günü ayaq üstəyəm, axşamlar evdə də işləyirəm. Yazıram. Maraqlı alınır. Mənim dərslik kitabımı aldınız, ya yox? Tezliklə başqa birisi də çapdan çıxacaq”.

Necə işgüzar olmalısan, işinə sevgi və məsuliyyət hissi ilə yanaşmalısan ki, onlarla elmi iş, 5 monoqrafiya, bir neçə dərslik kitabı və metodik tövsiyyələr çap etdirəsən! Hər hansı bir işi yerinə yetirəndə Zərifə Əziz qızı bunu böyük fədakarlıq kimi qələmə vermək fikrindən uzaq idi. O, özünün və ərinin fəaliyyətini ümumi işə xidmət edən gündəlik tələbat olduğunu qeyd edirdi: “... biz qocalar işləyirik, hər birimiz öz sahəsinə ümumi işə xidmət edirik”.

Yalnız bir dəfə məktubda sözarası yorğun olduğunu büruzə verirdi: “işdə yorulmuşam. Üstəlik bir çox ictimai tapşırığı da yerinə yetirmişəm”. Zərifə xanım həm də böyük ictimai xadim idi. O, Azərbaycan Sülhü Müdafiə Komitəsi sədrinin müavini, “Bilik” Cəmiyyəti İdarə Heyətinin üzvü, Oftalmoloqlar Cəmiyyətinin Rəyasət Heyətinin üzvü idi. Yalnız yüksək təşkilatçılıq bacarığı olan şəxslər çoxsaylı ictimai tapşırıqların öhdəsindən gələ bilərdi.

Üstəlik əri Moskvada yeni iş yerinə təyin olunanda Zərifə xanım daha mürəkkəb bir işin öhdəsindən gəlməli olur. Onun ürəyi sanki iki yerə bölünüb. “Hələlik Bakıda qalıram, olduqca əhəmiyyətli və maraqlı bir işi yerinə yetirən laboratoriyamı atmağa heyfsilənirəm”, “... hələ Bakıda görməli işlərim həddindən çoxdur”.

Ailəsindən müvəqqəti olaraq ayrı düşmək Zərifə xanım üçün çox ağırdır. “Mən hələlik Bakıda qalıram, fikirləşirəm ki, bu il işlərimi yekunlaşdırım, sonra gedim. Övladlarım və nəvələrim üçün çox darıxıram”, Və yaxud “... ötən il mənim üçün ağır keçdi,

Bakıda özümüzünkülərdən uzaqda yaşadım”. Və ya “şənbə və bazar günlərində, bayram günlərində tez-tez onlara baş çəkirəm. Onlardan ötrü dəhşətli dərəcədə darıxıram”.

Nəhayət Zərifə xanım Moskvaya köçür: “... Hələlik Moskvada iş yerim müəyyənləşdirilməyib.” “İndi mən Moskvadayam. Məni çox yaxşı qarşıladılar. Bir çox maraqlı təkliflər var, amma mən hələlik bir qərara gəlməmişəm... Lakin fikirləşməyə hələ vaxt var”. Bu sətirlər onun 30 yanvar 1985-ci ildə yazdığı məktubdan götürülüb, iki ay yarımdan sonra Zərifə xanım artıq həyatda yox idi.

Biz heç zaman Zərifə xanımla onun şəxsi həyatı, əri ilə münasibətləri haqqında danışmamışıq. Amma biz görüşəndə, müxtəlif mövzularda söhbət edəndə, hətta məktublarını oxuyanda artıq məndə qəti şəkildə belə bir təsəvvür yaranmışdı ki, o, görkəmli dövlət xadimi olan ərinin bütün çətinliklərinə şərikdir. O, əri ilə həmfikir idi və onun yüksək siyasi, elmi və mədəni səviyyəsi bütün işlərdə ərinə kömək edirdi. Ərinin işdəki uğurlarını, sevincini özününkü bilirdi. Bu yerdə yenə də istər-istəməz A.Gertsenin sözləri yada düşür: “Ərini narahat edən məsələlərdən kənarda qalan, fikirlərini bölüşməyən qadın olsa-olsa kənizdir, sözün əsl mənasında həyat yoldaşı deyil”. Zərifə xanım əri üçün həm həyat yoldaşı, həm də dost, yoldaş idi. O, əri haqqında böyük hörmətlə danışır, şəxsi münasibətlərini və hislərini müzakirəyə çıxarmır, xırdalamırdı.

Zərifə xanım sevimli ana və nənə idi. Övladlarının və nəvələrinin həyatında baş verən hadisələri ürəyinə salır, onların uğursuzluqlarını onlarla birlikdə yaşayır, sevinclərinə şərik olurdu. Məktublarının birində yazırdı: “Böyük sevinc hissi ilə sizə bildirirəm ki, nəvəmiz dünyaya gəlib. Sevil hədsiz dərəcədə sevinir, baxmayaraq ki, hamiləlik dövrü çox ağır keçirdi. Nənəsinin şərəfinə nəvəmin adını Zərifə qoydular. Mənim keçirdiyim hislər sizə yaxşı tanışdır”. “Sevil Moskvada işləyir, əri hələlik təhsilini davam etdirir. Səbirsizliklə onların evə qayıtmasını gözləyirəm”. Uşaqlardan ayrı müxtəlif şəhərlərdə yaşamaq çox xoşagəlməzdir”.

Oğlu haqqında isə belə yazırdı: “İlham... böyüdükcə ciddiləşir. Hələlik onun bəyəndiyi qız yoxdur və bu haqda fikirləşmir”.

Bir neçə il sonra: “Ailəmizdə sevindirici bir hadisə baş verib – oğlumu evləndirdik. Gəlinimiz tibb institutunun 2-ci





kursunda oxuyur, əslən sadə bir ailədəndir”, “onların ailə münasibətləri hələlik yaxşıdır, doğrudur, bəzən aralarında mübahisələr də olur (görünür onsuz maraqsız olardı)”.

Daha iki il keçdikdən sonra: “Artıq nəvəmiz dünyaya gəlib. Adını Leyla qoyduq. Olduqca qəşəng bir qızcığazdır, iri qara gözləri və uzun kirpikləri var”. Körpədən narahat olduğunu da büruzə verir: “Ana südü ilə qidalanmır, süni yeməklər veririk”. Azadfikirli bir qadın olan Zərifə Əziz qızı özünü bütövlükdə ailəsinə həsr edirdi, bütün varlığı ilə ona bağlı idi. Ən xırda məqamlarda belə bütün ailə üzvlərinə sevgisi hiss olunurdu.

**İKİNCİ GÖRÜŞ**

1983-cü ilin sentyabrında Bakıda İ.P.Pavlov adına Fiziologiya Cəmiyyətinin qurultayı keçirilməli idi. Belə qurultaylar adətən 4-5 ildən bir keçirilir və təkcə fizioloqların həyatında yox, həm də digər tibb mütəxəssislərinin həyatında mühüm hadisə hesab edilir. Çünki insan orqanizminin başa düşülməsi nəticə etibarı ilə bütövlükdə orqanizmdəki pozuntuların bərpa olunması fundamental fizioloji biliklər zəminində mümkündür. Qurultayda həmkarların görüşləri də (çünki bu cür görüşlərin keçirilməsi alimlərin ciddi məşğul olması ucbatından və coğrafi baxımdan çətindir) mühüm əhəmiyyət kəsb edir. Mən fizioloqam və mənim yadımda bu cür qurultaylar əsl bayram kimi qalıb. Bakıda keçiriləcək növbəti qurultayda Zərifə xanımla görüşəcəyimə ümid edirdim. Odur ki, qurultayda iştirak etməyə daha çox can atırdım. Bu görüş Zərifə Əziz qızının da ürəyincə idi və o yazırdı: “Əgər qurultayda iştirak etmək üçün Bakıya gələsi olsanız, mənə qabaqcadan xəbər verin. Çünki sizinlə görüşmək üçün həmin vaxt Bakıda olmaq istəyirəm”. Oftalmoloq olmaqla yanaşı Zərifə xanım Ə.Əliyev adına Azərbaycan Dövlət Həkimləri Təkmilləşdirmə İnstitutunda işləyərkən, eyni zamanda Bakı Məişət Kondisionerlər Zavodunun nəzdində akademik Ə.Qarayev adına Fiziologiya İnstitutunun görmə orqanının fiziologiyası və peşə patologiyası laboratoriyasını yaratmışdı. Beləliklə Zərifə xanımın təkcə əməli iş görən həkim-oftalmoloq yox, həm də dərin elmi təfəkkürə malik fizioloq alim olduğu üzə çıxır. Zərifə Əziz qızı bir fizioloq kimi Fiziologiya Cəmiyyətinin XIV qurultayının təşkilat komitəsinin üzvü idi. Elmi maraqlarımızın üst-üstə düşməsi bizi daha da yaxınlaşdırırdı.

İlk görüşdən sonrakı vaxt ərzində məktublaşmağımız aramızda mənəvi doğmalıq yaratmışdı. Əlbəttə məktubda hər şeyi yaza bilmirsən, odur ki, şəxsən görüşməyin vaxtı çoxdan çatmışdı. Zərifə xanım yazırdı: "Çox istərdim ki, sizinlə məsləhətləşim, çünki məktubda hər şeyi yazmaq olmur". Ailə Moskvaya köçəndən sonra aramızdakı məsafə xeyli qısaldı. "... ola bilsin ki, qışda Leninqrada gəlim, sizinlə görüşdən şad olardım". Məktublardan görünür ki, o, ciddi məşğuldur, hətta özünün qayğısına qalmağa belə macalı yoxdur. Mən intizarla Bakıya gəlmək, Zərifə xanımla görüşmək istəyirdim. Həmin vaxt onun ailə həyatının mürəkkəb dövrü idi; əri və uşaqları Moskvada yaşayır, işləyirdi. O isə hələ də Bakıda yaşayırdı, çünki "... işi, yaratdığım laboratoriyanı atmağa heyfim gəlir". Laboratoriyada "fəaliyyət göstərdiyi 3 il ərzində gözün dəqiq funksional tədqiqatları da daxil olmaqla 6 mindən çox fəhlə müayinədən keçib. Laboratoriyanın yerləşdiyi zavodda çoxlu cərrahiyyə əməliyyatı aparılıb. Hətta başqa ixtisas sahibi olan görkəmli tibb xadimləri bizə baş çəkir. Onların arasında xarici qonaqlar da var".

Bakıya gələn kimi Zərifə xanıma zəng etdim. Onun mülayim səsini, xeyirxah sözlərini eşitdim. O artıq mehmanxanaya zəng edib mənim rahat yerləşməyim üçün əvvəlcədən qayğı göstərmişdi. Mən mehmanxanada yerləşəndən sonra o bir daha zəng etdi və mənim necə yerləşməyimlə maraqlandı. O doğurdan da qeyri-adi qayğıkeş və diqqətcil adam idi. Bu fikri Zərifə xanımla görüşənlərin hamısı təsdiq edə bilər. Biz, əlbəttə təzə tanış olmuşduq və bu cür istiqanlılığı və diqqəti yalnız xeyirxah adam göstərə bilərdi.

Biz qurultayın təntənəli açılışında görüşdük. Zərifə xanım rəyasət heyətində əyləşmişdi. O, yaxınlarda respublika Elmlər Akademiyasına həqiqi üzv seçilmişdi və Azərbaycan elmini ləyaqətlə təmsil edirdi. Mən birinci sırada oturmuşdum və onun üzünə baxırdım. Adamın heç ağlına da gəlməzdi ki, iki ildən də az vaxt keçəcək və Zərifə Əziz qızı artıq həyatda olmayacaq.

Qurultayda əsas proqram məruzəsi ilə akademik Y.İ.Çazov çıxış etdi. Onun "Ürək-damar sisteminin fiziologiyasının müasir problemləri" mövzusunda etdiyi məruzə böyük maraqla dinlənildi. Fasilədə biz Zərifə xanımla məruzəni müzakirə etdik. Zənnimcə məruzədə toxunulan bir məsələ - fizioloji təfəkkürlə klinik təcrübənin vəhdəti onun daha çox diqqətini cəlb etmişdi.





Zərifə xanım məni evə dəvət etdi. Bizim ilk görüşümüz bağ evində olmuşdu. Bu dəfə onun şəhərdəki evinə getdim. Nə ilk görüşdə, nə də indi evdəki avadanlıqların ümumi quruluşuna o qədər də diqqət yetirməmişdim. Lakin otağın sadəliyi yadda qalmışdı, artıq heç nə gözə dəymirdi. Biz kiçik bir otaqda əyləşmişdik. Divarlara şüşəli kitab şkafları quraşdırılmışdı, otaqda yazı və jurnal stolları qoyulmuşdu.

Biz ailəmizdən söz saldıq. Təbii ki, "ailəmiz" dedikdə h ə m də övladlarımızın, əgər belə demək mümkünsə, "yarımmüstəqil" ailələrini də nəzərdə tuturduq. Bizim söhbətdən bir qədər əvvəl Zərifə xanımın qızının balaca oğlu xəstələnmişdi və həkimlər difteriyadan şübhələnirdilər. Lakin xoşbəxtlikdən hər şey gözlənildiyinin əksinə olaraq yaxşı qurtardı. Biz ömrünü təkcə ailəsinə yox, həm də ciddi şəkildə elmə həsr edən qadınların həyat yolunda qarşıya çıxan çətinliklərdən söz saldıq. Bununla belə hər iki sahədə tarazlıq yaratmağın necə də çətin olduğunu dərk edirdik. İki görüş arasında olub keçənləri də götür-qoy etdik.

Daha sonra başqa bir otağa (görünür, o həm yemək otağı, həm də mətbəx hesab olunurdu) keçdik. Otağın arasında böyük yemək stolu qoyulmuşdu. Divarlarda Zərifə xanımın ərinin görkəmli dövlət xadimləri ilə çəkdirdiyi bir neçə iri şəkil asılmışdı. Otağın küncündə televizor, divarların önündə isə bir yumşaq divan və iki kreslo qoyulmuşdu. Burda da hər şey sadə və təbii idi. Zərifə xanım dedi ki, əri ailəni köçürmək üçün Moskvadan gəlib, indi istirahət edir. Bir qədər sonra ev sahibi otağa daxil oldu. O gülümsəyərək salamlaşdı. Biz şam süfrəsi arxasına əyləşdik. Yüksək vəzifə sahibləri ilə ünsiyyətdə olanda istər-istəməz bir qədər sıxılırsan, gərginlik hiss edirsən, Əliyevlər ailəsində bu gərginlik tez ötüb keçir, çünki ev sahibləri bu gərginliyin aradan qalxmasına imkan yaradır və qonaq tezliklə özünü sərbəst hiss edir... Dövlət siyasətindən, müasir səhiyyə imkanlarından, yeni kinofilmlərdən, sadə şeylərdən və gündəlik hadisələrdən söz düşdü...

Bu, dostluq şəraitində keçən unudulmaz bir axşam idi. Gələcək işləri, görüşməyi, elmi əlaqələr qurmağı planlaşdırdıq. Ev sahibi də alicənab idi. Onun haçansa bu ləyaqətli ailədən, tanışlardan, dostlardan... bizdən ayrılacağı kimin ağlına gələrdi ki?

Ayrılıq vaxtı yetişdi. Səhəri gün mən Leninqrada uçdum. Bakıda keçirilən qurultay gözlədiyimdən də artıq təsirli olmuşdu. Təbii ki, bu sevincin və məmnunluğun baş tutmasında Zərifə xanımla və onun ailəsi ilə keçirdiyim görüşlər başlıca rol oynamışdı. Sent-Ekzüperinin sözləri ilə desək, ünsiyyət həyatda mənim qazandığım ən böyük səadətdir. Bunun üçün də taleyimə hədsiz minnətdaram.

Kimin ağlına gələrdi ki, hər şey tezliklə və gözlənilməz bir sonluqla bitəcək. Təvazökar, istedadlı, xeyirxah bir İnsanı və Qadını vaxtsız itirməyin isə necə də ağır olduğunu ifadə etməyə söz tapmıram.

**O.P.DOBROMİSLOVA**
*professor*





## AMALI, NİYYƏTİ SAF OLAN İNSAN

Azərbaycan Elmlər Akademiyasının həqiqi üzvü, respublikanın əməkdar elm xadimi, Tibb Elmləri Akademiyasının mükafatı laureatı, tibb elmləri doktoru, professor Ə.Əliyev adına Azərbaycan Dövlət Həkimləri Təkmilləşdirmə İnstitutunun göz xəstəlikləri kafedrasının müdiri Zərifə Əziz qızı Əliyevanın adı həm alim, pedaqoq, həkim, ictimai xadim, həm də bənzərsiz ürək saflığının təcəssümü olan bir insan kimi onunla ünsiyyətdə olan hər bir adamın qəlbində əbədi yaşayacaqdır.

Zərifə xanımın bütün həyatı və fəaliyyəti çoxşaxəliliyi ilə fərqlənmiş, başqaları üçün nümunə olmuşdur. İndi onunla bağlı hadisələr yaddaşın dərin qatlarında üzə çıxanda bu bənzərsiz insanın işıqlı obrazı cilalanmış almaz kimi göz önündə canlanır, bərq vurur. Zərifə Əziz qızının yaradıcı həyatının ana xəttini heç şübhəsiz ki, onun oftalmologiya sahəsində apardığı pedaqoji fəaliyyət təşkil edir. O, 1947-ci ildə Azərbaycan Dövlət Tibb Universitetini bitirdikdən sonra ömrünü oftalmologiyaya həsr etmişdir. Təbiətən insanın dəqiq və incə təhlilinə meyl göstərən Zərifə xanım təsadüfi deyil ki, səhiyyə ixtisasları arasında məhz incəliyi və zərgər dəqiqliyi ilə seçilən oftlamologiya sahəsinə maraq göstərmişdir. Zərifə Əziz qızının yaradıcı taleyi elə gətirib ki, seçdiyi sənətdə ilk addımlarını atdığı gündən ömrünün sonunadək Moskvada yerləşən Mərkəzi Həkimləri Təkmilləşdirmə İnstitutunun Oftalmologiya kafedrası ilə sıx bağlı olub.

1948-ci ili xatırlayıram. Gənc həkim bu kafedrada ilk ixtisas kursunu keçir, göz həkimi diplomu alır, sonradan uzun illər ardıcıl olaraq Azərbaycan Həkimləri Təkmilləşdirmə İnstitutunun göz xəstəlikləri kafedrasına dosent, professor və kafedra müdiri vəzifələrini tutur, daim bizim kafedra ilə sıx yaradıcılıq əməkdaşlığı saxlayır, Azərbaycan üçün oftalmologiya mütəxəssisləri hazırlayır. Bu illər ərzində o gözəl diaqnostik, klinik və cərrah-oftalmoloq kimi təşəkkül tapır, əsl pedaqoq istedadı üzə çıxır.

Cazibəli şifahi nitq mədəniyyətinə malik olan Zərifə xanım həkim-oftalmoloqlar üçün Azərbaycan və rus dillərində müxtəlif ixtisaslar üzrə yüksək elmi səviyyədə mühazirələr oxuyur. Heyrətləndirici bir faktı misal çəkmək istəyirəm. Belə ki, Zərifə xanımın rus dilində həm şifahi danışığı, həm də elmi kürsülərdən

yüksələn çıxışları dəqiq və aydın tələffüzü ilə diqqəti cəlb edirdi. O, tribunada özünəməxsus danışıq manevrası ilə fərqlənir, möhkəm yaddaşına güvənərək bir qayda olaraq yazılı mətnə baxmadan əhatə etdiyi mövzunu rəngli slaydlar və cədvəllərlə əsaslandıra bilirdi.

Mən dəfələrlə professor Z.Ə.Əliyevanın bir neçə həkimlə birlikdə xəstələri müayinə etməsinin şahidi olmuşam. Zərifə xanım xəstəyə təcili diaqnoz qoymağa, necə deyərlər, "İlk baxışdan diaqnoz qoymağa" tələsmirdi. Bir növ xəstənin daxili aləmini öyrənməyə çalışırdı. Bir həkim kimi xəstənin yaşayış tərzini, vərdişlərini, şikayətini və xəstəliyin baş vermə səbəblərini aydınlaşdırmağa səy göstərirdi. Onun fikrincə, belə olduqda obyektiv klinik müayinə əsasında düzgün müalicə təyin etmək mümkündür.

Həkimləri təkmilləşdirmə kurslarının müdavimləri əbəs yerə demirdilər ki, professor Z.Ə.Əliyevanın həkimlik mədəniyyəti olduqca universaldır. Professor təkcə dərmana və cərrahiyyə əməliyyatlarına üstünlük vermir, sözlə müalicə etməyə çalışır, xəstəni ümidsizliyə qapılmağa qoymurdu.

1979-cu ildə Mərkəzi Həkimləri Təkmilləşdirmə İnstitutu professor Z.Ə.Əliyevanın təşəbbüsü ilə "Göz xəstəliklərinin diaqnostikasının və müalicəsinin yeni üsulları" mövzusunda aylıq səyyari seminar keçirirdi. Bu mənim rəhbərlik etdiyim 21-ci seminar idi və respublikada həkimləri təkmilləşdirmək üçün yeni metodik üsullara əsaslanan bu cür seminarlar ilk dəfə keçirilirdi.

Heç şübhəsiz ki, bu cür tədbirlərin keçirilməsi həm Moskva, həm də Azərbaycanın həkim-oftalmoloqlarının iş birliyi qurmasına şərait yaradırdı.

Həmin silsilə seminarlar hər iki kafedranın işgüzar əlaqələrini daha da gücləndirdi və gələcəkdə onların iş üsullarını mən deyərdim ki, eyniləşdirdi. Üstəlik professor Z.Ə.Əliyevanın rəhbərlik etdiyi müəllim kollektivi moskvalı həmkarlarının oxuduğu bütün mühazirələri dinlədi, başqa yerlərdən gələn pedaqoqlar isə öz növbəsində Bakının göz xəstəlikləri klinikalarında oldular, göz xəstəliklərinin müalicə üsulları ilə, habelə Azərbaycan ofalmoloqlarının iş təcrübəsi ilə yaxından tanış olmaq imkanı əldə etdilər. Zərifə xanımın pedaqoji təcrübəsində sözlə işin vəhdəti aydın nəzərə çarpır. O oftalmoloqun fəal formalaşması üçün





məhz tədris prosesi üçün nəzərdə tutulan və şəxsən müəllifi olduğu dərs vəsaitlərindən, nəşrlərdən geniş istifadə edirdi. Həkimlərin təkmilləşdirilməsi məqsədi ilə keçirilən həmin səyyar seminarlarda onun yazdığı "Gözün hidrodinamik sisteminin anatomik fizioloji xarakteristikası" dərs vəsaiti həkimlər üçün nəzərdə tutulmuşdur. Nadir tibbi nəşrlərdən olan "Ağır virus konyuktivləri", "Herpetik göz xəstəlikləri" də bu silsiləyə aiddir.

Zərifə Əziz qızının pedaqoji ustalığının zirvəsi isə onun iştirakı ilə 1985-ci ildə "Meditsina" nəşriyyatı tərəfindən 40 çap vərəqi həcmində buraxılan "Terapevtik oftalmologiya" kitabıdır. Burada dünya oftalmoloji təcrübənin yenilikləri öz əksini tapmışdır. Həmin nadir nəşr Moskvada, Azərbaycanda, Novokuznetskdə və Xarkovda oftalmologiyada terapevtik problemləri araşdıran Həkimləri Təkmilləşdirmə İnstitutlarının göz xəstəlikləri kafedrasının professor-müəllim heyətinin birgə gərgin zəhmətinin məhsulu idi. Zərifə xanım həmin kitabın ən sanballı bölmələrini yazarkən təbii ki, özünün zəngin klinik təcrübəsinə və elmi tədqiqatlarına əsaslanmışdır. O, eyni zamanda həmin kitabın illüstrasiyalarla zəngin olan "Görmə orqanının endoklinik xəstəlikləri", "İridosiliar distrofiyalar", "Görmə orqanının virus xəstəlikləri" bölmələrinin hazırlanmasında da fəal iştirak etmişdir. Həmin əsərləri oxuyan həkimlər hələ neçə illər bundan sonra da görkəmli alim və pedaqoqun ideyalarını əməli işə tətbiq etmək imkanı əldə edəcəklər.

Dərs vəsaitləri ilə yanaşı professor Z.Ə.Əliyeva dövrü mətbuatda çap etdirdiyi məqalələrdə elmi nöqteyi-nəzərdən həkimlərin təkmilləşdirilməsi məsələlərini araşdırır. Onun 1984-cü ildə "Oftalmologiya xəbərləri" jurnalının 5-ci nömrəsində yazdığı "Oftalmoloq kadrlarının təhsili və tərbiyəsi" sərlövhəli baş məqalə buna əyani sübutdur. Zərifə xanımın "Həkimləri təkmilləşdirmənin elmi əsasları" məqaləsində internatura, klinik ordinatura, ilkin ixtisaslaşdırma, ümumi və tematik təkmilləşdirmə, informasiya kursları, seminar və simpoziumlar vasitəsi ilə göz həkimlərinin təhsil sisteminin inkişafının əsas istiqamətləri müəyyənləşdirilir. Məqalə redaksiya heyətinin sifarişi ilə yazılmış və jurnalın 100 illik yubileyi münasibətilə çap edilmişdir.

Bir daha Bakıda keçirilən həkimləri təkmilləşdirmə seminar-müşavirəni xatırlayıram. Qeyd etmək lazımdır ki, oftalmoloqların daha

fəal şəkildə yeni tibbi bilikləri mənimsəməsi baxımından Bakıda keçirilən seminar-müşavirə bizim kafedranın Ermənistanda, Latviyada, Litvada, Qazaxıstanda, Tacikistanda, Türkmənistanda, Estoniyada keçirdiyi digər seminar-müşavirələrdən üstün idi. Bu işdə heç şübhəsiz ki, Zərifə Əziz qızının böyük xidməti vardı. O, sözün əsl mənasında bizim kafedraların birgə fəaliyyətinin dirijoru sayıla bilərdi. Zərifə xanım həm də qayğıkeş və qonaqpərvər ev sahibəsi idi. Məhz onun sayəsində biz Lənkəranda işləmək imkanı əldə etdik, quruda və dənizdəki neft mədənlərində olduq. Bakının muzeylərini və teatrlarını gördük. Azərbaycanın Nizami Gəncəvi, Səməd Vurğun kimi gözəl şairlərinin yaradıcılığı ilə tanış olduq. Xoş təəssüratla Azərbaycanı tərk edəndən sonra bu möcüzəli diyara, onun zəhmətkeş xalqına şeir həsr etdim. Həmin şeirdən bir neçə sətri diqqətinizə çatdırıram:

*Mən sənə vuruldum, ey gözəl Bakı!*
*Xoşdu sərt küləyin, geniş torpağın...*
*Qızıl Abşeronun mərd oğulları*
*Necə də güclüdür, sağlamdır, baxın!*
*Bir istəklə vurur qəlbimiz hər an:*
*Daim yaşa, var ol, ey gözəl Bakı!*

Respublikanın elmi, pedaqoji və həkim kadrlarının hazırlanması Moskvada da davam etdirilirdi. O cümlədən, Həkimləri Təkmilləşdirmə İnstitutunun göz xəstəlikləri kafedrasının assistenti Xalidə Rəcəbli "Gözün mikro - cərrahiyyə əməliyyatı" mövzusunda təkmilləşdirmə kursunu keçmiş, 1984-85-ci illərdə isə Hicran Kamal qızı Namazova, Mehriban Nəriman qızı Şıxıyeva, Rəna Firuz qızı Lənbəranskaya məqsədyönlü klinik ordinaturada təhsillərini uğurla başa vurmuşlar.

Professor Z.Ə.Əliyeva səhiyyədə təkcə görkəmli pedaqoq kimi şöhrət tapmamışdı. Eyni zamanda o, fundamental elmi araşdırmaların müəllifi olan, tibb elminə nəhəng töhfələr vermiş, böyük erudisiyaya malik görkəmli alim kimi də geniş tanınırdı.Onun tədqiqatları geniş miqyası ilə seçilirdi. Alimin "Yaşla əlaqədar olaraq gözün və görmə-əsəb yollarının dəyişikliyi" adlı monoqrafiyası bunu bir daha sübut edir. Burada konkret şəraitdə





görmə orqanının vəziyyətini öyrənən klinik istiqamətli elmi müddəaların bütöv bir silsiləsi öz əksini tapmışdır. Bu elmi işlər sırasında böyük yaradıcı əməklə başa gələn Özbəkistanın "Meditsina" nəşriyyatı tərəfindən çap edilmış "Şəkərli diabet zamanı göz xəstəlikləri" adlı monoqrafiya xüsusi əhəmiyyət kəsb edir. Bu qiymətli əsərində Zərifə xanım bir sosial mənbə kimi Orta Asiya və Qafqaz regionunu götürərək insanlar arasında tez-tez müşahidə edilən və kifayət qədər geniş yayılmış şəkərli diabet zamanı yaranan göz xəstəliklərinin patoloji, klinik, diaqnostik və müalicəvi xüsusiyyətlərini araşdırır. Elmi siqlətinə görə bu nəşr nadirdir və bu gün də oftlamoloqların stolüstü kitabıdır.

Son onilliklərdə tibb sahəsinin alimləri bütün imkanlardan istifadə edərək təbabətin tətbiqi istiqamətinə üstünlük vermişlər.İstedadlı tədqiqatçı alim, kamil mütəxəssis və təşkilatçı olan professor Z.Ə.Əliyeva peşə ilə əlaqədar yaranan göz xəstəliklərinin patologiyasını sənayedə çalışan işçilərin nümunəsində araşdırmışdır. Onun təşəbbüsü ilə Bakı Kondisionerləri zavodunda Azərbaycan Elmlər Akademiyası fiziologiya institutunun görmə orqanının peşə patologiyasının öyrənilməsi üzrə bənzəri olmayan laboratoriya yaradılmışdır.

Alimin çoxillik elmi araşdırmalarının nəticəsi olaraq kimya sənayesi işçilərinin göz xəstəliklərinin tədqiqinin ümumiləşdirən, ciddi elmi nəticələr doğuran işi 1976-cı ildə doktorluq dərəcəsinə layiq görülmüşdür. Görmə orqanının vəziyyəti və funksiyasının dərin və hərtərəfli nəzərdən keçirilməsi zamanı şin və yod istehsalı sahəsində çalışan min beş yüzdən çox adam üzərində müşahidələr aparılmış, spesifik iş şəraitinin, sanitar gigiyenik durumun görmə orqanlarına mənfi təsiri elmi dəlillərlə sübuta yetirilmişdir. Elmi təcrübənin dovşanlar üzərində aparılması zamanı ətraf mühitin, konkret fizioloji yaşam tərzinin görmə orqanlarında yaratdığı dəyişiklik dəqiqliklə tədqiq olunmuşdur. Mövzunun aktuallığı, qarşıya qoyulmuş məqsədin uğurla reallaşdırılması, ən yeni nəzəri müddəaların meydana çıxarılması, hər şeydən daha çox elmi işin tətbiqi xarakteri, başqa sözlə insanlara gərəkliyi ona halal doktorluq haqqı qazandırdı. Zərifə xanımın tibb elmləri doktoru adına layiq görülməsinə hamı bir nəfər kimi səs verdi. Helmqolts adına Moskva Elmi Tədqiqat Göz Xəstəlikəri İnstitutu elmi şurasının üzvü, rəsmi

opponent kimi dərin təhlillərə söykənən, həqiqətən tayı-bərabəri olmayan, hələ o zaman hamımızın elmi kəşf saydığımız doktorluq işinin müdafiəsində çıxış etmək, alim-tədqiqatçıya suallar vermək imkanı mənə də nəsib olmuşdur. Zərifə xanım öncə özünün dərin mütəxəssis biliyi, dissertasiya üçün seçilmiş materialların zənginliyi və hərtərəfli elmi izahı, axtarışlarının məzmunu, yığcam və bitkin məruzəsi ilə hamını heyran qoymuşdu.

Zərifə xanımın şin və yod sənayesi işçilərində yaranan göz xəstəlikləri və onun müalicəsinə həsr olunmuş doktorluq işi – bu böyük tədqiqat əsəri sonralar nəinki sırf oftalmoloji xarakter daşıdı, hətta kimya sənayesinin sanitar-gigiyenik xidmət sferasının da diqqət və marağını cəlb etdi, minlərlə işçi insanın görmə orqanlarının qorunması və müalicəsi sahəsində tibb işçilərinə aydın və səmərəli istiqamət verdi.

Professor Z.Ə.Əliyevanın peşə xəstəlikləri ilə mübarizəyə, müasir tibbi-bioloji problemlərin elmi araşdırmalarına həsr edilmiş iki kitabı səhiyyə işinin təşkilatçıları, oftalmoloqlar, sanitar-gigiyena mütəxəssisləri, peşə xəstəliklərini araşdıran həkimlər və bu sahələrə yaxın tibbi vasitələr üçün əvəzsiz töhfədir, görkəmli alimin həmişəyaşar yadigarlarıdır. **Budur, o kitabları 1980-cı ildə işıq üzü görən "Şin sənayesində peşə ilə əlaqədar yaranmış göz xəstəliklərinin patologiyası" və 1989-cu ildə çapdan çıxan "Oftalüiopatoloqiə pri ğraıiçşskoy yoəovoy iıtoksikaöii".** Yüksək poliqrafiyalı, ağ-qara və rəngli şəkillərlə, cədvəl və sxemlərlə müşayiət edilən elmi əsərlərin hər biri mütəxəssislər üçün rəhbər vəsaitlərdir. Kitablar haqqında dövrü mətbuatda ("Oftalmologiya xəbərləri", "Oftalmologiya jurnalları") və çoxsaylı qəzetlərdə dərc olunmuş ressenziya və rəylər də elmi əsərlərin dəyərini açıqlamaqdadır. Sənaye oftalmologiyası üzrə professor Z.Ə.Əliyevanın yaratdığı silsilə əsərlər akademik M.İ. Averbax adına mükafat qazanmışdır. Zərifə xanım elmi-pedaqoji fəaliyyətinə görə "Azərbaycanın əməkdar elm xadimi" adına layiq görülmüşdür. Böyük əməyin qiyməti olaraq tibb elmləri doktoru adını qazanandan sonra Zərifə Əziz qızının elmi fəaliyyəti daha da genişlənmiş, şaxələnmiş, ilhamlı bir siqlət kəsb etmişdir. Məhz bu böyük elmi uğurdan sonra görkəmli alimlər, oftalmoloqlar, nevropotoloqlar, cərrahlarla yanaşı onun da





müştərək müəlliflərdən biri olduğu "İridiaqnostikanın əsasları" adlı böyük və səmərəli əmək nəticəsində yaradılmış fundamental kitab meydana çıxmışdır.

Bu kitab insan orqanizmində baş verən müxtəlif xəstəliklərin görmə orqanına təsiri araşdıran, klassik tibb elminə az məlum olan elmi biliklərə, gərgin axtarış və tapıntılara söykənən məxəzdir. Elə buna görə də kitab sonsuz maraq doğurmuş, oftalmoloji nəşrlələ yanaşı kütləvi informasiya vasitələrində də yüksək rəylər söyləmiş, məqalə və ressenziyalar dərc edilmişdir.

Professor Z.Ə.Əliyeva "Azərbaycan Elmlər Akademiyasının xəbərləri", "Azərbaycan Emlər Akademiyasının məruzələri"ndə çap olunmuş akademik nəşrlərində müasir şəraitdə görmə orqanlarının problemləri araşdırılarkən təbabətin klassik metodlarına daha çox üstünlük vermişdir. Alimin 1983-cü ildə nəşr olunmuş "Oftalmologiyanın aktual problemləri" əsəri öz siqlət və sanbalına görə xüsusilə fərqlənir. Bakı və Moskva oftalmologiya kafedraları arasındakı yaradıcı əməkdaşlığın bəhrəsi sayılan bu kitab ixtisasla bağlı beş aktual bölmədən ibarətdir. Bölmələrdən biri "Həkimlərin mənəvi tərbiyəsi, deontologiya səhiyyə etikası və əxlaqı" adlanır. Zərifə Əziz qızı bu mövzuda həmişə məmnuniyyətlə söhbət açırdı. Bir dəfə o, Moskva oftalmoloqları elmi cəmiyyətinin plenar iclasında həkim mənəviyyatı barəsində olduqca dolğun bir məruzə ilə çıxış edirdi. Onun saysız-hesabsız dinləyiciləri məruzəni böyük maraqla qarşıladılar. Kitabda göz xəstəliklərinin patologiyası, müalicə üsulları, dərin elmi dəlillər zəngin təcrübə işığında təqdim edilir. Bölmələr bölmələri əvəzlədikcə kitab müəlliflərinin araşdırmalarının zənginliyi, görkəmli alimin böyük elmi potensialı bütün qüdrəti ilə üzə çıxır. Nəşr həm təcrübi oftalmoloqlar, həm də ali məktəb müəllimləri, ixtisasını artıran həkimlər üçün nəzərdə tutulmuşdur. Bu əsər indi bütün həkimlər tərəfindən yüksək qiymətləndirilir, istər tibb alimləri, istərsə də həkimlər tərəfindən geniş istifadə olunur.

Z.Ə.Əliyevanın 1983-cü ildə tibb sahəsindən Azərbaycan Elmlər Akademiyasının həqiqi üzvlüyünə seçilməsi onun böyük xidmətlərini, çoxillik, səmərəli elmi-tədqiqat işlərini, səhiyyənin nəzəri və təcrübi sahələrinə nəhəng qüvvə sərf etdiyini bir daha sübuta yetirir. O bu ali mərtəbəyə yüksələndən sonra da yorulmaq

bilmir, böyük bir həvəs, inad və səbrlə həkim, alim borcunu yerinə yetirir, Vətəninə, tibb elminə xidmət edirdi. O əvvəlki illərdə olduğu kimi xəstələri müalicə edir, həkimlər yetişdirir, elmi məqalə və kitablar yazır, “Oftalmologiya xəbərləri” jurnalında müəllif, rəyçi redaktor kimi fəaliyyət göstərir, redaksiya heyətinin üzvü səlahiyyətlərini yernə yetirirdi. 1983-cü ildə bu jurnalda onun “Kəndtəsərrüfatında pestisidlərlə işləyən mexanizatorların görmə orqanlarının vəziyyəti” adlı yeni məqaləsi dərc olundu. Məqalə yeni sahəyə müraciət edən alimin peşə xəstəlikləri patologiyası üzrə elmi təd- qiqatçılarının əhatə dairəsini genişləndirdiyini göstərirdi. Zərifə xanımın 1984 və 1985-ci illərdə peşə ilə əlaqədar yaranan göz xəstəliklərinin patologiyasına dair daha iki sanballı məqaləsi böyük maraq doğurdu, alimin öz tədqiqatlarına sədaqətini, inamını sübut etdi. Təsadüfi deyil ki, böyük həkim-alim Zərifə Əziz qızının tədqiqatlarının nəticəsi olan ümumiləşdirmələr oftalmoloqların 6-cı qurultayının işləri sırasına daxil edildi, qurultayın yüksək tribunasından səsləndi.

Yalnız görkəmli oftalmoloq olaraq qalmayan Zərifə xanım hər zaman siyasət, mədəniyyət, incəsənət barəsində söhbət gedərkən öz dərin duyumu, həssaslığı ilə hamını heyran edirdi. Mənə Zərifə Əziz qızı ilə həkimlikdən, elmi laboratoriyadan, oftalmologiyadan qıraqda ünsiyyət xoşbəxtliyi də nəsib olmuşdu. Azərbaycanda Ukrayna incəsənəti ongünlüyü keçirilərkən onun etdiyi parlaq çıxışı xatırlayıram. Ukrayna artistləri ilə bir dəstədə Xəzər dənizinin məşhur “Neft daşları”na getmişdik. Zərifə Əziz qızı da bizimlə idi. Bu, mənim həyatımın ən unudulmaz səhifələrindən biridir. Hər şey gözəl idi, dənizin coşqun dalğaları da, sənət adamlarının həmişə maraq doğuran dünyası da, “Neft daşları” da, orada toplaşdığımız salon da... Amma ki, o günə Zərifə xanım xüsusi bir rövnəq verirdi.

Sanki hamı tərəfindən kəşf olunan Zərifə xanım masa arxasında çıxış etdi, respublikanın qazandığı uğurlardan, səhiyyə və mədəniyyət sahəsindəki önəmli hadisələrdən danışdı. Onun çıxışı həqiqətən parlaq və faktlarla zəngin idi. Mən eşitdiklərimə heyrət edirdim. Yalnız mədəniyyət və təhsil sahəsinə dərindən bələd olan natiq belə danışa bilərdi. Mən Zərifə Əziz qızı ilə yanaşı əyləşmişdim.Üzümdə qeyri-adi ifadə vardı, öz həmkarımın







oftalmologiyanın hüdudlarını aşan hərtərəfli bilgisindən iftixar duyurdum. Zərifə xanım mənim keçirdiyim hisləri sanki üzümdən oxudu, sözlərini başa vurandan sonra mənə tərəf əyilib ehmalca soruşdu: “Hə, necə alındı?” “Mən nə deyə bilərəm axı?” Düşüncələrimi ifadə etməyə söz tapmırdım. Mənim gözlərimdə yaş parladı, fəxr edirdim ki, bizim aramızda təbiətin xoş çağında yaranmış zəngin mənəviyyatlı bir insan yaşayır.

Söz düşmüşkən, Zərifə xanımın bədii duyumu, bədii istedaddan da bənzərsiz idi. Onun sənət haqqında söhbətlərindən, incəsənət dünyasından dostlar, doğmalar arasına çəkib gətirdiyi nümunələrdən doymaq mümkün deyildi. Doğma adamların tez-tez “nadir mer” adlandırdığı Zərifə xanım necə böyük məharətlə ifa edir, nəğmələr oxuyurdu. Onun incə barmaqları sürətlə pianonun dilləri üstündə gəzir, toplaşdığımız otağı bəzən gur, bəzən də həzin musiqi sədaları bürüyürdü. Zərifə Əziz qızı N.Dunayevskinin filmlərindəki musiqi nömrələrini xüsusilə sevirdi. Onun ifasında bu nəğmələr olduqca təsirli alınırdı. Budur, musiqi sədaları ilə birgə onun yumşaq, şirin səsi yüksəlir:

*“Qız ürəyi, qız qəlbi*
*Mənə aman ver, aman,*
*Bülbüllərin səsidi*
*Hicran suyuna daman...”*

Bu hələ harasıdır, o bir anda böyük bir zərifliklə başını mənə sarı çöndərib əlinin yumşaq hərəkəti ilə məni də ora çağırır – royalın yanına. Az sonra bizim duetimiz dalğalanır. Zərifə Əziz qızı incəsənət duyumunu, musiqiyə vurğunluğunu adamlardan gizlətmirdi. 1979-cu ildə Oftalmoloqların Səmərqənddə keçirilən 5-ci qurultayında geniş auditoriya qarşısında nəğmələr ifa etdi, oxudu. Peşəkar sənətçilər də Zərifə xanımın musiqi istedadını yüksək qiymətləndirirdilər. Yaxşı deyiblər ki, zər qədrini zərgər bilər. Elə buna görə musiqiçilər Zərifə xanım üçün məmnuniyyətlə ifa edirdilər.

Obyektivlik naminə qeyd etmək lazımdır ki, Zərifə Əziz qızı elmi tədqiqatların rəhbəri, alim, pedaqoq, həkim, ictimai xadim kimi öz missiyasını yüksək səviyyədə yerinə yetirməklə yanaşı, həm də gözəl ana və həyat yoldaşı idi. O bütün varlığı ilə ərinin,

uşaqlarının, daha sonra isə nəvələrinin də qayğıları ilə yaşayırdı. O, doğmalarının varlığı ilə nəfəs alır, onların haqqında ən xırda şeyləri belə bilir, ailə üzvlərinin hər birinin sağlamlığı qayğısına qalır, xəstələndikdə bir həkim kimi tibbi konsiliumlarda iştirak edir, onların düzgün qidalanmasına nəzarət edirdi. Uşaqları hədsiz dərəcədə sevməklə yanaşı, o həm də yaxşı həkim-psixoloq idi. Odur ki, körpələr mübahisə edəndə onları adətən nənələri sakitləşdirər, kimi danlamaq, kimi əzizləmək, kimi nümunə göstərməyin lazım olduğunu bilərdi. Əbəs yerə uşaqlar ona mehrini salmamışdı ki... Zərifə Əziz qızını öz ailəsinin xeyirxah dahisi adlandırsam, səhv etmərəm. çünki məhz onun sayəsində ailə rahatlıq tapır, məhz onun ana müdrikliyi hələ təzəcə ev-eşik yiyəsi olan övladlarına ilham verir, məhz onun ana ürəyi sayəsində ailə rahatlıq tapır, məhz onun ana ürəyi övladlarını xəstəlikdən və bədnəzərdən qoruyur, onun şəfqətli əlləri ağrını və yorğunluğu götürürdü. Tale elə gətirib ki, həyatımda müxtəlif peşə sahibləri ilə rastlaşmışam, ailədaxili çəkişmələr görmüşəm, lakin bütün səmimiyyətimlə deyə bilərəm ki, Zərifə xanım qədər özünü bütün varlığı ilə ailəsinə həsr edən, onun qayğıları ilə yaşayan ikinci bir adam xatırlamıram. Zərifə xanım hər bir insana həyatının çətin anında dayaq olmaq, ona kömək etmək amalı ilə yaşayan bir insan idi. Bu hətta ondan çox uzaq olan adamlara da münasibətində özünü büruzə verirdi. O belə anlarda əlində olan bütün imkanlardan həmişə istifadə edər və insani keyfiyyətləri ilə adamları özünə çəkərdi. Bu da onu hamının sevimlisə çevirərdi.

Bir qadın kimi də Zərifə Əziz qızı haqqında bir neçə kəlmə deməyə bilmərəm. Təbiət ona qeyri-adi qadın cazibədarlığı bəxş etmişdi. Onun görkəmi, qalın saçları, sifətinin qövsvari cizgisi, açıq alnı, insanın qəlbini riqqətə gətirən qara gözləri heyranlıq doğurmaya bilməzdi. Zərifə Əziz qızının bütün varlığı hərəkətlərindən və üzünün mimikasından oxunurdu. Mən onu heç zaman əsəbi, qəzəbli görməmişəm. O, həmişə gülərüz, xeyirxah idi. Zərifə xanımın əlləri xüsusi ilə valeh edirdi. Bu balaca qadın-cərrah əlləri sanki təmasda olduğu hər şeyə istilik verirdi, eyni zamanda bu əllərdə ailə qayğılarının, qadın əməyinin izlərini də sezmək mümkün idi. Belə ki, Zərifə xanım yüksək təbəqəyə mənsub olsa da, ev işlərindən boyun qaçırmazdı. Məhz belə bir qadın obrazını Aleksandr Puşkin öz əsərlərində vəsf etmişdi.





O əsl qadın kimi modanın qanunları və tələblərinə də biganə deyildi. Yüksək zövq sahibi olsa da, hər şeyin ölçüsünü, yerini bilirdi. Onun qarderobunda göz qamaşdırıcı heç nəyə rast gəlmək mümkün deyildi. Bir qayda olaraq o, müasir, eyni zamanda rahat biçimdə geyinməyə üstünlük verərdi. Yüngülcə kosmetikadan istifadə edər, iki brilyant sırğa və üzük taxar, paltarının rənginə uyğun əl çantası götürərdi. Onun fikrincə, insanın zahiri və mənəvi gözəlliyinin əlavə bəzək-düzəyə ehtiyacı yoxdur.

Zərifə xanım elə bir insan idi ki, bir dəfə ünsiyyətdə olan adam onu ömrü boyu unuda bilmir. Bu cür şəxsiyyətlər yüksək vətəndaşlıq, humanizm və ürək saflığının mücəssiməsi kimi əbədi yadda qalır.

Zərifə Əziz qızı haqqında ürəyimdən keçənləri ifadə eləməyə söz tapmıram.

**N.B.ŞULPİNA**
*professor, Mərkəzi Həkimləri*
*Təkmilləşdirmə İnstitutunun kafedra müdiri,*
*əməkdar elm xadimi*

## ANA İTİRMİŞİK ANA YAŞINDA

Həyatda müxtəlif adamlarla görüşür, ünsiyyətdə olursan. Hərənin də öz xarakteri, bir şeyə meyli olur. İnsanlar arasında xeyirxahlığı ilə seçilənlər də var, bu keyfiyyətdən məhrum olanlar da. Çox vaxt insanları "yaxşı", "pis", "xeyirxah", "kinli" olduğuna görə müəyyənləşdiririk. Əlbəttə, variantlar çoxdur. Üstəlik əgər sənin də canında bir qədər xeyirxahlığa meyl varsa, istər-istəməz insanların yaxşı tərəfini görməyə can atırsan. Yalnız yaxşı keyfiyyətlərə malik insanlara nadir halda rast gəlirsən.

Həyatda mənim bəxtim gətirib. Belə ki, tale mənə qeyri-adi bir insanla ünsiyyətdə olmaq imkanı verib. Zərifə Əziz qızı Əliyeva ömrünün son günlərinədək mənim yaddaşımda məhz həyatda olduğu kimi qeyri-adi insan olaraq qalacaq. Zərifə xanım hər şeydən əvvəl həyat sevgisi və maraq dairəsinin böyüklüyü ilə fərqlənirdi: o, həkim - oftalmoloq sənətinin vurğunuydu, elmi tədqiqatlara çox vaxt sərf edirdi, o, oftalmologiyada yeni, çox çətin və az öyrənilən sahəni araşdırmış, bu tipli xəstəliklərin profilaktikasına və müalicəsinə böyük töhfə vermişdir. Zərifə Əziz qızı həyatda olduğu kimi elmdə də özünə tapdanmış yol seçməmiş, elmin az öyrənilən, lakin inkişafı günün tələbi olan sahələrini araşdırmışdır.

Zərifə xanım Həkimləri Təkmilləşdirmə İnstitutunda kafedra müdiri olarkən fəal şəkildə ixtisaslı oftalmologiya mütəxəssisləri hazırlamış, sənətin sirlərini tələbələrinə sevgi ilə öyrətmiş və bu işə çox əmək sərf etmişdir. Mən dəfələrlə tələbələrindən Zərifə xanımın onlara qeyri-adi diqqət və qayğı ilə yanaşdığını, kömək etdiyini, xeyirxahlıq göstərdiyini eyni zamanda tələbkarlıqla yanaşdığını eşitmişəm. Zərifə xanım onları elmdə və həyatda vicdanlı olmağa sövq edirdi. Təsadüfi deyil ki, tələbələri onu aralarında "anamız" deyə çağırırdı.

Zənnimcə, Zərifə xanımın xeyirxahlığı, onunla görüşmək səadəti kimə nəsib olubsa, hamıya yaxşı məlumdur. Mən isə onu qeyd etməyi özümə borc bilirəm ki, həyatda rastlaşdığım insanlar arasında onun qədər təmasda olduğu hər kəsə, hər şeyə qeyri-adi diqqət və xeyirxahlıq göstərən ikinci bir insana rast gəlməmişəm. O, elə bir insan idi ki, həmişə xeyirxah olmağa çalışırdı.

Zərifə Əziz qızının sadəliyi təkrarolunmazdır. Akademik, əməkdar elm xadimi, professor, müxtəlif mükafatlar laureatı olmasına baxmayaraq istənilən adam ona üz tuta bilirdi və





ciddi məşğul olsa belə Zərifə xanım istənilən adama kömək əlini uzadırdı. O, Azərbaycan Sülhü Müdafiə Komitəsinin sədr müavini, "Bilik" Cəmiyyətinin İdarə Heyətinin üzvü kimi böyük ictimai işi aparırdı.

Əziz və unudulmaz Zərifə xanımla ünsiyyətdə olarkən biz müxtəlif məsələlərə, həm ixtisasımızla, həm də adi həyatla bağlı məsələlərə toxunurduq və o hər şeyə ürək yanğısı ilə maraq göstərirdi. O, ailədə qeyri-adi həyat yoldaşı, qayğıkeş ana, sevimli nənə idi, həmişə onun sevgisi, xeyirxahlığı, qayğıkeşliyi hiss olunurdu. Üstəlik hər şeyə onun vaxtı çatırdı.

Digər tərəfdən Zərifə Əziz qızı öhdəsinə düşən tapşırığa ciddi məsuliyyətlə yanaşırdı. Biz "Oftalmologiya xəbərləri" jurnalının redaksiyasında bir yerdə işləmişik və bütün məsuliyyətimlə deyə bilərəm ki, onun qədər ciddi, dəqiq redaksiya heyəti üzvünə – mütəxəssisə rast gəlməmişəm. Bütün sifarişləri, rəyləri və digər işləri Zərifə Əziz qızı həmişə yüksək səviyyədə, qısa müddətdə yerinə yetirirdi. O, heç vaxt başqalarından üstün olduğunu büruzə verməzdi. Vəzifə borcunu yerinə yetirmək onun başlıca keyfiyyətlərindən idi.

Adama elə gəlirdi ki, işin gərginliyindən Zərifə xanımın bir saniyə də olsun boş vaxtı yoxdur. Amma o vaxt tapırdı. Sadəcə olaraq rəfiqələrinə zəng edir, hal-əhval tutur, bəzən də görüşüb söhbətləşirdi. Bu görüşlər isə bir qayda olaraq bayram əhval-ruhiyyəsi yaradırdı.

Zərifə xanımın əsas keyfiyyətlərini sadalamaq lazım gəlsə, əsl insana məxsus olan bütün yaxşı xüsusiyyətləri sadalamaq gərəkdir. Mən ondan başlamışdım ki, ideal yaxşı adam demək olar ki, yoxdur. Zərifə Əziz qızı sadəlik, xeyirxahlıq, işgüzarlıq, qayğıkeşlik, dözümlülük, üstəlik ömrünün son aylarında özünü xüsusi ilə büruzə verən qeyri-adi iradə kimi müsbət keyfiyyətlərə malik insan idi. O, heç zaman bir kimsəyə, hətta doğmalarına belə qayğıları və ağrıları ilə yük olmaq istəməzdi. O, yalnız ətrafdakıları fikirləşirdi və bu onun mənəviyyatından irəli gəlirdi.

Ölüm qeyri-adi bir insanı əlimizdən aldı. Bir dost kimi bu mənim üçün çox ağır itki idi. Bir daha belə bir insana həyatda rast gələcəyimə artıq inanmıram. Bir insan kimi Zərifə xanım haqqında xatirələri qələmə alarkən başa düşdüm ki, ötəri olaraq onun elmi fəaliyyəti ilə kifayətlənmək mümkün deyil. Həm insan, həm də alim kimi Zərifə xanımın ömrünün hər iki tərəfini ahəngdarlıq, uyarlıq təşkil edirdi. O, hər şeydə istedadlı idi.

Uzun illər Azərbaycan Həkimləri Təkmilləşdirmə İnstitutunda göz xəstəlikləri kafedrasının müdiri olarkən Zərifə Əziz qızı oftalmoloq mütəxəssislərin bir neçə nəslini yetişdirmişdir. İndi də onun tələbələrinin imzası tez-tez “Oftalmologiya xəbərləri” jurnalının səhifələrində görünür.

Zərifə Əziz qızı ilk dəfə Azərbaycan Elmlər Akademiyasının Ə.Qarayev adına Fiziologiya İnstitutunun nəzdində görmə orqanının fiziologiyası və peşə patologiyası üzrə nadir elmi tədqiqat laboratoriyasını yaratdı. Zərifə xanımın təşəbbüsü və rəhbərliyi ilə həmin laboratoriyanın bazasında bir çox kimyəvi maddələrin gözə zərərli təsirini aşkarlayan ciddi tədqiqatlar aparıldı. Bundan sonra həmin xəstəliklərin profilaktikası və müalicəsi işlənib hazırlandı. Elm sahəsində də onun xarakterinin əsas keyfiyyətləri – insanlara yardım etmək, xeyirxahlıq göstərmək kimi müsbət keyfiyyətləri üzə çıxırdı.

Zərifə Əziz qızı zəngin elmi irs qoyub getmişdir. “Şin istehsalında gözün patologiyası” monoqrafiyasına görə isə Zərifə xanım Tibb Elmləri Akademiyasının akademik Averbax adına mükafatına layiq görülmüşdür. Onun “Gözdə və görmə-əsəb yollarında yaş dəyişikliyi” monoqrafiyası da mütəxəssislərin diqqətini cəlb edir.

“Oftalmologiyanın aktual problemləri” monoqrafiyasında isə görmə orqanının müxtəlif patologiyası zəminində gözün müasir üsullarla tədqiqi və müalicəsi öz əksini tapıb. Zərifə Əziz qızının çoxşaxəli istedadı müxtəlif ixtisas sahələrində də özünü büruzə verir. O, oftalmoloji cərrahiyyə əməliyyatlarındakı, gözün virus xəstəliyinin və görmə orqanının damar patologiyasının müalicəsindəki elmi yeniliklərlə ciddi maraqlanırdı. O, “Oftalmologiya xəbərləri” jurnalının redaksiya heyətində fəal işləmiş, bu işə ürəkdən bağlanmışdı.

Əgər mən peşəkar ədəbiyyatçı kimi Zərifə xanım Əliyeva haqqında əsər yazası olsaydım, heç şübhəsiz ki, onu “Əvəzolunmaz insan haqqında povest” adlandırardım.

**V.V.ŞMELYEVA**
*Mərkəzi Həkimləri Təkmilləşdirmə İnstitutu oftalmologiya kafedrasının professoru, akademik Filatev adına mükafatın laureatı*





## AL, BU İŞIĞI SƏNƏ VERİRƏM!..

Zərifə Əziz qızı Əliyeva barədə xatirələrimi qələmə alıb duyğularımı bölüşməyə uzun zamandır ki, əlim gəlmirdi. Elə hey öz-özümə sual verirdim, görəsən, şahidi və iştirakçısı olduğum hadisələrin məğzini ifadə eləyən sözlər tapmaq mənə qismət olacaqmı? Görəsən, mənim buna haqqım çatırmı? Axı bizim birgə keçirdiyimiz uşaqlıq və gənclik çağlarından – (baxmayaraq ki böyüyəndən sonra da görüşürdük) yadımda qalanların çoxusu məhrəm bir fərdilik daşıyırdı. Ancaq orası da vardı ki, insanın şəxsiyyəti məhz elə həmin uşaqlıq və gənclik illərində formalaşır. Və get-gedə mən daha çox inanmağa başlayıram ki, yeniyetməlik dövrümüzlə bağlı ilk baxışda hətta əhəmiyyətsiz görünən faktlar, hadisələr bizim gələcək xarakterimizi xüsusi bir ziya haləsinə bürüyür, işıqlandırır, sonralar atdığımız addımları aydın şəkildə dərk etməyə imkan yaradır.

Zərifə haqqında yazmaq çətindir. Özü də ona görə yox ki, itkimizin ağrısı hələ soyumayıb – bu ağrılar hələ uzun müddət onu tanıyanları incidəcək. Ona görə çətindir ki, onun öz əli ilə yaddaşımıza yazılanları dilə gətirməmək, yazıya almamaq mümkünsüzdür. Eyni zamanda adam qorxur ki, Zərifəyə, bir mələk kimi təmiz, ciddi və təvazökar olan əziz bacımıza yabancı olan sözçülüyə yol verək. Məncə, bu təvazökarlığın köklərini Zərifənin valideynlərində, Əliyevlər ailəsinin sadə dolanışığında, xeyirxah, nəcib, diqqətli, qonaqpərvər ruhunda, burada qərarlaşan mənəvi ovqatın təmizliyində axtarmaq lazım gəlir. Qəti surətdə əminəm ki, mahir bir heykəltəraş kimi lap beşikdən insanın qəlbini, ruhunu xeyirxahlığa və gözəlliyə canatımını yaradan, formalaşdıran kamil ev tərbiyəsini dünyanın heç bir universiteti əvəz eləyə bilməz. Əliyevlər ailəsindəki uşaqların hamısı məhz belə tərbiyə almışdılar.

Bizim münasibətlərimiz ailələrimizin dostluğundan qidalanırdı. Atalarımız Əziz Əliyev və Əzizağa Əzizbəyov möhkəm dost və məsləkdaş idilər. İşdən başları açılan vaxtlarda onlar bir yerdə çay içər, söhbətləşər, bizimlə ünsiyyət saxlardılar. Biz bir küçədə – Zevində yaşayırdıq, mənzillərimizin pəncərə və eyvanları diaqonal üzrə bir-birinə baxırdı. Yay vaxtlarını ailəlikcə Mərdəkandakı istirahət evində keçirərdik, orada da mənzillərimiz küçəyə açılan ümumi eyvanla və içəri tərəfdən həyətə çıxan daxili qalereya ilə birləşirdi.

... Yaddaşım o qədər də yaxşı deyil. Hərdən elə olur ki, dünən baş verən hadisələri xatırlaya bilmirəm. Ancaq 1939-cu ilin isti bir yay günü indiyəcən yaddaşımdan silinməyib. Yayın əvvəlləri idi və biz hamımız intizarla Zərifənin uzaq Moskvadan qayıtmasını gözləyirdik. Həmin gün o gəldi. Əyninə ağappaq yubka və eyni rəngli fiqaro geyinmiş, başına özbək araqçını qoymuş gənc, gözəl Zərifənin o günkü görkəmi indinin özündə də gözlərimin qarşısındadır. Qalın uzun hörüklərini kürəyinə atmışdı. Biz ona sualları dolu kimi yağdırırdıq, o isə sorğularımızın hamısına böyüklərə xas (o vaxt qardaşımla mənim 10-11 yaşımız ancaq olardı) təmkinlə, ancaq olduqca sadə və dolğun cavablar verirdi. Zərifənin dedikləri hədsiz dərəcədə maraqlı idi, fəqət, yadımdadır, Leyla xanım israr edirdi ki, qız yoldan gəlib, imkan verək, gedib dincəlsin və onun sözə baxmaqdan başqa çarəmiz qalmadı. O yay biz Zərifə ilə daha da yaxınlaşdıq. Bu qızın zəngin daxili aləmi məni sirli bir qüvvətlə özünə çəkirdi. Mənim mütaliə ehtirasımı bildiyindən tez-tez kitablar gətirirdi. Ən çox da müxtəlif xalqların nağıllarını. Bir dəfə ona daha ciddi kitablar oxumaq istədiyimi söylədim, o isə cavab verdi: “Bu da lazımdır. Nağıllar möcüzədir. Nağılları sevəndə yaşamaq da asan olur.” “Bəs sən nağıllara inanırsan? - deyə mən soruşdum. – Bəyəm həyatda belə şeylər olurmu?” “Əlbəttə, olur,” - dedi. Adamlar həyatda da xeyirxah və bədxah, xoşbəxt və bədbəxt olurlar. Ancaq bil ki, çox şey insanın özündən asılıdır. Həmişə elə yaşamaq lazımdır ki, həyat sənə nağıl kimi gəlsin. Məni düz anla – onsuz da süd gölündə üzmək mümkün deyil, çünki belə şeylər yoxdur, ancaq elə yaşamalı, mübarizə aparmalıyıq ki, qəlbimizdəki xeyir həmişə qonşuluqda yaşayan şərə qalib gəlsin.”

Xeyir və xeyirxahlıq Zərifənin xarakterinin məğzində idi. O illərdə yaşda məndən böyük olan sevimli rəfiqəmin xeyirxahlığının, ürəyiaçıqlığının şahidi olmuşdum.

Başımıza gəlmiş bir gülməli əhvalat da yaddaşımda qalıb. Bizim hasarın o üzündə hansısa idarənin istirahət evi, bağı yerləşirdi. Dəqiq xatırlamıram, ya daxili işlər nazirliyinin idi, ya sərhədçilərin. Orada, hasarın lap yaxınlığında tezyetişən üzüm tənəkləri əkilmişdi. O tənəklər bar verəndə hər yerdə üzümlər hələ gömgöy olurdu. Əlbəttə, biz də uşaq həvəsi ilə o tənəklərdə bitən zümrüd kimi sapsarı, şipşirin, şirəli şanılara biganə qala bilməzdik. Bir dəfə böyük uşaqlar qərara gəldilər ki, bir-iki





salxım üzüm dərsinlər. Mən də onların dalına düşdüm. Bir qədər sonra qarovulçu başımızın üstünü alanda onlar qaçıb aradan çıxdılar, mən ələ keçdim. Kişi bərk-bərk qolumdan yapışıb sıxır, mən isə qışqırır, uşaqları köməyə çağırırdım. Birdən hasar tərəfə açılan eyvanda Zərifə göründü. O, qarovulçunu dilə tutaraq məni buraxmağı uzun-uzadı xahiş elədi. Ancaq qarovulçunun tərsliyi tutmuşdu. Bunu görəndə evlərinə girdi, bir-iki dəqiqə sonra isə atası Əziz əmi ilə birlikdə yenə balkona çıxdı. Əziz əminin bir-iki kəlmə sözündən sonra qarovulçu inadından əl çəkdi, məni hasara tərəf dartdı. Zərifə artıq orada idi. O, hasarı aşmağıma kömək elədi. Ancaq birdən-birə mən onun əlindən çıxıb götürüldüm. Tut ağacının başında bir gizli yerim vardı, ora dırmaşıb səsimi çıxarmadım. Onlar məni axtarır, tapa bilmirdilər. Yaman acmışdım. Gecədən xeyli keçmiş, ara sakitləşmişdi. Mən Zərifənin pıçıltısını eşitdim: “Zina, (uşaqlıqda məni belə çağırırdılar), qorxma, mənəm, Zərifəyəm. Aşağı düş, sənə yemək gətirmişəm.” Əlbəttə mən əmin idim ki, o məni ələ verməyəcək. Buna görə də ağacdan düşdüm. Yadımdadır, Zərifənin mətbəxdən gətirdiyi yeməklərin hamısını görməmiş kimi gözümə təpirdim. O gülümsər gözləri ilə mənə baxırdı. Sonra astadan dedi: “Nədən qorxursan, atam hər şeyi atana danışıb. Onlar həyəcanlanırlar, gedək evə...”

Amansız müharibə mənim yaşıdlarımın qayğısız həyatına son qoydu. Şən, oynaq günlərimiz arxada qaldı. Biz, aqrxa cəbhənin bakılı uşaqları ölümlərlə təkcə poçtalyonların hər gün qalaq-qalaq gətirdikləri qara kağızlarda üzləşmirdik, həm də hospitallarda qarşı-qarşıya gəlirdik. Şəhərin az qala bütün məktəbləri, institutları tələbə yataqxanaları hospitallara çevrilmişdi. Sonralar arxiv materiallarından mənə məlum oldu ki, respublikamızın arxa cəbhə hospitallarında yarım milyondan çox yaralı əsgər müalicə olunmuşdu ki, bunların da 70 faizi yenidən döyüşən cəbhəyə qayıtmışdı. O zaman biz Zərifə ilə universitetin Kommunist küçəsindəki binasında yerləşən (indiki İstiqlaliyyət küçəsində, İqtisadiyyat İnstitutunun binası) hospitala tez-tez baş çəkirdik. Bir palatanı hamiliyə götürmüşdük. İndi yadıma düşür ki, Zərifə o vaxtacan görmədiyimiz bu şəraitə çox tez öyrəşdi. Və indi başa düşürəm ki, o vaxt məktəb yaşlı qız uşağından ötrü heç nədən, ən çirkli işlərdən belə çəkinmədən ağır yaralılara qullq etmək, onların yaralarını sarımaq, əlsiz-ayaqsızların ağzına qaşıqla su vermək üçün nə qədər güc-qüv -və sərf eləmək, iradəsini necə böyük mətanətlə

yığıb-toparlamaq lazım gəlirdi. Bircə dodaqlarının rəngi qaçırdı. Biz boş vaxtımız qalanda da palatada şeirlər oxuyardıq, Zərifə yaxşı akkardeon çalardı. Yeri gəlmişkən, respublikamızda və onun hüdudlarından kənarda hamı Zərifəni əməkdar elm xadimi, akademik, tibb elmləri doktoru, görkəmli oftalmoloq kimi tanıyır, ancaq çox az adam bilir ki, o, hələ uşaq vaxtlarından həm də musiqi ilə məşğul olurdu, gözəl piano və akkardeon çalır, kiçik bacısı Gülarə ilə birlikdə evdə konsertlər verirdi. Zərifə qeyri-adi improvizasiya istedadına malik idi, həmçinin yaxşı da rəqs edə bilirdi.

"Bizim palatamız" xatirimdən çıxmır. Pəncərənin qabağında üz-gözü yanmış, sümükləri sınıq-sınıq olmuş təyyarəçi arxası üstə uzanıb. O, yeməkdən imtina etmişdi, gözlərini daim yumurdu, palatada baş verənlərə tamamilə etinasız münasibət bəsləyirdi. Zərifə hər dəfə vaxtının çox hissəsini onun yatağının yanında keçirir, ailəsi barədə hal-əhval tutur, cəbhədən aldığımız təzə xəbərləri ilk dəfə ona müjdə verirdi. Öyrənə bilmişdi ki, yaralı təyyarəçinin də elə biz yaşda qızları var. O, ailəsinə yük olmaq istəmir, buna görə də öz vəziyyəti barədə onlara xəbər göndərmirdi. Bir müddət keçəndən sonra o, nəhayət ki, birinci məktubunu Zərifəyə diqtə elədi və biz tələsik o məktubu poçt qutusuna atdıq. Beləliklə, Zərifə öz boynuna daha bir iş götürmüş oldu: yaralıların diqtəsi ilə məktublar yazır və onların doğmalarına göndərirdi.

Bir dəfə biz Kommunist küçəsindən üzüaşağı, Zevin küçəsinin döngəsi ilə evə qaçırdıq, birdən bir cavan gəlin gördük. Gözəl qadın idi, ancaq özünü qeyri-təbii bir tərzdə dimdik tutub başını dikəldərək divarın böyrü ilə qəribə-qəribə yeriyirdi. Zərifə birdən dayandı, titrək əlləri ilə məndən tutub barmağını dodağına apardı, kədərli qadının kölgəsi gözdən itəndən sonra soruşdu: "Gördün? O, kor idi." Sonra da əlavə elədi: Bilirsən, mən çoxdan düşünürəm ki, həkim olum. Bu, qəti qərardır. İndi elə düşünürəm ki, həyat mənim qərarıma son nöqtəni də qoydu: göz həkimi olacam, çalışacam ki, adamlara dünyanın ən böyük, ən əvəzsiz nemətini – işığını qaytarım." Bu fikri, onun ürəyində damla-damla yığılaraq yer eləmiş bu niyyəti Zərifə mənim yanımda bir neçə dəfə dilə gətirmişdi. Bir dəfə axşam vaxtı onunla söhbətləşirdik. Leyla xanım dadlı kökə bişirmişdi, biz çay içir və gələcəyimizdən danışırdıq. "Elə hey düşünürəm, necə edim





ki, insanlara sevinc bəxş edim? Musiqi iləmi? Bu, əlbəttə, böyük işdir. Ancaq nəsə başqa bir iş görmək istəyirəm. Axı müharibə gedir, adamları müalicə eləmək lazımdır, ayağa qaldırmaq lazımdır." İndi öz gələcək sənətini belə dəqiqliklə seçməkdə Zərifəyə ruh verən amili müəyyənləşdirmək çətindir. Ancaq mən bir şeyi bilirəm: onun qəti qərar verməsində bizim qospitallarda tez-tez üzləşdiyimiz çətinliklər, qanlar-qadalar, ölüm-itimlər də böyük rol oynamışdı. Bunu görməmək mümkün deyildi. Dünənəcən çay-çörək verdiyimiz, yaralarını sarıdığımız, şeirlər oxuduğumuz yaralı döyüşçülərin ölüm xəbərini hər dəfə eşidəndə Zərifənin sifətinin kağız kimi ağappaq ağardığını xatirimdən necə çıxara bilərəm ki?

İnsan sevinci ilə aşıb-daşan Bakı Qələbə gününü bayram edirdi. Şəhəri hay-küy, sevinc nidaları başına götürmüşdü. Hamı bəxtiyarlıq içində idi. "Zina, Zina, – eyvandan Zərifənin gur və şən səsi eşidildi, – gedək bulvara. Qələbə çaldıq, təsəvvür edirsənmi, biz qələbə çaldıq!" Əl-ələ verib bulvara qaçdıq. Sanki bütün Bakı sahilə yığışmışdı. Bir-birini tanımayan adamlar da qucaqlaşır, bayramlaşır, doğmalarını, əzizlərini yada salıb ağlaşırdılar. Biz o vaxtlar çox sevdiyimiz ağaca çatdıq (o ağac indi də Kukla teatrının yanındadır). Orada başdan-ayağa qara geyinmiş, ağ saçlarına qara kəlağayı bağlamış bir qadın dayanmışdı. Sanki yıxılmamaqdan ötrü bir əli ilə ağacdan yapışmışdı, o biri əlində yaylıq tutmuşdu. Zərifə adətən tanımadığı adamlardan utanardı, ancaq bu dəfə cəsarətlə həmin qadına yaxınlaşdı,onu qucaqlayıb sakit səslə dedi: "Anacan, qara yaylığını başından götür, bu gün bayramdır." Qadın hönkürdü. Zərifə onu daha bərk qucaqlayıb sinəsinə sıxdı: "Əriniz?" Qadın hıçqırığını güclə boğub dedi: "Yox, oğlum ... üç oğlum" ... o gün biz evə qayıdanda Zərifə yumruqlarını düyüb dedi: "Nifrət eləyirəm müharibəyə, insanların əzab çəkməsinə dözə bilmirəm." Onu tanıdığım bütün bu vaxt ərzində mən ilk dəfə Zərifənin gözəl gözlərinin acıqdan qızardığını gördüm.

...İki dəfə valideynlərimiz bizi bir yerdə Moskvaya aparmışdılar. Yadımdadır, birində yay idi, mən onilliyi təzə bitirmişdim. Zərifə, anası Leyla bacı, mənim atam və o vaxt Azərbaycan Elmlər Akademiyasının prezidenti olan akademik M.M.Mirqasımovla yola düşdük. Zərifənin atası artıq Moskvada idi, orada SSRi Ali Sovetinin sessiyası gedirdi. Üç gün yol getdik. O üç gündə nə qədər ürək söhbəti elədik. İndi artıq Zərifə mənim uşaqlıq macəralarımı gülə-gülə xatırlayır, "hünər"lərimi zarafatla yada salırdı. Təbii

ki, mənim oxumağa hara gedəcəyim onu bərk maraqlandırırdı. Mən dedim ki, babam Məşədi kimi mühəndis-elektrik olmaq istəyirəm. Zərifə bir qədər fikrə gedib dedi: "Mənə elə gəlir ki, sən haqlı deyilsən. Əgər sən babnın işini davam etdirirsənsə, bunun üçün mütləq mühəndis-elektrik olmaq lazım deyil. Məncə, sən tarixçi olmalı, onun haqqında, dostları, əməkdaşları barədə yazmalısan." Yadımdadır, təəccübləndim ki, "məndən də tarixçi olar? Mən ona görə qızıl yox, gümüş medal almışam ki, attestatımda cəmi bircə dənə "dörd"üm var, o da tarixdəndir." Atam da, akademik Mirqasımov da Zərifənin sözünü təsdiqlədilər. Akademik dedi: "Dörd almaq boş şeydir, əsas məsələ odur ki, sən sənətini sevəsən, yaxşı mütəxəssis olasan. Sən isə tarixçi olmalısan. Zərifə düz deyir, get sənədlərini tarix fakültəsinə ver." Biz Moskvadan qayıdanda mən artıq onların dediklərinə əməl etdim və sənədlərimi universitetə verdim. Beləliklə, mənim bütün ömrümü həsr etdiyim, həddən artıq sevdiyim tarixçi ixtisasım da Zərifənin yadigarıdır.

Ümumiyyətlə, bizim Moskvada keçirdiyimiz gözəl, xoş günlər, maraqlı söhbətlərlə əlaqədar xatirələrim çoxdur. Orada gördüklərimizi, oxuduqlarımızı birlikdə müzakirə edər, öyrəndiyimiz şeirləri bir-birimizə oxuyardıq. Günlərimizi muzeylərdə, rəsm qalereyalarında keçirər, küçələri gəzərdik. Zərifə gördüyü gözəllikləri tez özünün könül dünyasına həkk edər, şərə, ədalətsizliyə qarşı üsyana qalxardı. Xatirimdədir, Tretyakov qalereyasında Repinin "İvan Qroznı və onun oğlu İvan" əsərinə baxandan sonra uzun müddət özünə gələ bilmir, tez-tez təkrar edirdi: "Ata öz oğlunu, ciyərparasını necə öldürə bilərmiş?" Onun könlündə hələ o zaman müqəddəs analıq hissi baş qaldırmağa başlamışdı.

Bir gün atalarımız bizi Böyük Teatra – Bizenin "Karmen" operasına apardılar. Bu bizim üçün həddən artıq həyəcanlı bir xəbər oldu. Karmen rolunu Davıdova ifa edirdi. Nəfəsimizi içimizə çəkib nəhəng və əzəmətli zalda oturmuş, sanki lal kəsilmişdik. Birinci pərdə başa çatanda Zərifə hələ eşitdiyimiz musiqinin sehrindən çıxa bilməmişdi, pıçıltı ilə qulağıma dedi: "Yadındadır, mən bir dəfə sənə demişdim ki, həyat nağıldır. Görürsən, bu gün də biz səninlə böyük bir nağıl yaşadıq." Mən elə bil böyümüşdüm və böyüklərə xas bir əda ilə ondan soruşdum: "Zərifə, bəs sənin yadındadır, mən uşaq olanda nağıllardan danşardın?" "Yadımdadır, – dedi, – mən yenə təkrar edirəm, gərək elə can





yandıraq, elə yaşayaq ki, həyatımız nağıla çevrilsin. O mənada yox ki, hər şey gözəl və yüngül olsun, o mənada ki, özümüzdəki xeyirxahlıqla şərə qalib gələ bilək. Görəndə ki, insana əziyyət verir, onu incidirlər, mən çox pis oluram." Musiqiyə olan sevgisi Zərifənin könlünə hakim kəsilmişdi. Bu sevgi dəfələrlə özünü büruzə vermişdi. Elə o vaxt Böyük Teatrda, sonralar istirahət evində Davıdova, Nejdanova kimi sənətkarlarla söhbətlərdə də mən bunun canlı şahidi olmuşdum. Hətta tale elə gətirmişdi ki, Zərifə vokal sənətinin bu azman ustalarını müşayiət etməli olmuş, improvizə edilmiş konsertlər vermişdi. Bu cəhətdən bir hadisə heç zaman yadımdan çıxmaz. Bir dəfə yay vaxtı Kislovodskda idik. Eyvanda oturmuşdum, birdən Tofiq Quliyevin "Üzüyümün qaşı firuzədəndir" melodiyasını eşitdim. Zərifə bu musiqini çalmağı çox xoşlardı. Hiss elədim ki, çalan odur. Onun çaldığını artıq gözüyumulu da tanıya bilirdim. Eyvandan aşıb səsə doğru qaçmağa başladım. Yadımdadır ki, xeyli qaçdım. Sanatoriyanın hasarından tullandım və qovaq talasına çıxdım. Yanılmamışdım, Zərifənin böyük bacısı Ləzifələri Ağaəli ilə, kiçik bacısı Gülarə, qardaşı Tamerlan, anası Leyla xanım süfrə açıb dövrələmə oturmuşdular. O, akkerdeonda çalırdı. Mənim gəlişim o qədər gözlənilməz oldu ki, Zərifə çalğısına ara vermək istədi. Ancaq mən yalvararaq xahiş etdim: "Zərifə çal. Sənin üçün, çalğın üçün elə darıxmışam ki..." O gündən etibarən yenə də birgə istirahət günlərimiz başlandı, yenə birgə bağ gəzintilərimiz, səyahətlərimiz davam etdi.

Zərifənin yumor hissi də qeyri-adi dərəcədə inkişaf etmişdi. Onun yumorunu bir dəfə görənlər ömrü boyu yaddan çıxara bilməzdilər. Tanıdığım müddətdə elə bir an olmamışdı ki, yumor hissi, həmçinin nikbinlik, insanlara inam, xeyirxahlıq, şərə qarşı barışmazlıq duyğuları onu tərk etsin. Yenə Kislovodskda baş vermiş bir hadisəni xatırlayıram. Müharibədən sonrakı ilk illərdə "ekler" pirojnası aztapılan şeylərdən sayılırdı. Biz adama iki dənə ekler götürüb skamyada oturmuşduq. Yanımızda bir gənc qadın əyləşmişdi. Sonra ona bir kişi də yanaşdı. Onlar yavaşca nəsə pıçıldaşdılar və kişi deyəsən onu incidən sözlər söyləyib çevrildi, getdi. Zərifə ilə öz aramızda Azərbaycan dilində kişinin bu hərəkətini müzakirə edirdik. Əmin idik ki, gənc qadın dediklərimizi başa düşmür. Zərifə cavan kişinin kobudluğundan pərt olub qəzəblənmişdi. Birdən qadın üzünü biz tərəfə tutub tərtəmiz azərbaycan dilində qayıtdı ki, "xoşdu mənə". O arada biz ikinci pirojnanı yeməyə

başlamışdıq. Gözlənilməz reaksiyadan Zərifə çaşıb eklerin bir ucundan elə dişlədi ki, krem o biri ucundan pırtlayıb çıxdı. Gənc qadına tərəf dönüb üzrxahlıq və qeyri-adi dərəcədə təmkin dolu səslə öz sözlərinə izahat verməyə başladı. Tezliklə biz həmin gəlinlə dostlaşdıq. Tez-tez parkda biz onunla üzbəüz gəlirdik. Həmin cavan kişi də həmişə yanında olardı. Gəlin hadisəni ona da danışmışdı. Kişi bizimlə tanış olanda zarafatla Zərifəyə dedi: "Sən demə, siz qadınların böyük bir müdafiəçisi imişsiniz." Zərifə də özünü itirmədi: "Mən ədalətin müdafiəçisiyəm. Və belə hesab edirəm ki, adamlar gərək bir-birilərinin qədrini bilsinlər." Bu fikir doğurdan da onun həyat amalı idi.

Hələ uşaqlıq və yeniyetməlik çağlarından Zərifə öz təbiətinin bütövlüyü ilə adamları heyran qoyurdu. S.Sveyqin "Naməlum qadının məktubu" əsərini təzəcə oxuduğumuz vaxtlar idi. Kislovodskdakı həmin parkda söhbətləşirdik. Ona məni narahat edən bir sual verdim: "Sən necə, belə dəlicəsinə sevə bilərdinmi? Hər şeyi sevdiyin adama qurban verəsən, özünü tamamilə ona həsr eləyəsən..." Zərifə xeyli susub fikirləşəndən sonra dedi: "Əgər mən qəlbimi kiməsə versəm, dəxli yoxdur bu sevgi ağır olsun, ya da mənə sevinc bəxş etsin, bircə şeyi bilirəm ki, eşqimi bütün ömrüm boyu ürəyimdə daşıyacağam." Mən düşündüm, doğurdan da sevirsənsə, belə sevməlisən.

Zərifənin bacısı qızı Svetlananın toyu bu gün də xatirimdən çıxmır. O, Ləzifə ilə Ağaəlinin qızı idi və 60-cı illərin əvvəllərində ərə getdi. Bu, Əziz müəllimlə Leyla xanımın ömründə birinci nəvə toyu idi. Yəqin buna görə də onlar rəqs etməkdən doymurdular. Toy, ümumiyyətlə, olduqca şən keçirdi. İndiki 200-300, aşağısı 100 nəfərlik toylardan tamamilə fərqlənirdi. Bura ən yaxın qohum və dostları çağırmışdılar və bütün iştirakçılar o qədər azdı ki, hamısı Ağaəli əmigilin yaşadıqları qədimi evin geniş otağına yerləşmişdi. Biz arada Zərifə ilə güzgülü qalereyaya keçdik. Zərifə təzəcə ərə getmişdi və o vaxtdan onunla doyunca söhbət eləməyə vaxt olmamışdı. Mənim birinci soruşduğum o oldu ki, "Zərifə, xoşbəxtsənmi?" O sevinə-sevinə mənə öz xoşbəxtliyindən, hədsiz, dərin, sədaqətli və qarşılıqlı məhəbbətindən, həyat yoldaşının gözəl keyfiyyətlərindən xeyli danışdı. Ən səciyyəvi odur ki, toydakı həmin görüşümüzdən illər keçəndən sonra da





Zərifə öz qadın xoşbəxtliyindən, ailə səadətindən eyni hərarət və ilhamla söz açmaqdan doymurdu. Elə heyrətamiz sözlər tapırdı ki, onları kağıza-qələmə etibar etməyə əlim gəlmir.

Onun insanlara məhəbbəti qeyri-adi hüdudsuz idi. Bu, bəlkə də ilahi bir vergi, fitri istedad idi. Zərifə sevib-seçdiyi, ömrünü seçdiyi sənəti ilə bu istedadını da tam gerçəkləşdirə bilirdi. Bu haqda həkimlərin peşə dilində söz açmayacağam. Zərifə xanımın həmkarları, çoxsaylı tələbələri, elmdə və təcrübi təbabətdə ardıcılları bu işi məndən yaxşı bacara bilərlər. Mən sadəcə bir tarixçi kimi akademik Z.Ə.Əliyevanın apardığı böyük və çoxcəhətli ictimai fəaliyyətin cəmi bir epizodunu təhlil etməklə kifayətlənəcəyəm. 1973-cü ilin oktyabrında Bakıda Beynəlxalq Astronavtlar Federasiyasının XXIV konqresi keçirilirdi. Konqresin qadın komitəsi Zərifə xanımı müxtəlif tədbirlərinə dəvət etmişdi. Komitənin təşkil etdiyi qəbulda ABŞ, Fransa, İtaliya, Almaniya, İngiltərə və bir çox başqa ölkələrdən gəlmiş 250-dən artıq qadın iştirak edirdi. Qonaqların çoxu Zərifə xanıma onun ixtisası üzrə suallar verirdilər. O da hər bir sualı məmnuniyyətlə, yerli-yataqlı məlumatlandırırdı. Açıq-aydın görünürdü ki, sevimli işi haqda sorğulara cavab vermək ona xoşdur.

Elə bir şərait yarandı ki, biz onunla ikilikdə qaldıq. Və mən soruşdum: "Zərifə, yadındadır o kor qadın?" O, inamla dedi: "Yadımdadır, hər şey yadımdadır. Bəs sən bilirsənmi ki, bütün bu vaxt ərzində mən nə qədər operasiyalar aparıb neçə adamın gözünə nur qaytarmışam?" (o, keçirdiyi tibb əməliyyatlarının sayını göstərdi, təəssüf ki, yadımda qalmayıb, ancaq xatirimdədir ki, çox böyük rəqəm idi). Bəlkə də ona görə yadda saxlaya bilməmişəm ki, biz o vaxt çox gərgin işləyirdik, sovet qadınlarını təmsil edirdik, həm də konqresin ev sahibi idik. O günlərdə bizim hər birimiz sosial xarakterli sorğulara cavab verməli olurduq. Mən heyrətə gəlməyə bilmirdim. Əcnəbi qadınların təkcə sosial deyil, habelə siyasi məzmunlu suallarına Zərifənin verdiyi cavablarda onun dərin biliyi, hədsiz nəzakəti, ayıq sinfi hissiyyatı necə də aydın görsənirdi. Hər dəfə onun sülh uğrunda hərəkatda qazandığı uğurları eşidəndə, Sülhü Müdafiə Komitəsinin işində iştirakını izləyəndə mən istər-istəməz 1944-cü ilin o uzaq axşamını xatırlayırdım. O axşamı ki, Zərifə müharibədən sonra neyləyəcəyimiz barədə düşünür, planlar cızırdı.

Bəli, qələbəmiz min bir əziyyət hesabına qazanılmışdı, buna görə də sülhü qorumaq lazım idi. Zərifə də öz laboratoriyasından tutmuş çoxsaylı görüşlərinə və yığıncaqlarınacan hər yerdə həvəslə bu istiqamətdə iş aparırdı. Konqresin işlədiyi günlərdə Azərbaycan Tarixi muzeyinin Şərq salonunda qədim və müasir milli geyimlərimizdən ibarət maraqlı bir sərgi nümayiş etdirilirdi. Mən Zərifəni də qızı Sevillə birlikdə bu tədbirə dəvət etmişdim və onlar sərginin əvvəlindən axırınacan orada iştirak etdilər. Zərifənin ABŞ-dan gəlmiş bir qadınla söhbəti indiyə kimi yadımdadır, görünür, o hansısa mülahizəsini davam etdirirdi: “Görürsünüzmü, biz öz maddi mədəniyyətimizə, tariximizə necə qayğıyla yanaşırıq. Əgər bu belədirsə, deməli, biz sizin dediyiniz kimi öz milli simamızı itirə bilmərik.” Əfsuslar olsun ki, təşkilat məsələləri məni bu maraqlı söhbəti axıracan dinləməyə qoymadı.

İndi muzeyimizdə həmin konqresdən xatirə kimi “Orbitdə Salyut” adlı bir məcmuə qalır. Bu kitabda dünyada birinci “Salyut” kosmik-orbital elmi stansiyasının işi haqqında, onun həyatdan vaxtsız köçmüş, həlak olmuş üzvləri Q.Dobrovolski, V.Volkov, V.Patsayev barədə materiallar toplanıb. Titul vərəqində mərhum kosmonavt V.Patsayevin dul qadınının Heydər Əliyevə və Zərifə xanıma ünvanlanmış hərarətli xatirə sözləri həkk olunmuşdur. Zərifəyə xas insanları sevmək istedadı ömrümüzün sürətli axarında görünməz olan adi məsələlərdə də üzə çıxırdı.

Bir hadisə də heç yadımdan çıxmır. Yolda dayanıb svetaforun yanmasını gözləyirdim. Birdən yanımda bir maşın dayandı. Zərifə idi, maşından düşüb həmişəki kimi mənimlə salamlaşdı. Bir gün qabaq respublikamızın qadın hərəkatı fəallarından birinə bədbəxtçilik üz vermişdi və ona xeyli köməklik göstərmişdilər. Mən marağımı boğa bilmədim, soruşdum: bu xeyirxahlığın təşəbbüskarı o deyil ki? Birbaşa cavab vermədi, ancaq anladım ki, yenə də Zərifə öz ürəyiyananlığı, qayğıkeşliyi ilə köhnə rəfiqəmizə ilkin əl uzadıb.

Görüşlərimizdən birində soruşdu ki, anamın səhhəti necədir. Cavab verdim ki, diabet xəstəliyinin ucbatından görmə qabiliyyətini get-gedə itirir. Bunu başqa məna ilə deməmişdim. Üstündən iki-üç gün keçəndən sonra qapımızın zəngi çalındı, açdım və yerimdə donub qaldım. Zərifə kandarda dayanmışdı. İçəri keçib dedi ki, işə gedirdim, birdən ananın səhhəti barədə dediklərini xatırladım, bağışla, vaxtım az da olsa, İzzət xanımın gözlərini





müayinə eləmək istəyirəm. Heyrətamiz bir iş oldu: anam neçə illərdi ki, Zərifəni görməmişdi, ancaq səsindənmi, ya sövq-təbii onu tanıdı. Zərifə hələ dəhlizdə ikən öz otağından onu səslədi: “Bala, xeyir olsun belə?” Anam həkimləri sevməzdi və heç vaxt həkimə getməzdi. Ancaq Zərifə deyəndə ki, onu müayinə eləmək istəyir, anam onun suallarına cavab verməyə başladı. Zərifə səbrlə onu dinləyirdi, anam isə arada xəstəliyini yadından çıxarıb ağlamsınır, ötən günlərimizi, həyatdan köçmüş yaxınlarımızı, doğmalarımızı yada salırdı. Vidalaşanda Zərifə məni qucaqlayıb yana-yana dedi: “Neyləmək olar, Zinulya, sən möhkəm adamsan, dözməlisən. İşlər pisdir, mən İzzət xalaya heç bir kömək eləyə bilməyəcəm. Bu, diabet zəminində geridönməz bir prosesdir.” Anam dünyasını dəyişəndə – 1980-cı ilin yanvarında o, Tamerlanla bizə gəldi. Adam çox idi. O özünü göstərmədən keçib qapının yanında – divanda əyləşdi. Qadınlar Zərifəni tanıyıb yuxarı başda yer göstərəndə də divandan durmadı. Mən keçib onun yanında oturdum. Biz sanki baş verənlərdən aralanıb valideynlərimizi xatırladıq, uşaqlarımızdan danışdıq.

Zərifə uşaqları hər şeydən artıq sevirdi. Oğlu ilə qızı onun hədsiz sevinc və səadət mənbəyi idi. O, balalarını canından artıq sevən fədakar ana idi. Sonradan Moskvada şahid oldum ki, Zərifə həm də cəfakeş nənədir. Yas yerindəki söhbətimizdə mövzu mövzunu əvəz edir, söz sözü çəkirdi. Elə bil bir-birimizə daha çox şey çatdırmaq istəyirdik. Ailə, uşaqlar, nəvə, istehsalatın müxtəlif sahələrində göz zədələnmələrinin araşdırılması və profilaktikası üzrə maraqlı təcrübi və elmi-tədqiqat işləri, öz təşəbbüsü ilə Bakı məişət kondisionerləri zavodunun bazasında yaratdığı görmə orqanlarının peşə patologiyası laboratoriyası... Sonra da söhbətimiz Azərbaycan Elmlər Akademiyasının yaxınlaşan seçkilərin üstünə gəldi – həqiqi üzvlüyə Zərifənin də namizədliyi irəli sürülmüşdü. Bu məsələ barədə təmkinlə və sadə bir tərzdə təkcə onu dedi ki, çox böyük şərəfdir və bunun müqabilində gərək cəfakeşlik və ilhamlı əmək sərf edəsən. Əməyə onun münasibəti belə idi – insanın ətraf aləmi görmə qabiliyyəti uğrunda gərgin mübarizə!

**P.Ə.ƏZİZBƏYOVA**
*Professor, Azərbaycan Elmlər Akademiyasının həqiqi üzvü, Azərbaycan Tarix Muzeyinin direktoru*

## BİR DAMLA SUDA GÜNƏŞ...

Şərq aləmində geniş yayılmış xalq məsəllərindən biri buyurur ki, "əgər sən təkcə yaxşı həkimsənsə, yaxşı həkim ola bilməzsən." Həyatdan vaxtsız köçmüş görkəmli alim, həssas həkim, sədaqətli və etibarlı dost kimi tanınan Zərifə Əziz qızı Əliyeva barədə düşünəndə hər dəfə bu müdrik kəlamı xatırlayıram.

Bu və ya başqa hadisənin əsl böyüklüyü, qısa insan həyatının həqiqi əhəmiyyəti vaxt keçdikcə daha aydın üzə çıxır. Zaman hər şeyi zərgər dəqiqliyi ilə ölçür və qiymətləndirir. Əgər onun əziz xatirəsi saf, göz yaşı kimi dup-duru duyğularla zəngin olmasaydı, əgər onun elmimizə bəxş etdiyi böyük töhfələrlə öyünüb ovunmasaydıq, ağrılı-acılı bir fikir – Zərifə Əziz qızının artıq dünyada olmaması fikri institutumuzun bütün əməkdaşlarını hər dəqiqə, hər an sarsıdar, əlimizi işdən soyudardı. Zərifə xanım bu gün də oftalmologiya kafedrasının bir çox əməkdaşlarına, geniş götürdükdə bütün kollektivimizə öz təsirini itirməmişdir. Bunun dərk edilməsi gözümüzün, könlünüzün acısını bir az yumşaldır.

İlk görüşümüzü yaxşı xatırlayıram. Tale bizi çox qələbəlik bir şəraitdə rastlaşdırdı – Uroloqların 1972-ci ildə Bakıda keçirilən I Ümumittifaq qurultayının açılışında. Deməliyəm ki, belə elementar bir forumun respublikamızın paytaxtında keçirilməsi öz-özlüyündə böyük bir hadisə idi, eyni zamanda Azərbaycan uroloji məktəbinin yüksək klinik və elmi səviyyəsinin etiraf olunmasına dəlalət edirdi. Bununla birgə hamımız çalışırdıq ki, qurultayın təşkilat işlərini də onun yüksək səviyyəsinə uyğun quraq, iştirakçı və qonaqların mümkün qədər bütün istəklərinə əməl eləyək.

Təəccüblü deyildi ki, qurultay günlərində biz, Azərbaycan uroloqları, xüsusilə də Ə.M.Əliyev adına Respublika Həkimləri Təkmilləşdirmə İnstitutunun urologiya və operativ nevrologiya kafedrasının əməkdaşları sutkanın az qala 24 saatını gərgin işləyirdik. Yalnız birinci plenar iclasın fasiləsi zamanı azacıq nəfəsimizi dərdik.

Mən yeni tibb texnikası nümayiş etdirilən foyeyə çıxmışdım. Kimsə qoluma toxundu. Döndüm, qarşımda çöhrəsindən nur yağan, gözlərindən təbəssüm çilənən orta boylu bir qadın dayanmışdı.

– Əliyeva Zərifə Əziz qızı – deyə özünü təqdim etdi, – həmkarıq, sizin institutda işləyirəm, göz xəstəlikləri kafedrasında. İcazə verin, qurultayın açılışı münasibətilə sizi təbrik edim.





– Çox xoşdur, – mən fərqinə varmadan cavab verdim. Və qəfildən bir fikir ildırım vurmuş kimi məni oyatdı:

“Bu ki Əziz Əliyevin qızıdır”. Əziz müəllimin adı məndən ötrü çox əziz idi. Çünki məhz o, təkmilləşdirmə institutunun rektoru olarkən, 1962-ci ildə məni – o vaxt cavan elmlər namizədini, dosenti dəvət etmiş və urologiya kafedrasına rəhbərliyi mənə tapşırmışdı. Özümdən asılı olmadan söhbəti Əziz müəllimin xatirəsi üzərinə gətirdim.

Zərifə xanım özünəxas xeyirxah təbəssümü ilə məni saxladı:

- Əlbəttə, Sizin atama olan duyğularınız mənim üçün əziz və xoşdur. Ancaq indi söhbət başqa məsələdən gedir. Mən ona görə yaxınlaşdım ki, bir insan kimi sizin necə gərgin çalışdığınızı hiss etdim. Görürəm, işiniz ağırdır. Mən qurultayın mədəni proqramının həyata keçirilməsində, qonaqların Bakının və respublikamızın başqa görməli yerləri ilə tanış edilməsində Sizə məmnuniyyətlə kömək edə bilərəm.

Bu təklifin heyrətamiz dərəcədə xeyirxah, səmimi, eyni zamanda işgüzar və təcrübi tonu, onun kömək göstərməyə qızğın həvəsi qəlbimin dərinliklərinəcən işlədi. Eyni zamanda qurultayın təşkilatçılarından biri kimi mən Zərifə xanımın bu iş üçün mühüm əhəmiyyət kəsb edən yüksək keyfiyyətlərini – rus dilini olduqca gözəl bilməsini, yüksək ünsiyyət mədəniyyətinə malik olmasını, heyrətamiz nəzakətini və düşüncəsindəki dinamikliyi qiymətləndirməyə bilməzdim. Mən bircə anın içində bütün bunları fikrimdən keçirib, ona vaxtında edilmiş kömək təklifi üçün minnətdarlığımı bildirdim. Elə oradaca, söhbət əsnasında biz onunla qurultaydakı birgə əməkdaşlığımızın planını cızdıq. Zəng çalındı. O, zala tələsdi. Rəyasət heyətindən gözlərimlə onu axtardım. Zərifə xanım işlədiyi kafedranın əməkdaşları ilə birlikdə dördüncü sırada əyləşmişdi. Deyirlər, insan barədə ilkin təəssürat çox zaman doğru olur... Həqiqətən də, Zərifə Əliyeva ilə birinci görüşümüzdən onun şəxsiyyətindən aldığım duyğulu təəssürat məni bütün əməkdaşlığımız boyu tərk etmədi. O gündən sonra biz artıq elmi şuranın iclaslarında köhnə dostlar kimi görüşürdük. İş şəraitinin yaxşılaşdırılması, nöqsanların aradan qaldırılması yolları haqda açıq fikir mübadilələri aparır, yeni elmi uğurları da, ədəbiyyat və incəsənət əsərlərini də ətraflı müzakirə edirdik. Bu ağıllı, ilhamverici insanla

ünsiyyətdə olmaq həmişə məndən ötrü həmin günün bayramına çevrilirdi. O, həddən artıq xeyirxah və yumşaq xasiyyətli bir xanım-xatın idi. Eyni zamanda öz əqidəsində möhkəm idi, sözündən dönməzdi, xoşlamadığı hallara qarşı barışmazdı.

1975-ci il yanvarın əvvəllərində Azərbaycan Dövlət Həkimləri Təkmilləşdirmə İnstitutuna rektor təyin olunanda məni birinci olaraq Zərifə xanımın təbrik etməsi bir xatirə kimi indiyəcən mənim üçün xüsusi əhəmiyyət daşıyır.

– Sizin üçün asan olmayacaq. – o vaxt da Zərifə xanım sözünü açıq söyləmişdi. - Axı, cərrah əməliyyata ona görə girir ki, xəstənin sağlamlığını özünə qaytarsın. Elə istərdim ki, institutumuzu dirçəldək, əvvəlki şöhrətini ona qaytaraq. Kollektivimiz də buna qadirdir. Həqiqətən istedadlı, təşəbbüskar həkimlərimiz var. Ancaq gərək onların etinasızlığını aradan qaldıraq, böyük əməllərə sövq edək. Tamamilə əminəm ki, pis işçilər olmur, pis rəhbərlik üslubu olur.

Deyilənə görə, bir damla suda da günəş əks oluna bilər, onda etiraf etməliyik ki, insan da hər bir sözünün arxasında aynadakı kimi əks olunur. Mənim həyatım üçün unudulmaz olan həmin gün mən Zərifə xanıma məsləhət gördüm ki, öz doktorluq dissertasiyasının formal tərəflərini yekunlaşdırsın. Dedim:

- Bilirəm ki, materialınız artıq toplanıb, hazırdır. Belə ki, işi uzatmağına dəyməz.

O, baxışlarını üzümə dikib gülümsədi. Bir dəqiqə fikirləşəndən sonra başını bulayıb qətiyyətlə dedi: - Tələskənliyi sevmirəm...

Elə dedi ki, mən bu qısa, sadə cavabda dərin və gözəl insani duyğuların bütöv bir çərgəsinin dalbadal düzüldüyünü görməyə bilməzdim – məsuliyyət və ləyaqət, rasionallıq və özünənəzarət bu sözlərin mayasında dayanmışdı. İndinin özündə də mənə elə gəlir ki, bu keyfiyyətləri öz daxili dünyagörüşünün, dünyaduyumunun tərkib hissəsinə, atributuna çevirmədən belə bir fikri izhar etmək mümkünsüzdü.

Bir müddət keçdi. Nəhayət, hərtərəfli düşünülüb-daşınılmış, dəqiqləşdirilmiş, elmi cəhətdən dərindən əsaslandırılmış doktorluq dissertasiyası müdafiəyə çıxarıldı. Mövzusu belə idi: "Azərbaycan kimya sənayesinin bir sıra müəssisələrində işçilərdə görmə





orqanının vəziyyəti". Müdafiə 1976-cı il mayın 27-də Helmqolts adına Moskva Elmi-Tədqiqat İnstitutunda oldu. İnstitutun akt zalı ağzınacan dolmuşdu. Mövzunun yeniliyi və aktuallığı bütün Moskva mütəxəssislərinin, xüsusilə də sahə institutları əməkdaşlarının peşəkar marağına səbəb olmuşdu. Bir çoxlarının məqsədi dissertantın hazırlığına, işlədiyi mürəkkəb mövzunu dərindən təhlil etmək və buradan səhiyyənin təcrübi sahələri üçün perspektivli nəticələr çıxarmaq bacarığına şəxsən əmin olmaq idi. Bundan başqa, o dövrdə attestasiya komissiyasının yenidən qurulması prosesi başlanmışdı və bu təşkilat elmlər doktoru elmi adına layiq görülmək üçün təqdim edilən işlərə tələblərini kəskin olaraq artırmışdı. Zərifə xanımın qarşısında fövqəladə dərəcədə mürəkkəb bir vəzifə dayanırdı. - O, həddən artıq geniş və diqqətcil auditoriyanın yüksək psixoloji pressinqi altında dissertasiyasının, işləyib inkişaf etdirdiyi elmi istiqamətin bütün üstünlüklərini açıb-göstərməli, elmi kamilliyini, özünəməxsus yetkin elmi və cəsarətli eksperimentatorluq bacarığını isbata yetirməli idi.

Belə bir vəziyyətdə iştirakçıların bir çoxu, o cümlədən mən də, həyəcanımızı güclə boğurduq. Zərifə xanım isə zahirən çox rahat görünürdü. Sıxıntı keçirdiyi azacıq hiss olunsa da, özünü o yerə qoymur, həmkarlarını, dostlarını, tanışlarını salamlayıb zala keçirirdi.

Qaydaya görə, rəsmi materialların oxunması başa çatandan sonra işi təqdim etməkdən ötrü söz Zərifə Əziz qızına verildi. Əyninə kostyum geymişdi, xeyli zabitəli görkəmi ilə aramla kürsüyə qalxdı. Tələsmədən, hissiyyatını üzə vermədən, isbatlı bir şəkildə, əsl kişi lakonikliyi ilə inandırıcı bir məruzə etdi. Mahiyyətcə, onun məruzəsi sərbəst şərhə bənzəyirdi, yalnız zəruri hallarda irəlicədən hazırladığı slaydlara istinad edirdi.

Həmişə olduğu kimi, bu dəfə də elmdə yeni söz olan dissertasiya canlı diskussiya doğurdu. Zərifə xanıma ondan artıq sual verildi. O da öz işinə və mövcud ədəbiyyata əsaslanaraq, həmin suallara ətraflı cavablar verdi, yüksək elmi hazırlıq və geniş erudisiya nümayiş etdirdi. Bu parlaq müdafiə institutumuzun bütün əməkdaşları kimi məndə də böyük məmnunluq və öz elmi-pedaqoji kollektivimiz üçün iftixar hissləri doğurdu. Düşünürəm ki, Zərifə xanımı tanıyanların hamısı o gün tez-tez emosiyaların kəskin dəyişikliyinə

uğrayırdılar, ancaq mərasimin uğurla nəticələnəcəyinə məntiqli və qanunauyğun inam heç kəsi bircə an belə tərk etməmişdi. İşin qeyri-rəsmi opponenti, Tibb Elmləri Akademiyasının müxbir üzvü, N.M.Seçenov adına İkinci Moskva Tibb İnstitutunun oftalmologiya kafedrasının müdiri, professor A.P.Nesterov buraya yığışanların əksəriyyətinin ürəyindən xəbər verərək, dissertasiyanı yüksək qiymətləndirdi.

Biz hamımız, həqiqətən, dəyərli, nümunəvi bir dissertasiya görmək istəyirdik və bunun şahidi olduq. Tezliklə attestasiya komissiyası Zərifə Əliyevaya tibb elmləri doktoru elmi dərəcəsinin verilməsi haqqında Elmi Şuranın çıxardığı qərarı təsdiqlədi. O, professor vəzifəsinə təyin edildi və 1982-ci ildə yekdilliklə Ə.M.Əliyev adına Azərbaycan Həkimləri Təkmilləşdirmə İnstitutu göz xəstəlikləri kafedrasının müdiri seçildi. Qısa bir müddətdə Zərifə xanım necə nadir bir təşkilatçı olduğunu da sübut elədi. Dar macalda kafedrada yenidənqurma apardı, onu müasir diaqnostik və müalicə cihazları ilə təmin elədi, kollektivin elmi və pedaqoji nüfuzunu artırdı. O, elmi işin yeni metodlarla aparılmasını təşkil etdi ki, bu da xüsusilə mühüm əhəmiyyət kəsb edirdi. Zərifə xanım öz əməkdaşlarının diqqətini müasir oftalmologiyanın perspektivli istiqamətlərinə yönəldir, onları bu sahələrdə araşdırmalar aparmağa ruhlandırırdı. Hədsiz əməksevərliyi, yüksək təşkilatçılıq bacarığı, xeyirxahlığı, şəxsi qayğıkeşliyi, hər bir əməkdaşını müdafiə etməyə daim hazır olması onun işgüzar zabitəsi ilə bir ahəngdə çulğaşırdı. Qüdrətli alimə yaraşan bu xüsusiyyətləri Zərifə xanıma imkan verirdi ki, institutdakı işi ilə eyni zamanda, SSRİ-də ilk dəfə Avropadakı analoji müəssisələrdən ən böyüyü sayılan Bakı məişət kondisionerləri zavodunda işçilərin görmə orqanının patologiyasını araşdıran elmi-tədqiqat laboratoriyasına da rəhbərlik etsin. Azərbaycan sənayesinin müxtəlif sahələrinə aid peşələrlə əlaqədar göz xəstəlikləri üzrə onun apardığı tədqiqatlar xaricdə də bir sıra alimlərin diqqətini cəlb etmişdi. Zərifə xanım bir sıra əsərlərində əldə olunmuş nəticələri ümumiləşdirmişdi. Onun məsləhət və tövsiyələri istər oftalmoloq alimlər, istərsə də təcrübi fəaliyyətlə məşğul olan həkimlər üçün böyük əhəmiyyət daşıyırdı. Tibb Elmləri Akade-





miyası Zərifə Əliyevanı oftalmologiya sahəsində ali mükafatla – akademik Averbax mükafatı ilə təltif etmişdi. İnstitutumuzun kollektivi bu mükafatı həm şəxsən Zərifə Əziz qızı Əliyevanın, həm də bütövlükdə göz xəstəlikləri kafedrasının aktual, nəzəri cəhətdən maraqlı, təcrübi baxımdan səmərəli işinin yüksək qiymətləndirilməsi kimi qəbul etdi.

Zərifə xanımın elmi və təcrübi təbabət sahəsində qazandığı önəmli uğurlar kollektivimizə əsas vermişdi ki, Azərbaycan Elmlər Akademiyasının həqiqi üzvlüyünə onun namizədliyini irəli sürək. Onun namizədliyini biologiya elmləri bölməsinə mən təqdim etdim. Yekdilliklə seçilməsi yalnız onun oftalmologiyanın inkişafına verdiyi töhfələrin etiraf olunması deyildi, həmçinin Zərifə xanımın işlədiyi elmi istiqamətin perspektivli olduğunu təsdiqləyirdi. Akademik Zərifə Əliyeva təcrübəli pedaqoq kimi daim oftalmoloqların ixtisaslarını artırmalarına diqqətlə yanaşır, öz kafedrasının oftalmologiya üzrə təşkilati-metodiki mərkəzə çevrilməsi üçün əlindən gələni əsirgəmirdi.

Onun tərəfindən həkimlərin təkmilləşdirilməsinin yeni formaları, tədris işinin optimallaşdırılmasının yeni metodları tətbiq olunurdu. İnsanlara həssas münasibəti, klinikaçı kimi yüksək səviyyəli fəaliyyəti ona həyata qaytardığı, gözlərinə nur bəxş etdiyi minlərlə adamın sevgi və hörmətini bəxş etmişdi.

İnstitutumuzun əməkdaşları Zərifə xanımın vaxtsız vəfatından böyük ürək ağrısı ilə xəbər tutdular. Hamımız dərindən sarsıldıq. Moskvadakı Novodeviçye qəbiristanlığında vida sözü söyləmək də mənim üçün asan olmadı.

Özümü nə qədər topladımsa da, verdiyimiz itkinin-görkəmli alimin, parlaq pedaqoqun, unudulmaz iş yoldaşımızın, təbibin, təşkilatçı və idarəçinin, ən əsası isə füsunkar bir İnsanın böyüklüyünü sözlə heç cür ifadə eləyə bilmədim.

...Zaman ən yaxşı hakimdir. O irəlilədikcə, insanın beynindəki, yaddaşındakı ikinci dərəcəli şeylər silinir, yalnız vacib təsəvvür və təəssüratlar qalır. İndi bizim yaddaşımızda ən yüksək mənəvi xüsusiyyətlər bəxş edilmiş o böyük insanın obrazı kristallaşmışdır.

Ötən əsrin bizim əsrlə qovşağında ixtisasca həkim olan, böyük yazıçı və böyük humanist A.P.Çexov tibb işçisinə xas olan peşəkar

xüsusiyyətlərdən danışarkən demişdi: "Hərəkətvericilər də günəş kimidir. Onlar cəmiyyətin ən poetik və həyatsevər ünsürləri kimi bizi ilhamlandırır, rahatlayır və şəfqətləndirir".

Mən elə bilirəm ki, bu sözlər insanların həyat yoluna nur saçan, parlaq, həqiqətən də hərəkətverici bir ömür yaşamış Zərifə Əziz qızı Əliyeva haqqında deyilib. Qoy zaman öz axarı ilə hərəkət etsin. Onu tanıyan, onunla əməkdaşlıq edən bizlər isə həmişə, hər zaman xalqımızın ən yaxşı qızlarından olan Zərifə xanımın işıqlı xatirəsini əziz tutacağıq.

**M. C. CAVADZADƏ**
*professor, Azərbaycan EA-nın həqiqi üzvü,*
*Ə.Əliyev adına Azərbaycan Həkimləri*
*Təkmilləşdirmə İnstitutunun rektoru*





## CAZİBƏ

Biz ailəlikcə dost idik – çoxdan, atam Bakıya köçərək Zərifə xanımın atası ilə Azərbaycanın səhiyyə sistemində işləməyə başladığı dövrdən. Otuzuncu illərin əvvəlləri idi, bütün xırdalıqlar yadımda deyil. Ancaq o yadımdadır ki, tez-tez evdə Əziz Əliyevin adını çəkirdik. Onu ilk dəfə yeddi yaşımda ikən görmüşdüm. Bir dəfə evimizdə möhkəm yır-yığış gedirdi, hamı mətbəxə yığışmışdı. Məni isə bayramsayağı geyindirmişdilər. Bu hadisə yeni mənzilimdə baş verirdi. Ailəmiz bu evi cəmi bir neçə ay qabaq almışdı. Şəhərin təzə rayonunda – mütəxəssislər binasında idi. Anam Gülzar xanım indiyəcən orada yaşayır. Gün ərzində sürücü iki dəfə bazarlığa getmişdi, bu da bizdə çox nadir olan iş idi. Adətən mən sürücünü gündə bircə dəfə görərdim, çünki atam işə piyada gedərdi. Anam o zaman tələbə idi və evə gec qayıdardı. Mən qulluqçumuz Frosyanın himayəsində qalardım. O, məni məktəbə aparıb-gətirər, gözü üstümdə olardı. Ancaq həmin gün Frosya mənə heç bir irad tutmurdu, yalnız anam bir neçə dəfə dedi ki, “əllərini yaxşı-yaxşı yu.” Elə bil qonaqları yaxşı qarşılamağımız üçün mənim əllərimin təmizliyindən asılı idi. Hamı həyəcan və nigarançılıq keçirirdi...

Axşam atam öz tanışları ilə gəldi. Onlardan biri dərhal mənim diqqətimi cəlb etdi. Bu, ortaboylu, qıvraq, hərbçi qamətli bir kişi idi. Onun ılıq və nüfuzedici baxışları vardı. Evə girən kimi hamımızla salamlaşdı. Mənə yaxınlaşanda isə dedi: “Hə, qəhrəman, gəl bir görüm səni!” Bu sözlərdən sonra məni qucağına alıb yuxarı qaldırdı və dedi ki, artıq böyümüşəm. “Nəçi olmaq istəyirsən? Yəqin həkim olacaqsan. Elədirmi?” Sonra isə üzünü yana çevirib əlavə etdi: “İndi elə bir vaxtdır ki, bizə cərrahlar lazımdır!”

Sonralar mən evimizdə Əziz müəllimi tez-tez görərdim. Bəzən valideynlərim Əliyevlərin evindən qonaq qayıdanda onların ailəsindəki səmimi görüşlərdən, yaşca məndən bir qədər böyük olan uşaqlarından xeyli danışardılar. Müharibə başlandı, atam cəbhəyə getdi. Əziz müəllim də ordu sıralarına çağırıldı. Yadımdadır, bir dəfə bizə hərbi formada gəlmişdi, çiynində podpolkovnik paqonu vardı. Atalarımızın və analarımızın üzündən dərin qayğı və kədər oxunurdu.

Qrupumuzda 13 oğlan idik. 1942-ci il idi. Dəhşətli müharibənin ikinci ilinin getdiyini nəzərə alsaq, bu rəqəm çox böyük sayıla bilərdi. Bizi “Qırmızı Bayraq ordenli qrup” adlandırırdılar. Çünki hamımız

tezliklə əsgər olacaqdıq. Mənim 16 yaşım vardı. Dərslər yenicə başlanmışdı. Tezliklə qrupda və "potok"da bütün manqalar müəyyən edildi: qrup nümayəndələri seçildi. Tələbələr arasında müəllimlərə hüsn-rəğbət yarandı.

Anatomiya bizim üçün ən çətin məşğələlər sayılırdı. Uşaqlar qruplara bölünür, birgə məşğul olurdular. İş elə gətirdi ki, bir qrupa düşdük. Axşam düşəndə mütləq Əliyevlərin Zevin küçəsindəki evində olurduq. Əziz müəllimin evi qonaqsevər idi, böyük oğlu Tamerlan bizdən yuxarı kursda oxuyurdu, yeri düşəndə bizə kömək edirdi. Ən başlıcası isə o idi ki, bu evdə həmişə bizi Zərifənin anası qarşılayırdı. Leyla xanım cazibədar, genişqəlbli və zabitəli bir qadın idi. Müharibə dövrü idi, gözümüz çox vaxt qazanda qalardı. O heç vaxt bizi yedizdirməmiş getməyə qoymazdı. Ərzaq məsələsi isə ağır idi. Müharibədən xeyli keçmiş Tamerlanla görüşlərimizin birində olub-keçənləri xatırlayırdıq. Yadıma düşdü ki, bir dəfə Leyla xanım ac-yalavac gəlmiş biz tələbələri "hərbi tutiyə" sayılan şprota qonaq etmişdi. Bunu eşidəndə Tamerlan nəzərlərini uzağa zilləyib uzun müddət susdu, sonra isə dedi: "Bilirsən, o vaxtlar hamı dağılışandan sonra anam xəlvətə çəkilib çörəyini şprotun balıq yağına batırıb yeyərdi." Görün bu qadının, ananın ürəyi nə qədər böyük idi! "Kitabi-Dədə Qorqud"u oxuyarkən bir daha başa düşürsən ki, sevməyə və nifrət etməyə qadir olan qadın nə qədər məğlubedilməzlik və ölməzlik gücünə malik olur.

Beş uşaq böyüdüb boya-başa çatdırmış Leyla xanımı məhz mən belə xatırlayıram. İlk imtahanlarımızı vermişdik. İlk nəticələr çıxarmaq olardı. Sən demə, bizim qazancımız təkcə təhsildəki uğurlarımız yox, həm də qrup rəhbərimiz imiş. Hansısa yazılmamış qanuna görə biz ən çətin məqamlarda Zərifəyə müraciət edirdik. Belə bir epizod yadıma gəlir. Qrupumuzun oğlanları tez-tez nizam-intizamı pozardılar: məşğələləri buraxar, dərslərə gecikərdilər. Bu barədə kimsə dekanlığa məlumat vermişdi. Diqqətlə araşdırandan sonra biz "məlumat mənbəyinin" kim olduğunu tapdıq. Əsl kişilər kimi onun dərsini verməyi qərara aldıq. Əvvəlcə məsləhətləşmək üçün Zərifənin yanına getdik. O həmin adamla özü danışacağını söylədi. İndiyəcən bizə sirr olaraq





qalır ki, Zərifə ona nə dedi, nə demədi. Ancaq tezliklə həmin oğlan qrupumuzdan çıxıb getdi. İldən ilə qrupumuzda, sonralarsa bütün institutda Zərifənin nüfuzu artdı. Biz oğlanlarsa onu öz bacımız bilirdik, çətin məqamda köməyimizə yetən bacımız.

İnstitutla, yoldaşlarla, müəllimlərlə vidalaşmaq anı çatdı. "Potok"umuzun məzunları həkim kimi bütün ölkəyə səpələndilər. Tale məni yenə də, bu dəfə artıq həkim kimi Əziz müəllimlə görüşdürdü. O, Travmatologiya, Ortopediya və Bərpa Cərrahiyyəsi İnstitutunun direktoru idi. Mənim "İlanvurmalar və ilan zəhərinə qarşı zərdabla müalicə" mövzusunda dissertasiyam Əziz müəllimin müsbət rəyi və xeyir-duası ilə müdafiəyə buraxıldı. Əliyevlərin evində mən yenidən Tamerlanla artıq həkim-oftalmoloq, təcrübəli mütəxəssis, müəllim olan Zərifə ilə görüşdüm.

Namizədlik dissertasiyam Şamaxı rayon xəstəxanasının materialları əsasında işlənmişdi, paytaxt həkimi Zərifənin iradları çox faydalı olmaqla yanaşı bəzi məsələləri aydınlaşdırmağa da kömək etdi. Bir müddət sonra tibb institutunun oftalmologiya kafedrasının rəhbəri professor Umnisə xanım Musabəyova mənim işlədiyim klinikaya müalicəyə gəlmişdi. Növbədən sonrakı boş vaxtlarda onunla söhbətləşərdik. O, mənə öz tələbələrindən danışardı. Həmişə söhbətinin əvvəlində də, sonunda da Zərifə xanımdan söz açardı. Professor Zərifəni istedadlı həkim və alim, həssas yoldaş, əməksevər insan kimi səciyyələndirirdi. Deyirdi ki, Zərifə xəstəni müalicə eləyəndə onun ağrılarını özü də yaşayır, özgəsinin ağrı-acısını və sevincini dərindən duymaq və bunları özününkü kimi qəbul etmək Zərifə xanımın adamlarla ünsiyyətdə başlıca keyfiyyəti idi!

Doğrudur, Zərifənin xarakteri elə deyildi ki, hamını bir ucdan sevsin, hamıya lütf göstərsin. O, dostu düşməndən ayırmağı bacardığı kimi adamların yaxşı və pis əməllərini də dəqiq fərqləndirirdi. Onun şəxsi düşmənləri yox idi, çünki o ünsiyyət bağladığı, köməyə ehtiyac duyan hər bir kəsin qəlbinə yol tapmağı bacarırdı. O, öz xarakterinə və ətrafındakılara mənəvi təsirinə görə adamlar arasında böyük nüfuza malik idi. Ancaq bu nüfuzundan sui-istifadə etməz, özünü gözə soxmaz, lovğalanmaz, mühakimələrini başqalarına zorla qəbul etdirməzdi. Cəsarətlə demək olar ki, onun başlıca düşməni biganəlik idi. Və Zərifə buna qarşı yorulmadan mübarizə aparırdı.

Bir dəfə xəstələrindən biri onun məktubunu mənə gətirmişdi. O yazırdı: "Əgər bu qadının sənin cərrahiyyə yardımına ehtiyacı yoxsa, mütləq məşvərət keçir və qoy onun müalicəsini mütəxəssislər aparsınlar. Ancaq axıradək gözün üstündə olsun ..."

Zərifə deyirdi: "Xəstələr həkimin yanına pənah gətirəndə, onunla görüşmək istəyəndə, ona ərklə müraciət eləyəndə adam başa düşür ki, sən insanlara lazımsan, onlara faydan dəyə bilər." Mən Zərifə xanım Əliyevanın özünü də belə diqqətcil, qayğıkeş, canıyanan, həssas bir həkim kimi tanıyırdım. O bizim xatirimizdə belə də qalmışdır.

Bir dəfə məni televiziya görüşünə dəvət etmişdilər. Bu görüş Bakı Məişət Kondisionerlər Zavodunda təşkil edilmişdi. Çəkilişdə olarkən qapıların birinin üstündə diqqətimi belə bir lövhə cəlb etdi - "Görmə orqanının peşə patologiyası laboratoriyası". Zavodun direktoru dedi: "Bu nadir laboratoriyanı professor Zərifə Əliyeva yaradıb. Zavodumuzda tez-tez fəhlələrin gözləri ağrıyardı. Buna görə həkimlərə müraciət etdik. Onlar da xahişimizi yerə salmadılar. Bu laboratoriya açılandan bizim zavodda göz xəstəlikləri kəskin azaldı və o biri zavodlar – şin zavodu, neftayırma zavodu və başqaları da bu təcrübədən bəhrələndilər."

Zərifə xanım bir alim kimi heç vaxt istehsalatla əlaqələrini qırmamışdı, həmişə öz elmi nəticələrini təcrübədə sınaqdan keçirərdi. O, tez-tez respublikanın iri sənaye müəssisələrində fəhlə və qulluqçular qarşısında çıxışlar edərdi. Buna görə də istehsalçılar arasında yaxşı tanınırdı. Get-gedə onun bu araşdırmaları respublika miqyasını aşmağa başlayırdı və vaxt gəldi ki, həmin elmi işlər yeni mərhələyə keçdi. Bu mərhələdə Zərifə xanım sənayenin tibbi problemlərini Moskva alimləri ilə birgə həll etməyə başladı.

Mənə Tibb Elmləri Akademiyasının bir iclasında iştirak etmək səadəti də nəsib olmuşdu. Həmin iclasda başqaları ilə birlikdə Zərifə xanıma da təntənəli şəkildə akademik M.P.Averbax adına mükafat təqdim edilirdi. O, həmin ali mükafata layiq görülmüş ilk qadın alim idi. Z.Ə.Əliyeva xaricdə keçirilən bir sıra elmi forumlarda da iştirak etmişdi. Bizim Azərbaycan Tibb İnstitutunu 1947-ci ildə bitirmiş tələbə yoldaşlarımız arasından çoxlu professorlar,





dosentlər və hətta akademiyanın müxbir üzvləri çıxıb. Ancaq hələ indiyəcən Zərifə xanımdan başqa həqiqi üzvümüz yoxdur. Biz tələbə yoldaşları da onunla əsl alim kimi fəxr edirik.

Mən anamı çox sevirəm. Və əgər analıq barədə düşünürəmsə, onu xatırlayır, hər hansı bir anadan söhbət gedirsə, onunla müqayisə edirəm. Ancaq mənim öz doğma anam qədər istədiyim və əsl qəhrəmanlıq simvolu kimi pərəstiş etdiyim başqa bir qadın da var. O, beş gözəl və xeyirxah oğul böyütmüş Ceyran xanım Mirqasımovadır. Oğlanlarının birini Ceyran ana ölümün pəncəsindən güclə qoparmış, ona əvvəlcə can, sonra isə hissiyyat, danışmaq töhfəsi bəxş etmişdir. Həmin oğlan uşaq vaxtı ağır bir xəstəlik keçirmiş və eşitmə qabiliyyətini itirmişdi. Ceyran xanım ona danışmağı və ətrafdakıların danışığını onların dodaqlarının hərəkətinə görə anlamağı necə öyrətmişdir, bir allah bilir! Mən Zərifəni bir ana kimi yalnız Ceyran xanımla müqayisə edə bilərəm. Çünki o, yalnız öz oğluna və qızına deyil, həm də qardaşının, bacılarının, hətta əmisi uşaqlarının da balalarına tərbiyə vermişdir. Həmin tərbiyə prosesi hər saat, hər an getməsə belə, Zərifənin təsiri, Zərifənin nüfuzu Əliyevlərin böyük ailəsində həmişə aydın duyulurdu. Onun zərif cismində bax, belə bir nəhəng mənəvi qüvvə vardı. İşdə, küçədə, tədbirlərdə rastlaşdığı, görüşdüyü dost-tanışlarından birinci onu soruşardı ki, uşaqlar necədirlər, nə ilə məşğul olur, nə ilə maraqlanırlar? Çoxları belə sualları elə-belə verir, cavabı ilə maraqlanmırlar. Zərifə xanım isə belələrindən deyildi, cavablarımıza diqqətlə qulaq asar və dəyərli məsləhətlər verərdi. Bir dəfə onunla "Moskva" mehmanxanasında qarşılaşdıq. Yanında 13-14 yaşlı uşaqlar vardı. Biz bir stol arxasında əyləşəsi olduq. İlahi, o, uşaqlara nə qədər hörmət, səbr və diqqətlə yanaşır, onlara münasibətdə necə böyük insan ləyaqəti nümayiş etdirirdi! Buna görə də uşaqlar onu təqlid etməyə çalışırdılar. Zərifə xanımın tərbiyəsinin gücü de elə bunda idi.

Yetmişinci illərin sonları olardı. Yay vaxtı Moskvada Zərifə xanımla rastlaşdım. Onun yanında hündür, qədd-qamətli, qara gözlü, qartal baxışlı məğrur bir cavan oğlan vardı. Bu, onun qəbul imtahanlarını uğurla başa vurmuş oğlu idi. Anası onun yanında idi.

Ceyran xanım Mirqasımova öz kitabında yazır: "Bəlkə də mənim Alikə göstərdiyim analıq qayğısı və sərf etdiyim enerji payı o

biri oğlanlarımdan artıq olub. Ancaq mən öz biliyimi və bacarığımı, sevgimi və zəhmətimi beş bərabər yerə bölmüşəm.” Əgər biz Zərifə xanımı tanıyanların hər biri ilə kiçik bir sorğu aparsaq, hamılıqla deyərlər ki, o, öz sərvətini dünyanın bütün uşaqları arasında bölüşməyə hazır idi!

Mən Zərifədən üç yaş kiçiyəm. Cavanlıqda onu özümə böyük bacı bilirdim. Zərifənin mühakimə qabiliyyətini xüsusilə qiymətləndirirdim. Hər bir xalqın öz adət-ənənəsi, vərdişləri, qanun-qaydaları var. Bunlar əsrlərin sınağından keçib bu günümüzə qədər çatmışdır. Yaxşısı da olur, pisi də. Vaxt keçdikcə, sözsüz ki, pis adətlər sıradan çıxır, ölüb gedir, yaxşıları isə möhkəmlənir, təsdiqlənirlər. Xalqımıza xas olan belə səciyyəvi cəhətlərdən biri də özünü idarə eləyə bilmək, öz duyğularını gizli saxlaya bilməkdir. Bu xüsusiyyət Zərifənin də xasiyyətində özünü göstərirdi. Hələ tələbəlik vaxtı o, özünü bütün tələbə yoldaşları ilə eyni cür aparar, kiməsə xüsusi rəğbət bəslədiyini büruzə verməzdi. Bu Zərifə ərə gedənə qədər davam elədi. Sən demə, o, öz seçimini çoxdan eləyibmiş və qəlbini dinc xarakterli, qonur gözlü, ciddi təbəssümlü bir oğlana veribmiş. Həmin uzaq illərdə mən Əliyevlərin evində Zərifənin həyat yoldaşını belə görmüşdüm.

İnsan taleləri bir-birinə oxşayır, ancaq bir-birini təkrarlamır. Bir-birinin tam eyni olan insanlar da yoxdur. Zərifə Əziz qızı ilə Heydər Əlirza oğlu da bu mənada istisna deyildilər. Onlar da hamı kimi balalarını böyüdür, valideynlərinin qayğısına qalır, hərdən sevinir, hərdən də kədərlənirdilər. Xidməti qulluqda da, ictimai işlərdə da uğurlar və uğursuzluqlar bir-birini əvəz edirdi. Ancaq onlar heç nəyə baxmadan bir-birini mənən zənginləşdirir, çətinliklərə bir yerdə mərdliklə sinə gərirdilər.

İnsan ömrü çox qısadır. Zərifə xanımla Heydər Əliyev də birgə əbədi ömür yaşamadılar. Zərifə xanım dünyamızdan vaxtsız köçdü. Ancaq onlar birlikdə həqiqətən də Böyük və Parlaq bir ömür yaşadılar.

İnsanın aqibəti belədir: nə qədər çox ömür sürürSənSə, itkilərin də bir o qədər çox olur. Doğmalarımız, əzizlərimiz əlimizdən çıxır. Bu itkilərin yeri heç zaman dolmur. Zərifənin itkisi də Heydər Əliyev üçün məhz belə itkilərdəndir. Onun cazibədar aurası hələ də yaşayır, üstəlik Zərifə xanımı tanıyanların ona ehtiyacı da gün-gündən artır.





...Dəfn karvanı keçib qurtarmaq bilmir. Aman allah, onu nə qədər adam sevirmiş! Mən bunu üzlərdən, gözlərdən oxuyuram.

Ölməzlik arzusu, ölməzlik düşüncəsi hər bir insana xasdır. Biz də istisna deyilik. Ancaq mənə elə gəlir ki, babalarımız “o dünyadakı” ömürdən, insanın ikinci həyatından danışanda onun fiziki mövcudluğunu deyil, mənəvi-ruhi yaşayışını nəzərdə tutublar. Yəni, mərhumlar da bizim yaddaşımızda buraxdıqları izlərlə, gördükləri əməllərlə, fikir və düşüncələri ilə bizim xatirimizdə yaşayırlar. Nə qədər canımızda can var...

Əgər "ölməzliyi" bu cür yozmalı olsaq, cəsarətlə deyə bilərik ki, ürəklərimizdə, arzularımızda, əməllərimizdə yaşayan Zərifə bəlkə çox canlılardan daha diridir...

**A.S.İMAMƏLİYEV**
*professor, tibb elmləri doktoru*

## QIRX İLİN DOSTLUĞU... VƏ BİR GÜNÜN YOXLUĞU

Dünya belə xəlq olunub – zaman sürətlə, dayanmadan axır, özü ilə birlikdə insanları, hadisələri də götürüb gedir... Biz yaxın dostlarımızı itirir, təklənirik. Hər gedən dost və rəfiqə ürəyimizin bir parçasını özü ilə aparır. Amansız fələk sevimli rəfiqəm, istedadlı həkim, Azərbaycan xalqının şərəfli qızı, ölkəmizin ən nəhəng oftalmoloqlarından biri Zərifə Əziz qızı Əliyevanı əlimizdən alandan sonra əvəzolunmaz itki təəssüratı məni bir an da olsa, tərk etmir. Mənim bəxtimə uzun illər Zərifə xanımla dostluq etmək, onun həssaslığını, qayğıkeşliyini, insansevərliyi, səxavətli xeyirxahlığını, təkrarolunmaz dərəcədə parlaq ruhunu bütün əzəməti ilə hiss eləmək səadəti nəsib olub. İnsanın qüdrətinə dəlalət eləyən bütün bu əlamətlər ona tamamilə xas idi. Bizim tanışlığımız düz 40 il bundan qabaq, hələ N.Nərimanov adına Dövlət Tibb İnstitutunun divarları arasındakı tələbəlik vaxtlarımızdan başlamışdı. Zərifə xanımın atası, Azərbaycanın görkəmli ictimai xadimi Əziz Məmmədkərim oğlu Əliyevin, anası – müdrik, xeyirxah və nəvazişli qadın olan Leyla xanımın unudulmaz simaları bu gün də gözümün önündən getməyib. Bu böyük və mehriban, öncüllük və savadlılıq meyarı, insansevərlik və nəciblik örnəyi olan, yüksək ziyalılığa malik ailənin az qala hər bir üzvünü tanımaq, dostluq eləmək və onlarla çiyin-çiyinə işləmək səadəti də mənim bəxtimə düşüb.

Göz xəstəlikləri kafedrasında müəllimlərim çox idi. Ancaq mənim gözümü böyük oftalmologiyanın hüdudsuz dünyasına açan müəllimim Zərifə xanımın böyük bacısı Ləzizə xanım olmuşdur. Tələbəlik illərində, ağır müharibə zamanında biz müalicə fakültəsində Zərifə xanımın qardaşı Tamerlan Əliyevlə - ensiklopedik zəka sahibi, yüksək biliyə, mədəniyyətə, əsl təvazökarlığa malik bu nadir insanla bir yerdə təhsil almışdıq. Mən həmişə ailənin kiçik qızı Gülarə xanımın parlaq istedadına və əməksevərliyinə heyran qaldım.

Ancaq, heç şübhəsiz, ailənin ürəyi Zərifə xanım idi. Bizi onunla bütün saxtalıqlardan uzaq olan dostluq əlaqələri bağlayırdı. Bu dostluq hissləri bir yandan bir-birini başa düşməyə və kömək göstərməyə hazır olmağımızda üzə çıxırdı, digər tərəfdən isə səmimi məhəbbətə və dərindən dərk olunan hörmətə əsaslanırdı.





Xatirələr məni o günlərə aparır ki, biz Zərifə xanımla bir dam altında, ancaq başqa-başqa müəssisələrdə çalışırdıq. O vaxt Tibb İnstitutunun binasında yerləşirdi. Zərifə xanım həmin institutun əməkdaşı idi. Biz hamımız bir böyük otaqda yerləşmişdik və uzun müddət dərindən sevdiyimiz həkimlik sənətimizin bizə gətirdiyi sevinci və kədəri bir-birimizlə bölüşürdük. Xəstələr Zərifə xanımı çox sevirdilər. Onlara bəxş etdiyi nura, işığa, xeyirxahlığına və qayğıkeşliyinə, başqasının dərdini-sərini özününkü kimi duyduğuna görə, vaxtında dediyi xoş sözə, verdiyi məsləhətlərə, göstərdiyi yardım və dəstəyə görə sevirdilər. Zərifə xanım xəstələrin qəlbini ovsunlayan xoşbəxt bir xarakter sahibi idi. Onun xeyirxahlığı da yaradıcı və fəal idi. Hər hansı bir çətinlik, ya problem olduğunu eşidən kimi o özü həmkarlarının xahişini gözləmədən kömək etməyə çalışardı. Zərifə xanım kiçik tibb heyətinə - tibb bacılarına, dayələrə, sanitarlara xüsusi qayğı bəslərdi. Yadımdadır ki, bizim şöbəmizdə Belousova Anna Yefimovna adlı böyük tibb bacısı işləyirdi. Bircə oğlu vardı və onunla birlikdə həddən artıq ağır məişət şəraitində yaşayırdı. Bunu eşidən kimi, Zərifə xanım öz təşəbbüsü ilə Anna Yefimovanın həyat şəraitini yaxşılaşdırmaqdan ötrü işə girişdi. Təsəvvür eləyə bilməzsiniz ki, şöbəmizin, kafedramızın əməkdaşları bu yazıq qadına ev verilməsini necə mehriban, şad-xürrəm bir şəkildə qeyd etdilər.

Zərifə xanım görkəmli ictimai xadim, xalqın sədaqətli oğlu Əziz Əliyevin ailəsində doğulub böyümüşdü. Özünün sadə və qüdrətli şəxsiyyəti ilə Əziz müəllim el yaddaşında dərin izlər buraxmışdı. Şübhəsiz ki, bu, onun övladlarının, ilk növbədə də, Zərifə xanımın formalaşmasında böyük rol oynamışdı. O, doğruçul və prinsipial bir insan, həmçinin peşəsinin dərin bilicisi idi. Bütün çıxış və məruzələrində hansı məsələyə həsr olunursa-olunsun, yüksək vətənpərvərlik hissi duyulurdu. Bu, Zərifə xanımın işində, elmi xidmətində və ətrafdakılarla münasibətlərində də ifadə olunurdu.

Zərifə xanım tədqiqat üçün elmi mövzular seçərkən məsələlərə milli və dövlətçilik maraqlarından yanaşırdı. Onun nam1izədlik dissertasiyası o dövrdə oftalmologiya üçün sosial baxımdan aktual sayılan traxoma ilə mübarizəyə həsr edilmişdi. Traxoma korluq hallarının ən geniş yayılan səbəblərindən biri kimi dəhşətli ictimai bəlaya çevrilmişdi. Dünya Səhiyyə Təşkilatının məlumatlarına əsasən, yer üzündə 400 milyon nəfər traxomaya tutulmuş,

80 milyon insan isə bu səbəbdən kor olmuşdu. Azərbaycanda traxomanın aradan qaldırılması məsələsində Zərifə Əliyevanın araşdırmaları əvəzsiz rol oynamışdı. O, həmin namizədlik işini hazırlayarkən yüzlərlə, minlərlə xəstəyə şəfa vermişdi. Öz araşdırmalarını bir neçə müəssisədə aparmışdı. Biz oftalmoloqlar yaxşı bilirik ki, tədqiqatın klinikadan, institutdan kənarda aparılması hansı əziyyətlər tələb edir. Bunlara dözüb, ortaya gərgin əməyin uğurlu yekunu olan sanballı bir əsər çıxarması Zərifə xanımın yüksək daxili mütəşəkkilliyindən, məqsədyönlüyündən xəbər verirdi.

Bundan sonra o, kimyəvi istehsalla əlaqədar peşə xəstəliklərini, göz patologiyalarını öyrənməyə girişdi. Bu mövzu da həddən artıq aktual idi. Həm də tədqiqat metodikasına görə mürəkkəb elmi işi yerinə yetirməkdən ötrü Zərifə xanım Azərbaycan kimya sənayesinin müxtəlif müəssisələrində çoxsaylı profilaktik tədbirlər təşkil etməli, özü də bunları icra etməli idi. Şin zavodunun, Məişət kondisionerləri zavodunun və başqa müəssisələrin fəhlələri arasında apardığı yorulmaz iş və eksperimentlər sayəsində Zərifə xanım peşə xəstəliklərinin qarşısının alınmasında dəyərli profilaktik tədbirlər keçirməyə müvəffəq olmuşdu. Doktorluq dissertasiyası üzərində işlədiyi vaxtlarda respublikamızda və onun hüdudlarından kənarda oftalmologiya elminin inkişaf etdirilməsi işində onun xüsusi bacarığı daha parlaq şəkildə üzə çıxmışdı. Zərifə xanım Əliyevanın təşəbbüsü ilə Bakı Məişət kondisionerləri zavodunun nəzdində nadir bir laboratoriya – görmə orqanının fiziologiyası və peşə patologiyası laboratoriyası yaradılmışdı. Elm və texnikanın ən yeni nailiyyətləri olan müasir cihazlarla təchiz etdirdiyi həmin laboratoriya Zərifə xanımın yorulmaz fəaliyyətinin maddiləşmiş nəticəsi sayılmalıdır. Laboratoriyada əldə olunan qənaətlər ölçüyəgəlməz dərəcədə nəzəri və təcrübi əhəmiyyət daşıyırdı.

Zərifə xanımın elmi fəaliyyəti çoxcəhətli idi. Özünün qısa, lakin qeyri-adi dərəcədə parlaq həyatı boyunca o, saysız-hesabsız elmi kitablar və monoqrafiyalar çap etdirmişdi. Onun əsərləri arasında həkimlər üçün bir neçə tədris vəsaiti, rezin və yod istehsalı sənayesində göz zədələnmələrinin profilaktikasına dair metodik göstərişlər də mühüm yer tuturdu. Zərifə Əliyeva kimya





sənayesində göz zədələnmələrinin öyrənilməsi və profilaktikasına dair silsilə orijinal əsərlərinə görə M.İ.Averbax adına mükafata layiq görülmüşdü. O, respublikamızda Tibb Elmləri Akademiyasının belə yüksək bir mükafatına layiq görülmüş ilk qadın oftalmoloq idi.

Biz bu xəbəri eşidəndə Azərbaycan oftalmoloqlar cəmiyyətinin iclasında qərara aldıq ki, əlamətdar hadisəni təntənəli şəkildə qeyd edək. Zərifə xanıma soraq çatanda isə o, bərk həyəcanlanaraq, uzun müddət sıxıla-sıxıla həmkarlarını bu fikirdən çəkindirməyə çalışdı. Cəmiyyətin nümayəndəsi kimi mən min-bir əzab-əziyyətdən sonra onu, nəhayət, inandıra bildim ki, bu fakt bütün Azərbaycan oftalmologiyasının şərəf və qüruru deməkdir, buna görə də Zərifə xanımın öz həmkarlarını bu əlamətdar hadisəni qeyd etmək imkanından məhrum etməsi düzgün deyildir. Onun təbii təvazökarlığı, yüksək mədəniyyəti, öz uğurlarını gözə soxmamaq, təntənə və dəbdəbədən uzaq qaçmaq kimi xüsusiyyətləri Zərifə xanımı bizə daha da sevdirir və yaxınlaşdırırdı. Cəmiyyətin dediyim iclası çox çək-çevirdən sonra baş tutanda da o, heyranlıq dolu təriflərə imkan vermədən apardığı işdən söz açdı. Biz sidq ürəkdən təbriklər hazırlamışdıq ki, onun könlü xoş olsun, Zərifə xanım isə bu təbriklərimizi təqdim etməyə də imkan vermirdi. Bu epizod onun böyüklüyünü və sadəliyini təcəssüm etdirirdi.

Biz onu sevir, onunla fəxr edirdik. O, Azərbaycan Elmlər Akademiyasının həqiqi üzvü seçilən ilk qadın oftalmoloqumuz idi. Zərifə xanım Azərbaycan xalqının, Azərbaycan elminin, Azərbaycan oftalmologiyasının iftixarı idi. Bununla bərabər Zərifə xanım qeyri-adi dərəcədə təvazökar və ciddi insan idi. Bütün ömrü boyu, həyat tərzinə görə də, bütün siması ilə də, məqalə və çıxışlarında da meşşanlığa və mənəviyyatsızlığa, əxlaqi ideallarn itirilməsinə qarşı barışmaz mübarizə aparmışdı. Kristal dərəcədə təmiz, doğruçul və təmənnasız bir insan kimi o, yüksək insani keyfiyyətlərin carçısı idi. Deontologiya, həkim etikası və əxlaqı barədə respublikamızda ilk çıxış edən də o olmuşdu. Oftalmoloqların Daşkənddə keçirilmiş beşinci qurultayında Zərifə Əliyeva Oftalmoloqlar Cəmiyyəti İdarə Heyətinin sədri seçilmişdi. "Oftalmologiya xəbərləri" jurnalının redaksiya heyətinin üzvü kimi də o, həmişə müasir oftalmologiyanı inkişafa aparan elmi və ictimai hərəkatın mərkəzində dayanmışdı.

Azərbaycan Elmi-Tədqiqat Oftalmologiya İnstitutunun yubiley elmi sessiyası mənim heç yadımdan çıxmır. Həmin sessiya

oftalmoloqlar cəmiyyətinin səyyar plenumu ilə birgə keçirilmişdi və ölkənin bütün aparıcı oftalmoloqları orada iştirak etmişdilər. Zərifə Əliyevanın qibtəediləcək təşkilatçılıq bacarığı da elə o vaxt bütün parlaqlığı ilə ortaya çıxmışdı! O, respublikamızın qonaqlarını səmimiyyətlə, hərarətlə və xalqımıza xas olan qonaqpərvərliklə salamlayırdı. Oftalmologiya elminin bütün korifeylərinə layiq olduqları hörməti bildirərək, Zərifə xanım bu elmi sahənin qocaman xadimlərinin – Tibb Elmləri Akademiyasının həqiqi üzvü Nadejda Aleksandrovna Puçkovskayanın və həmin akademiyanın müxbir üzvü, Kuybışev Tibb İnstitutunun göz xəstəlikləri kafedrasının müdiri Tixon İvanoviç Yaroşevskinin adlarını xüsusi məhəbbətlə çəkdi, onları oftalmologiyanın atası və anası adlandırdı. Həmin elmi sessiyanın iştirakçıları o tədbiri bu gün də xoş sözlərlə xatırlayırlar. Sessiyanın yüksək səviyyədə təşkil olunduğu və keçirildiyini qeyd edirlər. Zərifə xanımın gözəl natiqlik qabiliyyəti vardı, onun nitqi sərbəst və aydın olduğu üçün fikrini, məramını dinləyicilərə səlis çatdıra bilirdi. Yadımdadır, Zərifə xanımın həmin yubiley sessiyasındakı məruzəsi peşələrlə bağlı göz xəstəliklərinə həsr olunmuşdu. Onun parlaq, elmi cəhətdən dərin və eyni zamanda emosional çıxışı bütün iştirakçılarda silinməz təəssüratlar oyatdı.

Zərifə xanım bir alim kimi olduqca məhsuldar çalışırdı: tez-tez nitqlər, məruzələr, məlumatlar, məqalələrlə çıxış edirdi. Mən Zərifə xanımın çıxışlarını həmişə heyranlıq və fəxrlə dinləyirdim. Demək olar ki, bütün çıxışları yaddaşıma həmişəlik həkk olunub. Həmin çıxışlardan biri barədə bəhs etmək istəyirəm.

Respublikamızda Əziz Məmmədkərim oğlu Əliyevin anadan olmasının 80 illiyini qeyd edirdilər. Müxtəlif müəssisələrdə bu münasibətlə tədbirlər keçirilirdi. N.Nərimanov adına Tibb İnstitutunda keçirilən yubiley gecəsi isə yadımda daha yaxşı qalıb.

Azərbaycanda tibb elminin qazandığı uğurlar Əziz Əliyevin adı ilə sıx bağlıdır. N.Nərimanov adına Tibb İnstitutunun yaradılması və formalaşdırılması işində də onun böyük xidmətləri olmuşdur. Yubiley gecəsində bütün natiqlər Əziz müəllimin həyat yolundan danışandan sonra söz Zərifə Əliyevaya verildi. O, atası barədə danışırdı. Sirayətedici təvazökarlıqla danışırdı. Soyuq ağılla hər şeyi təhlil edir, araşdırırdı. Hərarətlə, qeyri-adi bir övlad sev-





gisi ilə danışırdı. Əziz Əliyevin ictimai fəaliyyəti barədə sanballı və inandırıcı dəlillər gətirirdi. Bütün bunlarla birlikdə olduqca sadə və inamla danışırdı. Mən indiyə qədər də həmin qeyri-adi çıxışın təsiri altındayam, desəm, inanın. Zərifə xanım istedadlı, hərarətli insan idı, yüksək intellektual zəka, geniş savad yiyəsi idi. Yaxından tanıyanlar onun ədəbiyyat sahəsindəki biliklərinə qibtə edir, incəsənət əsərlərindən zövq almasına həsəd aparırdı. Musiqiyə duyumu onun damarlarından axırdı. Gözəl fortepiano çalır, Azərbaycan xalq mahnılarını ürəkdən sevir, klassik musiqini və Azərbaycan bəstəkarlarının əsərlərini yüksək qiymətləndirirdi. Təbiət ona incə yumor hissi, tükənməz həyatsevərlik və nikbinlik kimi nadir sərvətlər bəxş etmişdi.

Zərifə xanım insanları çox sevirdi. Onların xeyirxahlığını, qayğıkeşliyini, qəlb hərarətini yüksək qiymətləndirirdi. Bu sevgisini insanlara paylamaqda da heç zaman xəsislik etmirdi. O, oftalmoloq həmkarlarının, həkimlərin, iş yoldaşlarının yaxınlaşması üçün təşəbbüslər göstərirdi. Həmin təşəbbüslərdən doğan ənənələr bu gün yaşayır. Biz oftalmoloqlar qeyri-rəsmi ünsiyyətdə, bir stəkan çay arxasında söhbətlərə daha çox meyl edirik. Zərifə xanımın xatirəsi bütün oftalmoloqları möhkəm bir ailə kimi birləşdirmişdi.

Vaxtilə onun özü ilə də belə söhbətlərimiz çox olmuşdu. Və həmin söhbətlər bizim hər birimizə xeyir vermişdi. Bilsəniz biz ondan nə qədər şeylər öyrənmişik! Bir sözlə, Azərbaycan oftalmoloqları arasında özünə möhkəm yer tapmış insanpərvərlik ruhu, qarşılıqlı anlaşma, daxili hərarət, bir-birinə təmənnasız hörmət əziz və sevimli rəfiqəmizdən bizə miras qalan ən dəyərli keyfiyyətlərdəndir.

Zərifə xanım qeyri-adi bir qadın idi. O, heç də hamıya qismət olmayan böyük bir qabiliyyətin də sahibi idi. Bu, sevə bilmək qabiliyyəti idi. Həyatda nə edərdisə, sevgiylə edərdi. Onun sevgisinin qüvvəsi öz ailəsinin hüdudlarında daha parlaq əks olunur, daha artıq duyulurdu. O, uşaqlarına, sonra isə nəvələrinə sevgisində özünü unudurdu. Zərifə xanım Azərbaycan xalqının böyük oğlu Heydər Əliyevin ləyaqətli ömür-gün yoldaşı, sədaqətli dostu, sevimli qadını və əqidə yoldaşı idi. Bacımızın xatirəsi ilə bağlı ötən günlərimiz heç vaxt yadımdan çıxmır. Yaddaşımda tələbə Zərifənin şən və qayğısız siması, gəlin Zərifənin xoşbəxtliyi və həyəcanı, ana Zərifənin nəvazişkarlığı, ictimaiyyətçi Zərifənin ehtiraslı, alovlu fəaliyyəti, alim Zərifənin müdrikliyi nə qədər fakt və hadisələrlə əyaniləşib.

Xatirələrin sayı yox, hesabı yox. Bütün ömrümüz xatirələrə hopub. Ancaq xatirələrin ordan-burdan söylənməsiylə də Zərifə xanımın işıqlı, nurlu siması bütün cəhətləri ilə açıla bilmir. Bunun üçün cildlərlə kitablar yazılmalıdır.

Taleyimdən çox razıyam və ona minnətdaram ki, mənə belə şəxsiyyətlərlə bir zamanda doğulmaq, birgə çalışmaq və dostlaşmaq səadəti bəxş etmişdir.

**Z.T.QULİYEVA**
*professor, N.Nərimanov adına Tibb İnstitutunun göz xəstəlikləri kafedrasının müdiri*





## QƏLBİN AÇIQ QAPILARI

Azərbaycan ziyalılarına, elmi ictimaiyyətimizə ağır itki üz vermişdir. Görkəmli oftalmoloq dünyasını vaxtsız dəyişmişdir və biz hələ uzun müddət bu itkinin altını çəkəcəyik. Elə bil dünən idi, oftalmoloqlar cəmiyyətinin iclasında biz akademik Averbax mükafatının laureatı adına layiq görüldüyü üçün Zərifə xanımı təbrik edirdik, belə hallarda həmişə olduğu kimi ona uzun ömür, can sağlığı, könül xoşluğu və yaradıcılıq fəaliyyətində yeni-yeni uğurlar arzulayırdıq. Sevimlimiz Zərifə xanımsa özünəməxsus təvazökarlıqla bizə minnətdarlığını bildirirdi. O vaxt heç ağlımıza belə gəlməzdi ki, bu bizim onunla vida görüşümüzdür, tezliklə o bizi tərk edəcək.

Onu xatırlamaq məndən ötrü daha ağırdır, axı bizim onunla otuz illik dostluq və rəfiqəlik tariximiz var. Elmi əməkdaşlığımızın bir yerdə keçən son 15 ilində biz bir-birimizə daha artıq bağlanmışdıq. Məni ona pərəstiş etməyə sövq eləyən cəhətlər hansılardır? Yüksək mədəniyyəti, zərif qəlbi, elmə sədaqəti və insanlar qarşısında yüksək məsuliyyəti. Mən onun ağlının çevikliyinə, geniş elmi dünyagörüşünə hər dəfə yenidən valeh olurdum. Zərifə xanım əmin idi ki, təbabət yalnız onun dərinliklərinə dalanlar üçün açıldıqca açılır, üzdə isə heç nəyi götürə bilməzsən, nə qədər cəsur və istedadlı olsan da, elm sənə öz sirrini verməyəcək. Gərək gərgin işləyəsən, yorulmaq bilmədən, gecə-gündüz çalışasan, illərlə oxuyasan, yeni-yeni tədqiqatlardan xəbərdar olasan. Yalnız o vaxt elm öz niqabını yerə atıb ilahi çöhrəsini təbibin qarşısında göstərər və sən elmin zirvələrini fəth edə bilərsən. Zərifə xanım bunu bildiyindən qollarını çırmayıb işləməkdən usanmırdı, doktorluq dissertasiyasını bitirib parlaq bir şəkildə müdafiə eləyəndən sonra da bir çox elmi əsərlər və monoqrafiyalar çap etdirmişdi. Və bütün bunlar mahiyyətcə elmdə yeni söz idi. Z.Əliyevanını doktorluq dissertasiyasının müəyyən bir qismi çox mürəkkəb və o zaman az bildiyimiz müasir morfohistokimyəvi tədqiqat metodu ilə sıx əlaqəli idi. Klinikalarda işlədiyi vaxtlardan özündə tərbiyə etdiyi inadkarlıq və səbrlə qısa bir müddətdə oturub həmin tədqiqat metodunun bütün açarlarını tapdı və ona yiyələndi. Bununla da ortaya gözün patoloji anatomiyasının öyrənilməsi üzrə nəhəng, mən deyərdim ki, titanik bir iş qoymuş oldu. Onun tədqiqat işləri məsələlərin dəqiq qoyuluşu və hərtərəfli icrası ilə, təhlil edilən faktların tam elmi izahı ilə fərqlənirdi.

Araşdırma fəaliyyətinin yekunu kimi Zərifə xanım hər gün hər bir oftalmoloqun stolüstü kitabına çevrilmiş iki nadir monoqrafiya yaratmışdır. Gözün peşə patologiyasına dair bu möhtəşəm əsərlər morfoloji tədqiqatlarla zəngindir. O, elmin bu sahəsindən başqa sənayedə işlədilən müxtəlif zəhərlərdən yaranan göz xəstəliklərinin mahiyyətinin aşkarlanmasında, etimologiyanın şifrinin açılıb göstərilməsində mühüm nəticələr əldə etmişdi. Bakı şəhərinin şin və yol istehsalı müəssisələrində peşələrlə əlaqədar göz xəstəliklərinə həsr etdiyi monoqrafiyalar bu cəhətdən xüsusi qeyd olunmalıdır. Hər dəfə xəstənin qəlbinə yol tapmağı bacarırdı, özünə etimad qazanmağın öhdəsindən gəlirdi. Yadımdadır, Zərifə xanım xəstələrin hansı ilə bu və ya başqa bir xəstəliyin profilaktikasına, müalicəsinə dair söhbət aparırdısa, o biri xəstələr də onun başına toplaşar, maraqla söhbətinə qulaq asardılar. Onların üzlərinə baxanda görmək çətin deyildi ki, Zərifə xanım bu adamları çəkdikləri əziyyətləri unutmağa, onların narahatlığını qovmağa, bu adamların ürəklərində sağalacaqlarına ümid işığı oyatmağa müvəffəq olur. İnandırmaq bacarığı, təlqin gücü az-az insanlara nəsib olur. Zərifə xanımda bu qüvvə vardı, o, ən böhranlı anlarda belə sənə təlqin edə bilirdi ki, hər şey yaxşı olacaq, sağalacaqsan, işlərin düzələcək. Mən bunu öz üzərimdə də sınaqdan keçirmişdim. Zərifə xanım məni qəlbən sevir və səhhətimdəki xırda nasazlıqları belə ağrıyla qarşılayırdı. Yadımdadır, bir dəfə bir neçə saatlıq tibbi əməliyyat keçirməliydim. Bundan ötrü təcrübəli həkim və texniki cəhətdən yüksək təchizata malik klinika lazım idi. Üstəlik, mənim yaşım yarıdan keçmiş, orqanizmim xəstəlikdən zəifləmişdi. Cərrahiyə əməliyyatından əvvəl Zərifə xanım mənə zəng vurdu. Dedi ki, hələ burun sallamalı bir şey yoxdur, bu boş bir əməliyyatdır, hətta ambulator şəraitdə də keçirmək olar. Özü də elə səmimiyyətlə danışdı ki, məni əməlli-başlı sakitləşdirdi. Mən ona inanaraq əməliyyat stoluna arxayın uzandım və qalxdım. Günü bu gün də əminəm ki, onun mənə təlqin etdiyi nikbinlik olmasaydı, bəlkə də o əməliyyatdan sağ çıxa bilməzdim. Başlıcası bu idi ki, o, məni inandıra bilmişdi!

O, öz sadəliyi və insanlarla ünsiyyətdə dərin səmimiyyəti ilə hamını heyran qoyurdu. Onun insana bəslədiyi hörmət adilik hədlərini keçirdi. İnsansevərlik, bəşərilik sanki bu adamın bütün qanına hopmuşdu. Çox zaman müxtəlif adamlar onun üstünə xahişə gəlirdilər.





Zərifə xanım hamını səbrlə, təmkinlə dinləyər, əgər cüzi də olsa, kömək etmək mümkündürsə, heç kəsi ümidsiz qaytarmazdı. Bizdə bir tənha sanitar qadın işləyirdi, qonşuları tez-tez onu incidirdilər. Zərifə xanım həmin adamları yanına dəvət etdi, onları mədəni şəkildə başa saldı ki, kimsəsiz, qoca qadını incitmək günahdır. O qarının Zərifə xanıma necə minnətdarlıq etdiyinə mən canlı şahidəm. Birdən-birə özünə qahmar tapmış bu zəif qarı yenidən özünü insan saymağa başlayırdı. Mən bu misalı ona görə gətirirəm ki, oxucu Zərifə xanımın qayğıkeşliyinin, xeyirxahlığının, humanistliyinin miqyaslarını təsəvvüründə canlandıra bilsin. O, ətrafındakı insanların qayğısına qalmaqdan doymurdu, bizim ehtiyaclarımızı, problemlərimizi bizdən yaxşı bilirdi. Hər görüşəndə ilk əvvəl mənim sifətimə diqqətlə nəzər salar, mütləq özümü necə hiss etdiyimi soruşardı, evdəki vəziyyətlə maraqlanar, yalnız bundan sonra işlə bağlı elmi söhbətlərə keçərdi.

O, həmişə tələsirdi. Sanki taleyin ona ömür payı ayıranda xəsislik etdiyini bilir və daha çox iş görmək üçün ləngimək istəmirdi. İstər elm sahəsində, istərsə də təcrübi həkimlikdə zirvələr fəth etmişdi. Zərifə xanım gözəl pedaqoq-tərbiyəçi idi, bilik və təcrübəsini dinləyiciləri ilə səxavətlə bölüşərdi. Onun peşə xəstəliklərinə həsr edilən mühazirələri xüsusilə məzmunlu idi, Zərifə xanım bu mühazirələrə çoxlu əyani vəsait gətirərdi. Qüdrətli oftalmoloq alimə və parlaq şəxsiyyətli cazibədar insana xas olan cəhətlər onun simasında harmonik şəkildə cəmləşmişdi: prinsipiallıq, şəxsi sadəlik, böyük mədəniyyət, qəlbən xeyirxahlıq və könül açıqlığı. Kabinetinin qapısı ondan məsləhət və müdrik tövsiyələr almaq istəyənlərin hər biri üçün həmişə açıq idi. O, bildiklərini heç kimdən əsirgəmirdi.

Yüksək dünyagörüşlü mütəxəssis, dərin tədqiqatçı, maraqlı insan, ağıllı müsahib kimi, incə yumoru və hədsiz ziyalılığı ilə həkk olunub yaddaşıma Zərifə xanım. Onun vicdanı saf və büllur idi. Əyninə gənc yaşlarından geydiyi ağ xalat ömrünün sonlarına qədər tərtəmiz qaldı, zərrəcə ləkələnmədi. O, xalqı və xəstələri qarşısında borcunu müqəddəs bildiyindən təbabət elminə uzun illər təmənnasız xidmət etdi, elə buna görə də gənc nəslə mənsub oftalmoloqların idealına çevrildi...

**P.S.MƏLİKASLANOVA**
*tibb elmləri doktoru, professor*

## NƏĞMƏLƏRLƏ VİDA ANI

Mənim uşaqlığım kədərli olmalıydı: müharibə gedirdi, elə ilk aylarda ixtisasca cərrah olan atam cəbhədə həlak olmuşdu, bizsə anamla başsız qalmışdıq. Ancaq hər halda uşaqlıq xatirələri həmişə işıqlı olur. Görünür, elə buna görə də mənim yaddaşımın o dövrünə iki parlaq nur şüası düşmüşdür. Birincisi, həyatımın mənası saymağa başladığım musiqiyə həvəsim, o biri bizim həyatimiz idi. Qoy sözlərim heç kimə şişirdilmiş gəlməsin. Bakı ənənələrinə bələd olan hər kəs yaxşı bilir ki, məhəllə, həyət necə mühüm şeydir, insanın ömründə qonşular necə böyük rol oynayır.

Bilmirəm arxitektura ənənəni yaradır, yoxsa milli xarakter arxitekturaya diqtəsini göstərir. Bakıda qonşular kommunal mənzillərdəki kimi ümumi mətbəxdən istifadə etmirlər və elə buna görə adama elə gələ bilər ki, böyür-böyürə olsalar da, onlar bir-birindən təcrid vəziyyətində yaşayırlar. Ancaq hər ailənin, hər mənzilin belinə kəmər kimi dolanan şüşə qalereyalar həyətləri bir bütöv ailə kimi təsəvvür etməyə imkan yaradırdı. Belə evlərdə gizli, təcrid olunmuş şəkildə yaşamaq olmaz, əksinə, hər kəsin sevinci və kədəri hamınınkına çevrilir və hamı bunu özününkü kimi yaşayırdı. Anamla bizim bəxtimiz ona görə gətirmişdi ki, Əliyevlərin böyük və mehriban ailəsi ilə qonşuluqda yaşayırdıq. Ətrafda hamı bu ailənin işığına qızınırdı. Onlara xas olan xeyirxahlıq, dostluq, ürəyiyananlıq ovqatı bütün həyatimizə yayılırdı. Biz qonşular bu gözəl ailənin başçısı əziz Məmmədkərim oğlu Əliyevi az-az görürdük. Hamı bilirdi ki, o, Tibb İnstitutuna, sonra respublikamızın Səhiyyə Nazirliyinə, sonra da Dağıstana rəhbərlik etdiyi dövrdə necə gərgin işləyir. Mən onun istirahət etdiyini görməmişdim, ancaq yaddaşımda onun qanının qara olmağı, qaraqabaqlığı ilə bağlı bircə epizod da qalmayıb. İndiyəcən o kişini xatırlayanda gözlərim önündə həmişə isti, xeyirxah təbəssüm saçan gülərüz sifəti canlanır. Ailənin bütün işlərini Leyla xala idarə eləyirdi. O, zəhmətsevər və ağıllı ana, gözəl ev sahibəsi, müdrik insan kimi yadımdan çıxmayacaq.

Hər kəsin evində çox şey olur. Hərdən mübahisələr, höcətləşmələr də baş verir. Bizim həyatimizdə belə şeylər də əyan olurdu. Ancaq hələ heç kim bircə dəfə də görüməmişdi ki, Əliyevlərin evində kimsə səsini qaldırsın, hündürdən danışsın, giley-güzar olsun. Ailənin kiçik qızı Gülarə yaşına görə mənə daha yaxın





idi. Bizi həm də "müqəddəs musiqi sevgisi" bağlayırdı. Musiqi bizim hər ikimizin ixtisasımız oldu. Gülarə gözəl pianoçu, populyar musiqi ansamblının bədii rəhbəri, respublikanın əməkdar incəsənət xadimi idi. Böyük bacıları Zərifə də musiqiyə qeyri-adi dərəcədə bağlı idi, yaxşı royal çalır, xoş səslə oxuyurdu. Ancaq o da, qardaşı Tamerlan da atalarının yolu ilə getdilər, özlərini insanlar üçün vacib olan başqa bir sənətə – təbabətə həsr etdilər. Məlumdur ki, uşaq vaxtı iki-üç yaş fərqi daha çox hiss olunur, nəinki böyüyəndə. Zərifə də məndən ötrü əlçatmaz dərəcədə böyük idi. O oturuşu-duruşu ilə, görünüşü, davranışı ilə bizim üçün nümunə, örnək idi. O heç vaxt başqa böyüklər kimi kişiklərə etinasızlıq göstərməzdi. Əksinə, bizimlə ünsiyyətdə sanki yaşını unudar və bizimlə həmyaşıd kimi davranardı. Bu da bizə qürur verərdi, hər şeyi onunla məsləhətləşər, həmişə onunla bir yerdə olmağa çalışardıq.

Şüşəbəndin açıq pəncərələri qarşısında gecələr uzunu onunla söhbətləşməkdən usanmırdıq. Evimiz əla yerdə idi: İçəri şəhərdə. Üstəlik şüşəbəndimiz hündürdə yerləşdiyindən pəncərəmizdən Bakı buxtasının bütün gözəlliyi ovuc içi kimi aydın görsənirdi. Dənizə baxmaqdan doymaq olmurdu: o, ilin fəsillərindən, havadan və işığın düşəmsindən asılı olaraq tez-tez görkəmini dəyişirdi. Dənizdəki həyat maraqlı və canlı idi: nəhəng gəmilər fit verib keçir, buxta ara vermədən katerlər və yelkənli qayıqlarla dolub-boşalırdı. Ancaq günəşin qürubundan sonra dəniz daha cazibədar olurdu: hərbi gəmilərin gur işıqları yanır, dənizdən evimizə uzanan ay işığı isə bizə gəl-gəl deyir, gəzməyə həvəsləndirirdi. Biz kiçiklər açıq pəncərələrimizdən durub durbinlə aya, ağ yola, dənizə baxar, böyük dostlarımız Zərifə, Tamerlan və Pərvizin maraqlı söhbətlərinə qulaq asardıq. Onlar çoxlu mütaliə edir və bildiklərini bizimlə bölüşürdülər, buna görə də onların söhbətləri bizim üçün nağıllardakı qədər maraqlı idi. Bütün bunlar o illərin xatirələridir. O zaman hələ mavi ekran insanları canlı ünsiyyətdən, istiqanlı söhbətlərdən yadırğatmamışdı.

İş elə gətirdi ki, biz iki il Zərifə ilə görüşə bilmədik: mən Moskvaya oxumağa getdim, sonra orada qalıb işlədim. Baxmayaraq ki, ürəyim Bakıda qalmışdı, ancaq istəsəm də buraya tez-tez gələ bilmirdim. Mən əlbəttə bu böyük insanın uğurlarından xəbər tuturdum, onun böyük alim, fəal ictimai xadim, iki uşaq anası, görkəmli dövlət xadiminin həyat yoldaşı olduğunu bilirdim. Bilirdim ki, bütün bu sadaladıqlarımın hər biri hər hansı bir sadə qadının həyatını

tamamilə zənginləşdirmək üçün bəs edərdi. Bütün bunların bir nəfərin şəxsiyyətində cəmləşdiyini təsəvvür etmək asan deyildi. Zərifə xanım özü də belə qeyri-adi insan idi. Mən bilirdim ki, o, gərgin fəaliyyəti ilə yanaşı teatr-konsert həyatının bütün hadisələrini diqqətlə izləməyə də macal tapır, incəsənətə xeyli vaxt və ürək yanğısı sərf edir. Mən onunla görüşməyə cürət etmirdim, onun vaxtını almağa qıymırdım.

Lakin həyat mənə onunla daha bir görüş bəxş etdi. Bu, mənim üçün çox gözlənilməz oldu. Azərbaycan bəstəkarlarının IV qurultayının yekun konsertindən sonra filarmoniyanın foyesində Zərifə xanımla rastlaşdıq. Sevinə-sevinə dedim ki, o heç dəyişməyib. Gözəl, həmişə cazibədar görünən Zərifə xanım ətrafındakılarla maraqlı söhbət edirdi. Məni görən kimi hal-əhval tutdu, anamı, qızımı, xalamı soruşdu. Hamısı da adbaad yadında idi, hiss olunurdu ki, sadəcə nəzakət xatirinə verilən suallar deyildi, həqiqətən maraqlanırdı. Mən çox təsirləndim. Açığını desək, hər birimiz çoxlu misallar gətirə bilərik ki, çox vaxt hətta zahiri uğurlar adamları dəyişdirir. Lakin zaman bütün hallarda öz həqiqi mahiyyətini qoruyub saxlayan əsl insanı dəyişdirməkdə acizdir. Zərifə Əliyeva belə insan idi – dərin zəkalı, eyni zamanda sadə və xeyirxah. Bir-birini əvəz etmiş illər onu dəyişdirmək qüdrətində deyildi – nə zahiri görünüşünü, nə zəngin daxili aləmini. Filarmoniyanın foyesində onunla söhbət edəndə mən ağlıma da gətirə bilməzdim ki, bizim onunla son görüşümüzdür. O, Moskvaya köçdü, biz artıq yenə bir şəhərdə yaşayırdıq və mən ümid edirdim ki, yenidən görüşəcəyik. Ancaq taleyin hökmü çox amansız imiş. Zərifə həyatdan çox erkən və gözlənilmədən köçdü: qüvvəsinin artdığı, yaradıcılıq düşüncələrinin genişləndiyi, həyat enerjisinin aşıb-daşdığı bir zamanda.

Moskva, 15 aprel 1985-ci il. Alimlər Evi …

Budur, mən onu – əziz, sevimli və füsunkar Zərifəmi son mənzilə yola salıram. Bununla da sanki öz uşaqlığımın ən işıqlı xatirələri ilə vidalaşıram.

**T.Z.MAHMUDOVA**
*Azərbaycanın xalıq artisti*





## O, ATASININ YOLU İLƏ GEDİRDİ

Ömrümün səhifələrini vərəqlədikcə istər-istəməz fikrim məni 50-ci illərə – aspiranturada təhsil aldığım və Göz Xəstəlikləri Elmi-Tədqiqat İnstitutunda işlədiyim illərə aparır. Mən özümü xoşbəxt insan sayıram. Çünki A.A.Abbasov, Sona xanım Axundova, Sona xanım Vəlixan, Umnisə xanım Musabəyova kimi təcrübəli və dərin bilikli klinistlər mənim müəllimlərim olmuşlar. İnstitutda çalışdığım zaman özümə çoxlu dost-tanış tapmışdım. Bunlardan biri də Zərifə xanım Əliyeva idi. Doğrudur, həmin adamların çoxusu zamanın axarında yaddan çıxıb getmişlər, bəziləri ilə münasibətlərimiz də dəyişmişdir, ancaq Zərifə xanım yaddaşımda həqiqətən də silinməz izlər buraxmışdır. Bu, ilk növbədə dərin hörmət və minnətdarlıq duyğularıdır. Zərifə xanım işgüzarlığı, xeyirxahlığı, qayğıkeşliyi, nəcibliyi, istiqanlılığı və qeyri-adi nikbinliyi ilə min adamın içində seçilirdi. Çexovun təbirincə desək, bu adamda hər şey gözəl idi – “həm zahiri, həm batini.” O, əsl dost idi və yalnız şad günümüzdə deyil, həm də qəmli anlarımızda Zərifə xanım bizim hamımıza öz kömək əlini uzadırdı. O, nadir adamlara məxsus olan natiqlik qabiliyyətinə və söz duyğusuna malik idi. Yəqin elə buna görə də institutumuzda təntənəli yığıncaqların aparılmasını, yubiley günlərinin qeyd olunmasını bir qayda olaraq Zərifə xanıma həvalə edirdilər. Hər dəfə xəstələrə baş çəkərkən və ya məsləhət saatlarında mən onun parlaq klinik bacarığının şahidi olurdum. Zərifə xanımın elmi fəaliyyəti ilk növbədə onun düzgün klinik düşüncəsinə və həkim intuisiyasına əsaslanırdı. O, çox oxuyur və həmişə tibbi yeniliklərdən, təbabətə dair təzə çap olunan ədəbiyyatlardan xəbərdar olurdu və istər alim, istərsə də həkim kimi düşüncələri də məhz dərin savadına əsaslanırdı. Zərifə xanım xəstələrə qarşı olduqca diqqətli idi, onları səbrlə dinləyir, xahişlərinə, şikayətlərinə axıra qədər qulaq asırdı. O deyirdi: “Gərək həmişə özünü xəstənin yerinə qoyasan, gərək xəstə həmişə həkimin yanından xoş duyğularla getsin.” Sonralar onun peşəkar erudisiyası kifayət qədər genişləndikdən sonra da öz kafedrasının əməkdaşlarında xəstəyə doğru-düzgün və vaxtında diaqnoz qoymaq məsuliyyətini, klinik müayinənin yeni metodlarına yiyələnmək səylərini aşılamağa çalışırdı. Məişət Kondisionerləri zavodunda görmə orqanının peşə patologiyası laboratoriyasının yaradılması ideyası və təşəbbüsü də

ona məxsus idi. Həmin laboratoriyada aparılmış dərin, hərtərəfli və kompleks elmi tədqiqatların nəticələri bu gün də oftalmoloji klinikaların əməli fəaliyyətində geniş tətbiq olunur.

Bizim oftalmologiya institutunda birgə işlədiyimiz illərdə isə Zərifə xanım traxomanın müalicə üsulları üzərində fəal surətdə çalışırdı. O, respublikamızın rayonlarına gedir, az qala qapı-qapı gəzir, əhalini müayinə edir, xəstələri taparaq inadla onların müalicəsinə nail olurdu. Görünür, təsadüfi deyil ki, onun ilk elmi işi, bir qədər sonra isə namizədlik dissertasıyası traxoma və onun müalicəsinə həsr olunmuşdu. O, mövzu üzərində məhsuldar şəkildə işləmiş, müdafiə etmiş və tibb elmləri namizədi adını almışdı. Zərifə xanım həmişə öz təcrübi fəaliyyətini elmi fəaliyyətilə üzvi şəkildə qovuşdura bilirdi.

Ümumiyyətlə, Əliyevlər ailəsi, ələlxüsus da Zərifə xanımın atası Əziz Məmmədkərim oğlu qeyri-adi hörmətcilliyi, insan şəxsiyyətinə diqqəti və xeyirxahlığı ilə həmişə seçilmişdir. Hamıya bəllidir ki, respublikanın ən tanınmış adamlarından olan Əziz müəllim həm də səhiyyəmizin bacarıqlı təşkilatçılarından biri idi. Elmi-Tədqiqat Travmatologiya və Ortopediya İnstitutunun direktoru işlədiyi vaxtlarda o bir dəfə mənə zəng edib zarafatla soruşdu: "Nazim, çayın var?" Mən onun zarafatını başa düşməyib cavab verdim ki, var. Bir müddət keçəndən sonra məlum oldu ki, Əziz müəllim Zərifəni hansısa vacib bir məsələ ilə əlaqədar işdən yarım saat tez buraxmağım üçün icazə almağa gəlib. Bunu eşidəndə mən Əziz müəllimin nizam-intizamlılığına, sadəliyinə və başqalarına şəxsiyyət kimi hörmətlə yanaşdığına bir daha heyran kəsildim. Axı Əziz müəllim bu sözü mənə telefonla da deyə bilərdi. Mən Zərifə xanımı otağıma dəvət etdim. Ata-bala görüşdülər və həmin anda mən onların insani xüsusiyyətləri etibarilə nə qədər yaxın və oxşar olduqlarını anladım. Zərifə xanım atasının yolu ilə gedirdi.

Sonralar mən institutun direktoru olanda da Zərifə xanım öz xeyirxah məsləhətləri ilə mənə kömək edirdi. Sonra uzun illər biz Zərifə xanımla ayrı-ayrı müəssisələrdə çalışdıq, ancaq həmişə institutumuza əlindən gələn qədər yardım elədi. Yadımdadır ki, 1977-ci ildə bizim institutun yubiley sessiyasının keçirməkdən ötrü nə qədər əziyyət çəkdi. Tədbirdə iştirak etmək üçün Bakıya görkəmli alimlər dəvət etmişdik, onları layiqincə qarşılayıb yola





salmaq asan deyildi və Zərifə xanım da o günlərdə əvəzsiz bir sədaqətlə bizi diqqətindən ayırmadı, bir çox məsələlərin həllinə öz cəsarəti və inadkarlığı ilə nail oldu.

Artıq görkəmli alim idi və Azərbaycan EA-nın həqiqi üzvü seçilmişdi, ancaq bütün bunlara baxmayaraq Zərifə xanım özünəxas qayğıkeşliyindən əl çəkmir, insanların ehtiyaclarını başa düşür və həmişə özünü onların köməyinə çatdırırdı. Kim olmasından asılı olmayaraq ondan ötrü insanın taleyi, xoşbəxtliyi hər şeydən irəli sayılırdı. O, insanın ruhunu tuta bilir, hər kəsin ürəyinə açar tapır, məsələlərin mahiyyətini anlamağı bacarırdı. Yüksək peşəkarlığı, hərtərəfli biliyi, sadəliyi və xeyirxahlığı oftalmoloqlar içərisində Zərifə xanıma dərin hörmət və nüfuz qazandırmışdı.

Mən onu bu cür tanıyırdım və o, mənim yaddaşımda həmişə belə qalacaq.

**N.M.ƏFƏNDİYEV**
*professor, Azərbaycan Elmi-Tədqiqat*
*Oftalmologiya İnstitutunun direktoru*

## O, HƏMİŞƏ BİZİMLƏDİR

Zərifə Əliyeva o şəxslərdən idi ki, onunla tanışlıq, əməkdaşlıq insanın könlündə silinməz izlər buraxırdı. Onun haqqında keçmiş zamanda danışmaq ağır və çətindir: olmuşdur, işləmişdir, öyrətmişdir, yaratmışdır...

Mən Zərifə xanımla tələbəlik illərindən tanış olmuşdum. İndiyəcən də o, mənim üçün canlılardan canlıdır. Mehriban siması gözlərimin qarşısından getmir. Mən institutumuzun dəhlizlərində, auditoriyalarında cingiltili səsini eşidir, hər addımbaşı elə bilirəm ki, onunla qarşılaşacağam. Bu, təsadüfi deyil. O, məni ahənrüba kimi həmişə özünə cəlb edirdi. Zərifə xanım tək məni yox, ətrafındakıların hamısını özünün təmənnasızlığı, ünsiyyəti, dost-tanışlarının işlərinə, problemlərinə hədsiz diqqəti və qayğısı ilə özünə məftun edirdi. Oftalmologiya institutunda birgə işlədiyimiz illəri xatırlayıram. O, aspirant idi, sonra elmi işçi keçdi. Mən subordinaturadaydım, sonra da ordinator işləyirdim. Bu dövrdə, 1952-58-ci illərdə biz həkimliyin sirlərinə yiyələnir, təcrübə toplayırdıq. Zərifə xanım mənim işimə diqqətlə göz qoyur, hərdən özünəməxsus dərin analitik qabiliyyəti ilə hərəkətlərimi təhlil edirdi. Ancaq heç zaman öz rəyini mütləq həqiqət saymır, mənim də mülahizələrimi öyrənirdi. Bir dəfə isə ağır xəstələrin müalicəsi üçün mənim seçdiyim taktikanı təqdir edərək gözlənilmədən dedi: “Sən niyə aspiranturaya girmək istəmirsən? Sözümə qulaq as, get Moskvada Helmqolts adına göz xəstəlikləri institutunun aspiranturasına qəbul olun. Sən orada Azərbaycandan ilk aspirant olacaqsan. Bu böyük şərəf və məsuliyyətdir.” Onun sözləri mənim qəlbimi yerindən oynatdı. Zərifə xanım elə bir nadir adam idi ki, ayrı-ayrı hadisələri ümumiləşdirib nəticələr çıxarır, adi şeylərdən ciddi məsələlər qaldırırdı. Bütün ömrüm boyu minnətdarlıqla xatırladığım o məsləhəti də, mənim işimi, müalicə tərzimi uzun müddət müşahidə eləyəndən sonra çıxardığı nəticəyə əsasən vermişdi. Beləliklə də, mənim həyatımın yönünü dəyişmiş, qarşımda oftalmologiyanın bütöv bir dünyasını açmışdı...

1965-ci ildə artıq aspiranturanı uğurla bitirib dissertasiya müdafiə eləyəndən sonra tale məni yenidən Zərifə xanımın yanına gətirdi. Nə az, nə çox, düz iyirmi il Ə.Əliyev adına Azərbaycan





Dövlət Həkimləri Təkmilləşdirmə İnstitutunun göz xəstəlikləri kafedrasında onun yanında və rəhbərliyi altında çalışdım. Bu illər ərzində Zərifə xanımın şücaəti, öz işinə heyrətamiz sədaqəti məni həmişə mütəəssir etmişdi. Doktorluq işini yazanda tez-tez sənaye müəssisələrinə gedir, yod və şin zavodlarında gözün peşə patologiyasına dair çoxsaylı sınaqlar keçirirdi. Və həmişə də deyirdi ki, bu işin müqabilində aldığı ən böyük mükafat fəhlələr arasında xəstəliklərin aşağı düşməsidir.

Professor olduqdan, kafedra müdiri seçildikdən sonra o, institutdakı dinləyicilərin nəzər-diqqətini göz damarlarının patologiyasını dərindən öyrənməyə yönəldirdi. Dinləyicilər bu işə həvəslə yanaşırdılar, çünki Zərifə xanım yüksək elmi səviyyəsi, şəxsi keyfiyyətləri və geniş erudisiyası ilə onlara nümunə göstərirdi. Əlinə batareya iə işləyən elektrik oftalmoskopunu alıb ani olaraq göz dibinin vəziyyətini öyrənəndə Zərifə xanım həmkarlarında və dinləyicilərdə səmimi bir heyrət duyğusu doğururdu. İncə həkim intuisiyası, zəngin təcrübəsi heç zaman onu aldatmırdı, bu da çox vaxt, nə gizlədim, kafedra əməkdaşlarının qibtəsinə səbəb olurdu. Zərifə xanımınn güclü yaddaşı vardı. Nəyisə qeydə almışdısa, bunu harda, necə etdiyini, hansı fikrin kimə aid olduğunu fenomenal dəqiqliklə xatırlayırdı. Bir dəfə klinikamıza çox nadir müşahidə olunan bir xəstəliklə – göz almacığının çıxığı ilə bir xəstə gətirmişdilər. Hətta ən təcrübəli təbiblər də çaşıb qalmışdılar. Zərifə xanımı dəvət etdilər. O, xəstəni müayinə edəndən sonra dedi:

– Deyəsən tələbəlik illəlrində mən akademik Averbaxın oçerklərində belə maraqlı hadisələr haqqında oxumuşdum. Orada akademik, sirk ustası olan bir yapondan bəhs edirdi. O, tamaşaçıları heyrətləndirməkdən ötrü özünün göz almacıqlarını çıxarıb atır, sonra isə götürüb yerinə salırmış.

Biz ərinmədən akademik M.İ.Averbaxın monoqrafiyasından həmin yeri axtarıb tapdıq. Gördük ki, Zərifə xanım uzun illər bundan qabaq oxuduğu şeyləri də müstəsna dərəcədə dəqiqliklə xatırlaya bilir.

Ümumiyyətlə, qeyd etməliyəm ki, o, danışdıqlarını, elədiklərini, yazdıqlarını və ya dinlədiklərini çox gözəl yadında saxlayır, lazım olan anda cəsarət və qətiyyətlə öz biliklərindən istifadə edirdi. Zərifə xanım ixtisası üzrə çoxlu mütaliə edir, aldığı informasiyanı kafedra əməkdaşlarının və dinləyicilərinin sərvətinə çevirirdi. Bu dəfə də belə oldu. Əldə etdiyimiz məlumatlar bizim birgə hazırladığımız

orijinal məqalədə öz əksini tapdı. Məncə, qadın oftalmoloqlar arasında ilk dəfə olaraq ona akademik M.İ. Averbax adına Tibb Elmləri Akademiyasının mükafatının verilməsində bir qanunauyğunluq vardı.

Zərifə xanım alimlik istedadını qeyri-adi təşkilatçılıq qabiliyyəti ilə üzvi surətdə birləşdirirdi. Dördüncü Bakı klinik xəstəxanasının bazasında kafedranın filialı yaradılarkən onun bu keyfiyyətləri özünü xüsusilə büruzə verirdi. Belə hallarda adətən müşahidə olunduğu kimi filiala ayrılmış otaqların yenidən qurulması, xüsusi aparatın və cihazların alınması və quraşdırılması ilə əlaqədar bir çox müxtəlif məsələlər və problemlər ortaya çıxdı. Bunların həllində o, bütün səviyyələrdə – klinikada, institutda, respublikanın Səhiyyə Nazirliyində qibtə olunacaq təmkin və qətiyyət nümayiş etdirdi. Onun hərəkətləri həmişə dəqiq və düşünülmüş olurdu. Buna görə də o, bir qayda olaraq hərtərəfli, əsaslandırılmış mövqe tuturdu. Onun səyləri sayəsində çoxprofilli xəstəxanadakı filialımızın cərrahiyyə otağına istənilən ixtisaslaşdırılmış iri göz klinikası həsəd apara bilərdi. Cərrahiyyə otağı ən yeni tibb texnikası ilə, o cümlədən, həmin vaxtlar üçün çox nadir təsadüf olunan televiziya qurğusu ilə təchiz olunmuşdu.

Zərifə xanım bizim qarşımızda mürəkkəb vəzifələr qoymaqla yanaşı eyni zamanda bir ana kimi qayğımızı çəkirdi. O, alimin və praktik həkimin vəzifəsini bütün rəngarəngliyi ilə dərk edirdi. Bu işdə onun üçün əhəmiyyətsiz şey yox idi. Məsələn, Zərifə xanım kafedranın hər bir əməkdaşının iş yerini müəyyənləşdirməyi vacib sayırdı. Yaxşı yadımdadır, bir dəfə bizi yığıb dedi: "İşi dəqiq təşkil etmədən bizə tapşırılmış vəzifələri uğurla yerinə yetirmək sadəcə olaraq mümkün deyil. Bunun ilk şərti isə iş yerinin avadanlıqla yaxşı təchiz olunmasıdır. Hər kəsin – tibb bacısının, dayənin, makinaçının, aspirantın, həkimin və professorun öz iş yeri olmalıdır."

Zərifə xanım təşkilatı məslələrin həllində, prinsipial elmi müddəaların müdafiə olunmasında nə qədər qətiyyətli idisə, bir o qədər də ürəyiyumşaq adam idi. Bu cəhət onun xəstələrə baş çəkməsi zamanı özünü xüsusilə göstərirdi. Məsələn, bir dəfə o, xəstənin yanındaca müasir müalicə metodlarını müzakirə edərkən tövsiyə olunan preparatlar arasında çətin tapılan bir dərmanın da





adını çəkdi. Təyin olunmuş müalicə kursu bu dərmansız ötüşə bilməzdi. Zərifə xanım həmin dərmanı özü tapıb xəstəyə verəndə biz təəccübdən donub qaldıq.

Bu cəhətdən müasir cəmiyyətdə həkimin rolu və yeri ilə bağlı ideyaların öyrənilməsi, işlənib hazırlanması və təbliği sahəsində onun apardığı böyük işi qeyd etməmək olmaz. Mən onun 1982-ci ildə Bakıda buraxılmış "Ali vəzifə" adlı maraqlı publisist kitabı ilə yanaşı həm də daha əvvəllər, 1979-cu ildə Oftalmoloqlar Cəmiyyətinin Moskvada keçirilmiş və mənim də iştirakçısı olduğum iclasında etdiyi çıxışı xatırlayıram. O, parlaq bir natiq kimi həkimin mənəvi tərbiyəsi, müasir dentologiya, tibb etikası və mənəviyyatı məsələləri haqqında həqiqətən çox təsirli məruzə ilə çıxış etdi. Çıxışından sonra sovet oftalmologiyasının patriarxı akademik M.M.Krasnov ona yaxınlaşaraq qarşısında baş əydi və əlindən öpüb dedi: "Sözüm yoxdur. Heyranam!"

Yuxarıda artıq göstərmişdim ki, Zərifə xanımın öz dostlarının işlərinə, qayğılarına səmimi diqqəti məni həmişə valeh edirdi. O, həssaslıq və xeyirxahlığın, canıyananlığın bariz nümunəsi idi. O, dərin hissiyyatlı bir insan kimi məni və həmkarlarımı bir işarədən başa düşür, istedadı qiymətləndirməyi və ortababı həvəsləndirməyi, xoş ənənələri inkişaf etdirib möhkəmləndirməyi bacarırdı. Biz öz aramızda ona "valerian damcısı" deyirdik. Yaxşı bilirdik ki, lazımi məqamda o, təskinlik verməyi və sakitləşdirməyi bacarır, yaxşı məsləhətlər verir... Öz aramızda zarafatla deyirdik ki, duru və cavan gözləri olan bu incə qadınla adam özünü dağa söykənmiş kimi hiss edir.

Zərifə xanım elmi-təşkilati, ictimai işlə yanaşı öz dünyagörüşünü genişləndirməyə xeyli vaxt sərf edirdi. O, ensiklopedik biliyə malik bir insan idi.

Mənim musiqi təhsilim olduğu üçün həmişə onun musiqi anlayışına, dərin ilhamına heyran kəsilirdim. Kamil musiqi fəhmi vardı. Yadımdadır, Zaqafqaziya bəstəkarlarının əsərlərindən ibarət konsertdə böyük Üzeyir Hacıbəyovun ölməz notlarını eşidərkən Zərifə xanımın sevinci aşıb-daşırdı. O, hətta bu parçaları mənə zümzümə də etdi!

Biz bir neçə dəfə Zərifə xanımla "Min bir gecə" baletinə getmişdik. Yadımdadır, mənə deyirdi: "Birinci dəfə mən Toğrul Nərimanbəyovun gözəl dekorasiyalarına məftun olmuşdum. İkinci dəfə Fikrət Əmirovun ecazkar musiqisi məni heyran etdi. Bu musiqidə

xəlqilik və müasirlik çox üzvi surətdə qovuşub. Baletə növbəti dəfəki baxışımda mən baletmeyster Nailə Nəzirovanın tapıntılarından həzz aldım. İndi, nəhayət dördüncü dəfə isə mən bütün bunları vahid kimi tam qəbul edirəm..” Mən Azərbaycan və rus dram teatrlarının tamaşalarında, müxtəlif konsertlərdə, sərgilərdə dəfələrlə onunla birlikdə olmuşam. Hər yerdə də onun incəsənətə əvəzsiz məhəbbət hissinə şahid olmuşam. O, öz xalqına, bəşəriyyətin mənəvi xəzinəsinə xalqının verdiyi töhfəyə görə fəxr edirdi. Bu duyğu, belə demək mümkündürsə, onun sırf şəxsi, fərdi duyğusu deyildi – Zərifə xanım incəsənətə münasibətini mütləq başqaları ilə bölüşməyə çalışırdı.

...Zərifə Əziz qızı Əliyeva mənim xatirimdə tükənməz enerjiyə malik insan, istedadlı alim, gözəl təşkilatçı, əvəzsiz pedaqoq, nəcib həkim, gözəl qadın və sədaqətli, etibarlı yoldaş kimi qalmışdır. O, həmişə mənim qəlbimdədir.

**X.A.RƏCƏBLİ**





## ONDA HƏR ŞEY GÖZƏL İDİ

Mən bu sətirləri yaza-yaza özümü heç cür inandıra bilmirəm ki, Zərifə xanım artıq aramızda yoxdur. (Bir də axı bu necə ola bilər?) Bir insan ki, öz yurduna, öz xalqına bu qədər bağlı ola, onu tanıyan adamların qəlbində əbədi iz sala, bir insandan ötrü ki, biz hamımız bu boyda qürur hissi duyaq, o insanın yoxluğuna necə inanmaq olar.

Zərifə xanımla hər görüş onu tanıyanlara həqiqi sevinc gətirirdi. Elə birinci görüşdən insanlarda yaratdığı xoş təəssürat uzun illərin ünsiyyəti boyunca sabit qalar, dəyişməzdi. Çünki o, insanlara münasibətində sabitqədəm idi. Həmsöhbətini dinləmək, yerinə çatmamış hər hansı bir məsələdə nəticə çıxarmağa tələsməmək bacarığı, imdad istəyənlərin taleyində şüurlu və xeyirxah rol oynamaq onun şəxsiyyətinin səciyyəvi xüsusiyyətlərindən sayılırdı. O elə bir qadındı ki, bütün müsbət keyfiyyətləri ilə öz şəxsində ahəngdar bir tərzdə cəmləşdirə bilmişdi. Mənən o qədər zəngin idi ki, yüksək erudisiyası, mənəvi məziyyətləri, gözəllik duyğusu ilə hər kəsi heyrətə sala bilərdi. “İnsanda hər şey gözəl olmalıdır – qəlbi də, sifəti də fikri-düşüncəsi də, geyimi də.” Bu məşhur kəlam sanki ondan ötrü deyilmişdi. İrili-xırdalı bütün görüşlərimiz ərzində mən bir şeyi dəqiqləşdirmişdim ki, Zərifə xanımın gördüyü bütün işlərdə Xeyir başlanğıc nöqtəsi əsas istinadgah idi. Onun təbiətinə xas olan ən mühüm cəhətlər xeyirxahlıq və humanizm, insanlara sevinc bəxş etmək arzusu idi.

Zərifə xanımın işi ilə bağlı bir sıra hadisələr yaddaşımda əbədilik həkk olunub. İndiki kimi yadımdadır, bir dəfə onunla görüşmək üçün iş yerinə getmişdim. Xəstələrlə məşğul olduğu üçün oturub gözləməli oldum. Birdən Zərifə xanım çöhrəsində işıqlı təbəssüm otağa daxil oldu. Üzündən bəxtəvərlik yağırdı. Sanki dünyanı ona bağışlamışdılar. Sən demə, ağır xəstələrindən birinin qızı ona böyük bir gül dəstəsi gətiribmiş. Zərifə xanım isə al qərənfilləri qızından alıb xəstənin özünə bağışlayıb. Ağır göz xəstəliyindən sonra bu güllərin gözəlliyini bir daha görən xəstənin xoşbəxtliyi Zərifə xanıma ləzzət verirdi. Əlbəttə, bu yüksək peşəkar ustalığa malik hər bir həkim üçün uğurlu fəaliyyətin adi bir təzahürü idi, ancaq inanmaq olmurdu ki, bütün həkimlər xəstələrə bəxş etdikləri səadətdən Zərifə xanım kimi sonsuz həzz alsınlar. Yadımdadır, o vaxt Lev Nikolayeviç Tolstoyun sözlərini xatırlamışdım: “Həyatda şəksiz-şübhəsiz bircə

həqiqi xoşbəxtlik var – başqaları üçün yaşamaq səadəti.” Mən bu sözləri söyləyəndə Zərifə xanım gülümsəyib bu müdrik kəlamı təsdiqləmişdi. Mənə elə gəlir ki, bu sözləri onun həyat devizi də saymaq olardı: Zərifə xanım gözəl ana, qayğıkeş bacı, fədakar ömür-gün yoldaşı və etibarlı dost idi. Xatırladığım bu epizod da onun insansevərliyini, adamlara sevinc bəxş etməkdən doymadığını bir daha göstərir.

Həddən artıq nizam-intizamlı adamdı. Ciddi və özünə qarşı tələbkar idi, başqalarından da bunu umurdu. Mənəvi borc və məsuliyyət duyğuları onu bircə an da tərk etmirdi. Vədinə xilaf çıxmaq ona yad idi. Kifayət qədər nüfuzlu bir şəxsiyyət kimi ətrafdakıların böyük hörmət və ehtiramını qazansa belə həmişə özünü sadə və təvazökar tutardı. Başqalarının vaxtına qiymət verməyi də bacarırdı, ünsiyyətdə olduğu insanlarda yalnız yaxşı keyfiyyətləri görməyi də. Mən elmi işimlə əlaqədar onun yanına tez-tez gedib-gəldiyim üçün bunu başqalarından yaxşı bilirəm: Zərifə xanımın sənədləri, yazıları həmişə təkmil olar, savadlı tərtib edilər və öz vaxtında ünvanına çatdırılardı. Bütün qapılar onun üzünə açıq olsa da, həmişə işdən ötrü bir yerə getmək istəyəndə əvvəlcədən razılıq alardı.

Mən Zərifə xanımı ölkənin görkəmli qadın alimləri arasında da müşahidə etmişdim. O, söhbəti peşəkar səviyyədə aparmağı da, sözün ən yüksək mənasında qadın olaraq qalmağı da bacarırdı. Belə görüşlərdən birində akademik Valentina Aleksandrovna Nasonovanın dediyi sözləri öz qulaqlarımla eşitmişəm: “Mən məsul vəzifələrdə işləyən çoxlarının xanımları ilə tanış olmuşam. Ancaq Sizinlə təmasdan sonra heyrətə gəlməyə bilmirəm ki, siz bu qədər müdrik, yüksək mədəniyyət və elm sahibi olmaqla yanaşı həm də bu qədər incə hissiyyata maliksiniz. Zərifə xanım, qınayan olmasaydı, mən deyərdim ki, siz ərinizin sadəcə qadını və dostu yox, tən yarısısınız.”

Bu lətafətli qadın mənim yaddaşımda həm də ən çətin məqamlarda insana kömək əli uzada bilməsi ilə həkk olunub. O, insan ömrünün mənasını bunda görürdü. Mən özüm də çıxılmaz anlarımda ona müraciət etmişəm. Zərifə xanım məni təmkinlə axıra qədər dinləyib, qiymətli məsləhətlər verib, inandırıb ki, belə həll olunan şeylərdən ötrü bu qədər həyəcanlanmağa dəyməz, gərginliyimi götürüb, məni ruhlandırıb. Belə vaxtlarımdan birində nikbin söhbətdən sonra təzəcə çapdan çıxmış monoqrafiyasının





üstünü yazaraq mənə bağışlamışdı. Yadımdadır, o vaxt evə döndükdən sonra mən uzun müddət bu qadındakı insanların qəlbinə yol tapmaq, onların dərdinə-sərinə şərik olmaq, səmimiyyətlə kömək göstərmək kimi qeyri-adi məziyyətlərinin təsiri altından çıxa bilməmişdim. İndinin özündə də Zərifə xanımın könül hərarətinin bir parçası kimi həmin kitabı ən əziz bir xatirə kimi saxlayıram.

**T.Q.HÜSEYNOVA**
*professor, Azərbaycan Tibb İnstitutunun kafedra müdiri*

## ÖMRÜN GÖZƏL İLLƏRİ

Həyatdan vaxtsız köçmüş yaxın dost, yoldaş, məsləkdaş haqqında söz demək çox çətindir.

Allah heç kimə göstərməsin. Mənim ömrümün ən gözəl illəri Zərifə xanımla bağlı keçib. Biz onunla erkən uşaq çağlarından tanış olmuşduq, bir məktəbdə oxumuşduq. Sonradan onlar evlərini dəyişdilər, Zərifə başqa məktəbə keçdi, ancaq buna baxmayaraq, dostluğumuz yenə də davam etdi. Biz tez-tez görüşür, yaxın ünsiyyət saxlayırdıq. Orta məktəbi bitirəndən sonra tale yenə bizi görüşdürdü. Hər ikimiz Azərbaycan Tibb İnstitutuna daxil olduq. Ali təhsilimizi bitirəndən sonra eyni ixtisası seçdik və düz 18 il mərhum professor Umnisə Musabəyovanın rəhbərliyi altında Elmi-Tədqiqat Oftalmologiya İnstitutunda çiyin-çiyinə çalışdıq. Burada dostluğumuz daha da möhkəmləndi.

50-ci illərdə institutumuzun oftalmoloqları qarşısında duran ən əsas məsələ respublikamızda traxomanın - keçmişin bu acı qalığının aradan qaldırılması idi. Traxoma Azərbaycanın bir çox rayonlarında geniş yayılmışdı. Bununla əlaqədar Zərifə xanım tez-tez rayonlarda olur, xəstələrin müayinə olunub dispanserizasiyası işində böyük əmək sərf edirdi. Çox ağır və üzücü bir iş idi - bir sıra sənaye müəssisələrinin işçilərinin müayinə olunması, traxomaya tutulmuş, ancaq heç yerdə işləməyən adamlara baş çəkmək, onları, doğma və yaxınlarını yoxlamaq, mərəzin yayılma ocaqlarını meydana çıxarmaq, respublikanın ən müxtəlif rayonlarındakı tibb məntəqələrində, əmək müəssisələrində, təşkilatlarda söhbət və mühazirələr keçirmək. Bütün bunlar nə qədər ağır, zəhmət tələb edən iş idisə, bir o qədərdə şərəfli iş idi. Ağır iş idi, lakin eyni zamanda şərəfli bir iş idi. Traxoma ilə mübarizə apardığı müddətdə Zərifə xanım çalışdığı terapevtik şöbənin əməkdaşları ilə birlikdə bir neçə elmi-tədqiqat işini də yerinə yetirmişdi. Həmin araşdırmalarda iki rayonda keçirilmiş tədbirlər ümumiləşdirilərək, bunların əsasında traxoma ilə mübarizənin təşkilati, tətbiqi-müalicəvi əsasları işlənib hazırlanmışdı. Bu elmi tədqiqatların nəticələri sayəsində həmin rayonlarda traxoma ilə mübarizə məntəqələri açılır, bütün xəstələr ciddi nəzarətə götürülür, zəruri müalicə tədbirləri aparılır, traxomanın aradan qaldırılması üzrə başlıca metodiki-təşkili təlimatlar hazırlanırdı. Zərifə xanımın iştirakı ilə həmin





elmi-tədqiqat işlərinin aparılması 1965-ci ilə qədər Azərbaycanda traxomanın kökünün kəsilməsində böyük əhəmiyyət kəsb etmişdi. Bütün bu illər ərzində Zərifə xanım "Məktəblilər arasında traxomanın müalicəsi" adlı elmi iş üzərində çalışırdı. Bu kütləvi mərəzə tutulan uşaqların müalicəsi üçün o, oftalmologiyada ilk dəfə olaraq həmin illərdə icad edilən təzə antibiotikdən - sintomisindən istifadə etmişdi. Bu yeni aspektdə aparılan araşdırmalar həmin xəstəliyin müalicəsində əvvəllər tətbiq və tövsiyə olunan digər preparatlarla müqayisədə sintomisinin üstünlüyünü üzə çıxardı. Zərifə xanımın həmin uşaqlar üzərində apardığı dinamik müşahidələr göstərmişdi ki, sintomisin selikli qişanın infiltrasiyasında sorulmanı sürətləndirir, kirpiklərin yaralarını bitişdirir, pannusu sorur, konyuktival torbacığın mikroflorasını təmizləyir.

Zərifə xanım həmçinin qlaukoma və yaxındangörmə xəstəlikləri üzrə profilaktiki iş aparmaqdan ötrü də dəfələrlə respublikamızın rayonlarına getmişdi. Qlaukomaya tutulmuş xəstələrin müəyyənləşdirilməsi üçün bir çox illər ərzində o, Əli Bayramlı şəhərinin sənaye müəssisələrində ciddi müayinə işləri ilə məşğul olmuşdu. Qlaukomada şübhəli şəxslər təcili surətdə onun tərəfindən dispanser uçotuna alınır və onlar ətraflı müayinə və müalicə üçün göz stasionarlarına göndərilirdilər. Yaxındangörmənin müəyyənləşdirilməsi məqsədilə o, Əli Bayramlı şəhərinin məktəblərində xeyli təcrübələr aparmışdı. Əgər institutumuza lazım idisə, Zərifə xanım işə həvəslə girişirdi, gərək olan kimi rayonlara gedir, profilaktika ilə məşğul olurdu.

1964-cü ildən etibarən, o, görmə orqanlarının peşə patologiyasına həsr edilmiş doktorluq dissertasiyası üzərində işə başladı. Üç il ərzində, 1967-ci ilə qədər dissertasiya işinin ayrı-ayrı fraqmentləri yerinə yetirildi, Bakı Şin Zavodunun müxtəlif sexlərində çalışanların görmə orqanlarının bir sıra funksiyaları öyrənildi. Sonradan iş yerini dəyişdiyi üçün dissertasiyasının yeni hissələrini də Ə.Əliyev adına Azərbaycan Həkimləri Təkmilləşdirmə İnstitutunun göz xəstəlikləri kafedrasında yerinə yetirdi. Zərifə xanımın yüksək ixtisaslı mütəxəssis, alim kimi pedaqoji fəaliyyət sahəsində qazandığı uğurlar da həmin müəssisənin adı ilə bağlıdır. Qeyd etməliyəm ki, Zərifə Əliyeva böyük bir həyat yolu keçmiş, həkim-oftalmoloqdan Azərbaycan EA-nın akademiki, professor, Ə.Əliyev adına Azərbaycan Həkimləri Təkmilləşdirmə İnstitutunun göz xəstəlikləri kafedrasının müdirliyinə qədər yüksəlmişdi. O, bütün bunlarla bərabər, həm də gözəl ictimai xadim idi.

Zərifə xanım geniş dünyagörüşünə, çevik ağla, ilahi daxili və zahiri gözəlliyə malik idi.Cazibədar, heyrətamiz insanlara xas olan sadəlik, genişürəklilik, xeyirxahlıq kimi keyfiyyətlər Zərifə xanımın şəxsiyyətində ahəngdar şəkildə qovuşmuşdu. İnsanlara intəhasız sevgi, onlarla ünsiyyətdə qeyri-adi sadəlik, yüksək mədəniyyət və ziyalılıq, həqiqətpərəstlik və doğruluq kimi xüsusiyyətləri sayəsində Zərifə xanım hər yerdə özünə dərin hörmət və məhəbbət duyğuları doğura bilirdi. Ən qəribəsi bu idi ki, o, ünsiyyətdə olduğu adamların hər birinin dilini tapa bilirdi. Tutduğu yüksək mövqeyə baxmayaraq, o, sıravi həkimliyi dövründəki sadəliyini, xeyirxahlığını qoruyub saxlamışdı. Zərifə xanımın qəlbi hamının üzünə açıq idi.

İş günləri onun boş vaxtı olmazdı: mühazirələr, təkmilləşdirmə institutunun dinləyiciləri ilə məşğələlər, xəstələrin müayinə və məsləhət saatları, ağır ictimai iş yükü. Zərifə xanımın – bu böyük alimin, həkimin, pedaqoqun, ictimai xadimin bütün həyatı və fəaliyyəti Vətəninə, xalqına təmənnasız xidmət nümunəsidir. Həkim-oftalmoloqların hazırlanmasına, elmi işçilərin gənc nəslinin tərbiyəsi işinə Zərifə xanım bütün bilik və bacarığını sərf edir, var gücünü qoyurdu.

Lakin o yalnız işlə yaşamırdı. Hüdudsuz enerji, həssas ürək sahibi olan bu qadın sərbəst vaxtlarının hamısını ailəsinə həsr edirdi. O, diqqətli övlad, gözəl həyat yoldaşı, qayğıkeş ana, nənə idi. İşdə de belə idi, əməkdaşlarımızın hamısı üçün sədaqətli dost, xeyirxah bir ana idi. O, hamının imdadına çata bilirdi. Yoldaşlarımızdan kimsə doğmasını, yaxınını, əzizini itirəndə hayımıza daha tez yetişirdi. Yaxın, sadiq, təmənnasız bir dost köməyinə möhtac qaldığın anlarda Zərifə xanımı yanında görürdüm.

Taleyim mənə düz əlli il onunla ünsiyyətdə yaşamaq xoşbəxtliyi bəxş edib. Bütün bu müddətdə həmişə qəlibimin dərinliklərində hiss etmişəm ki, Zərifə Əziz qızı yanımdadır, özünün isti, səmimi nəvazişi ilə, xeyirxah əməlləri ilə mənə hər an yardım göstərə bilər. Ömrünün son illərində o, Bakıda yaşamırdı, ancaq bura hər gəlişində biz onunla mütləq görüşərdik. O, mənim ətrafımda baş verənlərlə maraqlanar, halımı gözlərimdən oxuyardı. Mən onun şəxsində belə bir qeyri-adi, həssas və diqqətcil bir dost, rəfiqə tapmışdım. Zərifə xanımın şəxsiyyəti çoxcəhətli idi. O, yalnız yüksək ixtisaslı həkim, hərtərəfli alim, görkəmli pedaqoq və ictimai xadim





deyildi. Eyni zamanda dərin musiqi savadına da malik idi, gözəl fortepiano çalır, oxuyurdu, incə yumor hissi vardı, hazırcavab və maraqlı müsahib idi. Yüksək müşahidə qabiliyyəti də vardı.

70-ci illərin əvvəllərinə qədər N.Nərimanov adına Azərbaycan Tibb İnstitutunda professor U.Musabeyovanın rəhbərlik etdiyi göz xəstəlikləri kafedrası Elmi-Tədqiqat Oftalmologiya İnstitutunun terapevtik şöbəsinin bazasında yerləşirdi. Zərifə xanım da bu şöbənin böyük elmi işçisi idi. O vaxt şöbə ilə kafedra vahid bir tam kimi qaynayıb-qovuşmuş üzvi bir orqanizmə bənzəyirdi. Biz burada bir ailə kimi çiyin-çiyinə çalışırdıq. Kollektivimiz mehriban, sıx və möhkəm idi, müəllimlərimiz, yaşlı yoldaşlarımız bizim üçün məxsusi ənənələr qoyub getmişdilər. Ayda bir dəfə biz hamımız işdən sonra kollektivimizin bir üzvünün evində çay süfrəsinə toplaşardıq. Bu məclislərin sırasını hər ilin əvvəlində Zərifə xanımın böyük bacısı, Tibb İnstitutunun göz xəstəlikləri kafedrasında dosent işləyən Ləzizə xanım tərtib edirdi. Harada yığışmağımızdan asılı olmayaraq, görüşlərimiz şən və maraqlı keçirdi. Cəmiyyətimizin canı və qəlbi isə həmişə Zərifə xanım olardı. O, yalnız təbabəti sevmirdi, incəsənətə və mədəniyyətə böyük sevgiylə yanaşır, teatrların bir premyerasını da buraxmaz, filarmoniyada keçirilən konsertlərdə iştirak edərdi. O, ahəngdar, hərtərəfli inkişaf etmiş nadir insanlarımızdan idi. Zərifə xanımın vaxtsız vəfatı xəbəri bizim hamımızı, onun bütün dostlarını və həmkarlarını sarsıtdı. Hələ bu günə qədər də inana bilmirəm ki, o bizim aramızda deyil. İnanmaq istəmirəm ki, bir daha onun doğma, həlim səsini eşitməyəcəyəm. Rəhmətlik məni nəvazişlə "Fəriş" deyə çağırardı. Bu xitabı onun mənə səmimi duyğularını, sevgi və sayğısını ifadə edirdi. İstək və duyğularımız qarşılıqlı idi. Zərifə xanımın sevinci və kədəri mənim, mənim sevincim və kədərim onun idi.

O, mənim üçün yüksək mədəniyyət, ziyalılıq, düzlük, öz işinə sadiqlik, bütün bilik və bacarığını xalqına xidmət işinə yönəldən böyük bir İnsan obrazıdır. Bu obraz mənim yaddaşımda, qəlbimdə ölənədək yaşayacaq.

**Q.M.NƏSRULLAYEVA**
*professor, Azərbaycan Elmi-Tədqiqat Oftalmologiya İnstitutunun şöbə müdiri*

## ÖLMƏZ QƏLBİN SADƏLİYİ

1977-ci il oktyabrın 21-də Zərifə Əziz qızı Əliyeva oftalmoloqların Bakıda keçirilən iclasında kimyəvi istehsal şəraitində görmə orqanının peşə xəstəliklərinə və onların profilaktika tədbirlərinə həsr olunmuş parlaq məruzə ilə çıxış edərək, gözəl illüstrasiyalı rəngli slaydlar nümayiş etdirdi. Bütün iştirakçıların diqqətini cəlb etmiş bu məruzənin oxunduğu gün Zərifə xanımı mən ilk dəfə görürdüm. Onun füsunkar şəxsiyyəti barədə o zaman mənim hələ təsəvvürüm yox idi.

Zərifə xanımla şəxsi tanışlığımız bu hadisədən təxminən yarım il sonra – 1978-ci ilin aprelində baş verdi. Əmək fəaliyyətinin həmin dövründə o, görmə orqanının peşə patologiyalarını öyrənmək üçün xüsusi elmi laboratoriya yaratmaq ideyası ilə yaşayırdı.

Qərara alınmışdı ki, həmin laboratoriya istehsal obyektinin yaxınlığında yerləşdirilsin. Bakı Məişət Kondisionerləri Zavodunda laboratoriya üçün yer artıq hazırlanmışdı. Zərifə xanım laboratoriya üçün kadrlar axtarırdı. Bu məsələ ilə şəxsən məşğul olur və yeni laboratoriyanın taleyi üçün kadrların uğurlu seçiminin bütün əhəmiyyətini tam dərk edirdi. Zərifə xanım məni də elə həmin vaxt öz yanına çağırdı və biz mənim baş elmi işçi kimi oraya keçməyimin mümkünlüyü məsələsini müzakirə etdik.

İlk tanışlığımız Bakıda, Oftalmologiya Elmi-Tədqiqat İnstitutunda professor P.S.Məlikaslanovanın kabinetində oldu. Qısa tanışlıqdan sonra başa düşdüm ki, Zərifə xanım mənim elmi işlərimə və tərcümeyi-halıma yaxşı bələddir. Hətta onu da bilirdi ki, Müdafiə Nazirliyinin hospitallarında xidmət müddətim yaşım çatdığına görə bitmək üzrədir. O, yaradılan laboratoriyanın məqsəd və vəzifələri ilə məni tanış etdi. Danışığının sadəliyi, sifətindəki xeyirxah təbəssüm, səmərəli elmi iş perspektivləri məni cəlb etdi. Bu təklifə razılıq verməyə bilməzdim, hərçənd mənə elə gəlirdi ki, həmin iş bir klinist və cərrah-oftalmoloq kimi məni tam qane eləyə bilməz. 1979-cu ildə mən görmə orqanının peşə patologiyaları laboratoriyasının əməkdaşı oldum və Zərifə Əliyevanın rəhbərliyi altında işə başladım. Kiçik kollektivimiz çoxmillətli idi: burada azərbaycanlılar, ruslar, ukraynalılar, ləzgilər vardı. Zərifə xanım hamıya eyni dərəcədə diqqət və qayğı ilə yanaşırdı. Beynəlmiləlçilik onun səciyyəvi cəhəti idi. Zərifə





xanım bir elmi rəhbər kimi əməkdaşların qarşısında konkret, yerinə yetirilə bilən, praktik əhəmiyyət daşıyan və perspektivli vəzifələr qoymaq bacarığı ilə fərqlənirdi. O özünə və tabeçiliyindəkilərə qarşı ciddi, tələbkar olmaqla yanaşı, həm de qayğıkeş və diqqətcil idi, işçilərin rəyinə hörmətlə yanaşır və onların, işgüzar təşəbbüslərini hər vəchə müdafiə edirdi. Bunun sayəsində nisbətən qısa bir vaxtda laboratoriyamızda çoxsaylı orijinal elmi məqalələr, monoqrafiyalar, səmərələşdirici təkliflər və ixtiralar şəklində çox sanballı elmi əsərlər yarandı. Zərifə xanım çox tez bir zamanda öz laboratoriyasının əməkdaşlarını sevdi. O, bizim hər birimizin ən kiçik müvəffəqiyyətinə də ürəkdən sevinir, öz müsbət münasibətini təmkinlə, lakin tabeçiliyindəki işçi üçün kifayət qədər həssaslıqla bildirməyi bacarırdı. 1979-cu ildə doktorluq dissertasiyamı müdafiə edəndə bunu mən öz üzərimdə şəxsən hiss etdim.

O, mənim uğuruma çox sevinirdi. Laboratoriyada Zərifə xanım tez-tez çay süfrələri təşkil edərdi. Çayından, konfetindən, Azərbaycanın milli şirniyyatlarından tutmuş hər şeyəcən lazım olan azuqəni özü gətirərdi. Əslində, bu çay süfrələrinin arxasında istehsalat müşavirələri keçirilirdi: görülən işlərə yekun vurulur, gələcək planlar dəqiqləşdirilir, cari məsələlər müzakirə olunurdu. Həmin söhbətlərimiz Zərifə xanımın əməkdaşları üçün unudulmaz anlar idi.

Laboratoriya ilə birlikdə Zərifə xanım həm də Əziz Əliyev adına Həkimləri Təkmilləşdirmə İnstitutunda işləyirdi. 1982-ci ildə onu kafedra müdiri seçdilər. O vaxtdan mən kafedrada da onun yanında çalışmağa başladım. Zərifə xanım məşğələlərin keyfiyyətlə və effektiv keçirilməsinə, dinləyicilərə təcrübi vərdişlər aşılamağa xüsusi diqqət yetirirdi. Onun oxuduğu mühazirələr dərin məzmunu, yeniliyi və aydınlığı ilə həmişə seçilirdi. İşçilərimiz üçün ən qiymətli keyfiyyətlərindən biri də bu idi ki, Zərifə xanım həmişə təmkinli və səbirli olardı. Hətta nəyə görə isə qəzəbləndə belə o, heç zaman kobudluq etməzdi. Yadımdadır, işçilərimizdən biri moskvalı professorlardan birinə yerini şirin salmaq xatirinə yalandan özünü Zərifə xanımın qohumu kimi təqdim eləmişdi. Ona ciddi irad tutanda belə Zərifə xanım qəzəbini boğaraq, sakitliyini pozmadı. Bir də boş şeylərdən ötrü o, heç vaxt işçiləri məzəmmət etməzdi.

Zərifə xanımın başqa bir səciyyəvi və mənim üçün əziz olan cəhəti də sadəliyi, təvazökarlığı idi. Bəzən bu təvazökarlıq o yerə

çatırdı ki, Zərifə xanım başqalarının yanında özünün qazandığı elmi, əqli və əxlaqi üstünlükləri üzə vurmazdı. Misal üçün, hətta müxtəlif mətbu orqanların tələbi qarşısında da o, öz yüksək elmi rütbələrini qabarıq göstərməkdən hər vəchlə qaçardı. Eyni zamanda o öz səviyyəsini nəzərə çarpmaqdan qorumağı da yaxşı bacarırdı. Xarakterçə mehriban və təmkinli olan bu insanın bir başqasına ən kəskin mənfi münasibəti onun zərif, xeyirxah yumoru və təbəssümündə öz ifadəsini tapırdı. Həmçinin o, əməksevər və təvazökar adamlara çox mehribanlıq göstərər, həmişə onların köməyinə çatmağa çalışardı. Zərifə xanımı fərqləndirən başqa bir cəhət də onun müxtəlif adamlarla ünsiyyətdə sadəliyi idi – dinləyiciləri ilə, həkimlərlə, əməkdaşlarla, professorlarla, akademiklərlə söhbətlərində Zərifə xanım onların ictimai mövqeyindən asılı olmayaraq, bütün adamlarla eyni dərəcədə nəzakət və hörmətlə davranırdı. Onun nadir insani keyfiyyətləri laboratoriya və kafedranın bütün əməkdaşlarında ona böyük hörmət və əsl məhəbbət doğurmuşdu. O, insanları çox yaxşı tanıyırdı. Bu keyfiyyət kadrların seçilməsində, eləcə də müxtəlif məsələlərlə əlaqədar ona müraciət edən adamlara münasibətində daha dəqiq təzahür edirdi.

Akademik Z.Ə.Əliyeva laboratoriyaya və kafedraya qısa müddətdə başçılıq etdi. Buna yalnız təəssüflənmək olar. Həyatdan vaxtsız getməsəydi, onun və başçılıq etdiyi elmi müəssisələrin şöhrəti daha çox olardı. Onun yaradıcılıq qüvvəsi aşıb-daşırdı, yeni fikir və ideyalarını həyata keçirmək əzmində idi, əməkdaşlarının elmi, pedaqoji və təcrübi işlərinə, o cümlədən bir neçə dissertasiyaya qayğıkeşliklə, canıyananlıqla rəhbərlik edirdi.

Zərifə Əliyeva vəfat etdi. Lakin onun laboratoriyanın və kafedranın işində təcəssümünü tapan ideyalar uzun müddət yaşayacaqdır. Əməkdaşlıq illərimiz onu mənim üçün unudulmaz bir insana çevirdi.

**M.Y.SULTANOV**
*professor, Ə.Əliyev adına Azərbaycan Həkimləri Təkmilləşdirmə İnstitutu göz xəstəlikləri kafedrasının müdiri*





## VİCDAN HƏKİMİ

Zərifə xanım Əliyevanın obrazı onun dostlarının və saysız-hesabsız tələbələrinin qəlbində dərin kök salmışdır. Tibb institutunun tələbələri, həkim dinləyiciləri, görkəmli alimlər, ədəbiyyat və incəsənət xadimləri, eləcə də sadə adamlar onu tanıyır, ürəkdən sevir, yüksək qiymətləndirirdilər. Həyata geniş yaradıcı münasibəti, zəngin daxili aləmi, həssas qəlbi və şəxsiyyətinin bütövlüyü ilə hamını məftun edən bir insan – Zərifə Əliyeva haqqında yazmaq çox çətindir. Xeyirxahlığı və mənəvi gözəlliyi ilə seçilən, bizi çox tez tərk etmiş bir insan haqqında keçmiş zamanda danışmaq adama ağır gəlir.

Zərifə xanım tibb elmini qızğın məhəbbət və sədaqətlə sevirdi, onun nailiyyətlərinə sevinir, uğursuzluqlarından kədərlənirdi, böyük elmi inandırıcılıqla nəzəri problemləri işləyir və elmi nailiyyətlərinin səhiyyə praktikasında tətbiq olunmasına, geniş kütlələr arasında tibbi biliklərin yayılmasına xeyli qüvvə sərf edirdi. Yüksək peşəkarlığı, mədəni tələbatının genişliyi, dostpərvərliyi, ünsiyyətdə səmimiliyi və istiqanlılığı, qayğıkeşliyi, ehtiyacı olanın köməyinə çatmağa can atması Zərifə xanımın həyatını insanıara humanist xidmət nümunəsi kimi, ləyaqətlə tibb elminin ön sıralarına çıxmış bir insan kimi səciyyələndirməyə tam əsas verir. Hədsiz dərəcədə xeyirxah bir insan olan Zərifə xanım yaşamaqdan, işləməkdən ilham alır, həyata və insanlara nikbin yanaşır, xeyirxahlıq və etimad ab-havası yaradırdı, Bu parlaq şəxsiyyət nurlu bir səmimiyyətə, həyatın Xeyir təntənəsi, ümumxalq səadəti uğrunda mübarizə üçün insana verilmiş bir hədiyyə, zəkanın və hissiyyatın qırılmaz vəhdəti kimi qəbul edən böyük istedada malik idi.

Zərifə xanım haqqında düşünərkən 50-ci illərin əvvəllərində baş vermiş hadisələri xatırlayıram. O zaman "Göz həkimi" pyesi üzərində işləyən uşaqlıq dostum, istedadlı şair və dramaturq İslam Səfərli tez-tez göz institutuna gedərdi ki, yaradıcılıq prosesinin gedişində tibb işçilərinin fəaliyyətinin bir sıra peşə məsələlərini düzgün açа bilsin. Gənc və istedadlı həkim Zərifə Əliyeva isə müəllifə məsləhətlər verir, köhnəlmiş və zərərli baxışlara qarşı mübarizə aparan pyesin baş qəhrəmanının – göz həkiminin bədii obrazının yaradılmasında ona kömək edirdi. Həmin illər biz İslam Səfərli ilə

tez-tez görüşərdik: ədəbi problemləri müzakirə etməklə yanaşı orta məktəbin və universitetin xoş ənənələrini davam etdirirdik. Bir dəfə o, mənə təklif etdi ki, oftalmoloji klinikaya birgə gedib Zərifə xanımla görüşək, pyes və onun qəhrəmanları haqqında fikir mübadiləsi aparaq. Təbii ki, mən minnətdarlıq hissi ilə bu təklifə razılıq verdim.

Deməliyəm ki, biz əvvəllər də Zərifə xanımın ailəsini tanıyır və onlara dərin ehtiram hissi ilə yanaşırdıq. Lakin klinikadakı görüşümüz zamanı biz bir daha əmin olduq ki, Zərifə xanım pyes qəhrəmanının psixologiyasına, düşüncələrinə və hərəkətlərinə, insan xarakterlərinə və problemlərinə, sənətin qanunlarına dərindən bələd olan bir şəxsiyyətdir. O bizə tarixin yaradıcı və dağıdıcı əsaslarının daimi və amansız münaqişəsinin bədii əsərdə istedadla əks etdirilməsinin əhəmiyyətindən danışdı. Onun düşüncələrinə biganə qalmaq mümkün deyildi. Yaxşı yadımdadır, biz İslam Səfərli ilə bu görüşdən sonra Zərifə xanımın hüdudsuz erudisiyasından, zəngin ədəbi biliyindən, dərin ziyalılığından mütəəssir olmuşduq. İndi həmin illərin hadisələri haqqında yazı-pozularımı vərəqləyərkən bir daha Zərifə xanımın xarakterik cəhətləri gözümün qarşısında canlanır: "Mən onun sakitliyinə, daxili aləminin ahənginə heyranam". Bir vaxt dediyim sözlərə bunu da əlavə etməyə bilmərəm ki, əgər insanın daxili harmoniyası onun siması ilə üzvi vəhdət təşkil edirsə, əgər şəxsiyyət daxilən tamlıq təşkil edirsə, bu harmoniyanın özü elə səadətdir, insan qəlbinə işıq saçan və hərarət gətirən mənbədir.

Həmin görüşləri xatırlayarkən mən bu insanla ünsiyyəti qəlbimdə ömürlük iz qoymuş təkrarolunmaz mənəvi bayram kimi bir daha dərk edirəm. Bu insan öz ömür yolunu inamla, məqsədyönlü, vicdan və böyük ləyaqətlə keçmişdir. Görüşlərimizin bir cəhəti də diqqəti çəkir. İslam Səfərli Zərifə xanımdan xahiş etmişdi ki, pyesin məsləhətçisi olmağa rəsmi razılıq versin. Lakin Zərifə xanım qəti etiraz etmiş, bildirmişdi ki, bu iş onun üçün çox xoşdur və məsələni hüquqi cəhətdən rəsmiləşdirməmək də olar. Sonra əlavə etmişdi ki, təbabətin və incəsənətin vahid bir xeyirxah məqsədi var – insanlara xidmət etmək.

Zənnimcə, bir həkim kimi Zərifə xanımın başlıca keyfiyyəti onun xəstənin daxili aləminə nüfuz etmək bacarığı idi. Qəlbinin





genişliyi və yüksək peşəkarlığı ona nəinki fiziki, həm də mənəvi əzablar çəkən adamları sağaltmağa imkan verirdi. O, hər bir xəstənin fərdi təkrarolunmaz sehrli daxili aləminə də yollar axtarırdı, çünki özü də biganə adam deyildi.

Zərifə xanım həkim kadrlarının mənəvi tərbiyəsinə böyük əhəmiyyət verirdi. Onu həmişə narahat edirdi ki, tələbələri və həkimləri kim və necə öyrədəcək. İstəyirdi ki, onlar şəxsi dəyərlərini dərk etməklə peşə borclarını yerinə yetirə bilsinlər. Tibb İnstitutunda 25 illik əmək fəaliyyətim ərzində mən buna qəti əmin oldum. Zərifə xanım mərkəzi və respublika mətbuatında həkim etikası problemlərinə dair maraqlı məqalələr dərc etdirirdi. Bunlardan birində deyilir: “Əgər özümüzə sual versək ki, həkimin fəal həyat mövqeyi hansı mənəvi təmələ əsaslanır, cavabı çox qısa olar – xəstəyə münasibətə! Əsl həkim yalnız o şəxsdir ki, xəstəsinin əzablarını öz əzabları bilir və onun üçün sağalıb evinə-eşiyinə qayıtmış insanın təbəssümü ən yüksək mükafatdır. Buna görə də hər dəfə xəstələri qəbul eləyəndə, onlarla söhbət aparanda həkim həm xəstə qarşısında, həm də cəmiyyət qarşısında, ən başlıcası isə öz vicdanı qarşısında mənəvi məsuliyyət hiss edir. Vicdan əsas hakimimizdir. Ən çətin məqamda və ən xoş saatımızda o bizimlə üzbəüz dayanıb soruşacaq: Sənin ağ xalat geyməyə haqqın varmı? Onilliklər boyu təkcə biliklərini deyil, həm də ürəyinin hərarətini öz əllərinlə insanlara çatdırmalısan. Açığını deyək ki, öz vicdanının bu cür sərt məhkəməsinə duruş gətirmək xoşbəxtlikdir.” Bu sətirlərə diqqət yetirdikcə belə nəticəyə gəlirsən ki, o özü praktikada həyatın mənasını başa düşməyin Xeyirə xidmət olduğunu təsdiq edərək özündə yaradıcılığın, peşəkarlığın və mənəvi mədəniyyətin vəhdəti örnəyini nümayiş etdirərək vicdanın amansız məhkəməsindən şərəflə çıxmışdır.

1980-cı ildə Zərifə xanım “Oftalmologiya xəbərləri” jurnalında həkimin mənəvi simasına həsr olunmuş çox maraqlı bir məqalə dərc etdirmişdi. Məqalədə tibb işçisinin fəaliyyətinin bir sıra sosial-mənəvi problemləri yüksək fəlsəfi və peşəkar səviyyədə təhlil olunmuşdu. Məqalə geniş ictimaiyyətdə böyük maraq doğurmuşdu. Tələbələr, aspirantlar, müəllimlər, həkimlər bu barədə müzakirələr aparırdılar. Məqaləni oxuduqdan sonra mən Z.Əliyevanın

böyük potensiala, zamanın kəskin problemlərinə öz peşə fəaliyyətində cavab vermək qabiliyyətinə bir daha əmin oldum. Mən jurnalın redaksiyasına məktub yazaraq göstərdim ki, fəlsəfə kafedrasının uzun illər boyu institutun profilinə uyğun olaraq mühazirələr oxuyan, həkimlik və tibb etikasının problemlərinə dair tədqiqatlar aparan əməkdaşları Z.Əliyevanın məqaləsini böyük razılıq hissi ilə qarşılamışlar. Bu məqalədə müəllifin irəli sürdüyü mühakimələr və çıxardığı nəticələr yeniliyi, orijinallığı və sosial əhəmiyyəti ilə fərqlənir. Biz kafedramızda məqaləni müzakirə etdik, onu tələbələrə və aspirantlara, institutun professor-müəllim kollektivinin üzvlərinə, metodoloji fəlsəfə seminarlarının dinləyicilərinə tövsiyə etdik. Zərifə xanım məqaləsinə bizim səmimi minnətdarlıq hissimizdən xəbər tutub özünəməxsus müdriklik və utancaqlıqla kafedramızın kollektivinə deontologiya problemlərinə biganə qalmadığımız üçün təşəkkürünü bildirdi.

Zərifə xanımın xarakterinin üzvi tərkib hissəsi olan minnətdarlıq hissini xüsusilə qeyd etmək istərdim. Bu hissi mübaliğəsiz olaraq insan qəlbinin barometri, onun həqiqi sərvəti adlandırmaq mümkündür. Yumor duyğusu, təbii təvazökarlıq, zəngin təxəyyül Zərifə Əliyevanın şəxsiyyətinin məğzini təşkil edirdi. Ona xas olan xeyirxahlıq, qəlbinin və ruhunun parlaq təravətini həmişə qoruyub-saxlamaq qüdrəti mənəviyyat məsələlərində irili-xırdalı hər şeyə qiymət verən bir insanın qiymətinin əyani göstəricisidir.

O elə professorlardan idi ki, təkcə öyrətmirdi, həm də canlı peşəkarlıq və müdriklik timsalı idi. Zərifə xanım tələbələrlə, gənc həkimlərlə söhbət edərkən onlara həssaslıq və diqqətlə yanaşırdı, bu isə onlar üçün vətəndaş yetkinliyinin əsl məktəbi demək idi.

Mən dəfələrlə onun çıxışlarına qulaq asmışam, O həmişə məntiqlə, əsaslandırılmış, eyni zamanda səmimi danışar, yüksək natiqlik qabiliyyəti ilə fərqlənər və entuziazm doğurardı. Zərifə xanım elə nadir şəxsiyyətlərdən idi ki, tale ona adicə sözlərlə insanların qəlbində həyat eşqi oyatmaq qüdrəti vermişdi. Onunla danışmaq, ona qulaq asmaq çox maraqlı idi. O, qeyri-adi düşüncə tərzi ilə müsahibini heyran edir, ən adi həyat həqiqətlərində yenilik və başərilik işığı yandıra bilirdi. Zərifə xanım ömrünün sonunadək özünün cazibədarlığını qoruyaraq





insanlara öz təbii səmimiyyəti və ülvi xeyirxahlığı ilə şəfəq saçırdı. Ölməzlik özündən sonra xoş xatirə qoyub getmək bacarığıdır. İnsan ümumbəşəri dəyərlərin tükənməz xəzinəsinə verdiyi töhfə ilə sülhün, xeyirxahlığın, gözəlliyin və etibarın təntənəsinə qəti inamı ilə ölməzliyə qovuşur. Zərifə Əziz qızı Əliyevanın həyatı xalqa və insana xidmətin parlaq nümunəsidir.

Zərifə xanımın unudulmaz obrazını xatırlayarkən biz inanırıq ki, bu gözəl insan onu tanıyanların, sevənlərin və ona hörmət bəsləyənlərin xatirində əbədi yaşayacaqdır.

**A.Y.NƏCƏFOV**
*professor, N.Nərimanov adına Azərbaycan Tibb İnstitutu fəlsəfə kafedrasının müdiri*

## YAXŞILIQ, YAXŞILIQ, YALNIZ YAXŞILIQ

Əliyevlər ailəsini mən hələ müharibədən qabaq tanıyırdım. Əvvəlcə mən Zərifə xanımın böyük bacısı Ləzifə xanım Əliyeva ilə göz xəstəlikləri kafedrasında işləmişdim. Onun əməksevərliyi heyrətamiz idi – bütün kollektivi öz təşəbbüskarlığı ilə vəcdə gətirirdi. Ləzifə xanımın nikbinliyi, həyatsevərliyi, xeyirxahlığı kollektivimizə təzə ab-hava gətirirdi. Müharibə illərində Zərifə xanımın atası Dağıstanda işləyirdi. Bu vaxt mən də Dağıstanın Axtinsk rayon xəstəxanasında çalışırdım. Buradakı üçillik fəaliyyətim dövründə Əziz müəllim iki dəfə bizim xəstəxanaya baş çəkmiş, hər gəlişində də ağır müharibə vəziyyətində olan əhalinin müxtəlif növlü keçici xəstəliklərdən müdafiəsi işinin təşkili ilə maraqlanmışdı. Əziz Əliyev gecə-gündüz insanların səhhəti keşiyində ayıq-sayıq dayanan tibb işçilərinin məişət şəraiti ilə də maraqlanırdı. Müharibənin ən ağır vaxtlarında da o, tibb müəssisələri kollektivlərinə və ayrı-ayrı adamlara qayğısını əsirgəmirdi. Göstəriş vermişdi ki, imkan daxilində tibb işçilərinin iş və məişət şəraitinin yaxşılaşdırılmasına diqqət artırılsın. Bütün bunlar səhiyyə xidmətinin işində müsbət əksini tapırdı.

Müharibədən sonra Zərifə Əliyeva göz xəstəlikləri Elmi-Tədqiqat İnstitutunda (ETİ) aspiranturaya girəndə mən artıq orada çalışırdım. Elə ilk tanışlığımızdan həm atasının layiqli qızı kimi, həm də bir dost kimi ona qəlbən bağlanmışdım.

Biz birgə işləyirdik yox, ən doğrusu olardı ki, birlikdə yaşayırdıq yazım. Ona görə ki, Zərifə xanımın bizdə aspiranturaya götürüldüyü 1949-cu ildə traxomaya qarşı gərgin müharibə dövrü davam edirdi. Müharibə vaxtı müalicə profilaktika işləri zəiflədiyindən, həmçinin sanitariya şəraiti pisləşdiyindən, xüsusən rayonlarda, kənd yerlərində bu mərəz geniş yayılmışdı. Buna görə də Zərifə Əliyevanın dissertasiya mövzusu (“Traxoma xəstəliyinin akademik Çumakovun kütləvi müalicə üçün tövsiyə etdiyi yeni preparatlarla müalicəsinə dair”) həmin problemə həsr olunmuşdu və həddən artıq aktual iş sayılırdı. Həmin preparat bizim klinikalarda hələ geniş tətbiq edilmirdi. Çünki bunun üçün xəstəliyin inkişaf və ağırlıq dərəcəsindən asılı olaraq, sintomisin emulyasiyasının paylaşdırılması metodikası





işlənib hazırlanmalıydı. Təxirəsalınmaz işlərdən olan bu məsələ Zərifə xanıma həvalə edilmişdi. Buna görə də o, bir qrup həkimlə birlikdə tez-tez rayonlara gedirdi. Elə həmin səfərlərdə bir-birimizə dərindən bələd olduq. Həmişə şən və həyatsevər olan Zərifə xanım bu şəraitdə də nikbinliyini qoruyub saxlayır, bizdən yaşca cavan olsa da, hamımıza ruhi qüvvə verirdi. Bu mərhələdə bir sıra çətinlikləri dəf etmək lazım gəlirdi. Ən ağır şəraitdə, kənd yerində, feldşer məntəqələrində, rayon poliklinikalarında, stasionarlarda, özü də qısa bir müddətdə deyilən preparatla müalicənin taktikası öyrənilib başa çatdı. Tədqiqat nəticələrinin çapı işində də xeyli çətinliklər vardı, çünki tövsiyə olunan müalicə metodunun səmərəliliyinə əminlik hasil etməliydik. Bu, həm də ona görə müəyyən çətinlik törədirdi ki, həmin metod kütləvi müalicə üçün qəbul olunmuşdu və müalicə həkimlərinin bütöv bir ordusu bunun qəti əleyhinə idi. Zərifə xanım dissertasiyasını uğurla müdafiə etdi. Bundan sonra onu hamılıqla göz xəstəlikləri ETİ-nin böyük elmi işçisi seçdik. Zərifə xanımı diqqətcil və yüksək ixtisaslı həkim kimi çox sevirdilər. O, özünün xeyirxah münasibəti ilə ümidsiz xəstələrin də ruhunu oxşaya bilirdi.

O, göz xəstəlikləri institutunun gözü idi. Zərifə xanımda olan ilahi istedad, ona xüsusi səy göstərmədən də kollektivdə xeyirxahlıq və qarşılıqlı anlaşma atmosferi yaratmağa imkan verirdi. İnstitutdan gedəndən çox-çox sonralar da biz onun xarakterindəki bu cizgiləri xatırlayır, həkimlərə, tibb bacılarına, köməkçi heyətə münasibətini örnək göstərirdik. Bəlkə də çoxları ağız büzüb deyə bilər ki, həmkarlar arasında dostluq münasibətləri işə mənfi təsir göstərir, tabeçiliyindəkilərə tələbatı azaldır, nəticədə işə ziyan vurur. Bunun əksinə olaraq mən buna öz şəxsi təcrübəmdə əmin olmuşam ki, kollektivdə şərait nə qədər yaxşı olursa, iş də bir o qədər yaxşı gedir. Vəzifəsindən, elmi adından asılı olmayaraq, həkimlər bir-birinə kömək edir, birgə çalışır, yoldaşlarının səhvlərini də özlərininki bilirlər.

Biz Zərifə xanımla birlikdə qlaukomanın medikamentoz müalicəsinə dair birgə tədqiqatlar aparmağı planlaşdırmışdıq. Bu tədqiqatların birinci mərhələsi uzun müddət oftalmotonusun normallaşdırılması məqsədilə istifadə edilən bəzi preparatların təsirinin öyrənilməsindən ibarət idi. İlkin işlərimiz eksperimentlər aparmaqdan ibarət idi. Deməliyəm ki, eksperimental qlaukoma oftal-

mologiyanın ən çətin məsələlərindən sayılır. Biz çox işləməli, müxtəlif metodlardan istifadə etməli, qarşımıza qoyduğumuz məqsədə çatmaq üçün öz xüsusi metodumuzu hazırlamalı idik. İkinci mərhələdə biz oftalmotonusu aşağı salan müxtəlif preparatların uzunmüddətli istifadə zamanı təsirini ayrı-ayrılıqda və kompleks şəkildə öyrəndik. Eksperimentlərimizi normal gözdaxili təzyiq və yüksək oftalmotonus şəraitində apardıq. Müşahidələrimiz göstərdi ki, gözdaxili təzyiqləri aşağı salan bəzi dərmanlardan uzun müddət istifadə olunduqda onların təsiri tədricən azalır. Bəzi hallarda bu preparatlar nəinki müsbət təsir göstərmir, əksinə, oftalmotonusun yüksəlməsinə gətirib çıxarır. Bu məsələ ciddi klinik maraq doğururdu, çünki qlaukoma xəstələri demək olar ki, bütün ömürləri boyu hipotenziv preparatlardan istifadə edirdilər. Həmin preparatların tədricən təsirini itirməsi öyrənilməmişdi. Bu fonda gözdaxili təzyiqin yüksəlməsinin, adətən, cərrahi yolla müalicə edirlər, çünki artıq medikomentoz müalicə səmərəli sayılmır. Ancaq bir sıra hallarda gözdaxili təzyiqin yüksəlməsi neyrotrop preparatların uzunmüddətli qəbulu ilə əlaqəli olur, göz ya bu dərmanlara öyrəşir, ya da dərmanlar ona mənfi təsir göstərməyə başlayır. Bu məsələləri bilmək hər bir oftalmoloq üçün zəruri sayılır. Elə buna görə də tədqiqatımızın nəticələri təkcə institutun elmi əsərlərində yox, həm də oftalmoloqların İkinci Cənubi Qafqaz qurultayının sənədlər toplusunda nəşr edildi, həmçinin Azərbaycan oftalmoloqlar cəmiyyətində və Göz Xəstəlikləri İnstitutunun yekun sessiyalarında məruzə olundu.

Bundan sonra Zərifə xanım respublikamızın bir sıra sənaye obyektlərində peşə patologiyası məsələlərini hərtərəfli öyrənmişdi. Bu qəbildən olan işləri arasında onun Bakıdakı yod və şin zavodlarında apardığı tədqiqatları göstərmək olar. Əlbəttə, bu sahədə onunla çiyin-çiyinə işləmiş yoldaşları Zərifə xanımın yaradıcılığının həmin mərhələsinə dair daha maraqlı şeylər danışa bilərlər. Mən isə bu problemə həsr edilmiş dissertasiyanın ilkin müzakirəsi zamanı rəyçi olduğum üçün öz bitkin təəssüratımı deməliyəm: iş yüksək elmi səviyyədə həyata keçirilmişdi. Sınaqlar zamanı qazanılmış təcrübə toksik dəyişmələrin müxtəlif mərhələləri üçün insan gözündə baş





verən morfoloji və histokimyəvi prosesləri üzə çıxarmışdı. Alimin elektron mikroskopu altında apardığı dəqiq morfoloji, histokimyəvi tədqiqatlar ona imkan vermişdi ki, görmə orqanının hətta kliniki mərhələyə qədərki dəyişikliklərini də qeydə ala bilsin.

Zərifə xanımın çıxardığı elmi nəticələr toksikliyin o vaxta qədər mövcud olan mümkün hədləri barədə normativlərə yenidən baxmaq və bu barədə təzə təklif və tövsiyələr irəli sürməkdə mühüm əhəmiyyət daşıyırdı. Eyni zamanda, həmin xəstəliklər zamanı fəhlələrin istifadəsinə verilən dərman preparatlarının təsir dərəcəsini azaltmaq üçün də həmin tədqiqatlar müəyyən baza təşkil edirdi. Zərifə xanımın morfoloji və histokimyəvi tədqiqatlarının nəticələri rəngli şəkillərlə illüstrasiya olunmuşdu və bu da həmin müəssisələrdəki sənaye mühitinin sağlamlaşdırılması və tövsiyə olunan profilaktiki tədbirlərin həyata keçirilməsi istiqamətlərində konkret təkliflər işlənib hazırlanmasına imkan yaradırdı. Zərifə xanım həmişə təsirlərini minimuma endirməkdə görürdü. Kimya sənayesində çalışanların görmə orqanlarında baş verən peşə patologiyalarının öyrənilməsi üzrə xüsusi problem laboratoriyasının yaradılması ideyası da ona məxsus idi. Zərifə Əliyeva bu sahədə çox uzaqgörənliklə planlar qurmuşdu. O, toksiki maddələrin kiçik dozalarının görmə orqanına təsirini araşdırmaq istəyirdi. O, istəyirdi ki, mümkün dozanın həddini bir daha yoxlasın və əgər zərurət olarsa, bu həddə yeni korrektivlər versin.

Zərifə Əliyevanın çap etdirdiyi monoqrafiyalar onun elmi fəaliyyətinin çoxcəhətliliyini nümayiş etdirir. Yaradıcılığının bu mərhələsi, yəqin ki, həmin kitabların həmmüəllifləri olan alimlərin xatirələrində hərtərəfli əks olunacaqdır. Mən bir şeyi dəqiq bilirəm ki, Zərifə xanımın şəxsində bizim oftalmologiya elmimiz insan sağlamlığının qorunması işində böyük töhfələr verən ən istedadlı bir alim qazanmışdı.

Bir neçə söz də onun həkim humanizmi barədə söyləmək istəyirəm. Zərifə xanım öz həmkarları içərisində xəstələrə humanist münasibəti, onlara qayğıkeşliklə yanaşması ilə fərqlənirdi. Həkimlik fəaliyyətinin ilk günlərində biz onun bu xüsusiyyətini hiss etmişdik. Təsadüfi deyildi ki, professor U.S.Musabəyova ən şıltaq və ərköyün xəstələrin müalicəsini məhz ona tapşırırdı. Zərifə xanım xəstələrə hədsiz diqqət göstərirdi, onlar da bunu anladıqlarından ona

müdrik bir insan və qayğıkeş həkim kimi böyük hörmət bəsləyirdilər. Zərifə xanım bu sadəliyini və qayğıkeşliyini ömrünün axırına qədər qoruyub saxlamışdı. Başqa həkimlərin xəstələrə soyuq münasibət bəslədiyini eşidəndə o, narahat olur, belə şeyləri ürəyinə salırdı. Zərifə xanım bu məsələlər barədə Azərbaycan Oftalmoloqlar Cəmiyyətinin iclaslarında dəfələrlə çıxışlar etmişdi. Hətta yadımdadır ki, "Medisinskaya qazeta"da deontologiya və həkim etikasına dair bir neçə məqaləsi dərc olunmuşdu. Zərifə xanım barədə bir həkim kimi söz açarkən deməliyəm ki, o, həm də gözəl bir insan idi. Mənə elə gəlir ki, həqiqi insan kimliyindən asılı olmayaraq, öz insanlığını həmişə qoruyub saxlamalıdır. Zərifə xanım yalnız onu sayıb kömək üçün müraciət edənlərə kömək göstərmirdi, hətta ona bədxahlıqla yanaşanlarla da münasibətlərini yaxşı saxlayırdı. Bunu irad tutanda isə deyirdi: "Əgər onlar xarakterlərindəki mənfi xüsusiyyətlərdən əl çəkmək istəmirlərsə, nəyə görə mən öz müsbət keyfiyyətlərimdən keçməliyəm?"

Zərifə xanım bizim institutumuza gənc bir həkim və aspirant ikən gəlmişdi, ancaq sonralar – elmi çəkisi artdıqca da xasiyyəti qətiyyən dəyişməmişdi. O, yenə də iş yoldaşlarına, kiçik tibb heyətinə dostyana və həssaslıqla yanaşırdı. O, heç kimə əlçatmaz deyildi. Məlumdur ki, ona çoxları müraciət eləyir və hərə bir şey xahiş edirdi. Təbii ki, o bütün bu xahişləri yerinə yetirə bilmirdi. Buna baxmayaraq, heç kim ondan narazı qalmırdı. O, kömək edə bilməyəndə də bunun səbəbini ətraflı izah edirdi. Zərifə xanım böyüklərə hörmət ruhunda tərbiyə almışdı. Hərçənd bunu bəziləri köhnə dəbin əlaməti hesab edirlər. Bir dəfə ona dedim ki, əsasnaməyə görə, o, bizdən yuxarıda dayanır. Zərifə xanım etirazını bildirib söylədi ki, "yalnız yaşca böyüklər məndən yuxarıda dayana bilər və belə adamlara hörmət və ehtiramla yanaşılmalıdır. Mən başqa cür hərəkət edə bilmərəm." Sonralar mən belə bir cəhətə diqqət yetirdim ki, Zərifə xanımın evində böyüklərə və bir-birinə hörmət ailənin bütün üzvləri tərəfindən gözlənilir.

O, institutun ictimai həyatında fəal iştirak edir, həmişə yoldaşlarının köməyinə çatırdı. Biz bu köməyi təbii qəbul edərək, unudurduq ki, bəlkə onun özünə də bizim köməyimiz lazımdır. Heç kimin ağlına da gələ bilməzdi ki, çoxlarına yüksək ixtisaslı tibbi





yardımın təşkilində kömək göstərən bir insan öz sağlamlığına bu qədər biganə olacaq. İndi dünyasını dəyişəndən sonra çoxumuz vicdan əzabı çəkirik. Nə üçün onu öz səhhətinə ciddi yanaşmağa, vaxtında həkimlərə müraciət etməyə məcbur etmədik? Zərifə xanım bizi tərk etməklə nəinki yaxınlarını, doğmalarını (onsuz da onlar həmişə bu əziz qadının, ananın, bacının itkisini hiss edəcəklər), həm də bizi xeyirxah, həmişə qayğıkeş bir dost və yoldaşdan məhrum etdi. Onun əziz xatirəsi qəlbimizdə əbədi yaşayacaq və biz çalışacağık ki, sonrakı nəsillər onun başladığı bu xoşməramlı işləri davam etdirsinlər və oftalmologiyaya zəngin töhfələr vermiş bir insanı daim xatırlasınlar. Zərifə Əziz qızı Əliyevanın bir alim kimi gözəl xatirəsi həkimlərin gələcək nəsilləri üçün də həmişə yaşamalıdır.

Biz Zərifə xanımın müasir oftalmologiyaya bir alim kimi verdiyi böyük töhfələrlə yanaşı, onun humanist həkim kimi vəsiyyətlərini də yaddan çıxarmamalıyıq.

**Q.Ə.ADIGÖZƏLOVA-POLÇAYEVA**
*professor, Göz Xəstəlikləri Elmi Tədqiqat İnstitutu direktorunun müavini*

## YANAŞI YOLLAR

Mən Zərifə Əliyeva ilə on il əvvəl – Bakı Hava Hücumlarından Müdafiə dairəsinin oftalmologiya xidmətinə başçılıq elədiyim vaxtlar tanış olmuşdum. O zaman o, istehsalat travmatizmi problemləri ilə məşğul idi və hərbiçilər arasında yanıqların profilaktikasının təşkili ilə əlaqədar bəzi məsələlərlə maraqlanırdı. Mən bilirdim ki, Z.Əliyeva göz travmatizmi probleminə dərindən bələddir və inanmırdım ki, nə iləsə ona kömək edə biləm. İndi görün bir neçə rəngli foto-slaydı göstərəndən sonra onun: "Əladır! Gərək bütün bunları kafedrada nümayiş etdirək" nidasını eşidəndə mən necə həyəcanlandım. Sonra o, üzrxahlıq edərək, tələm-tələsik, yanıltmac deyirmiş kimi soruşdu: "Siz bu slaydları bizə hədiyyə etməzsiniz ki? Sizdə bunların nüsxələri varmı?" Əlbəttə, mən məmnuniyyətlə həmin slaydları və tərtib etdiyimiz "Göz yanıqlarının profilaktikasına dair metodik göstərişlər"i ona bağışladım. Onun elmi tədqiqatlarının şöhrətini əvvəllər çox eşitdiyimdən Zərifə xanımla tanışlığıma xeyli şad oldum.

O vaxt hər ikimiz elmlər namizədi idik. Sonra, az qala eyni vaxtda tibb elmləri doktoru diplomu aldıq. Tezliklə Z.Əliyeva professor oldu və nəhayət, Azərbaycan EA-nın həqiqi üzvü seçildi. Qəribəsi və bəlkə də həqiqi alim üçün qanunauyğun hal budur ki, o, elmin ən yüksək zirvələrini fəth edəndən sonra da öz həmkarlarına yuxarıdan aşağı baxmağı özünə rəva bilmədi. Hələ xəstələri demirəm. Zərifə xanım elmin Olimpinə gedən yolda əvvəllər olduğu kimi sadə, təvazökar, qayğıkeş və xeyirxah idi. Burada, ilk növbədə, onun öz valideynlərindən aldığı tərbiyə, yüksək mədəniyyət və ziyalılıq keyfiyyətləri böyük rol oynayırdı. Bu baxımdan Azərbaycanın xalq yazıçısı İmran Qasımovun Zərifə xanımın atası, görkəmli ictimai xadim Əziz Məmmədkərim oğlu Əliyev barədə dedikləri yada düşür. O bir ata, tibb elmləri doktoru, professor kimi "böyük qızına bu və ya digər tibbi müəssisənin mahiyyətini başa salmaqda kömək eləyə bilərdi, ancaq onun fəaliyyətini himayəyə ala bilməzdi. Bu mənada onun övladları həmin yolu (onlar böyük uğurlar qazanmışdılar) müstəqil keçmişdilər. Və onların yüksəlişi də öz zəhmətsevərliklərinin, şəxsi təşəbbüskarlıqlarının və istedadlarının məhsulu idi."





Zərifə xanım da təbabət sahəsini özünə sənət seçəndən bu xarakteristikanı bütün ömrü boyu, adi həkim-ordinatordan akademikliyə qədər uzanan ağır və şərəfli yolda daim doğrultmuşdu. Bir xüsusiyyəti həmişə dəyişməz qalmışdı: heç zaman, heç bir yerdə şəxsiyyətini gözə soxmazdı. Mən bu barədə ona görə belə qəti əminliklə danışıram ki, Zərifə xanımı həm həmkarlarının dar çərçivəsində, həm xəstələr arasında, həm konfranslarda, plenumlarda, göz həkimlərinin qurultaylarında rəsmi şəraitdə dəfələrlə müşahidə etmək imkanım olub. O, nəinki məni, bütün müraciət edənləri güləruzlə dinləyib, yola salıb. Mənə təsir eləyən o idi ki, Zərifə xanım insanları yalnız dinləməklə qalmırdı, həm də onları eşitməyi bacarırdı. Nadir insanlara xas olan bu keyfiyyət də Zərifə xanıma atasından keçmişdi. Məşhur artist Həmid Rüstəmovun dediyinə görə, Əziz Məmmədkərim oğlu "heç vaxt özünü gözə soxmazdı, başqalarında təəssürat yaratmağa meyl etməzdi. Belə şeylər ona yad idi, o, bunları özünün yüksək mənəvi prinsiplərinə yaraşdırmırdı."

Filosoflardan hansısa deyib: "İnsanın xarakteri onun taleyini müəyyənləşdirir". Zərifə Əliyevanın taleyindən gileylənməyə haqqı yox idi. Çünki onun xarakteri də heyrətamiz idi. Onu yüksək vətəndaşlıq və peşəkar prinsipiallıq səciyyələndirirdi. İstər söhbətlərində, istərsə də məqalələrində – həmişə həkim və oftalmoloq düşüncəsinin təmizliyindən danışır, təəssübkeşliklə bu yolu müdafiə edirdi. O dönə-dönə bildirirdi ki, elmi-texniki tərəqqi dövründə həkimlərin mənəvi-əxlaqi keyfiyyətləri nəinki aşağı düşməməli, əksinə, daha da artmalıdır. Hər cür mənəviyyatsızlıq, ruhi eybəcərlik ona yabançı idi, belə hallar Zərifə xanımın gözünün düşməni idi.

Respublika oftalmoloqlarının elmi cəmiyyətində iclaslardan biri indiki kimi yadımdadır. Bir həmkarımızın işini müzakirə edirdik – həmin adam özünü hər cür reklam etmiş, lakin çox zaman xəstələrə ziyan vurmuşdu. Bir çoxlarının qızğın və ədalətli çıxışlarından sonra iclasda əhval-ruhiyyə coşmuşdu. Onda Zərifə xanım söz aldı. Çıxışına belə başladı ki, bütün sənət sahələrində yüksək etik-əxlaqi tələblərə əməl olunmalıdır. Ancaq həkimlik elə bir işdir ki, burada ümumi tələblərlə yanaşı, xüsusi keyfiyyətlər də zəruri sayılır. Həkim şərəfi, həkim vicdanı, təvazökarlıq və təmənnasızlıq kimi kateqoriyalar təbabətdə olduqca mühüm yer tutur. Bu baxımdan Zərifə xanım həmin həmkarımızın ümumi

işə ziyan vuran əməllərini sərt, kəskin tənqidə məruz qoydu. Bundan sonra iclasda amansız hökmlər daha gur səslə eşidilməyə başladı. İşi belə görəndə Zərifə xanım sözünə ara verdi, gülümsər çöhrəsindən sanki zala nur səpərək, çıxışının tonun dəyişdi. Və bildirdi ki, işinin belə bir nüfuzlu məclisdə müzakirəyə qoyulmasının həmin həmkarımız tərəfindən ciddi nəzərə alınacağına əmindir. Elə buna görə də o, müzakirələrin bununla da kəsilməsini təklif edir və inanır ki, əlavə tədbirlərə ehtiyac qalmayacaq. Deməliyəm ki, Zərifə xanımın yüksək prinsipiallığı çox zaman belə xeyirxahlığıyla çulğaşırdı.

Başqa bir hadisə də yadımdadır. Bir dəfə həyat yoldaşımla məni məşhur dramaturq və şair A.Safronovun "Ürək əməliyyatı" pyesinin ilk tamaşasına dəvət etmişdilər. Həydər Əliyev, Zərifə xanım və pyesin müəllifi də tamaşaya baxmağa gəlmişdi. Bizim Rus Dram Teatrının aktyorları onların qarşısında əsl möcüzə yaratdılar. Onlar xüsusi ruh yüksəkliyi göstərdilər. Öz bənzərsiz oyunları ilə həkimlərin gündəlik həyatından peşəkar və ümumbəşəri şücaət göstərmiş görkəmli cərrahlardan birinin fəaliyyətinin faciəvi taleyini inandırıcı bir tərzdə işıqlandıra bildilər. Həmin cərrah həyatı naminə xəstəsini ölümdən xilas etmişdi. Biz səhnədə baş verənlərə Zərifə xanımın canlı, birbaşa reaksiyasını yaxından izləyə bilirdik. Fasilə zamanı isə tamaşa haqqında onun xoş rəyini eşitdik. Etiraf etdi ki, artistlərin oyunundan gözləri yaşarıb. Zərifə xanımda belə qeyri-adi emosionallıq vardı.

O, həm də son dərəcə dəqiq və məsuliyyətli bir insan idi. Mən artıq buna adət etmişdim. Lakin bir dəfə qəsdən tələsdim və təyin edilmiş vaxtdan 10-15 dəqiqə tez Azərbaycan Həkimləri Təkmilləşdirmə İnstitutunun göz xəstəlikləri kafedrasının yerləşdiyi dördüncü klinik xəstəxanaya gəldim. Tələsmədən kifayət qədər dik pilləkənləri qalxmağa başladım. Üçüncü mərtəbədə Zərifə xanımı görəndə təəccübümdən özümü saxlaya bilmədim. Özümü ona çatdırdım. Zərifə xanım mənimlə salamlaşdıqdan sonra qəflətən soruşdu: "Nədir? Vaxt çatıb ki?" Deməli vədələşdiyimiz vaxt Zərifə xanımın yadında idi. Şöbəyə gələn kimi tapşırdı ki, bizi narahat etməsinlər. Məni kabinetində, yazı stolu arxasında deyil, çox səmimi bir şəraitdə ordinator otağında qəbul etdi. Biz gözlərin mikrotravmatizminə dair birgə monoqrafiyamızın planını müzakirə





edirdik. Çox təəssüf ki, bu arzumuz həyata keçmədi. Bir dəfə mən Z.Əliyevanın qardaşı, Azərbaycan Dövlət Tibb İnstitutunun terapiya kafedrasının müdiri Tamerlan müəllimlə görüşə gedirdim. Elə həmin gün pilləkənlə yuxarı qalxanda birdən mənə elə gəldi ki, bu dəqiqə Zərifə xanımı görəcəyəm. O da adəti üzrə üzünü çevirib gülərüzlə soruşacaq: "Nədir? Vaxt çatıb ki?" Bəli, zaman amansız və rəhmsizdir. Təsəvvür etmək çətindir ki, Z.Ə.Əliyeva bizim aramızda yoxdur. Lakin o, özündən sonra yalnız təkcə xoş xatirə qoyub getməmişdir. O, oftalmoloqlara və yaxın ixtisas həkimlərinə öz nəhəng yaradıcı əməyinin bəhrələrini bəxş etmişdir.

Əsl alim həmişə zəhmətsevər olur. Z.Ə.Əliyevanın müstəqil və müştərək yazdığı kitablar, metodik vəsaitlər, məqalələr qarşımdadır. Bunlar yazı masama güc-bəla ilə yerləşir. Bir çox kitabların ilk səhifələrində onun avtoqrafları var. Bu əsərlərin hər birinin arxasında nə qədər düşüncələr, elmi tapıntılar dayanır. Elmi maraqlar nə qədər geniş olarmış... Burada nələr yoxdur? Oftalmoloji aspektdə istehsal problemlərinin həlli, çox təhlükəli göz xəstəliyi olan qlaukomanın diaqnostikası sirlərinə dərindən nüfuzetmə, diabet retinopatiyası kimi ağır mərəzə düçar olmuş xəstələrə müasir biliklər səviyyəsində kömək göstərmək cəhdləri, öyrənilməmiş bir məsələyə - qövs örtüyünün vəziyyətinə görə göz xəstəliklərinin müəyyənləşdirilməsinin perspektiv metoduna dair kitabın müştərək müəllifliyi...

Oftalmoloqların elmi cəmiyyəti idarə heyətinin Bakıda keçirilən 7-ci plenumun iclaslarını xatırlayarkən qəlbimi xüsusi qürur hissi bürüyür. Plenum 1977-ci ilin oktyabrında, Bakının gözəl payız çağlarında keçirilirdi. Azərbaycan Göz Xəstəlikləri ETİ-nin yubiley konfransı ilə eyni vaxta düşmüşdü. İlk dəfə idi ki, bizim şəhərimizdə oftalmoloqların bu cür yüksək, mötəbər forumu keçirilirdi. Z.Ə.Əliyeva həm də plenumun təşkilində iştirak etmişdi. Hər şey hazır idi, təkcə təşkilati xarakterli çoxlu problem həll olunmalıydı. Bunların hamısı çox yüksək səviyyədə həllini tapdı. Respublikalardan, Moskvadan, Leninqraddan dəvət olunmuş görkəmli qonaqlar öz çıxışlarında və fasilələrdə bu barədə danışırdılar. Fasilələrdən birində respublika EA-nın fonunda plenum iştirakçılarının çəkdirdikləri böyük fotoşəklə baxıram. Onların sayı yüzə yaxındır. Bu adların özü nəyə desən dəyər: Oftalmoloqlar Cəmiyyətinin sədri, Beynəlxalq

Oftalmoloqlar Akademiyasının həqiqi üzvü Eduard Sergeyeviç Avetisov, Helmqolts adına Moskva ETİ-nin direktoru Kseniya Vasilyevna Trutnyova, baş hərbi oftalmoloq Veniamin Vasilyeviç Volkov və bir çox başqa məşhur alimlər. Onların lap ortasında isə həmişəcavan, cazibədar, gülümsər Zərifə Əliyeva dayanıb.

O, plenumda kimya istehsalı şəraitində görmə orqanının peşə xəstəlikləri və onların profilaktika tədbirləri haqqında böyük və maraqlı bir məruzə ilə çıxış etdi. Dünyada ilk dəfə olaraq, Bakıda sənaye oftalmologiyasının problem laboratoriyasının təşkili barədə plenumun misli görünməmiş qərarı bu məruzənin nəticələrindən biri oldu. Həmin mühüm qərar oxunarkən Zərifə xanımın çöhrəsi necə də nur saçırdı. Göz xəstəlikləri kafedrası kimi bu laboratoriya da onun sanki doğma balası idi və Zərifə xanım ömrünün son günlərinədək həmin laboratoriyaya rəhbərlik etmişdi.

Nisbətən qısa müddət ərzində Z.Ə.Əliyeva tibb elmi dairələrində geniş şöhrət qazanmışdı. Adama elə gəlirdi ki, bu, artıq zirvədir. İndi daha sakitləşib istirahət etmək olar. Yox. O, əvvəlki kimi yenə də ideyalar, planlarla yaşayırdı. Həmişə elmi tədqiqatlara hərisliyi və gələcəyə baxmaq qabiliyyəti ilə seçilirdi. O, bununla nəfəs alırdı.

Mən yaxşı dərk edirəm ki, Zərifə xanım elmi, pedaqoji və müalicə fəaliyyətində bir çox görkəmli şəxsiyyətlərlə təmasda olmuşdur. Onların bəziləri bu kitabda öz xatirələrini bölüşürdülər. Bu xatirələr Z.Ə.Əliyevanın yaxın adamları, əməkdaşları, tələbələri üçün xüsusi əhəmiyyət kəsb edir. Mən qarşıma daha kiçik vəzifə qoymuşam: misilsiz alim və gözəl insan Zərifə xanımın portretinin yalnız ayrı-ayrı ştrixlərini çatdırmaq vəzifəsini. İstərdim ki, onun haqqında xatirələrimi Moskva Akademik Teatrının vaxtilə aparıcı aktyorlarından biri olan Boris Petkerin öz görkəmli teatr həmkarlarına ünvanladığı sözlərlə bitirim: "Qəlbində əbədi yaradıcılıq ocağı alovlanan adamlarla yanaşı ömür yolu keçmək nə böyük səadətdir".

**B.İ.VAYNŞTEYN**
*tibb elmləri doktoru, tibb xidməti polkovniki*





## ZƏRİFLİK VƏ BÖYÜK QÜDRƏT

Rəhmətlik atam – Azərbaycan Tibb İnstitutunun hospital cərrahiyyəsi kafedrasının müdiri və Azərbaycan Elmlər Akademiyasının prezidenti Mir Əsədulla Mir Ələsgər oğlu Mirqasımovla respublikanın səhiyyə naziri Əziz Məmmədkərim oğlu Əliyevi qədimi və uzun dostluq münasibətləri birləşdirdiyini yaxşı bildiyimdən Əliyevlər ailəsinə əvvəldən də həmişə dərin hörmət və rəğbətlə yanaşırdım. Biz ailəlikcə Zərifə xanıma sidq-ürəkdən, hərarətli bir münasibət bəsləyirdik. Ancaq işgüzar və məsləhət xarakterli əlaqələrimiz artıb genişləndikcə mənim ona hörmətim get-gedə artır, ona görə qürur hissi duyur, onunla fəxr edirdim. Onun özünə, başqalarına, xidməti vəzifəsinə bəslədiyi saf, tərtəmiz münasibət, nadir insani məziyyətləri, istənilən mürəkkəb vəziyyətlərdə düzgün nəticələr çıxarmağa, hər hansı informasiyanı ani olaraq, təhlil etməyə qadir qeyri-adi dərəcədə iti fəhmi və ağlı, fədakar vətənsevərliyi və bir sıra digər yüksək keyfiyyətləri hamını valeh edirdi. Biz – Zərifə xanımı yaxından tanıyanlar, yer üzündə belə gözəl insanlarla bizi rastlaşdırdığı üçün taleyimizə minnətdar olmalıyıq.

O, insanlara inam, nikbinlik təlqin edir, səmimi bir müdrikliklə faydalı məsləhətlər verir, böyük nəzakət və nəvazişlə onları yanlış yoldan çəkindirir, pis fikirlərdən daşındıra bilirdi. O, ağlagəlməz bir lütfkarlıq və səbirlə həmsöhbətini dinləyərək, söylənənlərin əhəmiyyətsiz tərəflərini nəzakətlə qulaqardına vurar, diqqətini ən əsas və vacib məqamlara cəmləşdirərdi. İşinin həddindən artıq olmasına baxmayaraq, məsələləri ən xırda təfərrüatlara qədər yadda saxlayır, hadisələrin gedişini düzgün hesablamağı bacarırdı.

Digər nadir və seçilən cəhəti də onu başqalarından fərqləndirirdi. Zərifə xanım hər hansı bir məsələyə bütöv təbiətinə xas olan bütün cəhətlər ilə müdaxilə edirdi. Özünün bütün qabiliyyətlərini, ruhunun dərkolunmaz və daxilən tükənməz ehtiyatlarının hamısını bu işə sərf edirdi. O həmişə insanlara təmənnasız olaraq kömək göstərməyə hazır idi. Özgələrin qayğılarını özününkü kimi qəbul eləyə bilirdi və apardığı söhbətlər zamanı onun qara, parlaq gözlərinin dərinliklərindən həmsöhbətinin üzünə nur səpilirdi. Bu, iti zəkanın, ruhlandırıcı xeyirxahlığın həmsöhbətinə yeni nikbinlik bəxş edən, enerji verən nuru, işığı idi.

Onu xalqımızın fəxri olan görkəmli, məşhur Azərbaycan qadınlarının simvolu hesab edirəm. Bu, ən gözəl, ən parlaq və ən böyük insan obrazıdır.

**A.M.MİRQASIMOV**
*Azərbaycanın xalq rəssamı*

***Başımız üstündə bir külək əsir,***
***Bir zaman küləyi, bir vaxt küləyi.***





...Zamandır qəm karvanının bələdçisi. Qəm-qüssə dəryasına salan da, faciə burulğanlarından xilas edən də zamandır. Hər şey zamana baxır. Gözəlliyi yaradan da, məhv edən də zamandır. Gözəllik qarşısında baş əyənlərə unutqanlıq şərbəti içdirən də zamandır. Zaman heç nəyə baxmır! Görəsən niyə belədi, ilahi? Dünyanın əşrəfi sayılan insan zaman qarşısında niyə bu qədər acizdir?!

Zaman bizi dindirir. Biz isə nə qədər istəsək də, onunla danışmaq iqtidarında deyilik. Lakin bizim acizliyimiz nə arzumuzu, nə istəyimizi tükəndirmir. Min bir sualı dinləyən zaman öz axarındadır, zaman axarında... Bəlkə də bütün bəşər tarixi zaman ümmanının nə qədər geniş, nə qədər dərin olduğunu dərk etmək yolunda göstərilən saysız-hesabsz səylərin tarixidir?

Hər şeyə qadirdir bu amansız zaman, amma... Amma amansız olduğu qədər də mərhəmətlidir zaman. Unutqanlıq şərbətini içdirəndə də mərhəmətlidir zaman. Ali məqsədi, yüksək amalı unutdurmağa qüdrəti yoxdur, di gəl, dünyasını dəyişmiş əzizlərimizin həsrətini azaldır, zəiflədir, əslində, bax elə bu məqamda bizi gücləndirir zaman.

Həyat davam edir. Zaman məkanla qovuşub ən böyük itkilərdən sonra belə yaşatmaq istəyir insanı. Bu dünyada yaşatmaq, qəm-qüssəsiz, kədərsiz, həsrətsiz yaşatmaq istəyir bizi. Ən böyük hakim, ən böyük filosof elə zamanın özüdür. Onun hökmləri fərmansız, əmrsiz icra olunur, onun fəlsəfəsi kitablarda yox, talelərdə əks olunur. “Dünya fani dünyadır...” – deməyə nə var ki?!

Elə bir qüvvə varmı ki, o, zamanın amansız hökmlərinə qalib gəlsin? Var, nə yaxşı ki, var. Əbədi bir qüvvə, hədsiz-hüdudsuz bir qüdrətə malik qüvvə. Əslində bu qüvvə fani deyilən dünya ilə əbədiyyət arasında körpü yaratmağa qadir olan bir qüvvədir. Onun mövcud olduğu məkanda zaman acizləşir. Nədir o, kimdir o? Haradan və necə yaranıb ondakı bu qüdrət? Cavab çox sadədir: Sənət! Təkcə sənət qüdrəti qarşısında acizdir zaman. Məhz sənətin qüdrəti ilə bəşəriyyət olum-ölüm körpüsündən keçmək imkanı qazanır. Sənət qüdrəti ilə yaranan ölümsüz əsərlər kainatın sərt qanunlarına qalib gəlməyə qadirdir. Əbədiyyətə qovuşdurur bizi sənət. Əbədiyyət üzərində hökm sürə bilmir zaman. Varlıqla yoxluq körpüsünü fəth edən incəsənət əsərləri də qəm-qüssəni unutdurur, lakin zamanın

unutqanlıq şərbətini içirtməklə yox. Özümüzü, sevgi-məhəbbətimizi, hüsn-rəğbətimizi yaşada-yaşada bizi daha yüksək, daha saf, daha ali məqama yetirməklə.

Yaşasın sənət! Xeyirlə şərin, işıqla zülmətin çarpışmasında bir əbədi nur, bütün şər qüvvələri qəhr edəcəyinə bizi inandıraraq aparan bir qurtuluş yolu, bir nicat körpüsüdür sənət! Əsrarəngiz gözəlliyi, ən yüksək, ən ülvi, ən pak hisləri əbədiləşdirən sənətdir yalnız!

Hər insanın özü bir dünyadır. İnsan qəlbindəki gözəl duyğuların zaman-zaman yaşamaq haqqı var. Neyləmək olar ki, hamı özünü sənət dili ilə, bütün sonrakı nəsillərin anlayacağı bir dillə ifadə edə bilmir. Min şükür sənə, ey Ulu Tanrı ki, o fitri istedadı Allah vergisi olanların simasında bəxş edirsən bizə. Min şükür ki, sənət var, sənətkarlar var. Fitri istedadın qüdrəti ilə sanki bir misra şeirdə, bir tabloda, bir xalça naxışında, bəzən ağac, daş, dəmir üzərində xeyirxahlıq, mərhəmət, mərdanəlik, müdriklik ifadə olunur, əbədiləşir. Məhz bu anda sənət zaman üzərində qələbə çalır, insan isə sənətin qüdrəti ilə zamanı məğlub edir. Bu qələbə zəfərlərin ən dəyərlisidir!

O qadın... artıq bizim aramızda olmayan və nurlu üzünü daha heç vaxt görə bilməyəcəyimiz o qadın bu gün bir heykəl olub daşda qayıtmışdır. Əslində heykələ çevrilmiş bu mərmər parçası əbədiyyətə qovuşmuşdur. Bu sənət əsəri dünyanın bir çox məşhur heykəllərini xatırladaraq öz unikallığı ilə ünlü incəsənət inciləri arasında xüsusi yer tutur. Kimsə deyə bilər ki, bu daşa dönmüş zərif səhər nəğməsidir. Kimsə bu heykəli müdrikliklə mərhəmətin şərəfinə ucaldılmış bir ölməz abidəyə bənzədər. Kimsə bu ağ mərməri əbədi işığın mücəssiməsi kimi qəbul edə bilər. Amma hamı bu fikirdə yekdildir: bu heykəl ilk növbədə insanın zaman üzərində çaldığı qələbə təntənəsidir. Mayası məhəbbətdən, istəkdən, sonsuz hörmət və ehtiramdan yoğrulan sənətkar duyumunun böyük gücü cansız daşı sanki hər şeyi duyan bir canlıya çevirib.

Hər bir sənət əsəri kimi bu abidə bizi də düşündürür. Bu, qeyri-adi düşüncələrdir. Bizi saflaşdıran, müdrikləşdirən təzadlı və çoxşaxəli düşüncələrdir. Biz əbədiyyət və anilik, şəxsiyyət və zaman, itkilər və uğurlar barədə düşünürük. Və məhz insan şəxsiyyətinin və sənətkar zəhmətinin qovuşmasından yaranan bu





duyğu adama göz dolusu sevinc, könül dolusu təskinlik verir. Bu heykəlin formalaşdırdığı qeyri-adi auranı sözlə ifadə etmək çox çətindir. Gözümüz önündə böyük sənət ahəngini qazanmış bu ucalıq hər birimizi vaxtdan, zamandan uca olmağa çağırır.

O qadının parlaq obrazını dirilik suyuna çəkən nur hər birimizi oz ovsununa salır. Ən xırda cizgilərində belə zərif bir işıq yaşadan bu abidə ovqat heykəlidir. Və onun doğurduğu təəssürat onun ziyarətinə gələn insanda yaratdığı ovqatla üst-üstə düşür. Bu keyfiyyət nadir hallarda qazanılan böyük sənət uğuru kimi qəbul edilməlidir.

Abidə önündə istər-istəməz belə fikir yaranır ki, o qadının daxilində yaşayan ziya, nur bu gün onun mərmər əksində ikinci ömür qazanıb. Bu abidə önündə yaranan mühitin, əhval-ruhiyyənin ovsununa düşməmək mümkün deyil. Bu gözəllik məkanında yalnız işıq hökmranlıq edir. Qaranlıqları məhv edən, aləmi nurlandıran, zülməti boğan işıq, şər qaranlığını parça-parça doğrayan müqəddəs, xeyirxah işıq...

Bir qüssəli cümlədən xilas olmaq mümkün deyildir: Bu ömrə necə qıydın, ilahi! Niyə təbiətin elə bir qanunu yoxdur ki, yaxşı insanlar saçına bir dən, üzünə bir qırış, ömrünə vaxtsız əcəl düşmədən zaman-zaman yaşayıb-yaratsınlar?

Ağ mərmərdən dörd yana gur işıq sellənir. O qadının zülmətdən və qaranlqdan zəhləsi gedirdi. O qadın nura can atan pərvanə idi. Günəş qədər parlaq ürək sahibi bütün ömrünü gözə görünmədən, səxavətlə paylaşdığı nura görə təmənna ummadan yaşamışdır. O, yüksək mənəviyyat, əsl mədəniyyət, daxili zənginlik simvolu idi. Əsrlər ötəcək və kimsə deyəcək ki, bəlkə də bu abidə ömürlərə calanmış ömür, işıqlara qüvvət vermiş işıq şərəfinə ucaldılıb. Günəş işığının, nurunun qarşısını kəsmək mümkündürmü? Bu insanın saçdığı işıq arasıkəsilməz bir axardır, hətta o nur sahibi bizim aramızda olmayanda belə...

Qəllbini şam kimi əridib insanların, ondan xeyirxahlıq, işıqü umanların yoluna nur çiləmək onun xasiyyəti idi. Bu sayaq işıq saçmaq günəş adətidir. Tükənməz nur bu böyük qadının zəriflik heykəlinin ruhunda, könül dünyasındadır. Əbədi nur böyük insanlara məxsusdur, əbədi nur obrazını yalnız böyük sənətkarlar yarada bilərlər. Belə sənətkarlıq zirvəsini fəth edən ustad önündə baş əyməkdən savayı özgə bir sitayiş forması yoxdur!

Hər şey zamana baxır, zaman heç nəyə baxmır... Ən böyük hakim, ən böyük mütəfəkkir zaman özüdür. Zamanın təkrarolunmaz, bənzərsiz bir fəlsəfəsi var. Onu dərk etmək üçün bir insan ömrünə düşən zaman payı heç vaxt bəs etmir...

Bu qadını sağlığında görənlərin hamısı onun böyük qəlbə, zəngin daxili aləmə, açıq ürəyə malik bir insan olduğunu təkrarlamaqdan yorulmurlar. Elə bu abidənin bənzərsiz cizgiləri də obrazın bu incə xüsusiyyətlərindən, səmimiyyətindən xəbər verir. Xeyir yolunun yolçusu olanlar dərdi və kədəri də ləyaqətlə yaşayırlar. Onun da qəmi və kədəri şəksiz ki, olub. Bəlkə də kədər insanı müdrikəşdirən ən böyük müəllimdir. Lakin bu xanımın kədəri də nurla boyanmışdı. Obrazın mərmər üzərində həlli zamanı bütün bu məsələlər ustalıqla nəzərə alındığına görə böyük sənət uğuru qazanılmış, niyyətlə nəticə arasında vəhdət yaranmışdır. Beləcə, ürəyi daim işıqla çağlayan bir şəxsiyyət hamı tərəfindən ehtiramla yad edilən böyük bir sənət əsərində daşlaşmışdır.

Abidənin düşüncəli, zərifə bir dalğınlıqla səciyyələnən görkəmi onun kim olduğunu açıqlayır. Həyatın bütün məqamlarında bu qadın varlığın gizli qanunauyğunluqları barədə düşünən bir şəxsiyyət olmuşdur. Əslində bu heykəli məhz buna görə dəqiq cizgilər əsasında işlənmiş portret adlandırmaq olmaz. Bu əsərdə bədii qayə ölçüsüz və hüdudsuzdur. Bütün ömrü boyu bu qadın öz ətrafında yorulmadan qeyri-adi bir zəriflik və xeyirxahlıq dünyası formalaşdırmışdır. Sənət qüdrəti onun bu daşlaşmış obrazında həmin dünyanı əbədiləşdirmişdir.

Daha bir məqam, həm də bu məqam sənət əsərinin incəliklərini az-çox istifadə etmək üçün indiyəcən heykəltəraş yozumu barəsində deyilənlərdən heç də az əhəmiyyət kəsb etmir. Abidə elə bil təbiətlə qaynayıb qovuşmuşdur. Bu, ilahi bir harmoniya, ilahi bir uyarlıqdır. Əslində daşda əbədiləşən qadın obrazı bir parça təbiətin təcəssümüdür. Bu obrazda varlığın özü əks olunmuşdur, damlada dərya əks olunan kimi...

Haqqa qovuşmaq anı barədə çox yazılıb. Bu qovuşma nöqtəsində mütləq dinclik və nəhayətsizlik bərqərar olmalıdır. Fəqət görünməyən, yalnız bəsirət gözü ilə duyulan daxili dinamik heykəlin bütün ünsürlərinə hakim kəsilib. Əslində hər birimizə elə gəlir ki, daxili və zahiri bütövlüyü ilə ideal olan insan surəti ilə həyatımızda ilk dəfə üzbəüz dayanmışıq. Həm də bu ideal insan





surəti mücərrəd bir röya deyil. Təbiətin, həqiqətin qoynundan çıxan və başdan-ayağa həyat eşqi ilə dolu bir varlıqdır bu heykəl. Onu yaşadan məqsədlər və gerçəkliklər bütün insanlara xasdır: yüksək amal naminə yorulub-usanmadan mübarizə, özünü ifadə etmək cəhdi, daxili inam və qətiyyət – bir sözlə, kamil şəxsiyyətlərə qismət olan nə varsa, hamısı.

Hər şey zamana baxır, zaman heç nəyə baxmır... Ürəklərə dərd yükləyən də zamandır! Dərin yaralara məlhəm qoyan da! Quran da zamandır. Dağıdan da... Yer üzündə mövcud olan hər şey – nə fərqi o qəsrdir, qaladır, insandır, məbəddir, dəryadır, meşədir, dağdır – zaman küləklərinin əbədi axarına tab gətirmir, dağılır, solur, qəhr olub gedir. Hər şeyin üstündən bir daha geri dönməyən zaman axıb keçir. Geçənlər gedir, qalanlar gedənlərə bənzəmir...

Ən uca həqiqət də elə ondan ibarətdir ki, zalım və qəddar saydığımız zaman özü də ən şəfalı loğmandır. Amansız olduğu qədər də rəhmdildir zaman. Neçə-neçə göynəyən yaranın üstünə məlhəm qoyulmasa, sağalmaz. O qadın dünyasını dəyişəndən bəri könlümüzün qaysaq bağlamış yarası üstündən xeyli vaxt karvanı ötüb. O illərin qəminə dalıb düşünürsən ki, istək gülləri bitirən könül torpağının özünə çəkib hopdurduğu bütün ağrı və acılara baxmayaraq o insan bəxtiyarlığına qovuşmuşdur. O qadın bütün insanlara sonsuz məhəbbət və sevgi duyğuları ilə yaşayırdı. Və ən əsası bu idi ki, bir könüldən yüksələn istək dalğası saysız-hesabsız ürəklərdə əks-səda tapır, sevdiyi insanları sirli bir ovsun kimi hər cür qada-baladan qoruyur. Beləcə, ömür yolunda addımlaya-addımlaya bu qadın doğmaların, əzizlərin, onu tanıyan hər bir kəsin sevimlisinə çevrilirdi, bu şərəfli yolda onun yol yoldaşları İnam, Ümid və Sevgi idi. Bu üç mənəvi anlayış abidənin ən qabarıq məziyyəti kimi baxılır, yaddaşlara hopur.

Sənətin ideal gözəllik, müdriklik, ülvi bəşəri duyğular, dünyanın yaxşılığa düzələcəyinə inam kimi əbədi meyarları – bütün bunlar bir insanın obrazında cəm olaraq plastik, zərif, əsrarəngiz bir vəhdət yaradır. Daşlaşmış obrazın ahəngdarlığı insanı heyrətə salır, kövrəldir, kədərləndirir, sevindirir. Bu ölməz əsər kamil bir şəxsiyyətin daxili dünyasını əks etdirməklə yanaşı öz yaradıcısının – heykəltəraşın da yüksək ustalığını üzə çıxarır.

Abidə xalqımızın mədəniyyət xəzinəsinə xas olan milli koloriti ilə zəngindir. Bu millilik dünya heykəltəraşlıq təcrübəsi ilə üzvi

bir şəkildə qaynayıb qovuşur. Məhz buna görə əsərin bədii siqləti daha tutumlu, daha vüslətli olur. Əsəri məzmunu kifayət qədər bəşəridir: zaman, təbiət və insan eyni müstəvidə bərqərar olmuşdur. Sadalanan və sadalanmayan hər bir ünsar sənətkar təxəyyülündən süzülərək kamil bir vəhdət təşkil edir.

Bədii ümumiləşdirmə, milli və bəşəri dəyərlərin birləşmə məqamında sənət əsərlərinə ləyaqət gətirən daha bir keyfiyyət üzə çıxır: abidə ümumiləşmiş bir obraz olduğu qədər də gerçəkliyə, prototipə uyğundur, dəqiqdir və bədii məqsədin çözülməsinə xidmət edir.

Heykəl fərdi və tipik cizgiləri ilə diqqəti cəlb edir. Obraza fərdi cizgilər prizmasından yanaşma xarakterin üstün keyfiyyətlərini, onun daxili "mən" ini açmaqla yanaşı orijinal və unudulmaz sənətkar duyumuna işıq salır. O müqəddəs işıq, o gözəl nur şübhəsiz ki, fərdi cizgilərin işlənməsi zamanı tapılmış bədii uğurdur. O işıq insanı ölümsüzlüyə bərabər duyğular dəryasına qərq edir. Və bir daha inanırsan ki, belə bir insan fövqəladə dərəcədə nura bənzəyir. Elə buna görə də o bu dünyada olarkən insanlara bu qədər sevinc bəxş edib. İnsan işıq görəndə sevindiyi qədər heç nəyə sevinmir: fərqi yox, o işıq göy üzünün günəşindən, səhərin quş nəğməsindən axır, aydan, ulduzdan saçılır, yaxud üzbəüz dayandığı insanlardan hopur... Ağappaq mərmərə hopmuş insan izi, insan işığı isə ən azı zamandan və ölümdən güclüdür.

Ey bu müqəddəs torpağın sinəsindən ötüb keçən yolçu! Bu həzin sükut, bu bəyaz işıq, bu ağ mərmərdən saçılan nur ana adına, ana şərəfinədir. Analar yenilməz olur. Bu heykəl bəlkə də hər şeydən daha çox ana abidəsidir. Analı dünya haqqında duyğu bədii obrazın ruhunu təşkil edir. Zərif plastika, təbii cizgilər, daşa çevrilmiş anın və duyğuların düzümü yer üzünün bütün analarına məxsus cəhətləri lakonik bir şəkildə ümumiləşdirir.

Ağ mərmərdə qəribə bir istilik, hərarət duyulur... Anaların qəlbi günəş kimidir! Bəzən sənətkardan asılı olmayaraq bu mövzuları vaxtın özü diqtə edir. Bu heykəldə olduğu kimi: görünür bizim yüzilliyin sonunda, bir çox mənəvi dəyərlərin qəhətə çıxdığı bir vaxt kəsiyində ideal insanı xarakterizə edən əsərlər bəşəriyyətə hava və su kimi gərəkdir. Hər gün neçə-neçə qədirbilən insan tərəfindən yad edilən bu qadının abidəsi gözəlliyin özü kimi kamil, dərin və unudulmazdır.





Onun ciddi və qüssəli baxışları harasa uzaqlara yönəlib: sanki nigaran baxışların sahibi öyrənib bilmək istəyir ki, onun olmadığı illərdə biz necə yaşamışıq, nələr çəkmişik, hansı təqiblərə, zülmə məruz qalmışıq. Obrazın bədii həllindəki daxili ahəngdarlıq, həzinliyi tamamlayan dinamika, bir çox digər məziyyətlər eyni məram nöqtəsində birləşərək nəyi təcəssüm etdirir? Bəli, yenə və yenə də danılmaz bir həqiqətə qayıdırıq: heykəltəraş bu unikal əsərin xeyrin, mərhəmətin, işığın qələbəsinə inanaraq yaratmışdır. Nəticədə həyat həqiqəti ideal bir biçimdə sənət həqiqətinə çevrilmişdir. Əslində, Yer kürəsində bütün anaları təcəssüm etdirən kamil bir incəsənət nümunəsi yaradılmışdır.

Sevgi əbədidir, bütün istəklərin sonu ayrılıq və qəm olsa belə ən sonda insan sevgisi zəfər çalır. Bu qeyri-adi abidədə dünyanın minillik ayrılıq həqiqəti heykəltəraş tərəfindən dərin psixoloji planda yozum tapmışdır. Heykəli ayrılıq anının hamıya tanış cizgiləri bürümüşdür. Ən qəribəsi budur ki, cizgilərin, dinamik işləmələrin düzümü qüssə, kədər, ayrılıq, hicran mövzunun əbədi pafosuna xələl gətirə bilmir. Bu əsərə baxarkən dərdin, qəmin özü belə işıq saçır, nur çiləyir. "Biz dərdin, kədərin özündən belə dünyada səadət yaratmalıyıq..."

Görünür, elə nadir obrazlar var ki, onlarla xəyalən görüşərkən zaman unudulur. Bu obraz öz qüdrətini, öz ahəngini qadın gözəlliyi və müdrikliyindən alır. Onun nurlu baxışları, zərif əlləri, gözəl siması olduğu qədər də realdır. Fövqəladə, ilahi bir varlığın canlı obrazı bütün insanları mənalı yaşamağa, xeyirxahlıq və humanizm naminə ucalığa səsləyir. Beləcə, reallığın əbədiyyəti yaranır.

Deyirlər hər bir Böyük İnsanın qəlbində Böyük bir Qadın qərar tutur. Zərifə xanım Əliyeva məhz Dahi İnsan qəlbinin yurdçusu olan Dahi Qadındır. Onun abidəsi bu həqiqəti bir daha sübuta yetirir.

Dünyada ana, qadın şərəfinə ucaldılmış abidələr çoxdur. Onların hamısı qiymətlidir, onların hamısı bəşəriyyətin mədəni sərvətlər xəzinəsinə daxil olmuşdur. Akademik Zərifə xanım Əliyevanın – o unudulmaz şəxsiyyətin abidəsi isə bir də ona görə qiymətlidir ki, o böyük alim haqqında, şam kimi ərimiş bir ömür haqqında, insanlara işıq, nur bəxş edən təmənnasız günəş yaxşılığı haqqında solmaz bir nəğmədir. Mərmər dili ilə oxunmuş əbədi məhəbbət və mərhəmət nəğməsi!..

**FATMA ABDULLAZADƏ**

# ƏBƏDİYYƏTƏ QOVUŞAN İŞIQ...





Elmi və tibbi ictimaiyyətə, sovet oftalmologiyasına ağır itki üz vermişdir. 1985-ci il aprelin 15-də görkəmli alim, ictimai xadim, Azərbaycan EA-nın akademiki, tibb elmləri doktoru, professor, Ə.Əliyev adına Azərbaycan Dövlət Həkimləri Təkmilləşdirmə İnstitutu oftalmologiya kafedrasının müdiri, Azərbaycan EA Fiziologiya İnstitutunun laboratoriya rəhbəri, Azərbaycanın əməkdar elm xadimi, Tibb Elmləri Akademiyası mükafatı laureatı, Sülhü Müdafiə Komitəsinin üzvü, "Bilik" Cəmiyyəti Rəyasət Heyətinin üzvü Zərifə Əziz qızı Əliyeva vaxtsız vəfat etmişdir.

Aprelin 17-də Moskvada Z.Ə.Əliyevanın dəfn mərasimi keçirilmişdir.

Elmlər Akademiyasının Alimlər Evi matəm libasına bürünmüşdür. Mərhumun cənazəsi qoyulmuş yüksək postament gülçiçəyə qərq olmuşdur. Cənazənin önünə yeni-yeni əklillər gətirilir. Bunların arasında paytaxtın bir sıra rayonlarının zəhmətkeşlərindən, Nazirlər Sovetinin Katibliyinin və şöbələrinin əməkdaşlarından, Azərbaycan Ali Soveti Rəyasət Heyətindən, Sülhü Müdafiə Komitəsindən, "Bilik" Cəmiyyəti İdarə Heyətindən, Oftalmoloqların Elmi Cəmiyyətindən, İctimai Elmlər Akademiyasından, Gürcüstan Ali Sovetinin Rəyasət Heyətindən və Nazirlər Sovetindən, Mülki Aviasiya, Yollar, Dəniz Donanması, Tibb Sənayesi, maarif nazirliklərindən, bir çox başqa nazirlik və baş idarələrdən, Birinci və İkinci Moskva tibb institutlarından, Mərkəzi və Azərbaycan Həkimləri Təkmilləşdirmə İnstitutlarından, "Oftalmologiya xəbərləri" jurnalının redaksiyasından, Azərbaycan Nazirlər Sovetinin Moskvadakı daimi nümayəndəliyindən, çoxsaylı elm, tədris və sənaye müəssisələrindən, K.M.Bağırovun, Q.A.Xəlilovun, H.N. Seyidovun ailələrindən, mərhumun dostlarından, və yaxın adamlarından, Əfqanıstan Demokratik Respublikasının səfiri Həbibi Manqaldan, Bolqarıstan Xalq Respublikasının səfiri Dmitri Julevdən əklillər vardır, başqa ölkələrin səfirlikləri adından tər gül-çiçək dəstələri gətirilmişdir.

Böyük bir əklilin matəm lentinin üzərində yazılmışdır: "Hədsiz dərəcədə sevdiyim əziz və əvəzsiz həyat yoldaşım Zərifə Əziz qızına Heydər Əlirza oğlundan." Bu əklilin yanında mərhumun uşaqlarından, nəvələrindən əklillər qoyulub. Lentlərin üzərində yazılmışdır: "Əziz, sevimli və unudulmaz anamıza Sevildən və

Mahmuddan", "Əziz, sevimli və unudulmaz anamıza Mehribandan və İlhamdan", "Əziz, sevimli nənəmizə Zərifədən, Əhməddən və Leyladan".

Bu hüznlü gündə Moskva səmasını səhərdən qara buludlar almışdır. Yağış gah yağır, gah da ara verir. Lakin Alimlər Evinin yerləşdiyi Krapotkinsk küçəsi və qonşu məhəllələrlə ucu-bucağı görünməyən insan axını Zərifə Əziz qızı Əliyeva ilə vidalaşıb son borcunu ona verməyə tələsir.

Matəm melodiyaları səslənir:

V.İ.Vorotnikov, A.A.Qromıko, N.A.Tixonov, V.M.Çebrikov, Y.K.Liqaçov, K.V.Rusakov, N.İ.Rıjkov, N.K.Baybakov, İ.İ. Bodyul, V.E.Dımşits, N.V.Martinov, G.İ.Marçuk, Z.N.Nuriyev, Y.P.Ryabov, N.V.Talızin, V.V.Smirnov, B.Y.Şerbina, T.N.Menteşaşvili, yoldaşlar Z.Ə.Əliyevanın parlaq xatirəsini yad etmək, H.Ə.Əliyevə, mərhumun başqa ailə üzvlərinə dərin hüznlə başsağlığı vermək üçün buraya gəlmişlər.

K.M.Bağırov, H.Ə.Həsənov, S.Ç.Qasımova, H.N.Seyidov, S. B.Tatlıyev, Q.A.Xəlilov, Z.M.Yusifzadə yoldaşlar, SSRİ Səhiyyə naziri S.P.Burenkov, SSRİ EA prezidenti A.P.Aleksandrov, SSRi Tibb Elmləri Akademiyasının prezidenti N.N.Bloxin, Sülhü Müdafiə Komitəsinin sədri G.A.Jukov, respublikaların Nazirlər Sovetlərinin sədrləri, Azərbaycana bir sıra nazirlik və baş idarələrinin rəhbərləri, görkəmli sərkərdələr, alimlər, mədəniyyət xadimləri, ictimaiyyət nümayəndələri fəxri qarovulda dayanmışlar.

V.İ.Vorotnikovun, V.V.Qrişinin, A.A.Qromıkonun, Q.V.Romanovun, B.N.Ponamaryovun, V.M.Çebrikovun, İ.V.Kapitonovun, Y.K.Liqaçovun, K.V.Rusakovun, N.İ.Rıjkovun, mərhum L.İ.Brejnevin, K.U.Çernenkonun həyat yoldaşları öz kədərlərini bildirmək, mərhumun ailəsinə başsağlığı vermək üçün buraya gəlmişlər.

Mərhumun həmkarları – tibb işçiləri, elm və mədəniyyət xadimləri, əmək kollektivlərinin nümayəndələri tibb elminə və praktikasına, yüksək ixtisaslı tibb kadrlarının hazırlanması işinə sanballı töhfələr vermiş həkim, alim və pedaqoqa dərin ehtiram və minnətdarlıq borcunu yerinə yetirərək cənazənin qarşısından keçirlər. Bu kədərli anlarda Z.Ə.Əliyevanın parlaq xatirəsini yad etməyə gələnlər arasında onun çoxsaylı tələbələri də vardır. Z.Ə. Əliyeva onlara həmişə nəinki öz dərin biliklərini, həm də ürəyinin hərarətini, işə əvəzsiz sədaqət ruhunu verməyə çalışmışdır.





Budur, salon boşalır: nərhumun ən yaxın adamları sonuncu dəfə vidalaşmaq üçün onunla təklikdə qalırlar.

Saat 16-dır. Hüznlü melodiyanın sədaları altında mərhumun cənazəsi Alimlər Evinin binasından çıxarılır.

Küçəni bürüyən matəm korteji Novodeviçye qəbiristanlığına yönəlir. Burada matəm mitinqi keçirildi.

Matəm mitinqini SSRİ səhiyyə naziri S.P.Burenkov açdı.

O dedi: Tibb elmi, səhiyyəmiz ağır itkiyə məruz qalmışdır. Böyük alim və ictimai xadim, tibb elmləri doktoru, Ə.Əliyeva adına Azərbaycan Dövlət Həkimləri Təkmilləşdirmə İnstitutu göz xəstəlikləri kafedrasının müdiri, professor Zərifə Əziz qızı Əliyeva vaxtsız vəfat etmişdir. O, həmçinin Azərbaycanın əməkdar elm xadimi, Sülhü Müdafiə Komitəsinin üzvü, "Bilik" Cəmiyyəti İdarə Heyətinin üzvü idi.

O, N.Nərimanov adına Azərbaycan Dövlət Tibb İnstitutunu bitirmiş, sonra isə Moskvada Mərkəzi Həkimləri Təkmilləşdirmə İnstitutunda oftalmologiya üzrə ixtisas kursu keçərək Azərbaycan Elmi Tədqiqat Oftalmologiya İnstitutunda işləmişdir. Burada o ordinatordan baş elmi işçiyədək böyük və çətin yol keçmiş, tibb dairələrində böyük nüfuza malik görkəmli mütəxəssis kimi yetişmişdir. Zərifə Əzizovnanın fəaliyyətinin bir çox illəri onun atası, görkəmli həkim və vətəndaş Əziz Əliyevin adını daşıyan Azərbaycan Dövlət Həkimləri Təkmilləşdirmə İnstitutu ilə bağlı olmuşdur.

Z.Ə.Əliyeva özünü tibbi tədqiqatların istedadlı təşkilatçısı, sənaye oftalmologiyası sahəsində görmə orqanının peşə patologiyası məsələləri üzrə mütəxəssis, dərin klinik təfəkkürə və zəngin pedaqoji təcrübəyə malik alim kimi göstərmişdir. O, ölkədə ilk dəfə olaraq sənaye istehsalının müxtəlif sahələrində göz xəstəliklərinin profilaktikasına dair geniş tədqiqatlar aparmışdır.

Zərifə Əliyeva tibb elminə və praktikasına, yüksək ixtisaslı tibbi kadrların hazırlanmasına əvəzsiz töhfələr vermişdir. Onun çoxcəhətli elmi fəaliyyətinin nəticələri 130 əsərdə, o cümlədən 5 monoqrafiyada, həkimlər üçün bir sıra dərs vəsaitlərində, sənayenin müxtəlif sahələrində göz zədələrinin profilaktikasına dair metodik tövsiyələrdə öz əksini tapmışdır. Kimya sənayesində göz zədələnmələrinin öyrənilməsinə və praktikasına dair orijinal əsərlər silsiləsinə görə Tibb Elmləri Akademiyası onu akademik M.İ.Averbax

adına mükafatla təltif etmişdir. Z.Ə.Əliyevanın Azərbaycan EA-nın akademiki seçilməsi onun böyük xidmətlərinin, çoxillik səmərəli Elmi Tədqiqat işinin etirafıdır. O, oftalmologiya sahəsində böyük bir mütəxəssislər dəstəsi hazırlamışdır.

Z.Ə.Əliyeva ilə birgə işləyənlərin hamısı onu böyük alim, ictimai xadim, insanlara xeyirxahlıq bəxş edən bir şəxsiyyət kimi tanıyırdılar.

Natiq tibb ictimaiyyəti adından dərindən kədərləndiyini bildirdi və mərhumun qohumlarına və yaxın adamlarına başsağlığı verdi. S.P.Burenkov dedi: Böyük alim, həkim, pedaqoq, həssas və qayğıkeş insan Zərifə Əliyevanın parlaq xatirəsi qəlbimizdə əbədi yaşayacaqdır.

Mərkəzi Həkimləri Təkmilləşdirmə İnstitutunun kafedra müdiri professor N.B.Şulpina çıxış etdi.

O dedi: Ölkəmizin oftalmoloqları bizə qəfil üz vermiş bədbəxt hadisədən mütəəssir olmuşlar. İnanmaq istəmirsən ki, tibb doktoru, professor, əməkdar elm xadimi, Tibb Elmləri Akademiyası mükafatının laureatı, Azərbaycan EA-nın akademiki Zərifə Əliyeva artıq bizimlə deyil.

Onun bir alim, pedaqoq, həkim kimi istedadı öz çoxcəhətliliyi və dərinliyi ilə insanı heyrətə gətirirdi. Zərifə xanım canlı zəkası, orijinal mühakimələri və parlaq mətbu çıxışları ilə seçilirdi.

O özünün insan təravəti, səmimiliyi, başqalarının kədərinə yanması və köməyinə çatması, ən ağır anlarda insana dayaq durması ilə hamının hörmətini qazanmışdı. Zərifə xanımla ünsiyyət saxlamaq səadətinə nəsib olmuş hər bir şəxs onun bu insani keyfiyyətlərini öz üzərində hiss etmişdir.

Zərifə Əliyeva seçdiyi sənətin yorulmaz fədaisi idi. Oftalmoloq həkimlərin diplomdan sonrakı hazırlığı sahəsində iş onun fəaliyyətinin əsasını təşkil edirdi. O, uzun illər boyu Əziz Əliyev adına Azərbaycan Həkimləri Təkmilləşdirmə İnstitutundakı göz xəstəlikləri kafedrasının dosenti, sonra isə professoru və müdiri vəzifəsində çalışaraq öz sevimli atasının – respublika səhiyyəsinin görkəmli təşkilatçısının işini davam etdirmiş, oftalmoloji kadrların hazırlanmasını yüksək səviyyəyə qaldırmışdır.

Zərifə xanım Moskva və Azərbaycan tibb işçilərinin uzun illər səmərəli dostluq əlaqələrinin təşəbbüskarı olmuşdur. Onun səyləri ilə Mərkəzi Həkimləri Təkmilləşdirmə İnstitutu oftalmologiya kafedrasının əməkdaşları tərəfindən Azərbaycanın göz həkimlərinin səyyar təkmilləşdirilməsi işi aparılmışdır. İndi biz Zərifə xanımın öyüdlərini yerinə yetirməkdə davam edərək əvvəlki kimi yenə də respublika üçün aspirantlar hazırlayırıq.





Zərifə Əliyeva özü mühazirələr oxuyar, xəstələrin, xüsusilə görmə orqanlarının peşə patologiyalarına tutulanların klinik müayinəsini keçirər, bunları ümumiləşdirər və dərindən təhlil edərdi. Peşə xəstəlikləri problemi elmdə sözün əsl mənasında onun adı ilə bağlıdır, onun bu sahədə etdiyi ixtiralar alimin Bakıdakı şin və yod zavodlarında peşə patologiyaları təzahürlərinə dair iki nadir monoqrafiyasında əks olunmuşdur. Həmin əsərlərinə, eləcə də orijinal elmi məqalələr silsiləsinə görə müəllif fəxri akademik mükafatlarına layiq görülmüşdü.

Parlaq pedaqoq olan, şifahi və yazılı nitqin qayda-qanunlarını gözəl bilən Zərifə xanım oftalmologiya tarixində həkim praktiklər üçün yazdığı bir sıra dərs vəsaitləri ilə də dərin iz buraxmışdır. Bunlar onun son illərdə nəşr etdirdiyi “Oftalmologiyanın aktual problemləri”, ilk dəfə nəşr olunmuş “İridodiaqnostikanın əsasları” kitabı, “Həkimin mənəvi tərbiyəsi, deontologiya, tibb etikası, əxlaq məsələləri” bölməsidir. Onun son mətbu əsəri lap yaxınlarda, 1984-cü ilin sonlarında çapdan çıxmışdı. Bu “Oftalmoloq kadrlarının təlim-tərbiyəsi” idi.

Lakin Zərifə xanım öz ixtisasının və ictimai fəaliyyətinin çərçivələrinə qapanıb qalmamışdı. Onun maraq dairəsi xeyli geniş idi. O, incəsənətə də həvəs və maraq göstərir, musiqi duyumu ilə adamı heyrətə salırdı. Peşəkar səviyyədə fortepiano çalır, öz müşayiəti altında həzin səslə gözəl mahnılar oxuyurdu.

Zərifə xanımı həmişə insanların əhatəsində görmək olardı. O, ətrafındakıları bir nur kimi özünə cəlb edirdi. Uşaqları sevir, onlara xüsusi zərifliklə yanaşırdı. Yaşamaq, yaratmaq, səhiyyəmizə, öz tələbələrinə, həmkarlarına faydalı olmaq onun ən böyük arzusu idi. O, son günlərinə qədər yaradıcılıq planlarından söz açmaqdan doymurdu...

Biz öz aramızda bu təkrarolunmaz insanı, tükənməz nikbinlik xəzinəsini, şəfqətli qadını oftalmologiyanın mirvarisi adlandırırdıq. Bu günlərdə fəxrimiz olan bu böyük alimin elmi ideyalarını əks etdirən yeni kitablar işıq üzü görəcəkdir. Onun xatirəsi təkcə bu kitablarda deyil, bizlərin hər birimizin qəlbində əbədi yaşayacaqdır.

Zərifə xanımın elmi irsi unudulmazdır, insanların sağlamlığı naminə bizim birgə səylərimizlə elmin bu istiqamətləri daha da inkişaf etdirilməlidir.

Zərifə Əliyevanın işıqlı obrazı yüksək vətənpərvərlik və humanizm nümunəsi kimi həmişə bizimlə qalacaqdır. Zərifə xanım elə bir böyük cazibə və kristal təmizlik sahibi idi ki, onun qarşısında diz çöküb baş əyməmək mümkün deyildir.

**Tribunaya Azərbaycan EA-nın prezidenti Eldar Salayev qalxır.**

O deyir: Bu gün biz ən görkəmli sovet oftalmoloqlarından birini – böyük alim, gözəl pedaqoq, ictimai xadim, Elmlər Akademiyasının həqiqi üzvü, Azərbaycan əməkdar elm xadimi Zərifə Əziz qızı Əliyevanı dərin hüzn və ürək ağrısı ilə son mənzilə yola salırıq. O, öz parlaq həyatının hər bir anını öz xalqına, onun elminə, insanların sağlamlığı elminə həsr etmişdir. Z.Ə.Əliyeva oftalmologiyanın inkişafına böyük töhfələr vermişdir. Elmi tədqiqatların bacarıqlı təşkilatçılığı, dərin klinik düşüncə, parlaq pedaqoji istedad onun şəxsində üzvi surətdə qovuşmuşdu. Bu, çox nadir şəxsiyyətlərə nəsib olan bir keyfiyyətdir. Görmə orqanının peşə patologiyalarına həsr olunmuş tədqiqatları onu nəinki ölkəmizdə, onun hüdudlarından uzaqlarda da tanıdırdı. Həmin araşdırmaları alimin beş nəhəng monoqrafiyasında və yüzdən artıq digər elmi əsərlərində öz əksini tapmışdır. Bu əsərlər nəzəri və tətbiqi baxımdan müstəsna əhəmiyyət daşıyır.

Zərifə xanımın öz tədqiqatları ilə elmin yeni və perspektivli bir sahəsinin – sosial oftalmologiya adlandıra biləcəyimiz istiqamətin əsasını qoyduğunu söyləməyə bu gün bizim haqqımız çatır. Görmə orqanının peşə zədələnmələrinə həsr etdiyi silsilə tədqiqatlarına görə Zərifə Əziz qızı Tibb Elmləri Akademiyasının akademik M.İ.Averbax adına mükafatına layiq görülmüşdür. Ölkəmizdə ilk dəfə olaraq məhz o, Bakı Məişət Kondisionerləri Zavodunun nəzdində Azərbaycan EA Fiziologiya İnstitutunun görmə orqanının fiziologiyası və peşə patologiyası laboratoriyasını təşkil etmişdi. Bu, unikal bir elmi müəssisədir. Orada müxtəlif kimyəvi amillərin təsiri şəraitində çalışan şəxslərin klinik-fizioloji və morfo-histokimyəvi xarakteristikalarına dair tədqiqatlar aparılır. Dünyada misli-bərabəri olmayan bu elmi tədqiqatların bir çoxunun rəhbəri və ilhamvericisi Zərifə xanım idi.





Z.Ə.Əliyeva öz elmi işlərinin nəhəng həcmini yerinə yetirməklə kifayətlənmir, eyni zamanda yüksək ixtisaslı gənc oftalmoloq kadrlarının yetişdirilməsinə də çoxlu qüvvə və bilik sərf edirdi. O, nüfuzlu elmi məktəbin əsasını təşkil eləyən bütöv bir istedadlı alimlər dəstəsi yetişdirmişdi.

Elmi və elmi-pedaqoji fəaliyyəti ilə birlikdə Zərifə xanım böyük ictimai iş aparırdı. O, uzun illər boyunca Sülhü Müdafiə Komitəsinin üzvü idi. “Bilik” Cəmiyyətinin İdarə Heyətinə, “Oftalmologiya xəbərləri” jurnalının redaksiya heyətinə, Oftalmoloqların Elmi Cəmiyyətinin Rəyasət Heyətinə daxil idi.

Hökümətimiz Z.Ə.Əliyevanın səmərəli elmi, pedaqoji və ictimai fəaliyyətini yüksək qiymətləndirmişdi. Sovet səhiyyəsinin və tibb elminin inkişafındakı xidmətlərinə görə orden və medallarla təltif olunmuşdu.

Zərifə xanım həmişə öz vətəndaş və peşə borcunu dərindən dərk etməsi, işinə yaradıcı münasibəti, təvazökarlığı və əməksevərliyi, bir insan kimi lətafəti, iş yoldaşlarına hörmətlə yanaşması ilə fərqlənirdi.

Bütün ömrünü insanlara xidmət işinə həsr etmiş bir insanı son mənzilə yola salmaq həddən artıq ağırdır. Biz hamımız bu erkən, vaxtsız və əvəzedilməz itkidən dərindən sarsılmışıq. Unudulmaz Zərifə xanım hələ insanlara nə qədər fayda verə bilərdi. Onun haqqında belə düşünməyin özü də çətindir. Bircə şey ürəklərimizə təskinlik verir ki, onun adı müqəddəs elm məbədində, qədirbilən xalqımızın hafizəsində əbədilik həkk olunmuşdur.

Natiq sözünün sonunda Azərbaycan alimlərinin dərd və ələmini ifadə edərək bu ağır dəqiqələrdə Zərifə Əliyevanın ailəsinə dərin hüznlə başsağlığı verdi. Dedi ki, mərhumun adı həmişə Vətənə sədaqət simvolu kimi ürəklərdə yaşayacaqdır.

Söz Əziz Əliyev adına Azərbaycan Dövlət Həkimləri Təkmilləşdirmə İnstitutunun rektoru, Tibb Elmləri Akademiyasının müxbir üzvü M.C.Cavadzadəyə verildi.

O dedi: Biz Azərbaycan Dövlət Həkimləri Təkmilləşdirmə İnstitutunun göz xəstəlikləri kafedrasının müdiri, Azərbaycan EA-nın akademiki, tibb elmləri doktoru, professor, Azərbaycan əməkdar elm xadimi Zərifə Əziz qızı Əliyevanın vaxtsız vəfatı xəbərini dərin hüzn və ürək ağrısı ilə qarşıladıq.

Yaradıcılıq gücünün çiçəklənən dövründə dünyadan vaxtsız köçmüş bu böyük alimin ağır itkisindən keçirdiyimiz sarsıntını dilə gətirmək mümkün deyil.

Zərifə xanımın təxminən on səkkiz illik həyatı və fəaliyyət yolu Əziz Əliyev adına Azərbaycan Dövlət Həkimləri Təkmilləşdirmə İnstitutunun göz xəstəlikləri kafedrası ilə sıx bağlı olmuşdur. O, burada əmək fəaliyyətinə dosent kimi başlamışdır.

Çoxlarınız Zərifə xanımın Moskva Elmi-Tədqiqat Göz Xəstəlikləri İnstitutunda müvəffəqiyyətlə keçmiş doktorluq dissertasiyasının müdafiəsini xatırlayırsınız. O, həmin işdə görmə orqanının müasir patologiyalarının aktual problemlərini dərindən öyrənərək elmi oftalmologiya və gigiyenaya dəyərli töhfələr vermişdir.

Zərifə xanım bizim institutun göz xəstəlikləri şöbəsinin professoru olmuş, sonra isə müdiri seçilmiş və ömrünün sonuna qədər bu vəzifənin öhdəsindən uğurla gəlmişdir. Qısa bir vaxtda o, kafedranın reorqanizasiyasını keçirmiş, onu yeni cihazlar və avadanlıqlarla təchiz etmiş, öz ətrafına istedadlı gənclər toplayaraq elmi tədqiqatlara yeni istiqamətlər verə bilmişdir. Bütün bunlar onun rəhbərlik etdiyi klinikanın nüfuzunu, elmi-pedaqoji avtoritetini az bir müddətdə artırmağa imkan yaratmışdı.

Hədsiz zəhmətsevərlik, böyük təşkilati iş bacarığı, xeyirxahlıq, güclü şəxsi cazibə, hər bir əməkdaşa daim kömək göstərmək və eyni zamanda bu işi tələbkarlıqla sıx surətdə qovuşdura bilmək... Bütün bu - əsl alimə xas yüksək insani keyfiyyətlər Z.Ə.Əliyevaya imkan vermişdi ki, kafedradakı vəzifəsini yerinə yetirməklə birlikdə həm də ölkəmizdə ilk dəfə olaraq görmə orqanının patologiyasının öyrənilməsi üzrə elmi-tədqiqat laboratoriyası açıb onun da işinə rəhbərlik eləyə bilsin. Azərbaycanın kimya, neft-kimya, maşınqayırma, elektronika sənayesi işçilərinin peşə ilə əlaqədar göz xəstəlikləri sahəsində onun apardığı tədqiqatlar məşhurdur. Zərifə xanımın rezin və yod sənayesində görmə orqanının zədələnmələri ilə bağlı metodik göstərişləri ölkəmizin istehsal obyektlərində fəaliyyət göstərən poliklinika və tibbi-sanitar bölmələrində geniş istifadə olunur.

Z.Ə.Əliyevanın xarakterik cəhətlərindən biri də təbabət sahəsindəki yeniliklərə diqqətcillik, həmin yenilikləri öz elmi yaradıcılıq sferasına daxil etmək və tədqiqat nəticələrinin klinik praktikada tətbiqi idi. Elə son illərdə institutumuzda araşdırılan irsi xəstəliklər problemləri də buna görə onu maraqlandırmış və Zərifə xanım həmin problemin öyrənilməsinə qoşulmuşdu. Sevimli akademik yoldaşımızın elmi işlərindəki rəngarənglik onun maraq və tədqiqat dairəsinin nə qədər geniş olduğuna əyani sübutdur.





Təcrübəli pedaqoq kimi Z.Ə.Əliyeva oftalmoloq kadrlarının ixtisasının artırılmasına böyük diqqət yetirirdi. Onun rəhbərlik etdiyi kafedra oftalmologiya üzrə metodik-təşkilati mərkəzə çevrilmişdi. Burada həkimlərin təkmilləşdirilməsinin yeni formaları yüksək pedaqoji ustalıqla tətbiq edilir, tədris prosesi üçün daha yeni və daha optimal metodlar tapılırdı.

Xəstələrə yüksək ixtisaslı yardım işinin təşkili üzrə Zərifə xanımın xidmətləri də misilsiz olmuşdur. Hərtərəfli klinik erudisiya, geniş cərrahiyyə diapozonu, insanlara həssas münasibəti həmkarları və xəstələri arasında ona böyük hörmət-izzət gətirmişdi.

Bizi vaxtsız tərk etmiş məşhur alim, istedadlı oftalmoloq cərrah və pedaqoq, savadlı həkim, həssas və qayğıkeş yoldaşımız akademik Zərifə Əziz qızı Əliyevanın işıqlı xatirəsi onunla işləyənlərin, onu tanıyanların qəlbində həmişə yaşayacaqdır.

Biz Zərifə xanımın nurlu siması qarşısında baş əyirik.

Əlvida, əziz dostumuz, bacımız!

N.M.Piroqov adına İkinci Moskva Tibb İnstitutu göz xəstəlikləri kafedrasının müdiri, professor A.P.Nesterov:

- Zərifə xanımı tanıyanlar onu sevməyə bilmirdilər. Qadın zərifliyi, ipək kimi yumşaq xasiyyət, xeyirxahlıq, ailəsinə, dostlarına böyük məhəbbət və sədaqət hissləri onun şəxsiyyətində müstəsna zəhmətsevərlik, qarşıya qoyulmuş məqsədə çatmaq üçün inadkarlıq, tibb elminə təmənnasız xidmət borcu ilə üzvi surətdə qaynayıb-qovuşmuşdu.

O, oftalmologiyanın inkişafı üçün həddindən artıq böyük işlər görmüşdü. Onun bu xidmətlərini əskiltmək mümkün deyil. Biz dəfələrlə onunla birgə planımızı müzakirə etmişdik. Zərifə xanım ömrünün son günlərinə qədər elmimizi düşünür, onun inkişafı üçün hələ çox şey edəcəyinə ümidini itirmirdi. O, yorulmadan çalışdığı görmə orqanının patologiyası sahəsini olduqca dərindən bilirdi. Belə biliklərə nadir hallarda rast gəlinir. Bəli, onun gələcək üçün böyük planları vardı. Ancaq bütün bunları həyata keçirmək ona nəsib olma-

dı. Biz əlimizdən gələni edəcəyik ki, onun fikirləri gerçək əməllərdə maddiləşsin, yaxın vaxtlarda tibb elminin və həkimlik praktikasının reallıqlarına çevrilsin.

Azərbaycan xalqının bu əziz qızına dərin hörmət və məhəbbət əlaməti olaraq narın yağış damlaları altında Novodeviçye qəbiristanlığında buradan uzaqlarda, onun doğma yurdunda doğulmuş melodiyalar səslənir. Xalq artisti Müslüm Maqomayev qəhər içində Üzeyir Hacıbəyovun kədərli və zərif "Sənsiz" romansını ifa edir.

SSRİ xalq artisti Lütfiyar İmanov çıxış edir.

O, mərhuma sağ adamlar kimi müraciət edərək deyir:

– Əziz Zərifə xanım! Azərbaycanın mədəniyyət və incəsənət xadimləri Sizin işıqlı xatirəniz önündə baş əyirlər. Azərbaycanın şərəfli qızı, Siz doğma respublikamızı çılğın bir məhəbbətlə sevirdiniz, ömrünüzün sonuna qədər ona şərəf və vicdanla xidmət etdiniz. Vətən də sizi heç zaman unutmayacaq. Siz həyatı və musiqini çox sevirdiniz. Qoy bu vida günündə də Sizi son mənzilə sevdiyiniz melodiyalar yola salsın.

Müğənni bunu deyib göz yaşlarını güclə boğaraq Emin Sabitoğlunun "Bu gecə" mahnısını oxuyur.

Mitinq bağlı elan olunur. Matəm melodiyaları altında mərhumun cənazəsi onun doğmalarının, əzizlərinin çiynində son mənzilə yollanır...

Tabut aramla məzara endirilir. Himn səslənir. Məzarın üstündə təzə tər çiçəklərdən sanki bir dağ yaranır.





Zərifə xanımla uzun illər biz ayrı-ayrı müəssisələrdə çalışdıq, ancaq həmişə institutumuza əlindən gələn qədər yardım etdi. Yadımdadır ki, 1977-ci ildə bizim institutun yubiley sessiyasını keçirməkdən ötrü o, nə qədər əziyyət çəkdi. Tədbirdə iştirak etmək üçün Bakıya görkəmli alimlər dəvət etmişdik, onları layiqincə qarşılayıb yola salmaq asan deyildi və Zərifə xanım da o günlərdə əvəzsiz bir sədaqətlə bizi diqqətindən ayırmadı, bir çox məsələlərin həllinə öz cəsarəti və inadkarlığı ilə nail oldu.

**Nazim Əfəndiyev**
*Azərbaycan Elmi-Tədqiqat Oftalmologiya*
*İnstitutunun direktoru, professor*

Zərifə xanım dəfələrlə bizim elmdə son illər baş qaldıran kəm-kəsirlərin onu narahat etdiyini ön plana çəkirdi. Onun fikrincə, görmə orqanında kiçik dəyişikliyin belə cərrahiyyə əməliyyatı ilə müalicə edilməsinə əbəs yerə ciddi əhəmiyyət verilir. Hazırda görmə orqanındakı bu cür dəyişikliyə heç xəstəlik də demək doğru dəyil. Üstəlik bu cür nailiyyətləri ciddi-cəhdlə reklam etdirməyə, təbliğ etməyə aludə olurlar, yerli-yersiz hu barədə kütləvi informasiya vasitələrində təmtəraqlı yazıbır, boğazdan yuxarı təriflər verilir. Digər tərəfdən, korlaşmanı və zəif görməni doğuran səbəbləri araşdıran oftalmologiya bölmələrinin gərgin işi kölgədə qalır. Kütləvi informasiya vasitələrinə isə bu barədə yazmaq cansıxıcı görünür və həmin həyat əhəmiyyətli problemlər diqqətdən kənarda qalır. Digər tərəfdən, bu, elmi tədqiqatların aparılmasına ayrılan vəsaitin bölgüsündə özünü büruzə verir və istedadlı, lakin təcrübəsiz gənclərə pis təsir göstərir. Gənc ixtisas həkimlərinin zahirən əhəmiyyətli görünən, lakin mahiyyət etibarı ilə ucuz olan eksperimentlərə meyl salmasına gətirib çıxarır. Hələ tam sınaqdan çıxmayan yeni cərrahiyyə üsullarının xəstələrə geniş tətbiq olunması da Zərifə xanımı ciddi narahat edirdi. Yeni dərman preparatları ciddi və uzunmüddətli yoxlamadan keçdikdən sonra onların klinikada tətbiq olunmasına icazə verilir, amma yenə cərrahiyyə üsulları bəzən tez-tələsik xəstələrə tətbiq edilir. Üstəlik çox vaxt xəstənin özünün də bundan xəbəri olmur.

Zərifə xanım əhali arasında tibbi biliklərin təbliğ olunmasında kütləvi informasiya vasitələrinin gördüyü işi yüksək qiymətləndirirdi. Bununla yanaşı, Jurnalistin təkbaşına mübahisəli və səhiyyənin mürəkkəb problemlərinin həllini öz üzərinə götürməsini düzgün hesab etmirdi. Jurnalist faktları şərh etməli və hər iki tərəfin fikirlərini əks etdirməli, eyni zamanda həkim kimi son qərar çıxarmağa tələsməməlidir.

**A.Nesterov**
*Rusiya Tibb Elmləri Akademiyasının həqiqi üzvü,*
*Əməkdar elm xadimi, dövlət mükafatı laureatı*

**Aleftina Fyodorovna Brovkina**
*Professor, dövlət mükafatı laureatı*





Mən göz xəstəlikləri kafedrasına rəhbərlik edirəm. Kafedramızın iş prinsipi Zərifə Əliyevanın işlədiyi kafedra ilə oxşardır. Mən dosent ikən, Z.Əliyeva ilə bir sahədə: travma və damarlı patologiya sahəsində birgə çalışırdıq. Hətta birgə nəşrlərimiz də var: Azərbaycanda çap olunmuş "Oftalmologiyanın aktual məsələləri" adlı geniş həcmli monoqrafiya,- əsərin bir neçə fəsli Zərifə Əliyeva və professor N.Şulpina tərəfindən yazılıb. İkinci kitab isə «Daxili xəstəliklər oftalmologiyası" adlı monoqrafiyadır. Bu iş diplomdan sonrakı təhsil sistemi üzrə oxşar kafedraların divarlarında ərsəyə gəlmişdi. Bu kitabda həm mənim, həm də Zərifə Əliyevanın əməyi böyükdür.

Olduqca qeyri-adi, mətin, vüqarlı qadın idi. Öz zəkalı ağlı, əxlaq və davranışı ilə özünə cəmiyyətdə hörmət qazanmışdı. Xəstələrlə, sanitar tibb işçiləri ilə səmimi rəftar edərdi. Onun işıqlı xatirəsi hər zaman bizimlə yaşayacaq.

**Larisa Konstantinovna Moşetova**
*Uşaq oftalmologiyası kursu və oftalmologiya kafedrasının*
*müdiri, Rusiya Tibb Elmləri Akademiyasının akademiki,*
*Diplomdansonrakı təhsil üzrə Rusiya*
*Tibb Akademiyasının rektoru*

Zərifə xanım elə bir insan idi ki, bir dəfə ünsiyyətdə olan adam onu omrü boyu unuda bilmir. Bu cür şəxsiyyətlər yüksək vətəndaşlıq, humanizm və ürək saflığının mücəssəməsi kimi əbədi yadda qalır.

Obyektivlik naminə qeyd etmək lazımdır kı, Zərifə Əziz qızı elmi tədqiqatların rəhbəri, alim, pedaqoq, həkim, ictimai xadim kimi öz missiyasını yüksək səviyyədə yerinə yetirməklə yanaşı, həm də gözəl ana və həyat yoldaşı idi. O, bütün varlığı ilə həyat yoldaşının, uşaqlarının, daha sonra isə nəvələrinin də qayğıları ilə yaşayırdı.

**Şulpina Nina Borisovna**
*Mərkəzi Həkimləri Təkmilləşdirmə İnstitutunun göz kafedrasının müdiri, əməkdar elm xadimi, professor*





İşinin çoxluğuna baxmayaraq, Zərifə xanım həm də ailə qayğıları ilə yaşayırdı. O zaman Moskvada İnstitutda oxuyan tələbə oğlu İlhamın evdən, ailədən uzaqda yaşaması onu çax narahat edirdi. Zərifə Əziz qızı tibb professoru olan atasının xatirəsini həmişə əziz tutur, onun ən yaxşı xüsusiyyətlərini övladlarına aşılamaq istəyirdi. O cümlədən, atası haqqında yazılan kitabı oğluna hədiyyə edərkən yazdığı təsirli sözlər bunu bir daha sübut edir.

**Z.Skripinçenko**
*Tibb elmləri doktoru, professor*

Zərifə xanım həmsöhbətini faktlarla, özünəməxsus incəlik və ehtiramla inandırmağa çalışırdı. Təbii ki, bu şəxsi keyfiyyətlər ona körpəlikdən aşılanmış, ailə tərbiyəsindən irəli gəlirdi. Ciddi məşğul olmasına, vaxt məhdudiyyətinə baxmayaraq, o, bəzən müzakirələrdə belə həmkarlarına diqqətlə yanaşmağa, sözü və işi ilə kömək etməyə imkan tapırdı. O, dəfələrlə mənə də diqqət və qayğı göstərmişdir.

**A.N.Dobromislov**
*Sankt-Peterburq Gigiyena İnstitutunun*
*göz xəstəlikləri kafedrasının müdiri, professor*





Akademik Zərifə Əliyeva ilə bir məktəbdə, sonra isə Azərbaycan Dövlət Tibb Universitetində birgə təhsil almışıq. O, hələ tələbəlik illərindən əlaçı idi. Bölgü gələndə hər ikimiz düşünmədən göz həkimi ixtisasını seçdik. Çünki göz elə bir orqandır ki, bədəndə olan bütün xəstəliklər ona təsir edir. Göz insanın aynası olduğu üçün onunla həyatın bütün incəliklərini duymaq mümkündür. Nə az, nə çox, düz 18 il mərhum professor Umnisə Musabəyovanın rəhbərliyi altında, hazırda işlədiyim institutda çalışdıq.

50-ci illərdə traxorna respublikamızda çox geniş yayılmışdı. Bu çox ağır fəsadları olan xəstəlik idi, əksər hallarda korluğa gətirib çıxarırdı. Zərifə xanım onun dispanserizasiyasının əsasını və yeni preparatlarla müalicəsini təşkil edirdi. Yorulmaz tədqiqatçı Bakı və Bakı ətrafı rayon və qəsəbələrdə yerləşən yetim evlərində 3 il müalicələr apardı. Onun müalicə üsulu səmərəli nəticə verirdi. Bütün bunlar onun dissertasiyasının əsasını qoydu. Çox böyük uğurla elmi işini müdafiə etdi, tez bir zamanda Moskva Ali Attestasiya Komissiyasında onu təsdiq etdilər. İstedadlı alim bununla kifayətlənmədi. Daha uca zirvələr fəth etməyə tələsdi. 1964-cü ildə “Görmə orqanlarının peşə patologiyası” mövzusunda doktorluq işinə həvəslə girişdi. Bakı şin zavodunun ayrı-ayrı sexlərində işləyənlərin görmə orqanlarının bir sıra funksiyaları öyrənildi. Belə ki, heyvanlar üzərində sexlərdə təcrübə aparmaqla toksik maddələrin gözə təsirini öyrənirdi. Bir neçə müəssisədə bu təcrübələri uğurla apardıqdan sonra unikal nəticələr əldə etdi.

Bu gözəl alimin rəhbərliyi altında xeyli elmi-tədqiqat, namizədlik işləri yetirlə yetirildi. Z.Əliyeva bununla tibb elmində böyük məktəb yaratmışdı. Akademik Zərifə Əliyeva dünya şöhrətli alim olmaqla yanaşı, yüksək erudisiyalı göz həkimi, istedadlı cərrah, böyük ictimai xadim idi. O, gözümüzün qarşısında adi həkimdən Azərbaycan Elmlər Akademiyasının həqiqi üzvünə qədər şərəfli yol keçdi. Yenilməz tədqiqatçı çox yüksək mədəniyyətə layiq xanım idi. Xeyirxah, insanpərvər, vətənpərvər... Ondan çox kömək umurdular, hamıya bacardığı köməkliyi edirdi. Kiməsə ev, kiməsə iş, kiminsə də maaşını artırmaq onun gündəlik qayğılarından idi, işinin çoxluğuna baxmayaraq, ailəsi- ni, yaxın qohum-qardaşlarını, ürək dostlarını unutmurdu. Onları çox sevirdi, boş vaxtlarını bütünlüklə ailəsinə həsr edirdi. O, gözəl həyat yoldaşı, qayğıkeş ana, nənə və ən nəhayət, diqqətcil övlad idi.

Mənim bir günüm də onsuz keçmirdi. Oftalmologiyaya aid qurultaylara, simpoziumlara, konfrans və yığıncaqlara, şənliklərə birgə gedirdik. Sonuncu dəfə 1984-cü ilin avqustunda Zərifə xanımla Bakıda görüşdük. Dedi ki, sürücünü göndərirəm, gəl səni bir görüm, çox darıxmışam, bacıcan.

– Nə qədər ömrüm var, Zərifə xanım həmişə qəlbimdə əbədi məskən salacaqdır.

**Həcər Nəzrullayeva**
*Tibb elmləri doktoru, professor,*
*əməkdar elm xadimi*





Mən Zərifə xanımla xoş bir təsadüf nəticəsində tanış olmuşam. 1985-ci ildə Naxçıvan şəhərində iki dəfə Sosialist Əməyi Qəhrəmanı Heydər Əlirza oğlu Əliyevin büstünü hazırlayırdım. Xalqımızın şərəfli oğlunun həmin büstünün kamil və obrazlı çıxması üçün bütün var gücümdən istifadə edirdim. Bu olduqca məsuliyyətli bir iş idi. Həmin ərəfədə Zərifə xanım iki dəfə mənim emalatxanama təşrif buyurdu. O, uzun müddət büstü seyr edərək hərdən elə təkliflər irəli sürürdü ki, heyrətlənirdim, Axı o böyük tibb alimi olsa da heykəltəraş deyildi. Mən o vaxtlar təəccübümü gizlədə bilməyərək ondan soruşdum ki, heykəltəraşlığın sirlərini haradan bilir? O, bu zaman gülümsəyib dedi: “Bunun üçün heykəltəraş olmaq hızım deyil. Mərmərdən yaratdığınız insanı məndən yaxşı kim tanıya bilər ki...»

Həmin qısa zaman içində mən özümdən asılı olmayaraq bir heykəltəraş kimi onun işıqlı obrazını beynimə həkk edə bilmişdim. Məhz buna görə də, Zərifə xanım dünyasını dəyişəndə qəlbimdə onun şəxsiyyətini əziz tutan bir elegiya yarandı. Məlumdur ki, elegiya xatirə deməkdir. O, təntənəli və qüssəli bir duyğudur. Musiqi və poeziya vasitəsilə müəyyən şəxsiyyətə həsr olunur. İnsanı əbədiləşdirmək, onun ömrünü uzatmaq hissindən irəli gəlir və buna görə də ən yüksək bədii üslubu ilə seçilir. Məhz bu kədərli duyğularla onun alicənab, həm də zərif bir xanım obrazı üzərində düşünməyə başladım.

Ağ rəng - saflıq rəmzi. Mərmərin ağlığı - daş möhkəmliyinin sarsıdılması... Geyimdəki incə süzülən cizgilər, əllərin və üzün zərifliyi, işıqlığı. Alicənab görkəm və baxış mülayimliyi. Daşda səslənən musiqi. Bu abidə, şərəfli yol keçmiş qadına həsr olunub. Həmin qadın - alim, ictimai xadim, həyat yoldaşı və ana Zərifə xanım Əliyevadır. Abidə onun vəfatından sonra yaradılıb və ona görə də buna bənzər digər əsərlər kimi, qüssəli və eyni zamanda təntənəli adlanıb: -”Elegiya”. Bu ənənə klassik heykəltəraşlığın vətəni olan qədim Elladadan gəlir. Orada sənətkarlar görkəmli həmvətənlərini əbədiləşdirmək üçün onları tərənnüm edən şer və musiqi yazmış, heykəllərin donmuşluğunda əbədi yaşayan poemalar yaratmışlar.

Rəssam Ömər Eldarov söhbətini davam etdirərək deyir: «Zərifə xanım Əliyevanın obrazı üzərində iş 1986-cı ildə başlanmışdır. Uzun axtarışlardan sonra müxtəlif variantları araşdırdıqdan, Heydər Əlirza oğlu Əliyev və digər ailə üzvləri ilə məsləhətləş-

mələrdən sonra, nəhayət, eskizin son variantı tapıldı. İki il ərzində emalatxanada əsərin yaradılması üzərində gərgin iş aparıldı. Sonra mərmərdə yonma işləri görüldü. Uraldakı «Koelqa» daş karxanasından gətirilmiş mərmər blokun ölçüləri 2,5x2,0x2,0 metri di. 1989-cu ildə heykəl üzərində iş sona yetirildi.

Hazır əsərin ölçüsü 1,2x0,8x1,8 metrdir. Bürünc heykəl üzərində işə isə memar Elbəy Qasımzadə ilə birgə 1993-cü ildə başlanmış və iki ildən sonra başa çatdırılmışdır. Həmin bürünc heykəl 1995-ci ildə Bakıda Fəxri Xiyabanda ucaldılıb.

Bundan sonra 1995-ci ildə görkəmli alimin mərmər büstü hazırlanaraq, Naxçıvan şəhərinin mərkəzi xəstəxanasında yerləşdirilmişdir. 1996-dl ildə Zərifə xanımın yaşadığı binaya qranitdən memorial lövhə asılmışdır. Bir müddət sonra 1998-ci ildə ağ mərmərdən hazırlaımış heykəl oftolmoloji mərkəz qarşısında ucaldılmışdır. Bundan əlavə Bakıdakı Göz Xəstəlikləri Elmi-Tədqiqat İnstitutu üçün (mərmər büst), digəri isə Fiziologiya institutu üçün (bürünc və qranitdən olaraq) hazırlanan memorial lövhə mənim tərəfimdən hazırlanmışdır.

**Ömər Eldarov**
*Azərbaycan Dövlət Rəssamlıq Akademiyasının rektoru,*
*respublikanın xalq rəssamı*





Dahi insanlar dahiyanə bir ömür, ecazkar bir tale yaşayırlar. Onlar həyatda olduqları zaman tanış-bilişlər, yaxınları tərəfindən o qədər də sezilmirlər. Çünki onlar özləri ilə bir sadəlik, təvazökarlıq, insanpərvərlik yaşadırlar. Böyüklə böyük, kiçiklə kiçik olurlar, hamı ilə dil tapır, hər kəslə öz dilində danışmağı bacarırlar. İnsanlar onları özlərinə yaxın, munis sayır, dərd-sərini, həyati qayğılarını, acı-ağrılarını onlarla bölüşdürürlər.

Onların doğru qərarları, məsləhətləri İnsanlara həyat verir, itmiş ümidlərini, arzularını özlərinə qaytarır, həyat sevgisini coşdurur. Bizimlə bir dövrdə, bir vaxtda yaşayan o dahi insanların yoxluğunu ancaq onlar dünyasını dəyişdikdən sonra duyur, hiss edirik. Ömrümüzdə, günümüzdə yeri görünən, hər addımında məsləhətinə ehtiyac duyduğumuz o insanların yoxluğu bizi yandırıb-yaxır.

Elə bil kainatdan bir planet, bir nəhəng ulduz uçub yox olur.

Azərbaycan səhiyyəsinin və bütünlükdə tibb elminin inkişafında unudulmaz xidmətləri olan böyük alim, istedadlı göz həkimi Zərifə Əziz qızı Əliyeva onu tanıyanların qəlbində dahi bir insan, kübar qadın, mehriban və qayğıkeş bir ana kimi əbədi yaşamaqdadır.

O, Azərbaycan EA-nın akademiki, tibb elmləri doktoru, professor, Ə.Əliyev adına Azərbaycan Dövlət Həkimləri Təkmilləşdirmə İnstitutu Oftalmologiya kafedrasının müdiri, Azərbaycan EA Fiziologiya İnstitutunun laboratoriya rəhbəri, Azərbaycanın Əməkdar elm xadimi, Tibb EA-nın mükafatı laureatı, Sülhü Müdafiə Komitəsinin, dilçilik Cəmiyyətinin rəyasət heyətinin üzvü idi.

Zərifə xanım Əziz qızı hələ tələbəlik illərindən parlaq istedadını büruzə vermiş, yaşıdlarından öz bilik və bacarığı ilə seçilmişdir. Bu da səbəbsiz deyildir. Əvvəla, Zərifə xanımın doğulduğu ailə həkimlər, ziyalılar ailəsi idi. Atası, bacı və qardaşları tibb elminin müxtəlif sahələri üzrə təhsil alıb ixtisaslaşmış, bacarıqlı və savadlı həkim kimi böyük xalq məhəbbəti qazanmışdılar.

Atası Əziz Məmmədkərim oğlu Əliyev Azərbaycan tibb elminin inkişafında özünəməxsus şərəfli yeri olan bir alim, respublika səhiyyəsinin istedadlı təşkilatçısı, görkəmli dövlət və ictimai xadim idi. Həkimlik sənətini Zərifə xanım böyük sevgi ilə seçmiş, bu sənətə bütün varlığı ilə bağlanmışdır. Azərbaycan Tibb İnstitutunu uğurla başa vuran Zərifə xanım göz həkimi ixtisasını seçmişdir. Onu tanıyanlar, iş yoldaşları, görkəmli alimlər - hamı etiraf edir ki,

çalışdığı illərdə Zərifə xanım Hippokrat andına sadiq qalmışdır. Xəstələrə həssas yanaşmış, onların müalicəsi üçün var qüvvəsini sərf etmişdir. Xəstələrlə həkim arasında qəribə bir bağlılıq, rəğbət dolu ünsiyyət telləri qurulmuşdu. Bir sözlə, o, təkcə göz həkimi deyil, bir psixoloq kimi xəstələrlə dil tapmağı bacarmışdı. Keçən əsrin əllinci illərində Azərbaycan oflalmoloqlarının qarşısında ciddi bir problem dururdu. Azərbaycanın şəhər və kəndlərində baş alıb gedən traxoma xəstəliyini aradan qaldırmaq, onun profilaktikasını və müalicəsini tapmağa, geniş yayılmış bu xəstəliyə tutulanlara yardım etmək məqsədilə respublikanın rayonlarına göndərilən göz həkimlərinin sırasında böyük loğman Zərifə xanım da var idi. O, rayonlardakı çətin şəraitə baxmayaraq, xəstələri arayıb tapır, müayinə edir, ağır xəstələrin dispanserizasiyası üçün əlindən gələni əsirgəmirdi. Olduğu rayonlarda, əmək kollektivlərində, tibbi müəssisələrdə traxoma xəstəliyi haqqında mühazirələr oxuyur, onun müalicəsi öçün hansı prafilaktik tədbirlərin görülməsini adamlara başa salırdı. Bir tədqiqatçı kimi onun Azərbaycanın dağətəyi və aran rayonlarında apardığı elmi işlər böyük nəticələr vermişdir. «Məktəblilər arasında traxomanın müalicəsi" adlı elmi tədqiqat işi kitabça kimi çap olunmuş, respublikanın əksər təhsil ocaqlarında şagird və müəllimlərin stolüstü kitabına çevrilmişdir. Azərbaycan səhiyyəsi tarixində traxoma xəstəliyinə qarşı ük dəfə Zərifə xanım antibiotiklərdən - sintometsindən istifadə edərək müalicə aparmışdır, O, bununla keçmiş müalicə üsullarının yanlışlığını isbat etməklə traxomanın aradan qaldırılmasına nail olmuşdur, O, bir tədqiqatçı kimi köhnə dərman preparatlarından fərqli olaraq sentametsinin gözün selikli qişasında sorulmasını sürətləndirilməsinin kirpiklərarası yaraların tez bitişdirilməsini, gözün mikroflorasının təmizlənməsini və sair üstün cəhətlərini sübuta yetirmişdir, Zərifə xanımın qlaukoma göz xəstəliyinin müalicəsinə həsr etdiyi elmi əsərləri də Azərbaycan səhiyyəsində böyük əhəmiyyət kəsb edir. Xüsusilə onun Əli Bayramlı şəhərinin sənaye müəssisələrində, eləcə də maarif ocaqlarında apardığı müalicə və profilaktik tədbirlər heç vaxt unudulmayacaqdır. Adı





çəkilən sənaye şəhərində Zərifə xanım neçə-neçə xəstənin gözünə nur, qəlbinə həyat eşqi bağışlayıb. Həmin insanlar böyük el loğmanını bu gün də minnətdarlıqla xatırlayırlar.

Keçən əsrin sonuna doğru Azərbaycan neft, neft kimyası sənayesi coşqun inkişaf yoluna qədəm qoydu. Sənayenin bu inkişafı özü ilə bərabər bir sıra xoşagəlməz problemlər də gətirdi. Ayrı-ayrı kimya zavodlarında peşə ilə bağlı göz xəstəlikləri yayılaraq geniş vüsət aldı. Zərifə xanım Azərbaycan kimya sənayesinin müxtəlif müəssisələrində profilaktik tədbirlərin keçirilməsində şəxsən iştirak etməklə, Bakı Şin zavodunda, Mərkəzi Kondisionerlər zavodunda 1aboratoriyalar açıb, onlara rəhbərlik edir. Kimya sənayesində göz zədələnmələrinin öyrənilməsi və profilaktikasına dair bir sıra qiymətli elmi əsərlərini də həmin laboratoriyalardakı təcrübəsi əsasında yazmışdır. Bu silsilə tədqiqat elmi əsərlərinə görə Zərifə xanım M.İ.Avevbax adına mükafata layiq görülən ilk Azərbaycan alimidir. Onun elmi fəaliyyəti dünyanın ən böyük oftalmoloqları tərəfindən yüksək qiymətləndirilib. Akademik Zərifə Əliyeva dahi pedaqoq kimi uzun illər Azərbaycan Həkimləri Təkmilləşdirmə İnstitutunda dərs demişdir. Onun tələbələri bu gün də xalqımızın əziz övladını məhəbbətlə, sevgi ilə xatırlayırlar.

**Rafiq Məmmədhəsənov**
*Sabiq Millət vəkili, əməkdar elm xadimi, professor,*
*ATU-nuu elmi islər üzrə prorektoru*

Hər bir insanın ömründə ona xoşbəxtlik gətirən, həyat yolunu müəyyənləşdirən, mənalı, gərəkli edən anlar olur. Mənin də taleyimin dəyişməsində, necə deyərlər, formalaşmasında son dərəcə səmimi, həssas qəlbli insan olan Zərifə xanım Əliyevanın böyük rolu olub. Yeri gəlmişkən deyim ki, onunla tanışlığım 1978-ci ildə internaturanı qurtararkən baş verdi. O vaxt mən Respublika Klinik Xəstəxanasının anesteziologiya-reanimasiya şöbəsində işləyirdim. Orada tələbəlik illərində 4 il feldşer kimi çalışmışam. Bir gün şöbə müdiri məni yanına çağırıb dedi: «Göz xəstəlikləri kafedrasının professoru Zərifə xanım Əliyeva səninlə söhbət etmək istəyir." Ertəsi gün göstərilən vaxtda Həkimləri Təkmilləşdirmə İnstitutunun rektoru akademik M.C.Cavadzadənin qəbul otağına getdim. Katibə məni kabinetinə dəvət etdi. Masa arxasında bir kişi və qadın oturmuşdu. Söhbəti rektor açdı və Zərifə xanımı təqdim etdi. O, dedi: «Hörmətli alimimiz göz xəstəliklərinə aid elmi-tədqiqat laboratoriyası təşkil edir və məni işləməyə dəvət edir. Təklif çox gözlənilməz oldu. Mən öz gələcək ixtisasımı reanimatoloq kimi təsəvvür edirdim. Zərifə xanım bildirdi ki, bir ildən artıqdır ki, işimi izləyir və belə hesab edir ki, elmə meylli bir insanam. Amma fikirləşməyə vaxt verildi. Bir neçə gündən sonra biz bir daha görüşdük. Öz razılığımı verdim və 1978-ci ilin oktyabr ayından gözün fiziologiyası və peşə xəstəlikləri laboratoriyasına işə qəbul olundum. Onu qeyd edim ki, o vaxtlar institutu bitirən hər bir tələbə iş yerinə təyinatla göndərilirdi. Zərifə xanım bu məsələdə də mənə böyük köməklik göstərdi.

Beləliklə, laboratoriyada işə başladım. Laboratoriya Bakı Məişət Kondisionerləri zavodunda yenicə fəaliyyətə başlamışdı. Ə.Əliyev adına Azərbaycan Dövlət Həkimləri Təkmilləşdirmə İnstitutunun elmi-tədqiqat laboratoriyasının bir bölməsi idi. Məndən başqa laboratoriyaya həkim S.A.Talışinskaya da qəbul edilmişdi.

İlk dəfə Zərifə xanım bizi zavoda gətirəndə bir neçə boş otaq gördük. Sonra təxminən altı ay ərzində laboratoriya ən müasir cihazlarla təchiz olundu. Həmin vaxtlar Zərifə xanım laboratoriyaya tibb elmləri doktoru M.Y.Sultanovu baş elmi işçi və T.Ə. Mirzəyevi kiçik elmi işçi vəzifəsinə dəvət etdi. Bundan əlavə iki laborant işə götürüldü. Müntəzəm iş başlandı.





Təbii ki, laboratoriyanın yaradılması, gündəlik işi Zərifə xanım tərəfindən tənzimlənirdi. Yadıma gəlir ki, o vaxt çoxları aparılan işin səmərəliliyinə şübhə edirdi. Deyirdilər ki, belə müasir texnologiya ilə tikilmiş zavodda işçilərin səhhətinə nə kimi mənfi təsir ola bilər?

Ancaq Zərifə xanım əmin idi ki, hər hansı bir müəssisədə kimyəvi maddələr istifadə olunursa, cüzi olsa da, işçilərə təsiri olmalıdır. Bu fikir Zərifə xanımın Bakı müəssisələrində öncə apardığı elmi tədqiqatların nəticəsinə əsaslanırdı.

İşə başlamazdan əvvəl Zərifə xanım tədqiqat aparmaq üçün xüsusi bir kitabça şəklində müayinə xəritəsi işləyib hazırlayırdı. Bu kitabça işçilərin şikayətindən başlayırdı. Orada gözün bütün müasir müayinə üsulları və başqa mütəxəssislərin elmi nəticələri verilmişdi.

Zərifə xanım bizim peşəkar kimi formalaşmağımıza xüsusi diqqət yetirirdi. Bu Kafedrada ixtisaslaşma kurslarını keçdik. Oxuduğu mühazirələr öz məzmunu, əhatəliyi, genişliyi yə keyfiyyətinə görə digər mühazirələrdən çox seçilirdi. Bu gün mən həkim-müdavimlərə mühazirə oxuyanda həmişə Zərifə xanımın dərs üslubu gözlərimin önündə canlanır.

O vaxtlar laboratoriyada göz xəstəliklərinə aid ən müasir müayinə üsulları tətbiq edilirdi. Zərifə xanım vaxtaşırı bizi Moskva, Sankt Peterburq, Odessa və bir sıra şəhərlərin oftalmoloji mərkəzlərinə ezamiyyətə göndərirdi. Biz yeni müayinə üsullarını mənimsəyir və işimizdə tətbiq edirdik.

Hər həftə Zərifə xanım laboratoriyada aparılan işi təhlil edirdi. Çatışmamazlıqları aradan qaldırmağa və onu daha effektli aparmağa köməklik göstərirdi. Bir müddət sonra Zərifə xamının təşəbbüsü ilə xüsusi cərrahiyyə şöbəsi təşkil edildi. Burada nəinki kondisioner zavodunun, hətta qonşu zavodların işçilərinə müalicəvi xidmət göstərilirdi. Xəstələr xüsusi otaqda bir qədər qaldıqdan sonra evə gedirdilər. O vaxt müalicənin ambulator şəraitində təşkilinin özü çox yeni və proqressiv idi. Bu gün göz xəstəliklərinin əksəriyyəti bu üsulla müalicə olunur.

1980-cı ildə bizim laboratoriya Azərbaycan Elmlər Akademiyasının Ə.Qarayev adına Fiziologiya İnstitutunun tərkibinə verildi və işlərimiz daha yüksək səviyyədə davam etdirildi. Bir neçə il

ərzində laboratoriyanın əməkdaşları iki minə yaxın adamı müayinədən keçirdi. Tədqiqatların nəticəsi göstərdi ki, müasir müəssisələr də görmə üzvünə mənfi təsir göstərir: İşıq duyğusunun və görmə sahəsinin pozulmaları, yaşaparıcı yolların, konyuktivanın və göz qapaqları xəstəliklərinin artması, gözün hidrodinamikasının pozulması kimi dəyişikliklər aşkar olunurdu. Aparılan tədqiqatların nəticələrinə görə, onlarla elmi məqalələr çox nüfuzlu jurnallarda ("Vestnik oftalmoloqii", "Oftalmoloqiçeskiy jurnal", "Voenno-medisinskiy jurnal", «Arxiv anotomii", "Embrioloqii i qisloloqii", (Azərbaycan tibb jurnalı" və s.) dərc olundu, üç namizədlik dissertasiyam Moskva şəhərində böyük müvəffəqiyyətlə müdafiə edildi.

Kondisioner zavodunun işçilərinin müayinəsi başa çatdıqdan sonra, Zərifə xanımın təşəbbüsü ilə ətraf müəssisələrdə («Azərelektroterm" və Bakı elektron cihaz maşınları zavodlarında) geniş müayinələr aparıldı. Bundan əlavə laboratoriyanın heyəti Azərbaycanın kənd təsərrüfatında çalışan mexanizatorların və keçmiş SSRİ miqyasında uzunömürlülərin müayinəsi üçün hazırlanan tədqiqatlarda aktiv iştirak etmişdi.

Bu gözəl insan, qayğıkeş rəhbər hər birimizin şəxsi məişət problemlərimizə və qayğılarımıza xüsusi fikir verirdi. Bu gün Zərifə xanım həm ilk göz xəstəliklərini öyrədən bir müəllim, həm elmi rəhbər, həm də gözəl, ali bir insan kimi mənim xatirimdə qalır. Xalqımızın bu şərəfli qadınının keçdiyi həyat yolu həmişə bizim üçün örnək olacaqdır.

**Nazim Tağızadə**
*Tibb elmləri doktoru, professor*





Taleyin insana bəxş etdiyi ömür payını hərə bir cür yaşayır. Ömür var ki, haradasa, uzaqda şığıyan, bir anlıq yanıb-sönən şimşəyə bənzəyir. Ömür də var ki, dan ulduzu kimi zaman-zaman görünüb insanlara həyat eşqi verir, onları yaşayıb-yaratmağa səsləyir. Belələrindən biri də akademik, gözəl insan, qayğıkeş müəllim Zərifə xanım Əliyevadır. Onun həyat yolu, elmi təcrübəsi neçə-neçə talelərə çıraq tutub, şölə saçıb. Sadəlik, müdriklik ona Tanrıdan bəxş olunub. Onun keçdiyi şərəfli həyat yolu da bunu bir daha sübut edir. Biz tələbələri onun insanlarla rəftarında, xoş söhbətlərində bunun dəfələrlə şahidi olmuşuq. Geniş dünyagörüşü, özünəməxsus düşüncə tərzi Zərifə xanımı başqalarından fərqləndirirdi.

Mənim Zərifə xanımla tanışlığım laboratoriyada olub. Həmin laboratoriya Məişət Kondisionerləri zavodunda yerləşirdi. Bu işgüzar xanım tanış-bilişlərdən soruşaraq, bu sahədə işləyən mütəxəssislərlə maraqlanırdı. Məni yanına dəvət etdi. Sual-cavab proseslərindən deyəsən yaxşı çıxdım, ondan sonra elmi işlə maraqlandığımı görüb mövzu verdi: “Göz almasında şəkərli diabetik retinopatiya". Z.Əliyevanın təklif eldiyi mövzu ürəyimdən xəbər verdi. Elmi rəhbər də özü oldu.

O vaxtlar kafedramız 4 saylı şəhər xəstəxanasında yerləşirdi. Oftalmologiyanın incəliklərini öyrənmək üçün məni təcrübəli həkimlərə tapşırdı. Məişət Kondisionerləri zavodunun nəzdindəki laboratoriyada isə insanları müayinə edərək, elmi işimin mövzusunu davam etdirirdim. Nəhayət, 1982-ci ildə "Azərbaycan tibb jurnalı"nda akademik Zərifə xanım Əliyeva ilə birlikdə "Miopiya zamanı diabetik retinopatiyanın inkişafını yubatmaqda şüşəyə bənzər cismin vəziyyətinin rolu" mövzusunda elmi məqalə dərc olundu. Onu da xüsusilə qeyd etmək istərdim ki, «diabetik retinopatiya" oftalmologiyada ən əsas və ən vacib problemlərdən biridir. Dünyanın tibb aləmində məlum olduğu kimi, onun əlamətləri damarlarda pozuntular şəklində müşahidə edilir, korluğun yaranmasına səbəb olur. Sözü gedən dissertasiyanın müəllifi maşhur oftalmoloq, Azərbaycan EA-nın akademiki Zərifə Əliyeva olub. Bu da çoxsaylı təcrübə və tədqiqatların nəticəsidir.

Moskvanın tibb jurnallarında, Oftalmologiya xəbərlərində, xarici ölkələrin tezislərində Zərifə xanım Əliyeva ilə birgə çoxsaylı elmi məqalələrimiz dərc olunmuşdur.

Hadisələri öncədən görmə qabiliyyəti akademikin çox köməyinə çatırdı. İstedadlı həkim çalışırdı ki, respublikada savadlı, öz işinin bilicisi olan alimlər yetişsin və onların normal işləməsi üçün yüksək texniki avadanlıqlar alınsın. Yorulmaz alim var gücü ilə buna çalışırdı. İş otağımıza onun tərəfindən ləzzətli tort və pirojnalar, müxtəlif növ şirələr gətirilərdi. Zərifə xanım ana kimi qayğımızı çəkirdi, dərd-sərimizi onunla bölüşürdük. O da öz növbəsində məsləhətini bizdən əsirgəməzdi. Tək biz yox, ona müraciət edən insanların hamısına öz xeyirxah əlini uzadır, heç kəsin incik düşməsini istəmirdi, bacardığı köməyi göstərirdi.

Çıxışımın sonunda onu da qeyd etmək istərdim ki, "Diabetik retinopatiya» mövzusunun davamı olaraq namizədlik dissertasiyam doktorluq işimə çevrildi. İndi də akademik Z.Əliyevanın irəli sürdüyü ideyalar öz həllini tapır və təsdiq olunur. Hazırkı dövrə qədər bu mövzu öz müasirliyini və aktuallığını qoruyub saxlayır.

Akademik Z. Əliyevanın ölümündən xeyli vaxt ötsə də, biz tələbələri hələ də onun işıqlı xatirəsini qəlbimizdə əziz tutur, ideyalarını əməli işimizdə davam etdirməyə çalışırıq.

**Rasim Hacıyev**
*Tibb elmləri doktoru*





Xatirəsi əziz olan akademik Zərifə xamın Əliyevadan elmin sirlərinə yiyələnmək, onu yaxından öyrənmək səadəti mənə də nəsib olmuşdur.

Akademik Zərifə xanım Əliyeva bir oftalmoloq alim kimi ən uca zirvədə duran, Azərbaycanı sərhədlərindən çox-çox kənarda təmsil edən alimlərimizdən biridir. Zərifə xanım keçmiş SSRİ Elmlər Akademiyasının ən nüfuzlu mükafatlarından biri olan "Averbax" mükafatına layiq görülmüşdü. İstedadlı alim elmi toplantılarda çox gözəl nitqi ilə çıxışlar edərdi, yubiley tədbirlərində Vətəni sevən bir insan kimi bacısından, məşhur sənətçi Gülarə Əliyevadan "Anamın anasısan, Azərbaycan" mahnısını da ifa etməsini xahiş edərdi.

M.F. Axundovun belə bir müdrik kəlamı var: "Əsl yüksək əxlaqlı, xeyirxah adam yalnız o adam hesab edilə bilər ki, o, özünün bütün hərəkət və davranışlarını əsl vətənpərvərliklə uyğunlaşdırsın. Qətiyyətlə deyə bilərəm ki, Zərifə xanım da belə şəxsiyyətlərdən biri sayılırdı.

Vətən onun başlıca amalı idi. Bütün bunlar onun Vətənə bağlılığından, Ana torpağa məhəbbətindən irəli gəlirdi. Azərbaycan onun döyünən ürəyi, vuran nəbzi idi.

O vaxtlar Zərifə xanım ümumittifaq "Oftalmologiya xəbərləri" jurnalının redaksiya heyətinin üzvü idi, hər üç aydan bir orada gedən materialların müzakirəsi görkəmli alimlər tərəfindən keçirilərdi. Alimlər Zərifə Xanımın fikirləri ilə hesablaşardılar. Onun qəribə natiqlik və hazırcavablıq qabiliyyəti, böyük auditoriyanı ələ ala biləcək cazibəsi var idi. Yeri gəlmişkən deyim ki, Zərifə xanım dünyamiqyaslı ziyalılığı olan bir ailədə böyüyüb ərsəyə çatmışdı. Yəqin ki, onun atasını - öz sanballı elmi işləri, şəxsiyyəti ilə xalqımızın nümunəvi bir insanı olmuş akademik Əziz Əliyevi oxuculara tanıtdırmağa ehtiyac yoxdur. Zərifə xanım kimi bu gözəl ailənin digər üzvləri də say-seçimli insanlar idi.

Bu da taleyin maraqlı bir faktıdır ki, Zərifə xanımın bacısı, xatirəsi mənim üçün əziz olan gözəl insan Lətifə Əliyeva ilə uzun müddət bir kafedrada işləmişik. O, hazırda işlədiyim oftalmologiya kafedrasının dosenti idi. Bu işgüzar xanım hər

dəfə məzuniyyətdən gələrkən yazı masasını öpərək deyirdi: «İnanın ki, işə gəlməyimiz böyük xoşbəxtlikdir, insanın ayaq üstə olması, sağlam həyat tərzi keçirməsi böyük səadətdir. Aza qane olmaq, sevinməyi bacarmaq lazımdır".

Bir sözlə, Zərifə xanımın ömrü gözəl bir romanı xatırladır. Hər dəfə bu romanı vərəqlədikcə onun nurlu siması gözlərim önündə canlanır.

**Paşa Qəlbinur (Musayev)**
*Azərbaycan Tibb Universitetinin*
*Oftalmologiya kafedrasının müdiri, professor*





Azərbaycan qadınının çox qədim və şərəfli keçmişi olub. Tomris, Nüşabə, Boyu uzun Burla, Məhsəti Gəncəvi, Mömınə Xatun, Natəvan və s. hələ gənclik illərində bu soyköklü qadınlarımızla fəxr edər və həmişə düşünərdim ki, görəsən indiki zamanda belə qadınlarımıza rast gəlmək mümkündürmü?

Doğrudanmı, ulu torpaqlarımız ulu qadınlarımızı bir daha yetirməyəcək?! Sonralar xalqımızın ən ləyaqətli qızı Zərifə xanım Əliyeva ilə tanış olub, onunla uzun illər təmasda olduqda anladım ki, həqiqətən də, xalqımızın misilsiz qadınları həmişə olub, var və min illərdən sonra da var olacaqlar!

Bəli, Zərifə xanım Əliyeva belə şərəfli qadınlarımızdan biri idi. Mən bu gözəl insanı 1955-ci ildən tanıyırdım, O vaxtlar Azərbaycan Tibb İnstitutunun göz xəstəlikləri kafedrasının ordinaturasında təhsil alırdım. Kafedranın müdiri, Azərbaycan Elmlər Akademiyasının müxbir üzvü, əməkdar elm xadimi, tibb elmləri doktoru, professor Umnisə xanım Musabəyli, məni kafedranın əməkdaşları ilə tanış etdi.

Məlum oldu ki, Zərifə xanım Azərbaycan Elmi-Tədqiqat Oftalmologiya İnstitutunda elmi işçidir və ən aktual problem olan o vaxt Azərbaycanda geniş yayılmış traxoma xəstəliyinin müalicəsi ilə məşğul olur, elmi araşdırmalar aparır. Sonra biz tezcə dostlaşdıq. O, çox vaxt müəssisələrə, məktəblərə, Azərbaycanda traxomanın yayılmış rayonlara gedərdi. Həkimlərlə, əhali ilə söhbətlər aparır, xalqı bu amansız xəstəliyə qarşı mübarizəyə cəlb edirdi. 1961-ci ildə Azərbaycan Elmi-Tədqiqat Oftalmologiya İnstitutunun aspiranturasına qəbul olmuşdur. Artıq Zərifə xanım öz işini müvəffəqiyyətlə başa vurmuş, tibb elmləri namizədi adına layiq görülmüşdü. İnstitutun Elmi Şurasının qərarı ilə traxomanın çətin sağalan formaları ilə məşğul olmağı mənə məsləhət bildilər. Zərifə Xanımla görüşüb bu haqda söhbət etdik. Və dedi ki, sən bununla xalqına böyük xidmət göstərmiş olarsan. Onun respublikamızda traxoma xəstəliyinin ləğvində böyük xidmətləri olmuşdur. Azərbaycanda yod, neft-kimya sənayesi müəssisələrində işləyənlərə zərərli peşə faktorlarının təsirinə dair araşdırmaları xüsusən qiymətlidir. Həftələrlə, aylarla müəssisələrdə olur, müayinələr aparır, məsləhətlər verir, müalicələr edirdi. Onun boya-başa çatdığı ailənin

bütün övladları çox istedadlı idilər. Başa düşürdüm ki, Zərifə xanım bütün ailənin ən sevimlisi - parlaq ulduzu sayılırdı. Yalnız təbabətlə deyil, musiqi ilə çox maraqlanır, gözəl çalıb, oxuyardı.

O, xanımlar xanımı, qayğıkeş ana idi. Xalqına layiq iki övlad İlham və Sevil Əliyevləri bağışlamışdır. 1976-cı ildə Helmolqts adına Moskva Elmi-Tədqiqat İnstitutunda «Azərbaycan Kimya Sənayesinin bəzi müəssisələri işçilərinin görmə üzvünün vəziyyəti" mövzusunda müvəffəqiyyətlə dissertasiya müdafiə etmiş və tibb elmləri doktoru adına layiq görülmüşdü. Zərifə xanımın əsərləri, monoqrafiya və dərslikləri çox əhəmiyyətli sayılaraq ona keçmiş SSRİ miqyasında akademik «Averbax» mükafatı bəxş etmişdir. Onun bu fəaliyyəti nəinki özünə, bütün xalqımıza əbədi şöhrət və başucalığı gətirmişdir. Hələ Azərbaycan Elmi-Tədqiqat İnstitutunda işləyərkən elmi cəhətdən məzmunlu, gözəl mühazirələri həkimləri heyran etmisdi. Çox gözəl danışıq qabiliyyəti vardı.

Son illər o, Moskva şəhərində öz fəaliyyətini davam etdirirdi. Hər dəfə Bakıya gələndə həmkarları ilə görüşür, hal-əhval tuturdu. Bizim dostluq məclislərində iştirak edir, şirin söhbətləri ilə məclisə sevinc gətirirdi. Sadə, qayğıkeş, dostluğa sadiq xanım idi.

Çox təəssüf ki, gənclərimiz üçün örnək ola biləcək onun həyat yolunu bu qısa yazıda təsvir etmək mümkün deyildir. Ancaq qətiyyətlə deyə bilərəm ki, o, artıq sadaladığım tarixi qadınlarımızın sırasında özünə əbədi yer tutub.

**Rəfiqə Axundova**
*Azərbaycan Tibb Universiteti*
*Oftalmologiya kafedrasının dosenti*





Hər bir insanda onun xarakterinə xas keyfiyyətlər yığımı genetik şəkildə toplanmışdır. Akademik Zərifə Əliyevanın da geniş dünyagörüşünə malik olmasında bu genetik xüsusiyyətlərin böyük rolu olmuşdur. ...

Zərifə xanımın qardaşı, tibb elmləri doktoru, professor Cəmil Əliyevlə aspiranturada bir yerdə oxumuş, sonralar doktorluq işlərimizi də bir institutda yerinə yetirmişik. Bu səbəbdən ailənin digər üzvləri ile də yaxşı tanış idim.

Yaxşı yadımdadır. «İnturist» mehmanxanasında Ə.Əliyev adına Həkimləri Təkmilləşdirmə İnstitutunun yubiley mərasimi keçirilirdi. Mən Zərifə xanımla üzbəüz əyləşmişdim. Ona xüsusi qayğı göstərirdilər. Qabına düzülən meyvələri bizə tərəf göndərirdi. Sanki bundan böyük zövq alır, əyləşənlərə ana qayğısı ilə yanaşırdı. Onun sadəliyində böyüklük var idi.

Günlərin birində Zərifə xanımla Moskvada Tibb Elmləri Akademiyasının iclas salonunda görüşdük. O, məruzə etməli idi, həmin tədbirdə mənim də məruzəm planlaşdırılmışdı. Həssas qəlbli insan həyəcanlandığımı görüb, məni sakitləş-dirirdi. Qarşıya nə çətinlik çıxarsa, kömək əlini uzadacağını bildirdi. Bütün bunlar məni daha da ruhlandırdı, öz üzərimdə ana nəvazişi duydum. Böyük uğurla qarşılanan məruzəm dinləyicilərin çox xoşuna gəldi. Onu da qeyd etmək istərdim ki, akademik Zərifə Əliyeva çox sadə, təvazökar və böyük qəlbə malik insan idi. O, tək mənə yox, Moskvada yaşayan bütün azərbaycanlılara köməklik göstərirdi və bundan böyük zövq alırdı.

Onun vaxtsız ölümü mənə çox pis təsir bağışladı. Həmin gün hava çiskinli idi. Sanki təbiət də onun kimi ağlayırdı. Moskvada yaşayan nə qədər soydaşımız var idisə, hamısı onun tabutu önündən keçdi. Siyasi Büronun üzvləri, hökumət və dövlət xadimlərinin əksəriyyəti akademikin fəxri qarovulunda dayanmışdı. Digər millətin nümayəndələri tabutun önündən keçərkən köks ötürərək. "Heyf ondan, necə də gözəl qadındır" – deyə kədərlənirdilər. İnsan axınının sayı-hesabı yox idi. Bu arada böyük müğənnimiz Müslüm Maqomayev "Sənsiz" nəğməsini oxudu. Bu nəğmə

hamımızı kövrəltdi, özümüzdən asılı olmayaraq, qeyri-ixtiyari gözlərimizdə yaş damlaları göründü. İndi də həmin nəğmə səslənəndə akademik Zərifə xanımın torpağa tapşırıldığı qəbiristanlıq və çiskinli hava gözlərim önünə gəlir, kövrəlirəm.

Allah ona qəni-qəni rəhmət eləsin! Qəbri nurla dolsun!

**Ofelya Hüseynova**
*Tibb elmləri doktoru*





Hər insanın ömründə özünün də gözləmədiyi halda dönüş günləri, anları olur. Mənim də həyatımda belə bir dönüş günü olmuşdur. Hələ neçə illər bundan əvvəl akademik Mirqasımov adına Respublika Klinik Xəstəxanasında ikinci terapiya şöbəsində tibb bacısı işləyirdim. Həyatımda nəyinsə dəyişəcəyini ağlıma gətirmirdim. ?..

Bir gün işə gələrkən işlədiyim şöbədən xəstəxananın göz cərrahiyyəsi şöbəsinə baş tibb bacısı vəzifəsinə köçürülməyim barədə əmr verildiyini eşitdim

Doğrusu, bu xəbər məni bir qədər çaşdırdı. Amma bu çətin şöbəyə keçirilməyim məni qorxutmadı. Əksinə, bir az da qürurlandırdı. Çünki həmin şöbənin Zərifə xanım Əliyevanın təşəbbüsü ilə yaradıldığını eşitmişdim, bilirdim. Həmin gün Zərifə xanım mənimlə ətraflı söhbət etdi, baş tibb bacısı kimi nələr görəcəyimi bildirərək, lazımi göstəriş və tapşırıqlarını verdi. Onun bu səmimi insanpərvərliyi məni ruhlandırdı. Tezliklə, yalnız Zərifə xanıma mənsub olan işgüzarlıq nəticəsində göz cərrahiyyəsi şöbəsi ad-san qazandı. Həmin illərdə Zərifə xanımın özünün elmi-tədqiqat işlərinin çox olmasına baxmayaraq, xəstəyə ayrılmış kansultasiya günlərini bir dəfə də olsun təxirə salmadığının şəxsən şahidi olmuşam. O, mehriban, söhbətcil idi Qarşısındakı müsahibini diqqətlə dinləyər, heç vaxt heç kəsin sözünü kəsməzdi. Sonralar şöbənin yenidən qurulmasına, müasir avadanlıqla təchiz olunması üçün əlindən gələn köməyi əsirgəmirdi. Hətta onun etibarını qazandığım üçüü bəzi işləri özü olmayanda mənə həvalə edirdi.

1978-1983-cü illərdə F.Əfəndiyev adına 1 saylı klinik xəstəxanada göz xəstəlikləri şöbəsində kafedranın filialı yaradılanda Zərifə xanım məni də həmin şöbəyə dəvət etdi. Bu onun sadə bir tibb bacısına böyük etimad göstərdiyini sübut edirdi. Bunu yalnız böyük qəlbli insanlar edə bilərdi...

Hər il aprel ayında bu gözəl insanın qəbrini ziyarət edir, bununla da daxilən özümdə sakitlik tapıram, çünki mənim həyatımın və gənc1iyimin ən maraqlı anları Zərifə xanımla keçib, elə gün olmur ki, onu xatırlamayım, onu anmayım. Dəyərli məsləhətləri, insanlara xoş münasibəti, xüsusilə uşaqlara böyük məhəbbəti gözlərim önündədir. Kiminsə övladı

ali məktəbə qəbul olunardısa və yaxud toy mərasimi keçirilsə idi, Zərifə xanım buna çox sevinərdi. Bəzən məni yanına çağırıb deyərdi: – Nigar, gör kimin nəyə ehtiyacı var, bəlkə kiməsə köməklik, yardım etmək lazımdır. Bütün bunlar onun gündəlik qayğıları idi. İndi də onun yoxluğuna inanmıram. Elə bilirəm ki, harasa ezamiyyətə gedib, yenə qayıdacaq. Hər gün bu nikbin duyğularla işə başlayır, onu sona yetirirəm. Sanıram ki, Zərifə xanım haçansa yenə qapını açıb içəri girəcək, xoş təbəssümü ilə dillənəcək: «Nigar, işlərimiz necədir?»

İndi həmin illəri xatırladıqca qəlbim göynəyir. Üstündən uzun illər keçsə də onun yoxluğuna özümü heç cürə inandıra bilmirəm.

**Nigar İsmayılova**
*Mərkəzi Klinik Xəstəxanasının*
*məsul xəstə məsləhətçisi*





Elə insanlar var ki, dünyasını dəyişəndən sonra insanları yaşamağa çağıran, ömürə məna verən, yol göstərən işıqlı ruhu qalır. Zərifə xanım Əliyeva da belə nurlu qadınlarımızdan biri idi. Çox xoşbəxtəm ki, Zərifə xanımla bir müddət işləyib, onunla yaxından tanış olmuşam. İstedadlı alim, yüksək səviyyəli mütəxəssis, işinin vurğunu, çox səmimi, qayğıkeş və sadə insan idi, 1950-1960-cı illərdə traxomanın müalicəsi və tam ləğvi respublikamızda problemli məsələlərdən sayılırdı. Bunu bilsə də Zərifə xanım çətinlikdən qorxmayaraq, Maştağa qəsəbəsində traxomanın müalicəsi və profilaktikası ilə məşğul oldu. Xəstəliyin ağır və mühüm olmasına baxmayaraq, Zərifə xanım bu problemin öhdəsindən cəsarətlə gəlirdi.

Zərifə xanım həssas qəlbli, istiqanlı bir insan, gözəl ailə başçısı, gözəl ana, gözəl nənə idi. İşə gələn kimi evə zəng vurar, evdə qoyub gəldiyi ailə üzvlərinin qayğısına qalardı. Eyni zamanda iş yoldaşları, həmçinin adi tibb bacıları ilə mehribancasına hal-əhval tutur, onların dərd-şərlərinə səmimiyyətlə köməklik göstərirdi. Cibi həmişə "xahişnamələrlə" dolu olardı. Buna baxmayaraq, Zərifə xanım həmin xahişnamələri sabahkı günə saxlamaz, zəng edib, mövcud problemləri həmin andaca həll edərdi.

Mənim heç yadımdan çıxmayan bir epizodu xatırlatmaq istəyirəm. O, artıq Təkmilləşdirmə İnstitutunun "Oftalmologiya" kafedrasında çalışırdı. Bu zaman mən namizədlik dissertasiyamı müdafiə etməli idim. Qayğıkeş xanım bundan xəbər tutub məni təbrik etməyə gəlmişdi. Müdafiə zamanı Zərifə xanımın elmi şuranın zalına bir dəstə qızılgüllə daxil olmasını gördüm. Bu mənə çox dərin təsir bağışladı. Həmin anı yadımdan çıxara bilmirəm. Zərifə xanımın gözəl siması həmişə mənimlədir. İstedadlı alim söhbətlərində dönə-dönə təkrar edərdi ki, insan gözəl həkim ola bilər. Ancaq onun qəlbində ədəbiyyata, poeziyaya böyük sevgi olmasa, həkimliklə çox uzağa gedə bilməz. ?...

Zərifə xanım çox işgüzar alimlərimizdən idi. Hələ indiyədək kimsə onun yorulduğunu, işindən şikayət eşitməyib, o, həm aspirantlarla, həm də həmkarları ilə çox gözəl ünsiyyət qurmağı bacarırdı. Kimə? rəhbəri olduğu işlərdə dönə-dönə məsləhətlər verər, dissertasiyanın yüksək səviyyədə alınması üçün bilik və bacarığını əsirgəməzdi. Mən deyərdim ki, bu

istedadlı alim Azərbaycanın ən böyük sərvətlərindən biridir, bizlər belə sərvətlərin qədrini bilməli, onun xatirəsini daim qorumalıyıq. Təəssüf ki, mən yazıçı, qələm əhli deyiləm, adi həkiməm. Amma o vaxt da, indi də hiss edirəm ki, Zərifə xanımın keçdiyi gözəl həyat yolundan, yaşadığı mənalı ömründən çox hissəli bədii film çəkmək mümkündür. Mənə elə gəlir ki, xalqımızın bu xanım-xatın qadınının işıqlı obrazını yaratmağın vaxtı çatmışdır.

**Səkinə Muradəliyeva**
*Tibb elmləri namizədi*





Qadının öz yaradıcılıq imkanlarını gerçəkləşdirilməsi problemi məni həmişə düşündürmüşdür. Məsələn, əsl xoşbəxtliyin olması üçün qadın yaradıcı bir şəxsiyyət kimi öz varlığını ömür-gün yoldaşı və ana kimi öz üzərinə düşən vəzifələrlə ahəngdarlıqla uyğunlaşdırmağı bacarmalıdır. Lakin buna nail olmaq heç də hər bir qadının işi deyildir.

Bu nəcib və ülvi vəzifənin öhdəsindən böyük uğurla gəlmiş çox gözəl bir qadını şəxsən tanımaq səadəti həyatda mənə də qismət olmuşdur. Söhbət böyük alim, istedadlı mütəxəssis, öz fəaliyyətində fədakar, görkəmli ictimai xadim, qayğıkeş ana, sədaqətli ömür-gün yoldaşı, Heydər Əliyev kimi dünya şöhrətli siyasətçi və dahi şəxsiyyətlə əl-ələ verib həyatda bir addımlamış, hələ sağlığında əfsanəyə çevrilmiş bir qadından - Zərifə xanım Əliyevadan gedir.

Zərifə xanımın həyat yolu müasir qadının bitkin və kamil simasının formalaşması və üzə çıxarılması işinə bir növ töhfədir. Axı Azərbaycan cəmiyyətində qadın təkcə elmin, texnikanın maarif və təhsilin, incəsənət və mədəniyyətin bütün sahələrinin, ölkənin siyasi və ictimai həyatının bərabərhüquqlu iştirakçısı deyil, həm də Azərbaycanda əsrlər boyu olduğu kimi həyat, gözəllik, lətafət və məhəbbət - adi günlərimizin labüd və arzu edilən keyfiyyətlərinin daşıyıcısı olaraq qalmaqdadır.

Zərifə xanım Əliyeva tibb elminə və təcrübəsinə sanballı töhfə vermişdir. "İşləmək" problemi onun üçün, sadəcə olaraq, "vəzifə tutmaq" demək deyildi. Elm Zərifə xanım üçün geniş fəaliyyət meydanı idi, elə bir meydan ki, burada o, bir alim kimi nəyə qadir olduğunu, bütün yaradıcılıq imkanlarını tam dolğunluğu ilə bariz şəkildə nümayiş etdirirdi. Onun gördüyü işdə dərin fərdilik, yüksək səviyyədə ixtisas, peşəkarlıq özünü aşkar büruzə verirdi.

Bu gözəl qadının işgüzar keyfiyyətləri onun şəxsi cazibədarlığı ilə ahəngdar şəkildə vəhdət təşkil edirdi. Daxili ahəngdarlıq, mənəvi zənginlik, professional mədəniyyət zahiri təzahür formalarında - davranışda, xoş ünsiyyətdə, hüsn-rəğbətdə, paltarda öz əksini tapırdı.

Zərifə xanım həmişə incə zövqlə geyinərdi. Modaya və moda yeniliklərinə təbii maraq, modadan geri qalmamaq mey-

li onun üçün və yaxınları üçün sevinc və nikbinlik mənbəyi idi. Zərifə xanım gözəlliyi bizi əhatə edən həyatda, musiqidə, bədii yaradıcılıqda, poeziyada axtarırdı. Buna görə də, gözəllik onu və əzizlərini adi həyatda da müşayiət edir və öz təcəssümünü rahat və mehriban ailə mühitində, yüksək estetik zövqdə, səmimi münasibətlərdə, zəriflik və xüsusi sadəlikdə tapırdı, bu gözəlliyi o, əzizlərinin və doğmalarının həyatında da yaradırdı.

Zərifə xanım Sovet Sülhü Müdafiə Komitəsinin üzvü və Azərbaycan Sülhü Müdafiə Komitəsi sədrinin müavini idi. Onun bu istiqamətdə fəaliyyətində qadınların sülh və əmin-amanlıq, mənən zənginləşdirmək arzusu aydın nəzərə çarpırdı. Bizim bu keşməkeşli, narahat zəmanəmizdə Zərifə xanımın yeri necə də görünür!

Onun həyat yolu mürəkkəb və çətin olmuşdur. Zərifə xanımın şəxsiyyəti daim təkmilləşməyə, kamilləşməyə can atmaq həvəsi ilə, xüsusi ruh yüksəkliyi ilə, istedadının çoxşaxəliyi və gücü ilə insanı valeh edirdi.

Onun nurlu obrazı qəlbimdə və yaddaşımda dərin həkk olunmuşdur. Odur ki, müqəddəs bildiyim bu obrazı mən qeyri-adi olaraq romalı əsilzadə bir qadının obrazı ilə müqayisə edirəm. O, qadın qonaqlarının öz cavahiratını göstərmək xahişinin cavabında öz övladlarını göstərmişdir.

**Fəxriyyə Xələfova**

"Heç kim bu dünyada əbədi deyil,
hamı əlbət köçər bir gün.
Ancaq təmiz ad əbədir, yaşayır..."
**Sədi**





O uzaq ötən illərdə mənə nəsib olan ünsiyyət saxladığım şəxsiyyət haqqında xatirələrimi bölüşmək zərurəti hissinin məndə baş qaldırması zamanı nəhayət ki, gəlib çatdı.

Xəyalımda müxtəlif təəssüratlar, həyat lövhələri canlanır. Yay fəslini xüsusilə xatırlayıram. Qurban Xəlilov, həyat yoldaşı Gülsüm xanım, böyük oğulları və həyat yoldaşları, qızı, onların övladları, həyat yoldaşım Fərhad (onların kiçik oğlu) və mən, bir də bizim hələ o zaman böyüyən uşaqlarımız - Seymur və Bəhram. Hər yay Zuğulbada yerləşən birinci hökumət bağında dincəlirdik.

Səhər yeməyindən sonra uşaqlarla adətimiz üzrə çimərliyə yollanır, orada Zərifə xanım və uşaqları oğlu İlham, qızı Sevillə müntəzəm görüşərdik.

Günəş, dəniz sahili - uşaqlarla istirahət. Həyatda bundan yaxşı nə ola bilər. Zərifə xanım olduqca ünsiyyətcil, səmimi qadın idi.

Onun haqqında hələ tanışlığımızdan xeyli əvvəl eşitmişdim. Mənim nənəm - oftalmologiya sahəsində professor Axundova - Bağırbəyova Sona xanım hələ o zaman gənc həkim olan Zərifə Əliyeva ilə İnstitutda işləyirdi. Onlar yalnız peşə yoldaşları deyildilər. Aralarında xoş, etibarlı münasibətlər qurulmuşdu: vaxtaşırı zəngləşər, iş problemlərini, xəstələrin müalicəsini müzakirə edər, eləcə də başqa mövzular ətrafında söhbətləşərdilər.

Səhərlər Zərifə xanım bəzən maşınla Sona xanımın ardınca gələr, yolüstü özü ilə işə aparardı. Heydər Əliyev o zaman DTK-ya rəhbərlik edirdi.

O illər mən tibb institutunun tələbəsi idim. Biz Sona xanımla ikimiz birlikdə yaşayırdıq. Nənəmin tövsiyəsi və məsləhətləri hesabına mən həkim oldum. O, öz işi, həmkarları barədə mənə çox söhbətlər danışardı.

Zərifə xanımın istedadlı müfəxəssis olması, elmə aludəliyi, böyük gələcəyi olması haqqında nənəmin necə həvəslə danışmasını çox yaxşı xatırlayıram. Sona xanım həm də Zərifə xanımın nece qayğıkeş insan, zərif, mədəni qadın, gözəl həyat yoldaşı, ana olması haqqında danışardı. Təəccüb edirdim ki, bu böyüklükdə işləri aparmağa o, necə vaxt tapırdı. Onun işgüzarlığına heyran qaldım.

Zərifə xanım həmişə Sona xanımla maraqlanar, sağlıq durumundan xəbər tutar, salam göndərərdi.

Biləndə ki, mən də həkiməm, Zərifə xanım Tibb sahəsindəki problemlər barəsində söhbətlər edirdi. Onun iridodiaqnostika sahəsi ilə maraqlandığını hansı ruh yüksəkliyi ilə mənə söylədikləri heç vaxt yadımdan çıxmaz. Söyləyirdi ki, tibbin az öyrənilmiş bu problemi ona alim kimi vacibdir, göz bəbəyinin şəklinə, ləkəsinə görə insan orqanizminin bir çox patologiyasına diaqnoz qoymaq olar. Mənə həkim-psixiatr kimi bu mövzu xüsusilə maraqlı və yaxın idi. Bu araşdırmalar bir neçə elmin qovuşuğunda dayanırdı. Bir də ki, Zərifə xanım mövzunun bütün təfərrüatını dərindən başa düşürdü.

Sonralar onun "İridodiaqnostikanın əsasları" adlı nadir kitabı işıq üzü gördü. Zərifə Əziz qızı tibb sahəsində başqa tədqiqatlarla da məşğul idi, məsələn, traxoma, qlaukoma və s. Onun yetirmələri bu günə kimi də oftalmologiya sahəsində çalışırlar.

İndi isə onun insani keyfiyyətləri barədə söhbət açmaq istəyirəm. Xatirələrim bu misilsiz qadının təbiət və xarakterini məhdud şəkildə əks etdirmiş zahiri görünüşünü canlandırır.

Ona məxsus hər bir şey təbii və sadə idi, ciddi geyim tərzi, qısa, nöqsansız saç düzümü, kosmetikası və bəzəksiz. Bu onun üçün məhdud idi: başqaları ona daha parlaq geyməyi və kosmetikadan istifadə etməyi məsləhət etməyə çalışanda Zərifə xanımın bir cavabı olardı: «Bu mənlik deyil" – deyə söyləyirdi.

O, ünsiyyət qurduğu hər kəsə şəfqət və qayğı göstərirdi (ev, təsərrüfat işlərində ona kömək edən sadə insanlar, sürücülər və başqaları onu sevər, hörmətini saxlayardılar).

Əlbəttə ki, ilk növbədə, ailəsinə, həyat yoldaşı Heydər Əliyevə və uşaqlarına can yandırar, onların qayğısına qalardı. Ailəsi onun həyatının əsası idi.

Sonralar, Əliyevlər ailəsinə gözəl qız - Mehriban xanım gəlin kimi gələndə, Zərifə xanımın sevincinin həddi-hüdudu yox idi. O, gəlini ilə, onun kamalı, biliyi və digər başqa keyfiyyətləri ilə qürur hissi duyurdu. Zərifə xanım gəlinini doğma qızı kimi qəbul edərək sevməyə başladı.

Daha sonra isə valehedici nəvələr dünyaya gəldi.

Sanki hər şey gözəl həyatın başlanğıcından, xəbər verirdi...

...Axşam çağı, kino zalında göstəriləcək filmlərin nümayişindən öncə, bağ xiyabanları ilə gəzişərdik. Zərifə xanım qeyri-





adi bir ana idi: daim uşaqlarının yanında olar, vaxtaşırı onları səsləyərdi. O, tam mənası ilə hər şeydən öncə, uşaqlarının qayğısını heç zaman başqasına həvalə etməzdi.

İşgüzar səfərlərdə olanda, Ulu Öndərin başı işə qarışıq olanda yenə də gün ərzində bir neçə dəfə evə zəng edər, bütün baş verənlər haqqında Zərifə xanımdan öyrənərdi. O, olduqca diqqətcil həyat yoldaşı və ata idi.

Zərifə xanım söyləyirdi ki, bəzən axşamlar vaxt tapan kimi Heydər Əliyev mahnı oxuyar, o isə böyük maraqla musiqi ilə onu müşayiət edərdi.

Zərifə xanım həyatı çox erkən tərk etdi. O, doğmalarının və yaxınlarının qəlbində silinməz iz, onu tanıyanların hafizəsində xoş xatirə, bütün xalqın məhəbbətini, saygı və ehtiramını qazanıb getdi.

Allah rəhmət eləsin!

**Tamilla Axundova**
*Həkim-psixiatr*

Həyatda ən çətin şey yaxşılıq etməkdir, insan öz mürəkkəb, əzab-əziyyətli ömründə yaxşılıq-pislik adlı təzadlarla rastlaşır. Həqiqətən də pislik etmək asan yoldur, amma gərək yaxşılıq, xeyirxahlıq etməyi bacarasan. Belə bir ada xeyirxah əməllərin sayəsində nail olmaq mümkündür. Biz insanlar yaxşılıq görəndə ümidlərimiz artır, həyatımız bir daha canlanır, ətrafımızdakılara daha samimi, inam dolu hisslər aşılayırıq.

Elə təbiblər tanıyıram ki, onlar bır insan həyatı yaşayır, ağrı-acını az qala özləri yaşayırlar. Belələrindən biri də gözəl insan, akademik Zərifə xanım Əliyevadır. Xoş bir təsadüf məni onunla görüşdürdü.

Təxminən 1973-cü ilin payızı olardı, on doqquz yaşım var idi. Hələ körpə ikən sətəlcəm xəstəliyinə tutulmuş, müalicə alıb sağalsam da, onun fəsadları gözlərimə bərk təsir etmişdi. Gözlərimin bəbəkləri qızarır, çox əziyyət çəkirdim, insanların gözünə görünməyə utanırdım. Tanış-bilişlər göz xəstəlikləri institutuna müraciət etməyi məsləhət gördülər.

Günlərin birində qərara gəlib, həmin İnstituta yollandım.

Qapıda yaşlı bir kişi dayanmışdı. O, institutun gözətçisi idi. Ona öz dərdimi bildirdim və məsləhət almağa gəldiyimi dedim. Bu vaxt pillələri ağır yerişli, xoş təbəssümlü bir xamının endiyini gördüm. O, gözlərimin qızardığını görüb maraqlandı. Baxmayaraq ki, iş gününün sonu idi. Geri qayıdaraq, məni iş otağına apardı. Gözlərimi hərtərəfli müayinə etdi, keçirdiyim xəstəliklərlə maraqlandı, məni diqqətlə, səbrlə dinlədi. Özüm çox təəccüb edirdim, onun sadəliyi, müdrikliyi, qayğıkeşliyi qarşısında söz tapa bilmirdim. Bu arada hansı bölgədən olduğumu soruşdu. Qubalı olduğumu biləndə dedi ki, Quba camaatına böyük hörmətim var. Atası akademik Əziz Əliyevin adını çəkib, köksünü ötürdü, kövrəldi. Yenə qayıtdı gözlərimin müalicəsinə...

Dərman preparatları yazdı. Amma dönə-dönə bildirdi ki, gözlərin sənə çox əziyyət verməsə, ağrı dözümlü olsa, bu dərmanlardan çalış istifadə etmə. Evlənəndən sonra hamısı keçib gedəcək... deyə gülümsündü. Tünd rəngli eynək taxmağı məsləhət gördü. Həqiqətən də 30 yaşdan sonra gözümdəki qüsurlar





tamam keçib getdi. O vaxtdan xeyli illər ötsə də, indi də mən eynək taxmır, kiçik hərfləri belə yaxşı yazıb oxuyuram. Bu istedadlı həkimi, qayğıkeş insanı böyük minnətdarlıq hissi ilə xatırlayıram:

*Sağlamlıq o zaman təmin olar ki,*
*Təbibə verəsən sən öz nəbzini.*

**Fərhad Məmmədov**
*Neftçi*

Milli-mənəvi dəyərlərimizin qorunmasında, gənc nəslin təlim-tərbiyəsində Azərbaycan qadını, Azərbaycan anası böyük rol oynayıb. Həcər qeyrətli, Nigar qürurlu analarımız həmişə həyatımızın müxtəlif sahələrində öndə gedib, tarix içində yaradıblar. Bu baxımdan akademik Zərifə Əliyeva, professor Aida İmanquliyeva əvəzolunmaz ana, sədaqətli həyat yoldaşı, elin fədaisi, qeyri-adi şəxsiyyət, kamil obraz kimi insanların yaxşı xatirindədir.

Aida xanım İmanquliyeva sözün həqiqi mənasında gözəl bir insan, gözəl bir ana, gözəl bir alim, gözəl bir təşkilatçıdır. Aida İmanquliyeva həqiqi mənada əsl azərbaycanlı qadını idi. Yəni onda bir qadın kimi bütün müsbət cəhətlər formalaşmışdı. Bir alim kimi Aida xamın çox misilsiz idi. Aida xanım İmanquliyeva həm də gözəl müəllim idi.

O, uzun müddət şərqşünaslıq fakültəsində Azərbaycan və rus bölmələrində ərəb ədəbiyyatını tədris edirdi. Həmin illərdə mən fakültə dekanı idim. Aida xanım bacarığı sayəsində institutun işini yüksək səviyyəyə qaldırdı. Bu gün onun ideyaları tələbələri tərəfindən uğurla davam etdirilir Aida xanım İmanquliyeva bir ana, bir qadın, bir həyat yoldaşı, dost kimi əvəzolunmaz idi. Həddən artıq dostluqda çox möhkəm insan kimi fərqlənirdi. Bir sözlə, gözəl insan idi. Bunlar hamısı nəcabətli kökdən irəli gəlirdi. O, atası məşhur jurnalist Nəsir İmanquliyevdən, anası Gövhər xanımdan tərbiyə almışdı.

Ondan sonra görkəmli yazıçı və tənqidçi Mircəlal Paşayevin və Püstə xanımın ocağına gəlin köçmüşdü. Sonralar isə Ümummilli Liderimiz Heydər Əliyev və akademik Zərifə xanım Əliyeva ilə qohumluq əlaqələri onu daha da nəcibləşdirmişdi. Heydər Əliyev kimi nəhəng şəxsiyyətlə, Zərifə xanım kimi zərif bir qadınla qohumluq əlaqələrinin onun həyatında böyük rolu olub. El anası Zərifə xanım Əliyeva adından göründüyü kimi zərif məxluq, həlim xasiyyətli, ana kimi nəvazişkar qadın kimi tanınırdı. O dövrlərdə onun Azərbaycanda böyük hörməti var idi. Bu zərif qadını tanıyanlar həmişə onu hörmətlə yad edirlər. O həm də Azərbaycana İlham Əliyev kimi oğlu bəxş edib. Təbii ki, Zərifə xanım Heydər Əliyev kursunun ən layiqli davamçısı, müasir şəraitdə onu yaradıcı şəkildə daha da inkişaf etdirən böyük bir siyasətçi, gözəl azərbaycanlı şəxsiyyət, möhtərəm İlham Əliyevi verib. Aida xanım İmanquliyeva isə respublikaya Mehriban xanım kimi Azərbaycanın böyük ziyalısını





bəxş edib. O, həm də hörmətli Prezidentimizin həyat yoldaşı və Azərbaycanın birinci ledisidir. Əgər möhtərəm prezident Əliyev o şərəfli ocağın yetirməsidirsə, Mehriban xanım da soy-kökü insanlara nümunə olan ləyaqətli ocağın yetirməsidir. Mehriban xanım bizim bir çox məsələlərdə hörmətli Prezidentimizə layiqli dəstək olan insandır. O, Azərbaycan muğamını ehya etdi. Məktəblərin tikintisi və bərpası, uşaq evlərinə qayğı, talesimiya xəstəliyinə qarşı mübarizə və s. Heydər Əliyev Fondunun prezidenti, YUNESKO və İSKSKO-nun xoşməramlı səfiri, millət vəkili Mehriban xanım Əliyevanın xidmətləridir. Fədakar qadının işgüzar fəaliyyəti Prezidentimizə çox böyük dəstəkdir. Çünki Mehriban xanım da bu xeyirxah ailənin üzvüdür.

Akademik Zərifə xanım Əliyeva ilə Alda xanım İmanquliyevanın taleləri bir-birinə bənzəyir. Hər iki xanım dünyadan vaxtsız köçmüşdü. Az yaşadılar, ancaq mənalı ömür sürdülər. Xeyirxahlıq, nəciblik, çətin anda insanlara dayaq olmaq hər iki şəxsiyyətə məxsus cəhət idi. Akademik Zərifə Əliyeva gözlərə nur paylayıb, sevinc bəxş edib. Adam tanıyıram ki, deyir ki, məni maşın vurmuşdu, gözüm ovcumda idi. Zərifə xanım həkim qayğısı ilə yanaşaraq, gözümü yerinə bərpa etdi. Zərifə xanım sözün əsl mənasında məsum azərbaycanlı qadını idi, Çünki o, böyük Əziz Əliyevin ailəsində doğulub böyümüş, tərbiyə almışdı. Şərəfli ömür yolu hər adama nəsib olmur. Hər iki xanım yaşadığı qısa ömür payında öz bilik və təcrübəsi ilə insanları maarifləndirmiş, çətin anlarda arxa durmağı bacarmışdır. Gözəl insanları, xeyirxah əməl sahiblərini həmişə qorumaq, daim xoş hiss və duyğularla yad etmək lazımdır, çünki onları yad etməsək, unutsaq, unudularıq.

**Vasim Məmmədəliyev**
*BDU-nun ilahiyyat fakültəsinin dekanı*
*akademik*

# ELEGİYA





**1997**-ci ilin aprelin 15-də görkəmli heykəltəraş Ömər Eldarovun akademik Zərifə xanım Əliyevanın xatirəsini əbədiləşdirən "Elegiya" əsərinin təqdimat mərasimi keçirilmişdir.

Mərasimdə Azərbaycan Respublikasının prezidenti Heydər Əliyev, onun qızı Sevil xanım Əliyeva və oğlu İlham Əliyev iştirak edirdilər. Təqdimat mərasimində Azərbaycan Elmlər Akademiyasnın prezidenti, Milli Məclisin üzvü, akademik Fərəməz Maqsudov, abidənin müəllifi heykəltəraş Ömər Eldarov, professor Zəhra Quliyeva çıxış edirdilər.

Azərbaycan Elmlər Akademiyasının prezidenti,

Milli Məclisin üzvü, akademik Fərəməz Maqsudovun çıxışı:

- Bu gün biz həzin bir xatirənin işığına yığışmışıq. Çox zaman memarlığa daşda donmuş musiqi deyirlər. Mənsə bu xatirə abidəsini mərmərdə, tuncda çağlayan məhəbbət adlandırardım. Sözün geniş mənasında bütün müqəddəs çalarları ilə mərmərləşmiş, tunclaşmış ülvi bir məhəbbət. Mərmərin, tuncun köksündə döyünən vəfalı həyat yoldaşı ürəyi, qayğıkeş ana, vətənpərvər ziyalı, istedadlı həkim, müdrik alim ürəyi.

Bu obrazdan bir işıq, bir nur süzülür, ürəklərə nüfuz edir, tamaşaçını daxilən təmizləyir, xeyirxahlığa, səmimiyyətə səsləyir. Bu nur, bu işıq – bacarıqlı, istedadlı oftalmoloqun ömür boyu işıqlı dünyaya açdığı gözlərin nurudur ki, onun abidəsinə hopub. Bu gözlərdən süzülən mülayim işığın da çeşməsi həkim əllərinin nur verdiyi gözlər deyilmi?!

Göyərçin qanadı kimi açılmış və sanki uçuşdan sonra bir hovur dincəlmək istəyirmiş kimi arxayınlıqla kreslonun söykənəcəyinə dayaqlanmış bu barmaqlardan süzülən şəfa elə bil hələ də davam edir.

Kim bilir, bəlkə böyük Füzuli də belə bir gözəllik qarşısında ilahi bir vəcdlə:

Heyrət, ey büt, surətin gördükdə lal eylər məni,

Surəti-halım görən surət xəyal eylər məni – deyərək canlı insanla büt, heykəl, surət arasındakı fərqin nisbi olduğunu, insanı heyrətə gətirən bütün əslində heyrətdən daşa dönmüş canlı insandan daha canlı olduğunu elan etmişdir.

İstedadlı sənətkarımız Ömər Eldarovun nəfis tərtib olunmuş "Elegiya" kitabını vərəqlədikcə mərmərdə və tuncda heykəlləşmiş bu sənət abidəsinin sirləri aydın olur. Məlum olur ki, bu təkcə heykəltəraşlığın uğuru deyil, bu abidənin müəllifləri var: Bunlar Zərifə xanımın həyat yoldaşı, Azərbaycan xalqının müdrik rəhbəri, möhtərəm prezidentimiz Heydər Əliyev, iki ciyərparəsi, xalqımız ləyaqətli övladları olan İlham müəllim və Sevil xanımdır. Heykəltəraşın təxəyyülündə Zərifə xanımın obrazını canlandıran bunlar olmuşlar. Ömər Eldarov isə öz istedadının, ilhamının gücü ilə bu insanların məhəbbətini və həsrətini mərmərə və tunca köçürmşdür.

Zərifə xanımın vətən qarşısında, el qarşısında, milli elmimizə göstərdiyi xidmətlərdən çox danışmaq olar, cild-cild kitablar yazmaq olar. Ancaq onun bu böyük xidmətlərindən biri də, məncə, ailə qarşısındakı xidmətidir. XX əsrin görkəmli siyasətçilərindən, ən istedadlı öndərlərindən birinin başçılıq etdiyi bir ailəyə ağbirçəklik etmək hər qadının işi deyil – ər qadının işidir! Babalarımız "Aslanın erkəyi, dişisi olmaz" deyəndə elə bu cür qadınları öyünc yeri ediblər. Zərifə xanım da öz görkəminə uyğun gəlməyən bir aslan gücü ilə bu nəhəng yükü çəkməkdə – böyük bir millətə başçılıq etməkdə, bu milləti zamanın keşməkeşlərindən çıxarmaqda öz sevimli həyat yoldaşı ilə çiyin-çiyinə vermişdir, öz həyat yoldaşına və Azərbaycan xalqına hər iki valideynin mənəvi sərvətlərinin daşıyıcısı olan iki gözəl övlad bəxş etmişdir.

İndi Zərifə xanımın həyatı övladlarında, nəvələrində davam edir. Sağlığında olduğu kimi indi də Zərifə xanımın xatirəsi millətə öndərliyin daşlı-kəsəkli yollarında möhtərəm prezidentimizin əlindən tutur, öz sözləri ilə desək, həyatının qalan hissəsini də fədakarcasına xalqına həsr etmiş bu böyük insanı yaşayıb-yaratmağa, mübarizəyə ruhlandırır.

Qarşımızdakı albomda təsvir olunmuş iki abidə Zərifə Əziz qızı Əliyevanın yalnız zahiri, maddi abidəsidir. Onun əsl mənəvi abidəsi isə ürəklərdədir: son nəfəsinə qədər xidmət etməkdən usanmadığı xalqının ürəyində, həyat işığı bəxş etdiyi xəstələrinin ürəyində, nəhayət, vəfalı həyat yoldaşının, sevimli balalarının, nəvələrinin ürəyindədir. İnsan ürəklərində ucaldılmış abidə isə əbədidir, zaman fövqündədir.





İnsanlara mavi səmanı sevməyə, yaşıl çəməni, pəncərələrimizdən işığı görməyə imkan yaratmış gözəl bir alimin xatirə gecəsidir bu gün. Bu rəsmi bir görüş deyil, bu gün Zərifə xanımın dünyasının dəyişdiyi gündür, onun xatirə günüdür.

**Abidənin müəllifi, heykəltəraş Ömər Eldarovun çıxışı:**

- İcazənizlə bir qədər vaxtınızı alıb bu əsərin necə yaranmasından danışım. Fərəməz müəllim tamamilə doğru dedi ki, əsərin müəllifi təkcə mən deyiləm.Texniki baxımdan yox, bədii baxımdan bu əsər kollektiv şəkildə yaranmışdır. Nə üçün? İlk variantlar sizin gördüyünüzə əsla oxşamırdı. Büstlər, yarımfiqurlar, ən müxtəlif variantlar var idi.

Lakin sonralar Zərifə xanımın yaxın adamları, ilk növbədə Heydər Əliyev ilə, bu yaxınlarda aramızdan getmiş Tamerlan Əliyevlə və Cəmil Əliyevlə görüşlərimiz zamanı onların hamısı abidənin necə olması barədə müzakirələrdə iştirak etmişlər. Nəticədə biz razılaşdırılmış müəyyən fikrə gəldik ki, hansısa bir kompozisiya olmalıdır. Sonra isə mənim və həmkarlarımın (əvvəlcə bu işdə Rasim Əliyev fəal iştirak etmişdir) məsləhətləşmələr zamanı təklif etdiyimiz variant indi sizin gördüyünüzə uyğun gəlmirdi. Fiqur rəmzi xarakter daşıyırdı, portret oxşarlığı az idi. Tədricən biz indiki varianta gəlib çıxdıq.

Ancaq əsas iş sonra oldu. Heydər Əliyev Miskvada olarkən mən dəfələrlə şəkillərlə birlikdə oraya gedirdim. Məni Kremlə buraxırdılar. Orada məşhur tarixi kabinetdə bu abidənin variantları dəfələrlə və çox diqqətlə nəzərdən keçirilirdi. İşin bu mərhələsi daha mürəkkəb, daha çətin mərhələdə idi və təxminən bir il, il yarım davam etmişdir.

Sonra axırıncı variantı təsdiq etmək mümkün olduqda və biz onu gipsə köçürdəndə şübhəsiz ki, Heydər Əliyevin köməyi olmadan heç nə edə bilməzdik. Çox yüksək keyfiyyətli mərmər lazım idi. O zaman beş blok mərmər aldıq. Abidəyə bir blok işlənmişdir. Qalan bloklar isə başqa abidələr üçün, o cümlədən mənim yaratdığım abidələr – Niyazinin, Fikrət Əmirovun, Müslüm Maqomayevin (filarmoniyanın qarşısında) abidələri üçün istifadə olunmuşdur. Başqa sözlə, biz bu fürsətdən digər əsərlər yaratmaq üçün də istifadə etdik. Bütün bunlara görə mən Heydər Əliyevə və bizə kömək edənlərin hamısına minnətdaram.

Texniki baxımdan bu iş Rəfael Allahverdiyevin köməyi ilə həyata keçirilmişdir. Şübhəsiz ki, belə kömək olmadan bu cür əsəri yaratmaq mümkün olmazdı. Moskvadan çox təcrübəli usta çağırılmış və o, lazım olan hər şeylə təmin edilmişdi. İndi abidənin ağırlığı dörd tondur, amma mərmər blokun çəkisi iyirmi tona yaxın idi. Onu yonmaq, indiki vəziyyətə gətirmək çox nəhəng və texniki baxımdan nadir bir iş idi.

Bu gün mənim üçün təntənəli, lakin bir qədər də kədərli gündür. Nə üçün? Ona görə ki, abidə səkkiz il mənim ikinci emalatxanamda - xüsusi olaraq bu əsərin yaradılması üçün tikilmiş emalatxanada saxlanmışdır. Səkkiz il ərzində hər gün emalatxanaya gələrkən paltarımı dəyişmədən, qış vaxtı sobamı yandırmadan əvvəlcə abidəyə yaxınlaşıb onu gözdən keçirirdim ki, görüm hər şey qaydasındadırmı. Bu səkkiz ildə sanki bizim aramızda söhbət gedir, mənəvi ünsiyyət yaranırdı. Əgər desəm ki, bədii əsər həmişə bəlkə də canlıdır, yəqin səhv etmərəm. O, tamaşaçıya təsir edir.

Ötən səkkiz ildə abidəni görənlərin sayı bəlkə də bu gün görənlərin sayı qədər olar. Bununla belə, səkkiz il ərzində emalatxanaya gələnlər çox olmuşdur. Onlar xaraktercə, səviyyəcə müqxtəlif adamlar idi. Lakin bir şeyi deməliyəm: bu abidəyə baxanların hamısı sanki başqalaşır, daha xeyirxah olur, hökmən yaxşı fikir söyləyirdilər. Ona görə ki, Zərifə xanımın obrazı özlüyündə cazibədardır. Bu, emalatxanaya gələn hər biri incəsənəti, musiqini də gözəl bilirdi. Özü musiqini sevər və bizim aramızda təbliğ edərdi. Alim kimi çox yüksək pillələrə, zirvələrə qalxmış oftalmoloqlarımızdan biri idi. Onun elmi əsərlərini nəzərdən keçirəndə görürük ki, bu əsərlər də xalqını sevməyindən meydana gələn əsərlərdir. O, xalqına korluq gətirən xəstəliklərlə mübarizə aparırdı. Namizədlik dissertasiyası o dövrdə Azərbaycanda geniş yayılmış və korluğa səbəb olan traxoma xəstəliyinə həsr edilmişdi. O, ata-anasız, uşaq evlərində yaşayan minlərlə uşağı korluqdan xilas etmişdir. Doktorluq dissertasiyasına gəldikdə isə bu, onun daxili aləmindən yaranan mövzu idi. Çox gözəl təşkilatçı, ictimaiyyətçi olduğu üçün, görkəmli ailənin üzvü olduğuna və ailəsində belə görkəmli ictimaiyyətçilər olduğuna görə elmi əsərlərini də xalqına həsr edir, çalışırdı ki, xalqını korluqdan xilas etsin. O, neft kimyası sahəsində çalışan fəhlələrdə peşə göz xəstəliklərinin müalicəsi üçün də mübarizə aparırdı.





Zərifə xanımın elmi əsərləri elə dəyərli idi ki, SSRİ miqyasında akademik Averbax adına mükafata layiq görülmüşdü. Bu, oftalmologiyada nadir mükafatdır, Azərbaycan oftlamoloqları arasında həmin mükafatı alan yeganə alim idi.

Zərifə xanım böyüdüyü ailəyə xas olan xüsusiyyətləri özündə cəmləşdirmişdi. Bu ailənin üzvləri çox kübar, ziyalı, mədəni, elmli, işgüzar, təvazökar, təmiz və xalqını, millətini, dövlətini, ölkəsini, torpağını sevən insanlardır. Bu xüsusiyyətlərin hamısı Zərifə xanımda əks olunmuşdu. Biz onu həm də gözəl ailənin xanımı kimi tanıyırdıq. O, ailəsinə bağlı, ailəsi və uşaqları ilə nəfəs alan analardan biri idi. Onun həyatı gözümün qabağında, bizim yanımızda keçmişdir. Bütün həyatını ailəsinin sağlamlığına, saflığına həsr etmişdi. Çox sədaqətli həyat yoldaşı, ana idi. Mən bu xüsusiyyətləri indi, uzaqdan da olsa, qızı Sevil xanımda hiss edirəm və ürəyim qürurla dolur ki, Zərifə xanımın bu xüsusiyyətlərini övladları da özlərində cəmləşdirərək hər tərəfə yayırlar. Əliyevlər ailəsinin bir xüsusiyyəti var ki, onlar insanları sevməklə bərabər daim kömək əllərini uzadır, hamıya əl tutmağa çalışırdılar. Zərifə xanım belə insanlardan biri idi.

Zərifə xanım gözəl təşkilatçı, ictimaiyyətçi idi. O, Azərbaycan qadınlarının rəmzi idi. İstər elmdə, istər ailədə, istərsə də elmi işdə biz hamımız ondan ibrət götürməyə, dərs almağa çalışırdıq. Zərifə xanım Azərbaycan tibb elminin, ələlxüsus oftalmologiya elminin inkişafında, yüksəlməsində böyük rol oynamışdır. Bundan əlavə, o, Həkimləri Təkmilləşdirmə İnstitutunda kafedra müdiri vəzifəsində çalışaraq gözəl mühazirələri, dərsləri ilə yüksək ixtisaslı mütəxəssislər hazırlamışdır.

Qeyd etmək istəyirəm ki, o, bütün qadınların, xalqın qəlbində nəinki alim kimi, həm də gözəl bir Azərbaycan qadını kimi dərin iz buraxmışdır. İndi biz ictimai işdə çalışaraq Zərifə xanımın atdığı addımları tətbiq edir, ondan öyrənir, bunları özümüzə dərs sayırıq.

Qoy ölüm sevinməsin ki, Zərifə xanımı bizim aramızdan aparmışdır. Zərifə xanımın siması, xüsusiyyətləri onu tanıyanların, dostlarının, rəfiqələrinin, onunla heç olmasa bir dəfə təmasda olanların qəlbində dərin iz buraxmışdır. O, bizim qəlbimizdə daim yaşayacaqdır. Bu gün o, nəinki bizim qəlbimizdə, bütün xalqımızın, eləcə də dünya xalqlarının qəlbində yaşayacaqdır.

... Əsərlə tanış olduq. Mən bu heykəlin yaradılması üçün sevimli prezidentimiz Heydər Əliyev cənablarına öz minnət-

darlığımı, təşəkkürümü bildirmək istəyirəm. Ömər müəllim, sizə minnətdarlığımızı və təşəkkürümüzü bildiririk ki, öz əsərinizdə Zərifə xanımın kübarlığını, ziyalılığını, alimliyini, insanpərvərliyini əks etdirə bilmisiniz. Albomunuzun təqdimatı münasibətilə də sizi ürəkdən təbrik edirəm. Bugünkü gün bu əsərlər Zərifə xanımın bizim qəlbimizdə daha dərin iz buraxmasına səbəb olacaq və biz gələcək nəslimizi bunlarla tərbiyə edəcəyik. Diqqətinizə görə sağ olun.

Respublika EA-nın prezidenti Fərəməz Maqsudov bir daha abidə haqqında danışaraq dedi ki, bu, dünyanın bütün muzeylərini bəzəyə biləcək bir əsərdir. Mən bu əsəri "Miloslu Venera" ilə müqayisə edə bilərdim. Lakin onun sifətində gözəllik donubdur, burada isə gözəllik çağlayır.

















**AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ HEYDƏR ƏLİYEV:**





**Hörmətli dostlar!**

Bu gün bizim üçün əziz, eyni zamanda kədərli gündür. Əzizdir o mənada ki, Zərifə xanımın xatirə günüdür. Kədərlidir o mənada ki, Zərifə xanım 12 ildir bizdən ayrılıbdır. Ancaq bu hadisə bu gün buraya toplanmağımızda bir məna daşımır. Ailəmiz üçün bir xatirə günü olaraq biz bu günü həmişə yad edirik. Eyni zamanda bu gün Zərifə xanımın surətini əks etdirən gözəl bir incəsənət, heykəltəraşlıq əsəri nümayiş etdirilir. Ona görə də bu bizim respublikamızın mədəniyyətində, heykəltəraşlıq, incəsənət sahəsində yeni bir əsərin meydana çıxmasını nümayiş etdirir.

Ola bilər, mənim fikirlərim subyektiv olsun. Ancaq mən həmişə demişəm. Ömər Eldarovun yaratdığı heykəl – Zərifə xanımın surətini əks etdirən heykəl həqiqətən böyük, gözəl bir əsərdir. Ömər Eldarov Azərbaycan mədəniyyətinin inkişafında misilsiz xidmətlər göstərmişdir. Mən Ömər Eldarovu çox illərdir ki, yaxından tanıyıram. Onun əsərlərinin demək olar ki, hamısı ilə tanışam. Hələ on, iyirmi il bundan əvvəl mən Ömər Eldarovu Azərbaycan mədəniyyətinin, incəsənətinin ən görkəmli simalarından biri hesab etmişəm. İndiyədək onun heykəltəraşlıq sahəsində xidmətləri bu fikri ardıcıl olaraq təsdiq edibdir və mən bu fikri bir daha deyirəm. Ömər Eldarovun yaratdığı heykəltəraşlıq əsərləri Azərbaycan xalqının mədəni, mənəvi sərvətidir və onlar Azərbaycan xalqının mədəniyyətini zənginləşdirmişdir.

Məlumdur ki, bizim xalqımızın keçmiş tarixində, mədəniyyət tarixində heykəltəraşlıq olmamışdır. Bu bizim dini, mənəvi ənənələrimizlə bağlı olmuşdur. Azərbaycanda heykəltəraşlıq məktəbi demək olar ki, XX əsrdə yaranmış və bu əsrdə çox böyük surətlə inkişaf etmişdir. Bu gün biz böyük iftixar hissi ilə deyə bilərik ki, Azərbaycan Respublikasının ərazisində, ölkəmizin muzeylərində şəhərlərində, o cümlədən, xüsusən Bakıdakı meydanlarda, bağçalarda, parklarda çox dəyərli heykəltəraşlıq əsərləri qoyulmuşdur. Bunlar bizim mədəniyyətimizə, memarlığımıza, incəsənətimizə böyük yenilik gətirmişdir.

Bu illər ərzində bizim böyük heykəltəraşlarımız yaranmışdır. Bu gün onların heykəllərinə baxarkən xalqımız bunları qiymətləndirir, xatırlayır. Fuad Əbdürrəhmanov gözəl əsərlər yaradıbdır. Cəlal Qaryağdı, Tokay Məmmədov və başqaları da

həmçinin. Biz sevinməliyik ki, heykəltəraşlarımız çoxdur. Bu görkəmli Azərbaycan heykəltəraşları içərisində Ömər Eldarov xüsusi yer tutur – həm yaratdığı əsərlərin bədiiliyinə, yüksək təsirliliyinə, gözəlliyinə görə, eyni zamanda öz sənəti sahəsində çox məhsuldar işinə görə.

Ömər Eldarov nə qədər heykəltəraşdırsa, o qədər də zəhmətkeş, fədakar və işgüzar adamdır. O, daim çalışır, işləyir. Mən vaxtilə, hələ çox illər bundan əvvəl Ömər Eldarovun emalatxanasında olmuşam. Orada onun nə qədər çox heykəltəraşlıq eskizlərinin, işlərinin nümunələrini görmüşəm, cürbəcür heykəllərin hazırlanması ilə əlaqədar hazırlıq işlərini əks etdirən əlamətləri görmüşəm. Bunlar həddindən artıq idi. Yenə də deyirəm, bir, iki, üç böyük və gözəl heykəl yaradan heykəltəraşlar da tarixdədirlər. Qədim Yunan, İtaliya, Avropa, Rusiya və Qərb ölkələrinin heykəltəraşları mənə məlumdur.

Onların bir çoxu iki-üç əsəri ilə məşhurluq əldə etmişlər, əsrlər boyu sayılırlar, yeni gələn nəsillər tərəfindən qiymətləndirilirlər. Hesab edirəm ki, Ömər Eldarov belə heykəltəraşlardan biridir. Amma onu dünyanın ən məşhur heykəltəraşlarından, onların bəzilərindən fərqləndirən cəhət bir də bundan ibarətdir ki, o, həddindən artıq işləyir və çox əsərlər yaradıbdır.

Azərbaycanın görkəmli mədəniyyət, incəsənət xadimlərinin, ədəbiyyatımızın görkəmli simalarının, ictimai xadimlərin heykəllərinin əksəriyyətini yaradan Ömər Eldarovdur. Ona görə də mən bu günü eyni zamanda heykəltəraş Ömər Eldarovun yaradıcılığı ilə bağlı olan bir gün hesab edirəm. O, yaratdığı əsəri, nəhayət, bu gün nümayiş etdirərkən mən onun bütün yaradıcılığına öz münasibətimi bildirmək istəyirəm və bildirməyə çalışıram.

Azərbaycan dövlətinin başçısı kimi bəlkə də bu mərasim mənim üçün şəxsi xarakter daşıyır. Ancaq bu fürsətdən istifadə edib, Azərbaycan dövlətinin başçısı kimi Ömər Eldarova, onun böyük yaradıcılığına, Azərbaycan mədəniyyətinə göstərdiyi xidmətlərə və yaratdığlarını dəyərli hesab edərək, bu ölməz əsərlərə görə təşəkkürümü bildirirəm.

Bu gün önünə toplaşdığımız heykəl isə mənim üçün çox əziz olan bir insanın surətini əks etdirən heykəldir. Ömər Eldarov





burada onun yaranma tarixi haqqında danışdı. Ancaq bu gün xatirə günü olduğuna görə mən də xatirələrimin bəzi məqamlarına toxunmaq istəyirəm.

Zərifə xanımın həyatdan getməsi bizim ailəmizi, şəxsən məni və mənim övladlarımı çox sarsıtdı. Hər bir ailə üçün itki itkidir. Burada heç bir şeyə fərq qoymaq olmaz. Ancaq hər bir insan da, ailə də özünün daxili mənəviyyatına, yaxud xüsusiyyətinə uyğun olaraq ailəyə baş vermiş faciəyə, bədbəxt hadisəyə, yaxud itkiyə öz münasibətini bildirir. Ümumiyyətlə, ailəmiz çox həssas ailə olduğuna görə Zərifə xanımın vəfatı bizim üçün çox ağır olmuşdur. Bunun üstündən 12 il keçibdir. Biz bu gün də razılaşa bilmirik ki, biz onsuz yaşayırıq. Onun xatirəsi bizim qəlbimizdə, nəinki bizim qəlbimizdə, bizim ailənin bütün gələcək davamçılarının qəlbində daim yaşayacaqdır.

Şübhəsiz ki, Zərifə xanımın vəfatından sonra onun Moskvada, Novodiçye qəbiristanındakı məzarının üstündə abidə yaranması mənim və övladlarımın arzusu olmuşdur. Bilirsiniz ki, Moskvada da heykəltəraşlar çoxdur və çox görkəmli heykəltəraşlar vardır, bunu qeyd etmək lazımdır. Bizim Azərbaycanın heykəltəraşları da – adını çəkdiklərimin də, çəkmədiklərimin də əksəriyyəti, etiraf etmək və minnətdarlıq hissi ilə demək lazımdır ki, Rusiya heykəltəraşlarının təsiri altında yaradıcılıq yolu keçiblər, onların tələbələri olublar və onlardan aldıqları dərs və təcrübə nəticəsində formalaşıb böyük heykəltəraş olublar.

Ömər Eldarovun özü də keçmiş Sovetlər İttifaqında, Rusiyada, Moskvada heykəltəraşlar içərisində çox yüksək qiymətə layiq olan bir heykəltəraş idi. Ona görə də təsadüfi deyildir ki, Ömər Eldarov o vaxt Sovetlər İttifaqı Rəssamlar Akademiyasının həqiqi üzvü seçilmişdir, – indi bu, Rusiyanın akademiyasıdır. Məlumdur ki, həmin akademiyaya seçkilər çox ciddi aparılırdı. O vaxt Sovetlər İttifaqında olan çoxsaylı heykəltəraşlardan az-az sənətkar belə bir ada layiq görülürdü. Onlardan biri bizim azərbaycanlımız, soydaşımız Ömər Eldarovdur.

Onu demək istəyirəm ki, Moskvada heykəltəraşlar çox idi. Onların əksəriyyəti mənim yaxın tanışlarım, dostlarım idi. Mən vaxtilə Azərbaycanda da, Moskvada da işləyərkən onlarla yaxın təmasda olmuşdum. Şübhəsiz ki, Moskva heykəltəraşları tərəfindən bir neç təklif gəldi ki, onlar mənə kömək etmək, bu arzumu yerinə

yetirmək istəyirlər. Amma bunların hamısını nəzərdən keçirəndən sonra fikirləşdim ki, mənim istədiyim bu abidənin müəllifinin mütləq azərbaycanlı, öz vətənim olmasıdır. Həmvətənlərim içərisindən də Ömər Eldarovu seçdim. Onu Moskvaya dəvət etdim, o vaxt görüşdük, söhbət etdik. İlk söhbətlərimiz rəssam Tahir Salahovun iştirakı ilə gedirdi. Xatırlayıram, biz Kremldə də, mənim yaşadığım xüsusi villada da söhbət etdik. Beləliklə, birgə yaradıcılıq işinə başladıq.

Şübhəsiz ki, Ömər Eldarova öz arzularımı bildirdim. O isə bir usta, incəsənət xadimi, heykəltəraş kimi mənim arzularımı necə yerinə yetirəcəyi barədə düşünərdi, onu ölçərdi-biçərdi. Çünki həqiqi incəsənət əsəri yaratmaq çox çətin işdir. Hər bir adam həqiqi rəssamın yaratdığı rəsm əsərini yarada bilməz. Hər bir adam həqiqi bəstəkarın bəstələdiyi musiqini bəstələyə, yarada bilməz, onun müəllifi ola bilməz. Hər bir adam böyük şairin, yazıçının yazdığı əsərlər kimi yarada bilməz. Şübhəsiz ki, hər bir adam yüksək istedada malik musiqiçi ola bilməz. Eləcə də hər bir adam Ömər Eldarov kimi və başqa heykəltəraşlar kimi heykəltəraş ola bilməz. Bunun üçün xüsusi bir istedad, bilik, təcrübə, xüsusi daxili, fitri istedad lazımdır.

Ona görə də, ola bilər, hər birimiz, o cümlədən, mən də arzu edim, tövsiyəmi verim, ancaq həqiqi incəsənət ustası istənilən, arzu edilən o incəsənət əsərini yaratmaq üçün gərək bunu öz daxili aləmindən keçirsin, gərək bunu özü dərk etsin. Ona görə də Ömər Eldarov da çox düşündü və həqiqətən bir çox hazırlıq işləri gördü, eskizlər hazırladı. Bizim bir neçə görüşümüz oldu, nəhayət bunların nəticəsində Ömər Eldarov bu gün nümayiş etdirilən heykəlin eskizini hazırlayıb mənə təqdim etdi. Mən eskizi bəyəndim və xahiş etdim ki, bunu icra etməyə başlasın.

Görürsüz, bu adi əsər deyil. Bu əsərdə məni valeh edən,– bu sözü tam həqiqətlə deyirəm – sevindirən və məndə böyük hissiyyatlar doğuran odur ki, bu əsərdə böyük fəlsəfə, məna vardır. Ən birincisi odur ki, Zərifə xanımın daxili mənəviyyatını, onun simasını, daxili və zahiri simasını Ömər Eldarov əks etdirə bilibdir. Eyni zamanda o, gözəl bir heykəltəraş kimi heykəltəraşlıq sənətinin, məktəbinin, – nəinki Azərbaycan heykəltəraşlıq məktəbinin, dünya heykəltəraşlı məktəbinin elementlərini, yaxud onların müəyyən cəhətlərini bu əsərində həyata keçirə, tətbiq edə bilibdir.





Bu, heykəltəraşlıq əsəri kimi mürəkkəb əsərdir. Çünki burada heykəltəraşlar üçün, xüsusən daş, ağ mərmər üzərində işləyən heykəltəraşlar üçün çox çətinliklər vardır. Görürsünüz, bu heykəlin çox incə, nazik, zərif fraqmentləri vardır. Yenə də deyirəm, bunların hamısı bir tərəfdən bir heykəltəraş kimi Ömər Eldarovun əsərinin dəyərini nümayiş etdirir, amma eyni zamanda mənim üçün bu mücərrəd əsər deyil. Deyə bilərəm ki, Zərifə xanımın mərhum ata-anası da bəlkə onu mənim kimi tanımayıblar. Ona görə də mən Zərifə xanımın daxili mənəviyyatını tam bildiyim üçün görürəm ki, bu əsərdə bunların hamısı öz əksini nə qədər tapıbdır. Ona görə də bu əsər həm bədii, həm də fəlsəfi xarakter daşıyır və yüksək heykəltəraşlıq səviyyəsini nümayiş etdirir.

Şübhəsiz, mənim fikrim var idi ki, bu heykəli Moskvada Zərifə xanımın qəbrinin üstündə yerləşdirək. Ancaq əsər hazır oldu, indi keçən günləri xatırlayıram, – mənim üçün problem odu ki, bunu necə gətirim. O vaxt bunların hamısı mənim üçün böyük çətinlik yaradırdı. Sonra necə olsun, gələcək necə olacaq?

Bunların hamısı mənim qarşımda duran məsələlər idi. Ona görə də mən Ömər Eldarova bildirdim ki, təşəkkür edirəm, ancaq bu əsəri saxla, yəqin bir zaman gələcək. Dünya elə idi ki, bu gündən sabaha ümid yox idi. Mənim özüm də bu işi axıra çatdırmasam, övladlarımdan kimsə bu işi axıra çatdıra biləcək. Ömər Eldarov bu əsəri həqiqətən bu illər müddətində – bu gün burada dediyi kimi, səkkiz ildir öz emalatxanasında qorudu, saxladı.

Mən Bakıya gələndən sonra dəfələrlə emalatxanaya gedib saatlarla heykəlin qarşısında durub ona həmiş böyük heyranlıqla tamaşa etmişəm. Bilirsiniz ki, mənim heyranlığımın bir tərəfi Zərifə xanımın xatirəsi idisə, ikinci tərəfi isə, həqiqətən bu əsərin incəsənət, heykəltəraşlıq nöqteyi-nəzərindən yüksək keyfiyyətə malik olması idi. 1994-cü ildə Zərifə xanımın cənazəsini Moskvadan Bakıya gətirəndən sonra isə yeni bir mərhələ başlandı ki, bunu harada qoyaq? Ancaq Ömər Eldarov fikirləşdi, mənə məsləhət verdi, mən də onun məsləhətinə qulaq asdım ki, bu əsər həqiqətən elə bir əsərdir ki, ola bilər heykəltəraşlıq, incəsənət əsəri kimi onu muzeydə qoruyub saxlamaq lazım olsun. Mən də buna razılıq verdim. Bu, 1994-cü ildə olan söhbətdir. Qəbrin üzərinə həmin heykəl əsasında tuncdan hazırlanmış heykəl qoyuldu. Bu əsər isə yenə də Ömər

Eldarovun emalatxanasında qaldı. Nəhayət bu yaxın vaxtlarda mənə xəbər verdilər ki, Ömər Eldarov deyir, onu daha bu qədər saxlamaq olmaz, onu göstərmək, nümayiş etdirmək istəyirəm, çünki bu mənim əsərimdir.

Beləliklə də bu gün biz buraya toplaşmışıq. Bu heykəlin hazırlanması üçün Ömər Eldarov məndən xahiş etdi ki, yüksək keyfiyyətli ağ mərmər lazımdır. Azərbaycanda da bu yoxdur. O vaxt mənim Moskvada imkanım var idi. Bilirsiniz ki, bu mərmər bütövdür, bir hissədən ibarətdir, ayrı-ayrı hisələrdən ibarət deyil. Ömər Eldarov da bunu xahiş etmişdi.

Mən həyatımda iki dəfə belə hadisə ilə rastlaşmışam. Biz Cəfər Cabbarlının heykəlni yaradırdıq. Onun müəllifi, indi burada olan Mirqasımov məsələ qoydu ki, bu heykəli yaratmaq üçün gərək elə böyük qranit gətirəsiniz ki, bütöv olsun, heç bir parça olmasın. O vaxt mən burada işləyirdim. Gəlib mənə dedilər ki, mümkün deyildir. Mirələsgər Mirqasımov öz xanımı ilə – o da buradadır – mənim yanıma gəlib dedilər ki, əgər belə olmasa, biz bu heykəli qoymayacağıq. Şübhəsiz mən də istəyirdim ki, Cəfər Cabbarlının heykəlini yaradaq və yaratdıq, bilirsiniz, şəhəin gözəl bir guşəsində qoyduq. Çox gözəl bir heykəltəraşlıq əsəridir. Amma o vaxt mən tədbir gördüm və Ukraynada belə böyük bir qranit tapıldı. Siz onu görmüsünüz, rəngini də görmüsünüz.

Bu gün biz xatirə gecəsinə toplaşmışıq. Ona görə bəzi xatirələri yada salmaq lazımdır. Mənə dedilər ki, bu həcmdə qranit tapılıb, ancaq vaqona qoyub gətirmək mümkün deyildir. Çünki elə bir vaqon tapmaq mümkün deyil ki, bu ağırlığa dözsün. Yenə də Mirələsgər Mirqasımovun tələbələri mənim qarşımda durdu və mən də dedim ki, yox, nə edirsiniz-edin, vəzifə yerinə yetirilməlidir. Biz buna nail olduq. O heykəlin qoyulmasından neçə il keçir? 1980-cı ildə qoyulub? 1981-ci ildən 16 il keçir ki, biz o heykəli qoymuşuq. Hesab edirəm ki, Cəfər Cabbarlıya layiq olan heykəl Bakının gözəl guşələrindən birində yüz illər yaşayacaq və bizdən sonra gələn də birinci növbədə Mirələsgər Mirqasımova dua edəcəklər. Ola bilər duanın bir hissəsi də bizə çatsın.

Hər halda bilirsiniz, rəssam, heykəltəraş – incəsənət ustası öz istəyini yerinə yetirmək istəyəndə – əgər bu istək doğurdan da yeni bir əsərin yaranmasına kömək edəcəksə, bunu etmək





lazımdır. Dövlət adamlarının, dövlət işində olan insanların borcu odur ki, bunu etsinlər. O vaxt mən bunu etdim və həyatımda gördüyüm çoxsaylı işlərin dəyərlilərindən biri hesab edirəm. Cəfər Cabbarlı 1934-cü ildə vəfat etmişdir. Mən bunu bir dəfə demişəm, – Azərbaycan ədəbiyyatının, Azərbaycan milli şüurunun inkişafında onun nə qədəe böyük xidmətləri olubdur. Onun yaratdığı əsərlər neçə-neçə nəsilləri tərbiyə edib və yüksəldibdir. Bunu hamımız bilirik, amma onun abidəsini 1981-ci ildə biz qoyduq. Onun yaşadığı binada ev-muzeyini 1981-ci ildə yaratdıq. Mən bu işlərlə fəxr edirəm.

Bundan sonra ikinci dəfə idi mənə heykəltəraş müraciət etdi ki, gərək böyük həcmli ağ mərmər tapılsın. Bu dəfə mənim imkanlarım 1980-1981-ci illərdə olanlardan çox idi və ağ mərmərin tapılıb Bakıya göndərilməsini təmin etdim. Ancaq Ömər Eldarov da çox cəld hərəkət elədi. O qədər çox sifariş vermişdi ki, mən də hamısını icra etdim, onun xahişlərini yerinə yetirdim. Beş blok mərmər buraya gətirildi. Sonra bunu da biləndə çox məmnun oldum. Çünki mənim buraya göndərdiyim ağ mərmərlərin bir bloku Zərifə xanımın indi gördüyünüz heykəlinin yaranmasında istifadə olunubsa, o birilərində Ömər Eldarov bizim hamımız üçün, xüsusən mənim üçün əziz olan insanların – Fikrət Əmirovun, Niyazinin gözəl heykəllərini yaradıbdır. O birilərini bilmirəm harada istifadə eləmisən – özün bilərsən. Amma Niyazi ilə Fikrət Əmirovun heykəllərini mən bilirəm.

**Ömər Eldarov:**

-Müslüm Maqomayevin abidəsi.

**Heydər Əliyev:**

-Müslüm Maqomayevin heykəli tamamilə doğrudur. Vaxtilə bizdən qabaq Fəxri xiyabanda onun qəbrinin üstündə gipsdən heykəl qoymuşdular, yadınızdadırmı? O da uçub dağılırdı. Biz Müslüm Maqomayevin 100 illik yubileyini qeyd edəndə mən dedim ki, heykəli dəyişmək lazımdır və dəyişdik. Filarmoniyanın qarşısında da büstü qoyuldu. Çox gözəl büstdür.

Beləliklə, mən bu işlərimlə o vaxt Ömər Eldarovun da yeni-yeni əsərlər yaratmasına kömək etdim. Eyni zamanda onlardan biri də Zərifə xanımın heykəlinin yaranmasına sərf olunubdur.

Bu işlərin görülməsində çox adamlar iştirak ediblər, hamısına təşəkkür edirəm. Ancaq xüsusi xidmətləri Rəfael Allahverdiyev göstəribdir. O vaxt Ömər Eldarovla sıx əməkdaşlıq edibdir. Bilirsiniz ki, 1987-ci ildə mən böyük vəzifələrdən istefa verəndən sonra həyatımda qaranlıq bir dövr yarandı. O dövrdə Rəfael Allahverdiyevi də burada tutuduğu vəzifədən çıxartdılar. Ancaq Ömər Eldarovla o bu işə sadiq qaldılar, bütün təzyiqlərə, təqiblərə baxmayaraq bu işi birlikdə apardılar və heykəli 1989-cu ildə hazırladılar. Xatırlayın, o illər mənim həyatım üçün çox ağır illər idi. O mənada ağır ki, mənə qarşı ədalətsiz ittihamlar, böhtanlar, keçmiş fəaliyyətimi ləkələmək məqsədilə cürbəcür hərəkətlər xatirinizdədir. Amma o vaxt Ömər Eldarov da, Rəfael Allahverdiyev də mənəviyyata sadiq olduqlarını göstərdilər və o sınaqlardan keçdilər. Mən təkcə bu işi gördüklərinə görə yox, sədaqətlərinə görə onlara – Ömər Eldarova da, Rəfael Allahverdiyevə də təşəkkür edirəm. Sonra Ömər Eldarov bu heykəlin rəsmlərini gətirib mənə göstərdi. Həqiqətən mən ona məsləhət verdim ki, bir albom yaratsın. Məni düzgün başa düşün, ona görə yox ki, Zərifə xanımın heykəlidir. Ona görə ki, bu, həqiqətən çox dəyərli əsərdir, heykəltəraşlıq əsəridir. Bu heykəltəraşlıq əsərini bir fikirlə nümayiş etdirmək mümkün deyildir.

Ömər Eldarov bilir, mən keçmişdə memarlıq fakültəsində təhsil almışdım. O illərdə, gənc yaşlarımda mən ayrı-ayrı memarlıq əsərlərinin, həmçinin antik yunan heykəllərinin, yaxud da Romada, İtaliyada yaranmış heykəllərin fraqmentlərinin şəkillərini görmüşəm. O vaxt bizim müəllimlərimiz – vaxtilə mənim heykəltəraş, memar müəllimlərim də olub – bu albomlar əsasında bizə dərs verirdilər, bunlar hamısı mənim xatirimdədir. Ona görə də mən Ömər Eldarova dedim ki, belə təcrübələr var. Belə bir albom yarat, bu sənin əsərini tam nümayiş etdirəcəkdir. Ola bilər, əsərin bir-iki şəkli olsun. Amma indi hazırladığın albomda bu əsər çoxcəhətli, çoxtərəfli, çoxsahəli əks olunmuşdur. Çünki onun hər nöqtəsinin özünəməxsus heykəltəraşlıq xüsusiyyəti var. Ömər Eldarov bunu da edibdir, bu gün təqdim edir. Buna görə də mən çox məmnunam.





Mənim xatirimdən çıxdı, Ömər burada Nosovun adını çəkdi, o çox iş işləmişdir. Mən yaxşı bilirəm ki, Nosov çox iş görmüşdür, onu o vaxt Leninqraddan dəvət etmişdik. Ancaq Ömər özü çəkiclə çox işləmişdir. Heykəltəraş kimi Ömərin bir xüsusiyyəti də ondan ibarətdir ki, özü həm yaradır, həm də fəhləlik işlərini görür. O həm böyük heykəltəraşdır, həm də çox zəhmətkeş bir fəhlədir. Çox, həddindən artıq nadir bir insandır. Çünki bəzən böyük rəssamlar, heykəltəraşlar əsərin ümumi konsepsiyasını, kompozisiyasını verirlər, sonra onların köməkçiləri bu işi başa çatdırırlar. Amma bu adam bilavasitə özü işləyir. Bunların hamısını incəliklərinə qədər yonmaq nə qədər çətin işdir! Bu daşdır, mərmərdir, amma elə bil ki, parçadır. Mərmərə, daşa bu qədər incəlik vermək böyük məharətdir, böyük ustalıqdır. Mənəviyyatca pak, təmiz insanlar həmişə çox yüksək zirvələrə qalxıblar. Ömər Eldarov belə insanlardan biridir. Ona görə yox ki, sən bunu etmisən, bu mənim əziz adamımdır. Mən səni 20-30 ildir tanıyıram, o illərdə də sənin əsərlərin haqqında bu sözləri demişəm. İndi yaradıcılığının ən yüksək zirvəsinə çatanda bunu yaratmısan, amma o illərdə yaratdıqlarının hamsı barədə mən öz sözümü demişəm. Bu abidəyə gəldikdə isə Zərifə xanımın xarakterini başqa bir adam aça bilməzdi. Mən isə Ömər Eldarovu tanıyıram, – o sınaqdan çıxmış adamdır. Mənə başqa təkliflər də olmuşdu, onlarla görüşmüşdüm də, ancaq Ömərin yerini verməzdilər.

Ömər, sənə bir daha, xüsusən bu əsərinə görə təşəkkür edirəm. Səni təbrik edir, ümidvar olduğumu bildirmək istəyirəm ki, bundan sonra daha yeni, daha gözəl heykəllər, əsərlər yaradacaq, Azərbaycan mədəniyyətinə çox xidmətlər göstərəcəksən və Azərbaycanın monumental sənətinə öz töhfələrini verəcəksən. Sənin hələ böyük imkanların var. Təşəkkür edirəm. Səni təbrik edirəm.

Sizə də təşəkkür edirəm ki, Ömər Eldarovun dəvətini qəbul edib bugünkü görüşə gəlmisiniz. Güman edirəm ki, bu əsər şübhəsiz ki bir muzeydə olmalıdır. İncəsənət əsəri kimi muzeydə olmağa onun haqqı var. Sağ olun, təbrik edirəm.

## Hisslərin göynəyi...

*Durmuşam qarşında sənin...*
*Amma,*
*bilmirəm,*
*bilmirəm,*
*hardayam?!*
*Keçmişinin yazında,*
*ya*
*o yazdan başlayan məşhər,*
*məşəl ömür yollarının –*
*siyasətinin*
*DTKa dəyirmanı*
*üyüntülərinin hankı çeşidi,*
*çalarlarında,*
*rənglərindəyəm?!*
*Amma,*
*tək bir həqiqəti bilirəm:*
*O Azərbaycan...*
*o arzular...*
*o mücadilə yanqıları...*
*dağlarında,*
*aranlarında,*
*tufanları,*
*boranlarında,*
*yağışları,*
*günəşin istisi,*
*həm qızmarında,*
*rüzgarın həm sərinində*
*səninlə idim.*
*Və yenə də.*
*Sənsizlik sıxırdı canımı,*
*sən olan canımı...*
*səndən ayrı qalanda.*
*Yenə də.*
*Taleyin, qələmin*
*yazdığına bir bax?!*





*Önümdə yazdığını gördüm...*
*amma...*
*o biri üzdə yazdığlarını*
*görə bilmədim –*
*bilmədim,*
*bilmədim...*
*arxa tərəflərin məkrini*
*görə bilmədim.*
*Yenə də...*
*Mənimlə sonsuza...*
*son nəfəsə qədər,*
*nəfəs alaraq,*
*bir olacaqdın.*
*Niyə sözünü tutmadın?..*
*Sevginin nəfəsilə*
*sona qədər*
*məni yaşatmadın sən?!*
*Yenə də.*
*İndi*
*məzarının,*
*heykəlinin önündə*
*dayanmışam mən.*
*Elə soyuq baxırsan mənə...*
*Qürbətin soyuğu*
*soyudubmu səni?..*
*Nələr oldu...*
*nələr oldu,*
*bilmədim...*
*bilə-bilmədim.*
*Amma,*
*doğma Azərbaycanındasan...*
*yanımdasan.*
*Yenə də...*
*Sənsizlik*
*üzür məni,*
*yaman.*
*Fikirlərim,*
*düşüncələrim*
*tək xəzinəm olan xatirələrin.*
*Və,*

*və*
*sənin Yanar Qəlbinin*
*başı ucundan,*
*arxanda*
*yerim görünür.*
*Bir cənnət...*
*amma,*
        *sən qarşımda*
*mənim səcdəgahım...*
*Yenə də.*
*Ayaqların altına*
*Qızılgüllər tökülüb.*
*Rəngləri tək,*
        *qəlbləri qan içində.*
*Əllərim əllərinə*
*toxunduqca,*
*üzülüb*
*ayaqlarına döşənir.*
*Həsrətində köz olan,*
*büsbütün ruhumu titrədir,*
*sızladır,*
*yandırır cismimi,*
        *qəlbimi.*
        *Yenə də.*
*Və durmuşam*
*qarşında ki,*
*isidim səni,*
*tutum əlindən*
*özümlə aparım səni...*
        *Yenə də.*
*Yenə də...*
*Sevilinin,*
*İlhamının qayğısına qal.*
*Sənin Ana sevginlə,*
        *nağıl yaşasınlar.*
*Bəyaz işıqlı nağıl!*
*Həm əzizlərin.*
*Gəl,*
*milyonları qaranlıqlardan*
*qurtaran İşıq,*
            *gəl,*
*bizləri də*
*həsrətinin zülmətindən*
*xilas et.*
*Səninlə sevinək...*
                ***Yenə də!***

# Səninlə...
# yenə də.





**ELƏ BİL...**

*Qızılgüldü,*
*Zərifə Ana.*
*O möcüzədən yaranıb*
*O qədər əfsun rəngi ki...*
*Məsum baxışları...*
*gözləri aydın səma...*
*bəmbəyaz nurlu.*
*Bu qeyri-adi sehr,*
*sir qəlbinə tökülüb,*
*bir alov çatmış,*
*yanqısı,*
*cümlə-aləmin.*
*Zaman-zaman*
*şəfəq saçdıqca,*
*ona son ümidi,*
*gümanı olanları*
*çəkib çıxarmış,*
*zülmətin zəncirlərindən.*
*Qızılgül simalı,*
*mehriban,*
*qayğıkeş*
*Zərifə Ana,*
*ağ həkim xalatından yox,*
*ağ həkim xalatı,*
*onun*
*Yanar Qəlbindən*
*ağ nura boyanmış.*
*Ruhumun,*
*cismimin,*
*səni sevən və*
*həsrətində ağrıyan,*
*bu yazar qəlbimin*
*göynəyən qələmi*
*məlhəmi Ana...*
*Sənin*
*Müqəddəs Kəbənə*
*əllərimi açaraq,*
*dualar edib,*
*Tanrıdan*
*rəhmət dilərəm.*
*Bu səcdəmi,*
*hər zaman...*
***hər zaman edərəm...***
***ANA!***

**ARBS.**



**Tənha qalanda...**

*Mənim taleyim...*
*hər zaman,*
*hər an*
*bu yaşananlar...*
*TARİXDİR!*
*Və*
*bu səhifələrin*
*hər sətirində,*
*möhürün*
*mürəkkəbində*
*SƏNdən uzaq oluram*
*elə bil.*
*Amma,*
*tənha qalanda...*
*tarix də,*
*sətirləri də unuduram,*
*tək*
*SƏNin həsrətində oluram.*
*Xəyalın önündə*
*yerə çöküb də,*
*SƏN...in ruhuna*
*baş qoyuram mən.*
*Yoxluğun kədəri üşüdür,*
*üzür də məni,*
*tənha qalanda.*
*SƏN...siz günlərin*
*gecələri,*
*səhərləri heç dinmir.*
*Bir xəfif də olsa...*
*səsini,*
*nəfəsini,*
*mənə toxunuşunu gəzirəm*
*mən...*
*tənha qalanda.*
*Dönüb uşaq oluram,*
*tənha qalanda...*
**SƏNSİZ... ANACAN!**
***çarəsiz...***
***Anacan.***



# 1923...
## Bu sənənin yaz nəfəsində...





*...Bu sənənin yaz nəfəsində...*
*4-cü ayının*
*28-i günündə doğulmuşdu...*
*gözlərini açmışdı,*
*zülməti çox,*
*işığı az dünyaya...*
*Zərifə Ana.*
*Qəribə və*
*çox da ağrılı bu*
*ömrünün sonu...*
*Yazın eyni çağında,*
*8 günü gerisi...*
*artıq Şərqi,*
*Qərbi də tutan*
*o möhtəşəm İşıq*
*əbədi sönmüş.*
*Amma...*
*Onun hər yerdə,*
*məşəl tək yaratdığı,*
*yandırdığı işıqları var...*
*heç bir zaman sönməyən.*
*Xəyalının*
*işıq varlığından,*
*gül nəfəsindən,*
*məlhəmim səsindən*
*ruhuma,*
*gözlərimə,*
*nəfəsimə,*
*səsimə*
*can verən Ana...*
*Bir isti,*
*bir yumşaq rüzgar kimi,*
*dolanım başına...*
*Çarəsiz Sənsizliyim*
*buludlar kimi*
*yaman dolubdur.*

*Yanar Qəlbim...*
*o dolan buludlar*
*gözlərimdən axar,*
*axar,*
*göz yaşlarım*
*o İşıq Xəyalına süzülər...*
*oxşar...*
*oxşar,*
*sonra*
*yenə susar...*
*çarəsiz qalar.*
*İçində fəryad edər,*
*fiqanları cümləyi-*
*cahanı yaxar.*
***Dəli-divanə,***
***köz-yara sənsiz...***
***Sənsiz...***
***sənsiz həsrətim...***
***Sənsiz Çarəsiz.***

**R.Bahar Sonam. Yanar Qəlb.**



**R.BAHAR SONAM**
**Azərbaycan və Heydər Əliyevin tarixi kitablarının müəllifi –**
**hərbi jurnalist, hərbi yazıçı**
**ARBS Fateh**
**Tarixi Araşdırmalar jurnalının**
**təsisçisi və baş redaktoru**
**Tarixi Araşdırmalar QHT rəhbəri**



R.Bahar Sonam

# YANAR QƏLB...

***De...***
***hansı bir təbibə***
***əl açım ki mən...***
***ruhu yaşarkən***
***cismini qaytara bilsin...***
***təbib olduğunu***
***göstərə bilsin?!***
***De!***

***Həyat bu qədər qısaymı...***
***ki,***
***ruh cismində***
***zülməti nurlandırırkən,***
***amma cisimsiz ruh***
***zülməti bərqərar edir.***
***Kim deyə bilir ki,***
***cisimsiz ruh sonsuz İşıqdır?..***
***Var, bu fəlsəfənin bir həqiqəti?..***
***Xeyir!***
***Cisimlə ruh varlıqdır...***
***İşığın Varlığı.***
***İşıq...***
***hər gözəl mənada***
***nəfəsdir,***
***səsdir,***
***anlamdır,***
***dildir,***
***vəsildir.***
***Bu CAN...***
***ilk doğulan körpənin səsi -***
***həyatın səsi...***
***başlanğıcı.***
***zülmətdən doğulan İŞIQ...***
***Bu həyatı verdin insana, ANACAN!***



# İstifadə olunmuş ədəbiyyat:

**1. Zərifə xanım Əliyeva.**
**Bakı – 1998**
***Layihənin müəllifi və rəhbəri:***
**Fatma Abdullazadə**

**2. Akademik Zərifə xanım Əliyeva və Milli Oftalmologiya**
**Bakı – 2009.**
**Kərim Kərimov** – *tibb elmləri doktoru, professor,*
*Türk Dünyası Araşdırmaları Dövlətlərarası*
*Elmlər Akademiyasının akademiki*

**Azərbaycanın görkəmli alimi, akademik Zərifə Əziz qızı Əliyevanın həyatına həsr olunmuş "Yanar Qəlb" kitabı Azərbaycan Respublikasının Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurasının maliyyə dəstəyi ilə hazırlanmışdır.**

**«Elm və təhsil» nəşriyyatının direktoru:**
**professor Nadir MƏMMƏDLİ**

**Dizayn: Zahid Məmmədov**
**Texniki redaktor: Tünzalə Tağıyeva**

**Çapa imzalanmış 02.05.2017.**
**Şərti çap vərəqi 32. Sifariş № 365.**
**Kağız formatı 60x84 1/8. Tiraj 1000.**

Kitab «Elm və təhsil» nəşriyyat-poliqrafiya müəssisəsində
hazır diapozitivlərdən çap olunmuşdur.
E-mail: nurlan1959@gmail.com
Tel: 497-16-32; 050-311-41-89
Ünvan: Bakı, İçərişəhər, 3-cü Maqomayev döngəsi 8/4.

## SƏNİNLƏ...
## YENƏ DƏ!












